

**Talıb PAŞAYEV**

# DİYARŞÜNASLIQ MATERİALLARI

## GƏNC NƏSLİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN MÜHÜM VASİTƏSİ KİMİ

Ir 2010/1494

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL PROBLEMLƏRİ İNSTİTUTU

TALIB PAŞAYEV

# DİYARŞÜNASLIQ MATERİALLARI

## GƏNC NƏSLİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN MÜHÜM VASİTƏSİ KİMİ

88841/3

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Bakı – MÜTƏRCİM – 2010

89834

*Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi Şurasının 12 mart 2010-cu il tarixli iclasında (protokol №01) müzakirə olunmuş və nəşri məsləhət görülmüşdür.*

*Elmi redaktorlar:* Əjdər Ağayev, *pedaqoji elmlər doktoru, professor*

İntiqam Cəbrayılov, *pedaqoji elmlər doktoru*

*Rəyçilər:* Oqtay Sultanov, *tarix elmləri doktoru, professor*

Ləzifə Qasımova, *pedaqoji elmlər doktoru, professor*

Rahim Sadıqov, *iqtisadi elmlər üzrə fəlsəfə doktoru*

Talıb Surxay oğlu Paşayev.
Diyarşünaslıq materialları gənc nəslin vətənpərvərlik tərbiyəsinin mühüm vasitəsi kimi. *Monoqrafiya.* – Bakı: Mütərcim, 2010. – 300 səh.

*Monoqrafiyada Azərbaycanın dövlət müstəqilliyinin yaranması, bərpası, dövlət atributlarının yaranması möhkəmlənməsi və demokratik seçki sistemi və s. sahəsi üzrə görülən işlərdən bəhs edilir. Əsər metodik xarakter daşıyır və burada verilən materiallardan elmi işçi, magistrlər və digər mütəxəssislər də istifadə edə bilərlər.*

P $\frac{4309000000}{026}$ 45-10

© T.Paşayev, 2010



# ÖN SÖZ

Əsərinə ön söz yazdığımız Talıb Surxay oğlu Paşayevin 70-dən artıq məqalə, elmi-metodik göstəriş, tədris vəsaiti, o cümlədən «Tarixin tədrisi: tarixilik və müasirlik» (280 s.), «Azərbaycan tarixinin tədrisində iqtisadi biliklərin verilməsi yolları» (248 s.) adlı monoqrafiyaları hazırlamış və çap etdirmişdir.

Pedaqoji ictimaiyyətə təqdim edilən "Diyarşünaslıq materialları gənc nəslin vətənpərvərlik tərbiyəsinin mühüm vasitəsi kimi" adlı monoqrafiya Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun aparıcı elmi işçisi, pedaqoji elmlər üzrə fəlsəfə doktoru, dosent Paşayev Talıb Surxay oğlunun bu əsəri aktual bir məsələyə həsr olunmuşdur. Azərbaycanın müstəqilliyinin bərpası və inkişafı ilə bağlı görülən işlər, vətənpərvərlik tərbiyəsində mühüm rol oynayan diyarşünaslıq materialları əsas götürülmüşdür.

Monoqrafiyanın mövzu dairəsi genişdir və müəllif maraqlı sahələri, xüsusən də müstəqil dövlət atributlarını, demokratiyaya dair sahələri geniş işıqlandırmışdır. Əsərdə istifadə olunmuş materiallarda əsasən mövcud ədəbiyyata, dövlət sənədlərinə, dövlət rəhbərinin çıxışlarına istinad edilmişdir.

Əsərdə müstəqil dövlətçiliyin yaranmasında xalq kütləsinin, ayrı-ayrı şəxsiyyətlərin rolu geniş işıqlandırılmış, müstəqil dövlətin yaranması üçün şəraitin meydana gəlməsi işıqlandırılmışdır.

Təcrübə göstərir ki, gənclərə vətənpərvərlik hissinin aşılanmasında dövlətin iqtisadi, sosial-mədəni inkişafı ilə bağlı qeyd olunan faktlar böyük əhəmiyyət daşıyır. Bu, bir həqiqətdir ki, bugünkü sosial-iqtisadi, mədəni yüksəliş, o cümlədən təhsil, səhiyyə və s. sahədə qazanılmış uğurlar müstəqilliyimizin nəticəsidir.

Monoqrafiyada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçiliyin yaranmasında və möhkəmlənməsində fəaliyyəti ətraflı işıqlandırılmış, respublika Prezidenti cə-

nab İlham Əliyevin müstəqilliyin möhkəmlənməsi üçün həyata keçirdiyi islahatlara geniş yer verilmişdir.

Monoqrafiyanın müsbət məziyyətlərindən biri də budur ki, əsərdəki materiallar müəllim, magistr, tələbə və şagird, eyni zamanda geniş oxucu kütləsi üçün dəyərlidir. Bu tədris vəsaiti müəllimlər üçün həm də ona görə əhəmiyyətlədir ki, onların fəaliyyətlərinin qiymətləndirilməsi komponentlərinin bir sahəsinə – elmi dünyagörüşlərinin yüksəlməsinə xidmət edir.

Aydın bir məsələdir ki, Azərbaycanın müstəqilliyinin əldə olunması və bərpasına dair çox əhəmiyyətli tarixi mənbələr vardır. Bu materialların gənc nəslə öyrədilməsi əsas məsələdir. Bunu nəzərə alaraq Azərbaycan tarixi, Ədəbiyyat, Diyarşünaslıq, Azərbaycan Konstitusiyasının əsasları fənlərinin tədrisində dövlət müstəqilliyi məsələlərinə xüsusi önəm verilir.

T.S.Paşayevin hazırladığı monoqrafiya bu baxımdan əhəmiyyətlidir. İnanırıq ki, əsər geniş pedaqoji ictimaiyyət tərəfindən müsbət qarşılanacaq, gənc müəllimlər, tədqiqatçılar, magistrlər, tələbə və şagirdlər üçün faydalı olacaqdır.

*filologiya elmləri doktoru, professor*
**Telman Cəfərov (Vəlixanlı)**



# GİRİŞ

«Diyarşünaslıq materialları gənc nəslin vətənpərvərlik tərbiyəsinin mühüm vasitəsi kimi» adlı monoqrafiya Azərbaycan dövlət müstəqilliyinin yaranması və bərpası dövrünə dair materiallar əsasında hazırlanmış və gənc nəslin vətənpərvərlik tərbiyəsinin inkişaf etdirilməsinə xidmət üçün nəzərdə tutulmuşdur. Əsasən elmi-metodik tövsiyə xarakteri daşıyır.

Müasir Azərbaycanın sosial-iqtisadi və siyasi inkişafı, demokratik islahatların həyata keçirilməsi onun müstəqil dövlət kimi olması ilə bağlıdır. Burada iqtisadi inkişaf, özəlləşmə, müstəqil siyasət yeritmək, təhsil, səhiyyə, ordu quruculuğu, gömrük işi, sərhədlərin qorunması, ümumiyyətlə, dövlət qurumlarının yaranması, dövlət rəmzlərinin, Konstitusiyasının təşkili və demokratik seçki sisteminin yaradılması, əhalinin hüquqlarının qorunması və onların vəziyyətinin yaxşılaşdırılması, idmanın inkişaf etdirilməsi, sənayenin, kənd təsərrüfatının yüksəldilməsi, neft strategiyası və onlarca görülmüş müsbət işlər Azərbaycanın dövlət müstəqilliyinin nəticəsidir.

İndi artıq biz öz dövlətimizlə, onun Konstitusiyası, dövlət rəhbərilə, üç rəngli dövlət bayrağımızla fəxr edir, qürur hissi keçiririk. Respublika prezidenti dövlət səfərlərində, idmançılarımız yarış meydanında olarkən müstəqil Azərbaycanın milli bayrağı qaldırılır.

Təqdim olunan bu əsər müstəqilliyimizin tarixi diyarşünaslığını özündə əks etdirir. Tarix, ədəbiyyat, coğrafiya, regionşünaslıq, diyarşünaslıq, musiqi, iqtisadiyyat, etnoqrafiya və digər fənlərin tədrisi prosesində və eləcə də sinifdənxaric-məktəbdənkənar (auditoriyadankənar) tədbirlər üçün əhəmiyyətlidir.

Buradakı mövzular qısaldılmış şəkildə verilir və müəllimə, tələbəyə, oxucuya istiqamət məqsədi daşıyır. Materiallar mövcud ədəbiyyata, rəsmi dövlət sənədlərinə, dövlət rəhbərinin nitqinə və «Azərbaycan», «Xalq qəzeti», «Respublika» və d. Qəzetlərin rəsmi məqalələrinə istifadə edilmişdir.

Ümumtəhsil, orta ixtisas və ali təhsil müəssisələrində təlim-tərbiyə alan gənclər dövlətimizin müstəqilliyi və onun bərpası ilə bağlı biliklərlə silahlanmalı, müstəqillik mücahidləri haqqında onlarda vətənə, şəxsiyyətlərə hörmət və məhəbbət hissi aşılanmalı, gənc nəsldə mənəvi qürur formalaşdırılmalıdır.

Aldıqları biliklər gəncləri arxayın etməməli, onlar daim öyrənməli, öyrəndiklərindən doğru və düzgün nəticə çıxarmaqla həyata keçirməlidirlər.

Gənclərin dünyagörüşünün inkişafında və formalaşmasında onların anadan olduğu diyarın tarixinin öyrənilməsindən başlayaraq Azərbaycanın bütün diyarının tarixinin, onun şəxsiyyətlərinin ictimai fəallığını, maddi-mənəvi sərvətlərinin öyrənilməsi böyük əhəmiyyətə malikdir.

Bu baxımdan tarix-diyarşünaslıq materialları böyük rol oynayır.

Pedaqoji kollektivə təqdim edilən «Diyarşünaslıq materialları gənc nəslin vətənpərvərlik tərbiyəsinin mühüm vasitəsi kimi» adlı monoqrafiya bu baxımdan əhəmiyyət kəsb edir. Ölkəmizin müstəqil olması vətənpərvərlikdən irəli gəlmişdir.

Vətənpərvərlik tərbiyəsinin əhəmiyyətini, qiymətini dəyərləndirən ümummilli liderimiz cənab Heydər Əliyev gənclərin I respublika forumunda gənclərə, ümumilikdə hər bir tərbiyəçiyə, müəllimə, məktəbliyə müraciətində demişdir: «...Gələcəyimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli mənəvi dəyərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil, vətəninə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik» (10).

Vətənpərvərlik aktual məsələdir. Hazırkı vəziyyətdə müstəqil dövlətimizin demokratik əsaslarla inkişafı ilə Azərbaycanın qədim ənənələrini, milli mentalitetini qoruyub saxlamaq, yaxşılarını inkişaf etdirməklə yenilərini yaratmaq, ikinci isə vətən torpağını düşmənlərindən qorumaq, yeniyetmələri, gəncləri vətəni sevmək ruhunda tərbiyə etməkdir.



Monoqrafiyada Azərbaycanda dövlət müstəqilliyinin yaranması və yenidən bərpası ilə bağlı görülmüş işlər, bu sahədə fəaliyyət göstərən şəxslər, xüsusilə də ulu öndər Heydər Əliyevin titanik fəaliyyəti və xalq kütləsinin ictimai fəallığı və qarşıya çıxmış daxili və xarici problemlər, müstəqil dövlətin atributları, dövlət strukturları (idarə və təşkilatları), dövlətin özəlləşmə siyasəti, demokratiyanın genişləndirilməsi dövlət islahatları, Azərbaycanın Ermənistan dövləti tərəfindən işğalı və düşmənin soyqırım siyasəti öz əksini tapmışdır. Eyni zamanda dövlət müstəqilliyi dövründə siyasi-iqtisadi sabitlik, aparılan tarazlaşdırılmış siyasətdən və bunun nəticəsində respublikada iqtisadi yüksəlişdən, respublikanın prezidenti cənab İlham Əliyevin müvəffəqiyyətli fəaliyyətindən və s. danışılır.

Monoqrafiya Azərbaycanın müstəqil dövlətinin yaranması sahəsi üzrə gənc nəslin vətənpərvərlik hissi tərbiyəsi üzrə əhəmiyyətlidir. Həm də ona görə əhəmiyyətli hesab edirik ki, bu, müəllim fəaliyyətinin qiymətləndirilməsinin kriteriyalarından biridir. Güman edirik ki, bu vəsait pedaqoji ictimaiyyətin rəğbətini qazanacaqdır.

Bununla belə müstəqilliyin verdiyi bəzi sahələr göstərilməsə də, bu, materialın sıxlığı ilə bağlıdır. Əsərdə müəyyən qüsurların olduğunu da istisna etmirik. Bunu nəzərə almağı və dəyərli təkliflər verilməsini istərdik. Gələcək nəşrdə buraxılan qüsurları, təklifləri nəzərə alacağıq. Diqqətinizə görə sağ olun.

# I FƏSİL

# DİYARŞÜNASLIQ VƏ VƏTƏNPƏRVƏRLİK

## 1.1. Tarix-diyarşünaslıq işi və öyrənilməsi

Diyarşünaslıq bir diyarın (geniş mənada ölkənin) təbii coğrafi şəraitini; tarixi və mədəniyyətinin (qədim dövrdən müasir dövrə qədər olan tarixini, dövlət quruluşunu, dövlətin iqtisadi-siyasi sahələri, qəhrəmanlıq tarixi, şəxsiyyət, incəsənət, musiqi, ədəbiyyat, elmi-texnika, memarlıq və s.) onun sosial-iqtisadi, siyasi, etnoqrafiya, adət və ənənələrinin öyrənilməsidir.

Ayrı-ayrı fənlərin öyrənilməsində (tədrisində), müxtəlif məzmunlu elmi işlərin aparılmasında diyarşünaslıq materialları əsas yer tutur.

Diyarşünaslığın öyrədilməsi ölkənin bir guşəsinin öyrədilməsindən başlanır. Yəni məktəbli ilk qədəm qoyduğu məktəbin, ölkənin kiçik bir diyarının təbii-coğrafi şəraitini, oranın tarixi şəxsiyyətləri, əməkdə fərqlənən adamları, ədəbiyyat və mədəniyyət adamları haqqında ilkin məlumatlar alırlar.

Sinifdən-sinfə keçdikcə şagirdlər ayrı-ayrı fənlərin imkanları hesabına dünya görüşləri artdıqca dünənki diyarçılar ölkənin tarixi, mədəniyyəti, sosial-iqtisadi, etnoqrafiyası, adət-ənənələri və siyasəti haqqında mükəmməl bilik əldə etmiş olur.

Diyarşünaslıq təşkilinə görə üç yerə bölünür: 1. Dövlət; 2. İctimai; 3. Məktəb.

Məktəb diyarşünaslığı da öz növbəsində bir neçə istiqamətə bölünür. Tarix diyarşünaslıq (məktəb, tarix diyarşünaslığı olmaqla) da bir sıra sahələr üzrə öyrədilir. Məsələn, təbiət, coğrafiya, tarix, iqtisadiyyat, kimya, biologiya və s.



Tarixi mübarizə, demokratik dövlət quruculuğu və onun atributları, şəxsiyyət, etnoqrafiya, arxeologiya, memarlıq, incəsənət, energetika, texnika, neft-qaz, sənaye, kənd təsərrüfatı, nəqliyyat, ticarət və s.

Bu iki istiqamətdə həyata keçirilir.

1) tədris prosesində mövzuların öyrədilməsi zamanı.

2) sinifdənxaric və məktəbdənkənar (auditoriyadankənar) tədbirlərin icrası zamanı.

(Məsələn, məktəb klublarının, fənn dərnəklərinin, fənn gecələrinin, tarixi şəxsiyyətlərin və əmək adamlarının, müharibə qəhrəmanların fəaliyyətinə həsr edilmiş gecə və görüşlərin, diyar və müzeylərə ekskursiya zamanı və s.)

Yeri gəlmişkən göstərək ki, diyarşünaslıq, ölkəşünaslıq oxşar və paralel sahədir. Hazırda bu, regionşünaslıq da adlandırılır. Diyarşünaslıq bir bölgənin, diyarın tarixinin öyrənilməsi nəzərdə tutulur. Ümumilikdə, bu materiallar əsasında biliklərin verilməsi, sözsüz ki, müsbət işdir.

Şagirdlərə xalqımızın keçmişinin öyrədilməsində maddi və yazılı abidələrin rolu böyükdür. Göstərək ki, Azərbaycan dövlət müstəqilliyinin öyrədilməsində çağdaş dövrün çoxlu yazılı ədəbiyyatı vardır.

Diyarşünaslıq materiallarının öyrədilməsi məktəblilərin vətənpərvərlik, milli qürur hissi yaradır.

Hazırda dövlət rəhbərinin məruzə və çıxışlarında və digər rəsmi mətbuatda gedən yazılarda regionlar fikrinə rast gəlirik. Bu, özünə haqq qazandırmışdır.

Xalqımızın tarixindən gətirilən nümunələr, bunların öyrədilməsi şagirdləri əməyə dərin hörmət ruhunda tərbiyə edilməsinə və onların ictimai həyatda fəal iştirak etməyə hazırlanmasına kömək edir.

Diyarşünaslıq ictimai faydalı iş olmaqla bərabər həm də tədqiqatçılıq xarakteri daşıyır. Bu, nəinki şagirdlərlə aparılan təlim – tərbiyə işinin keyfiyyətini yüksəldir, eyni zamanda müəllimlərin ideya-siyasi və elmi nəzəri səviyyəsini də artırır.

Diyarşünaslıq işi, şagirdləri mehriban uşaq kollektivində toplayır, məktəbdə intizamı möhkəmləndirir, mənəvi tərbiyənin aşılanmasına kömək edir və şagirdlərə tədqiqatçılıq vərdişi aşılayır.

Məktəb təcrübəsi göstərir ki, diyarşünaslıq işi şagirdlərin hərtərəfli inkişafına təsir edir, dərsdə aldığı biliyi dərindən, şüurlu və möhkəm mənimsəməyə kömək edir. Müstəqilliyi və yaradıcılıq bacarığını artırır.

Diyarşünaslıq materiallarından istifadə edərkən müəllim, şagirdlərin yaş xüsusiyyətlərini və anlama səviyyəsini nəzərə almalıdır.

Bu didaktik prinsipi nəzərə alaraq keçilən mövzulara uyğun qısa bir epizod danışaraq mövzuya diqqəti cəlb etmək və yeni mövzu ilə əlaqə yaradılmalıdır.

Tarixi öyrənərkən yerlərdə qazıntı zamanı tapılan əşyaların (tarixi maddi abidələrin) şagirdlərə göstərilməsi və yeri gələrkən bu qazıntı yerlərinə ekskursiyaya aparmaq, daş alətləri uşaqlara əyani göstərmək lazım gəlir. Uşaqlar tərəfindən maddi abidə nümunələri toplanaraq məktəbdə guşə və ya muzey yaratmaq çox tərbiyəvi əhəmiyyət daşıyır.

Ekskursiya şagirdlərin yadında uzun müddət qalır. Yerli tapıntı, maddi abidələr ümumi tarixi məlumatı zənginləşdirir. Məktəblilərdə maddi abidələrin əhəmiyyəti haqqında aydın təsəvvür yaradır.

Müəllim ayrı-ayrı mövzuların tədrisi prosesində yerli maddi abidələrdən və çağdaş dövrün abidələrindən əyani vəsait kimi istifadə etməlidir. Bu da, uşaqlarda qürur hissi oyadır və uşaqları tarixi keçmişimiz haqqında düşündürür.

Müstəqil Azərbaycan dövlətin yaranması və bərpası barədə yazılı ədəbiyyatdan və müasirlərin verdiyi bilgidən istifadə edilməlidir. Şəxsiyyətləri özündə əks etdirən guşələr yaradılmalıdır.



## 1.2. Diyarşünaslıq tarixinə bir baxış

Diyarşünaslıq fikri ümumi şəkildə XIX əsrin əvvəllərində Pestalotsi Alyak tərəfindən irəli sürülmüş, XIX əsrin II yarısında isə rus pedaqoqu K.D. Uşinski pedaqoji fikir tarixində birinci olaraq nəzəri cəhətdən işləmişdir. Azərbaycanın tarixində bu sahə daha qədimdir. Arxoloji qazıntılar, yazıçı ədəbiyyat bunu sübut edir. Lakin pedaqoji ədəbiyyata daxil edilməmişdir.

Uşinski ibtidai məktəbdə ölkəşünaslıq materiallarına əyanilik vasitəsi, təhsilin uşaqları əhatə edən mühitlə və doğma yerin keçmiş tarixi 1880 – ci ildə başlayaraq Qafqaz təlim dairəsi «Qafqaz mahallarının və tayfalarının təsviri üçün materiallar məcmuəsi nəşr etməyə başlamışdır. 46 ciliddən ibarət olan bu məcmuə 1880- 1929– cu illər arasında nəşr olunmuşdur.

Bu məcmuələrdə Qafqaz xalqlarının tarixi, dili, mədəniyyəti, ölkənin təbiəti, təsərrüfatı və s. aid elmi cəhətdən qiymətli materiallar toplanmışdır (Bu əsərin indi də əhəmiyəti böyükdur).

Tarixçi alim məhrum Novruz Paşayev arxiv sənədləri əsasında göstərmişdir ki, 1880 – ci il martın 14- də 1345 saylı sərəncam əsasında Qafqazda dərs deyən müəllimlərə bildirilirdi ki, hər bir müəllim dərs dediyi diyarı mümkün qədər öyrənməli və yazmalıdır, hətta planda verilmişdir. Məsələn, 1) şəhərin, aulun, kəndin adı, mənşəyi, təsvir edilən yerin, tarixi. 2) Yerin xarakteri, böyüklüyü, xarici görünüşü, evlərin və məbədlərin arxitekturası, 3) yerin coğrafi vəziyyəti: 4) iqlim: 5) yerin geoloji tərkibi: 6) bitki aləmi : 7) heyvanat aləmi: 8) təsviriedilən yerin əhalisi (cinslərə görə, milliyəti, din və sənət üzrə) 9) fiziki və mənəvi inkişaf ( dil, yazı, din və s.) 10) əhalinin həyat tərzi; 11) tərbiyə; 12) inzibati idarə (bax. Сборник материалов для описании местностеи и премен Кавказа, выпуск XXУП. Тифлис 1900 г. приложение. с. 1-24).

Beləliklə, rusların «Qafqazın müxtəlif yerləri və orada yaşayan tayfalar haqqında məlumat toplamaq proqramı» və «Doğma yeri təsvir etmək planı»na əsasən arxeloji cəhətlərə,

abidələrin, plan və şəkillərini, qədim sikkələrin, silahların, kənd təsərrüfatı alətlərinin, musiqi alətlərinin, şəkillərin, mahnıların, nağılların, əfsanələrin, zərb – məsəllərin toplanılıb mərkəzə göndərilməsi tapşırılmışdı.

Yuxarıda göstərilən əsərlərdə Azərbaycanın 40-a qədər kənd və şəhəri haqqında da məlumat verilmişdir.

Məsələn: Naxçıvanın qəzasının Nehrəmli kənd məktəbinin müəllimi Kərim İsmayılov Qafqaz təlim dairəsinin (məktəb nəzərdə tutulur) təlimatına əsasən işlədiyi məktəbin yerləşdiyi sahə və sərhəddi, kəndin adını, xarici görünüşü, tikintiləri, təbiəti, əhalisinin sayı sakinlərin məşğulliyyəti, dini adəti və bayramları haqqında məlumat vermişdir. Belə misalları Göyçay, Salyan, Bakı quberniyasının Göyçay qəzasının Lahıc: Yelizavetpol (Gəncə) quberniyası Cavanşir qəzasının Bərdə kəndi haqqında məlumatlar verilmişdir (Bax. Сборник... Кафгаза. Вып. XXУ П отдел. 1898. с. 50-110).

Verilən məlumatlarda Qafqazda sinfi mübarizə, əhalinin iqtisadi vəziyyətinin təsvirinə yer verilməmişdi.

Ölkəşünaslıq işi üçün diyarlardan materiallar toplanmışdır. Bu da bizim bu günkü ölkəşünaslıq üçün bir mənbədir.

Diyarşünaslıq işini tarixi cəhətdən beş dövrə bölmək olar.

1. Qədim dövr, 2. Çar Rusiyası və İran hakimiyyəti dövrləri, 3. Birinci Azərbaycan respublikası (ACM) dövrü, 4. Azərbaycanın Rusiyada Sovet dövrü. 5. Azərbaycan müstəqil respublikasının (Üçüncü Azərbaycan respublikası) bərpasından sonra olan tarix-diyarşünaslıq dövrü.

Bu dövlər quruluşuna görə müxtəlif olsa da hər biri özüözlüyündə tarix-ölkəşünaslıq sahəsi üzrə müəyyən müsbət işlər görmüşdür. Zaman baxımından müstəqilliyini 90-cı ildən bərpa etmiş Azərbaycan republikasının tarix-ölkəşünaslıq işi gəncdir. Lakin bu dövrdə əhəmiyyətli iş aparılır. Respublikada demokratik hərəkat genişlənmiş, ölkənin tarixinin doğru-düzgün yazılma imkanı əldə edilmişdir.

2000-ci ildən ulu öndər Heydər Əliyevin göstərişi ilə Azərbaycanın XIX və XX əsrlər tarixinin yenidən yazılmışdır.



Uzun illər sirli qalan arxiv sənədləri üzə çıxır. Bununla yanaşı müstəqillik şəraitində Azərbaycanın elmi, mədəniyyəti, incəsənəti texnikanın bu və digər sahələri inkişaf edir. Təhsil sistemində islahatlar keçirilir. Yeni-yeni məktəblər açılır (özəl məktəblər, gimnaziya, lisey, kollec və s), müstəqil dövlətin diplomatiyası inkişaf edir. İqtisadi sahədə islahatlar keçirilir, özəlləşmə proqramı həyata keçirilir. Əsrin müqaviləsi olan Neft Kontraktları bağlanılır. Dövlət bələdiyyələri yaradılır. Dövlət kömrük sahəsi inkişaf edir. Ölkənin ayrı-ayrı diyarları inkişaf edir. Ölkəmizin tarixini əks etdirən tarix-diyarşünaslıq muzeyləri yaradılır, köhnələri zənginləşir, Qarabağ qəhrəmanları şərəfinə abidələr ucaldılır (heykəllər qoyulur, guşələr düzəldilir, şərəflərinə əsərlər yazılır). Müstəqillik şəraitində çoxlu dövlət qərarları verilir. Dövlət rəmzləri geniş kütləyə çatdırılır, Konstitusiyamız dünya demokratik səviyyəsində təsdiqini tapmışdır və s... Bunlar diyarşünaslıq üçün əsas mənbələrdir.

Doğrudur, Sovet Azərbaycanı (II Respublika) dövründə müəyyən işlər görülmüşdür.

Belə ki, 1923-cü ilin əvvəllərində Azərbaycan Tarixi Muzeyi, Azərbaycan Maddi-Mədəniyyət Abidələrini Mühafizə Edən Komitə, Azərbaycanı tədqiq və təbəbbö cəmiyyəti (1923-cü ilin yazı) yaranmışdır. 1924-cü ildə Qədim abidələrə kütləvi və qrup ekskursiyaları keçirilmişdir. (52 eksk. 15. 861 nəfər)

Bunun nəticəsində vətənpərvər ziyalılar Aşərbaycanşünaslıq kursu yaradırlar və bu cəmiyyətə çevrilir (Bax. Azərbaycanın Mərkəzi Tarixi arxivi. Fond 395, qovluq №443, səh 68).

1924-cü il sentyabrın 21-də Cəmiyyətin Bakı şəhərində I Ümumazərbaycan ölkəşünaslıq qurultayı çağrılır. Qurultayın işində N.Nərimanov da iştirak edir. Qurultay gənclərin, xüsusən məktəblilərin ölkəşünaslıq işinə cəlb edilməsini bəyənir və bu sahədə iş genişlənir. 1934-cü ilə kimi tarix poqramlarında və respublika mətbuatında bu sahə geniş işıqlandırılmışdır.

Azərbaycanda III Respublika dövründə diyarşünaslıq işinə böyük diqqət artırılmışdır. Bu barədə əsərdə geniş danışılır (III,

IV, V, VI, VII fəsillərə bax). Əsərdə məhz bu sahə önə çəkilir, demokratiya, demokratik seçki sisteminə və s. geniş yer verilir.

### 1.3. Vətənimizin Naxçıvan diyarı

Naxçıvan Azərbaycanın və eləcə də dünyanın qədim bir diyarı, bir vilayətidir. Qədim Şumer ölkəsinə yaxın olmuş, onlarla iqtisadi əlaqələr yaratmışdır.

Kiçik Qafqazın cənub-qərb hissəsində yerləşir. Urmiya gölünə yaxındır. Azərbaycanın qərbində yerləşir, şərqin qapısı sayılır. İqlimi kontinentaldır. Yayı isti, qışı sərtdir. Zəngəzur sıra dağları, Dərələyəz, Hacı dağı və s. ilə əhatə olunmuşdur. Bu diyar təbii sərvətlərlə zəngindir.

Əsabi-kəf müqəddəs ziyarət yeri burada yerləşir. Bu diyarda dünya üzrə ilk şəhərsalma meydana gəlmişdir. Tarixçi-arxeoloq alim, professor Vəli Əliyev (40 illik tədqiqat nəticəsində) qəti sübut etmişdir ki, Naxçıvanın 3500 illik şəhərsalma mədəniyyəti vardır və qədim dünya sivilzasiyasında Şumer və Mohenco-Dara (Pakistan) mədəniyyətləri ilə eyni səviyyədədir. Yəni qədim dünyanın əsas mədəniyyət ocaqlarından biridir.

Nuhun gəmisi izləri Naxçıvan yaxınlığında Ağrıdağda (Gəmi qaya) tapılmışdır.

Naxçıvan vilayəti böyük tarixi yol keçmişdir. Dünya mədəniyyətinin yaranmasında bu diyarın xalqı tarixi işlər görmüşdür. Dövlətçilik tarixinə malik (məs: XII əsrdə Atabəylər dövləti) olmuşdur.

Respublika Prezidentliyi dövründə ulu öndər Heydər Əliyev 1999-cü ilin oktyabrında Naxçıvan MR-nın 75 illiyi ilə əlaqədar söylədiyi nitqinin birində göstərmişdir: (Möminəxatun türbəsi qarşısında) «Bu abidələrin memarlıq qiyməti ilə bərabər bizim üçün, bəlkə, daha da böyük qiyməti Azərbaycanın qədim dövlət olmasını göstərməsi olmasıdır. Bu, təkcə memarlığın zənginliyini yox, dövlətçiliyin nə qədər zəngin olduğunu, nə qədər möhkəm olduğunu da göstərir» (Bax: «Xalq» qəzeti 17.10.1999). Bu dahi sözlər müasir Naxçıvana və bütövlükdə Azərbaycan respublikasına aiddir.



İqtisadi, ticari və siyasi mövqe baxımından çox yaxşı yerdə yerləşən bu diyar Azərbaycana hücum edən işğalçıların həmişə nəzər-diqqətini çəkmişdir. (Teymur Ləng və oğlu Miranşah, Monqollar, Osmanlı türkləri, ruslar və s.).

Ticari, iqtisadi əlaqələr, dövlətçilik ənənələri bu diyarın adamlarının elmi dünyagörüşünə təsir etmiş, maariflənmiş və özləri bir çox diyarın xalqlarını maarifləndirmişlər.

Heç təsadüfi deyildir ki, dünya şöhrətli ədiblər H.Cavid, M.S. Ordubadi, C.Məmmədquluzadə, Əcəmi Naxçıvani, Yusif Məmmədəliyev və yüzlərlə şəxsiyyət yetişmiş və Azərbaycanın mədəni həyatına təsir etmişlər. Burada çar hakimiyyəti dövründə 6 general yetişmişdir. Gəngərlilər sülaləsindən sonuncu Cəmşid Naxçıvanski olmuşdur. Sovet dövründə generallardan Akim Abbasov, general, siyasi dövlət xadimi Heydər Əliyev, (həm də iki dəfə sovet İttifaqı Qəhrəmanı olmuşdur) və digər Sovet İttifaqı Qəhrəmanlarını göstərmək olar.

Sovet Ordusunun Bakıya girməsi və qırğın törətdiyi günlərdə Naxçıvanın Kərki kəndinə Ermənistan Respublikasının silahlı dəstəsi 19 yanvar 1990-cı ildə basqın edərək buranı işğal etmişlər. Lakin 1992-ci ildə Naxçıvanın Sədərək qəsəbəsinə hücum edən erməni birləşmiş işğalçılarına qarşı Sədərəklilər güclü müqavimət göstərdilər. Naxçıvanlılar öz qədim qəhrəmanlıq tarixini təkrar etdilər. Abbas Quliyev, Qəzənfər Əkbərov və onlarca Naxçıvanlı vətənin qorunmasında vətənpərvərlik, qəhrəmanlıq nümunəsi göstərmişlər.

Naxçıvan uzun illər gərgin siyasi mübarizə meydanı olmuşdur. XVI əsrdə Səfəvilər dövlətinin Osmanlı Türküyəsinə qarşı apardığı uzun sürən müharibələrdə Naxçıvan gah Osmanlının, gah da Səfəvilərin əlinə keçmişdir. 1747-ci ildən Nadir şah dövlətinin süqutundan sonra Naxçıvandakı Kəngərli tayfa başçısı Heydərqulu xanlıq yaradıb. XVI əsrin 80-cı illərində Naxçıvan xanı Abbasqulu xan, İrəvan xanı Hüseynəli xan, Qarabağ xanı İbrahimxəlil xan və Kartli-Kaxeta çarı II İrakli ilə sıx əməkdaş-

lıq əlaqəsində olmuşlar. 1848-1849-cu ildə İrəvan xanlığı ləğv edilmiş, yerinə İrəvan quberniyası yaranmışdır. Naxçıvan qəzası da İrəvan quberniyasına daxil edilmişdir.

Tədqiqatçı alim İsmayıl Musayev «Azərbaycanın Naxçıvan və Zəngəzur bölgəsində siyasi vəziyyət və xarici dövlətlər 1917-1921-ci illərdə» adlı əsərində İran, Ermənistan, Türkiyə, Rusiya, İngiltərə və ABŞ dövlətlərinin bu bölgədə apardıqları siyasətin məqsədlərini göstərmişdir. «Azərbaycanın bu bölgələri, xüsusilə dörd ölkənin qovşağında yerləşən Naxçıvan mahalı, diyarı həmişə çox böyük strateji və geosiyasi əhəmiyyət kəsb etmişdir». Türkiyə bu bölgəyə Azərbaycanla Türkiyəni birləşdirən strateji koridor kimi baxır. İran və Rusiya bu bölgəni tutmaqla cənubi Azərbaycanla Şimali Azərbaycanı birləşdirməsi məqsədi güdmüş, İngiltərə və ABŞ dövlətləri bu bölgə vasitəsi ilə Azərbaycana, bütün Orta və Yaxın Şərqə təsir göstərə bilməyin əlverişli imkanı kimi baxırdılar. Hətta, bu bölgədə Amerika General-qubernatorluğu yaratmaq qərarını da çıxarmışlar. Lakin bura gəlmiş nümayəndə siyasi vəziyyəti nəzərə alaraq qubernatorluq yaratmamış, Zəngəzur vilayətinin çox hissəsinin Ermənistana verilməsinə nail olmuşdur.

Naxçıvan vilayətinin digər ərazisində 1918-ci ilin noyabrında Azərbaycan türkləri özlərinin Araz-Türk respublikasını yaratmışlar.

Mərkəzi Naxçıvan olmaqla Dərələyəz, Şərur, Ordubad, Vedibasar, Qəmərli, Mhri, Sərdərabad olmaqla yaranan Araz-türk respublikası 1919-cu ilin mart ayına qədər fəaliyyət göstərmişdir (Bax: «Azərbaycan müəllimi» qəzeti, 27 mart 1997-ci il və «Azərbaycan tarixi» XI sinif dərsliyi səh. 50-51. Bakı 2000-ci il).

Naxçıvanın Azərbaycanın himayəsi altında olan muxtar ərazi statusu Rusiya SFSR ilə Türkiyə arasında 1921-ci ilin martında imzalanmış Moskva müqaviləsində və Rusiya, Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasında 1921-ci ilin oktyabr ayında bağlanmış Qars müqaviləsində təsbit etildi. Bu müqavilə həm o dövrdə, həm də indiki dövrdə böyük siyasi əhəmiyyət kəsb edir.



1922-ci ilin dekabrında I Zaqafqaziya Sovetlər Qurultayı Naxçıvanın muxtariyyat statusunda Azərbaycan SSR-nin ayrılmaz və tərkib hissəsi olduğunu təsdiq etdi. 1923-cü il dekabrının 5-də Azərbaycan Mərkəzi İnqilab Komitəsi Naxçıvan Muxtar diyarın Azərbaycan SSR tərkibində Naxçıvan MSSR-na çevrilməsi haqqında qərar qəbul edərək ZMİK-dən xahiş etdi. Zaqafqaziya Mərkəzi İnqilab Komitəsi 1924-cü il yanvarın 8-də bu qərar təsdiq etdi. Azərbaycan SSR MİK-nın 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvan Muxtar diyarının Naxçıvan MSSR-na çevrilməsi təsdiq edildi. Bu, Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nəaliyyət idi.

20-ci illərin sonunda ermənilər himayədarlarına arxalanaraq Moskvadakı himayədarlarının köməyi ilə ZMİK-nın qərarı ilə Naxçıvanın 657 kv.km. ərazisi – Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzasının Şahbuz nahiyəsindən Oğbin, Ağxaç, Almalı, İtqıran, Sultanbəy, Ordubad qəzasının Qorçevan, Kilidlərin bir hissəsi, 1930-cu ildə isə Əldərə, Lehvaz, Astazur, Nüvədi kəndləri Ermənistana verilmişdir.

XX əsrin 90-cı illərində SSRİ-nin dağılması nəticəsində yaranmış şəraitdən istifadə edərək Ermənistan Respublikası silahlı hücumlar nəticəsində 1990-cı il yanvarın 19-da Naxçıvanın Kərki kəndini işğal etdilər.

1998-ci ilin oktyabrında Ermənistan yenə də Naxçıvan iddiası etməyə başlamışdır (Bax: «Azərbaycan» qəzeti, 5 və 11 fevral 1999).

Naxçıvan diyarında muxtariyyatın yaranmasının tarixi əhəmiyyətini nəzərə alaraq ümummilli liderimiz cənab Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının yaranmasının 75 illiyini qeyd etmək üçün 1999-cu ilin fevralın 5-də fərman verdi və 1999-cu ilin oktyabrın 10-16-da böyük təntənə ilə bu bayram qeyd edildi..

Naxçıvan Muxtar Respublikası üç dövlətlə - İran, Türkiyə və Ermənistanla sərhəddir. Naxçıvan Muxtar Respublikasının ərazisi 5365 kvadrat metrdir, əhalisi 350 min nəfərdən çoxdur.

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Dövlət dili Azərbaycan dilidir.

Qanunvericilik hakimiyyəti - Naxçıvan Muxtar Respublikası Ali Məclisi (45 nəfər deputat). İcra hikmiyyəti - Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti. Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədridir. Paytaxt Naxçıvan şəhəridir. Respublika 7 inzibati rayondan - Şərur, Babək, Ordubad, Culfa, Kənkərli, Şahbuz, Sədərək rayonundan, 8 qəsəbə və 160 kənd - inzibati ərazi dairəsindən ibarətdir. Naxçıvan şəhəri Araz çayının sahilində yerləşir. Ərazisi 35,5 kv.km. Əhalisi 71.200 nəfərdir (2008-ci il siyahısına görə). Bu qədim şəhər b.e.ə. 1539-cu ildə salınmışdır.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cumhuriyyətinin yaranması ilə Naxçıvanın istiqlal mücahidləri xalqı ermənilər tərəfindən törədilən soyqırımından xilas etmək üçün 1918-ci ilin noyabrında Araz-Türk Cümhuriyyətini yaratdılar (1918-ci il noyabr-1919-cu il mart). Cümhuriyyət diyarda çətin də olsa ərazi bütövlüyünü qorudu.

Türk-Araz Cümhuriyyəti 1920-ci ilin aprel işğalından (bolşeviklərin) sonra devrilmiş və 1920-ci ilin iyulun 28-də Naxçıvanda Sovet hakimiyyəti qurulmuşdur (II respublika). Xalqın haqlı tələbi ilə Naxçıvan diyarı Azərbaycanın tərkibində muxtar respublika şəklində qalmış, ölkənin inkişafına nail olunmuşdur.

Naxçıvan Muxtar Vilayətində Sovet dövlətinin varlığına son qoyandan sonra 1991-ci ildə III respublika yaradılmışdır. Ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri vəzifəsində (1991-1993-cü illər) çalışdığı illərdə muxtar respublikanın sosial-siyasi və eləcə də Azərbaycan dövlətçilik quruluşunun bərqərar olmasında böyük nailiyyətlər əldə etmişdir.

1992-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920-ci illər) üç rəngli bayrağı qəbul olundu, Naxçıvanın iqtisadiyyatının yüksəldilməsinə nail oldu, İran və Türkiyə ilə əlaqə quruldu. Yeni Azərbaycan partiyası yaradıldı ki, bu partiya Azərbaycanın bugünkü yüksəlişinə nail olmuşdur.



Rus qoşunlarının Naxçıvandan çıxarılmasına nail olundu ki, bu sonradan bütün Azərbaycan üçün nümunə oldu. Naxçıvan Muxtar respublikasında aparılmış ideya-siyasi işlər nəticəsində, şəxsən ulu öndər Heydər Əliyevin siyasi təcrübəsi və qətiyyəti nəticəsində sabitlik təmin olunmuş, işğalçı ermənilərə tutarlı cavablar vermiş, demokratik dövlət quruculuğu formalaşmışdır. Kadr siyasətini həyata keçirmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasının 134-141-ci maddələri Naxçıvan Muxtar Respublikasına, Azərbaycanın tərkib hissəsi olan diyara həsr edilmişdir.

Naxçıvan Muxtar Respublikasının bugünkü demokratik inkişafı dövlət siyasətinin yaxşı nümunəsidir.

Naxçıvan Muxtar Respublikasında, onun paytaxtı Naxçıvan şəhərində bu gün böyük quruculuq sosial-iqtisadi yüksəliş vardır. Baxmayaraq respublika 1988-ci ildən blokada şəraitindədir.

Müstəqillik dövründə Naxçıvan daha da inkişaf edərək Azərbaycanın elm və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Şəhərdə bir sıra idman obyektləri, 3 ali məktəb, 4 orta ixtisas məktəbi, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi, 4 klub və mədəniyyət evi, 8 kitabxana, 6 uşaq musiqi məktəbi, 3 dövlət və 1 xalq teatrı, filormoniya, 10 muzey, 1 şəkil qaleriyası, Rəssamlar Birliyi fəaliyyət göstərir. 2 qəzet («Şərq qapısı» və «Nuh ulduzu») nəşr olunur. 1 özəl və 1 dövlət televiziya kanalı, 1 dövlət və 2 özəl radio kanalı yayımlanır. Beynəlxalq Hava Limanı, şəhərdə respublika xəstəxanası, doğum evi, ixtisaslaşdırılmış xəstəxana, aptek, Naxçıvan memarlıq abidələri (Mömünəxatun, Qarabağlar, Əsabü Kəf, Hüseyn Cavid, Yusif Küseyir türbəsi Nuh reyğəmbərin), Buzxana, İmamzadə kompleksi, 66 tarix mədəniyyət abidəsi və s. vardır. Abidələrdən 7-si dünya, 41-i ölkə əhəmiyyətli abidədir. Bundan sonra diyarın digər ərazilərində tarixi abidələr çoxluq təşkil edir.

Bütün bunların abadlaşdırılması, səliqə-sahmana salınması, yolların çəkilməsi və təmir olunması Naxçıvan Muxtar respublikasının rəhbərliyə və xalqa müstəqilliyin verdiyi imkanın nəticəsidir (daha ətraflı məlumat üçün bax: «Naxçıvan» kitabı. «Təhsil» nəşriyyatı, 2007).

Bu diyarla fəxr edərək biz qürur hissi keçiririk.

# II FƏSİL

# AZƏRBAYCAN DÖVLƏT MÜSTƏQİLLİYİNİN YARANMASI VƏ MÖHKƏMLƏNMƏSİ ÜÇÜN GÖRÜLƏN İŞLƏR VƏ BUNLARIN DİYARŞÜNASLIQDA NƏZƏRƏ ALINMASI

## 2.1. Müstəqilliyə gedən yol

Qədim dövrdən başlayaraq müasir dövrə qədər olan vaxt ərzində xalqımız müstəqil dövlətçiliyin qorunması uğrunda mübarizə aparmışdır. Bunun geniş şəkil almasına əsas səbəb Azərbaycanın tez-tez yadellilər tərəfindən hücumlara məruz qalması olmuşdur. Xalqın əhəmənilər, makedoniyalılar, romalılar, sasanilər, xəzərlər, bizanslar, ərəblər, səlcuqlar, monqollar, ruslar və s. tərəfindən əsarətdə saxlanılması, zülm və məhrumiyyətlərə düçar edilmələri, səfalət və sürgün olmaları onlarda yadellilərə qarşı nifrət hissi oyatmış, xalqın azadlığa çıxmaq arzusunu yaratmışdır. Bu arzunun həyata keçməsində xalqın zamanın yetişdirdiyi şəxsiyyətləri ictimai fəallıq göstərərək ayrı-ayrı dövlərdə bu məqsədlə müəyyən işlər görmüşlər. Bunun ən bariz nəticəsi o olmuşdur ki, Azərbaycan xalqı formalaşmış, dil və din birliyi əmələ gəlmiş, dünya xəritəsində özünə yer tapmışdır.

Müəllim şəxsiyyətin keyfiyyətindən danışaraq göstərməlidir ki, o, həyatda qarşısına ümumxalq əhəmiyyətli məqsəd qoymalıdır. Bu məqsədə nail olmaq üçün iradəli olmalı, həyatın gözəlliyinə çalışmalı və bunun üçün fəaliyyət göstərməlidir. Fəaliyyət insanın həyatını təmin edəcək şəraitin yaradılması naminə yaşayış mühitinin məqsədəuyğun surətdə dəyişdirilməsidir. Dəyişdirici fəaliyyətin subyekti şəxsiyyətdir. Filosoflara istinad edərək göstərə bilərik ki, bütün tarix şübhəsiz, xadim olan şəxsiyyətlərin fəaliyyətindən əmələ gəlir. Şəxsiyyətin ictimai fəaliyyətini qiymətləndirdikdə meydana çıxan əsl məsələ ondan ibarət olur ki, bu fəaliyyətin qazanılması üçün şərait lazımdır. Deməli, insan ona verilən şərait və fəaliyyət prosesində cəmiyyətdə şəxsiyyət kimi formalaşır. Fəaliyyətlə yanaşı, şüur və ünsiyyət vasitələri də şəxsiyyətin komponentləridir. Müəllim ayrı-ayrı mövzuların imkanlarından istifadə edərək Azərbaycanın tarixi şəxsiyyətlərini uşaq və gənclərə tanıtmalıdır. Axı bizim tarixi şəxsiyyətlərimiz olmasaydı tariximiz yoxsul və maraqsız olardı; bəlkə də heç məmləkətimiz, dövlətimiz, millətimiz olmazdı. Onda göstəririk ki, şəxsiyyət - xalqını, vətənini, dilini sevən və onun həmişə xoş günlərini, azadlığını öz amalına çevirən dahi insandır.



XX əsrdə dövlət yaratmaq imkan və şəraiti Şimali Azərbaycanda üç, Cənubi Azərbaycanda milli azadlıq hərakatından – Səttərxan hərəkatından sonra iki dəfə yaranmışdır. 1917-ci ildə çarizmin devrilməsi ilə nəticələnən fevral inqilabı və Oktyabr çevrilişi nəticəsində 1918-ci ildə I respublika – AXC (Azərbaycan Xalq Cümhuriyyəti), 1920-ci ildə II respublika – Azərbaycan SSR yarandı. SSRİ-nin süqutu və Milli-azadlıq hərəkatının yeni dalğası nəticəsində isə 1991-ci ildə III respublika – Müstəqil Azərbaycan Respublikası yarandı. Belə bir nəticəyə gəlmək olur ki, Azərbaycanda müstəqilliyin yaranmasında aşağıdakı amillər özünü göstərmişdir:

1. Qədim dövlətçilik ənənələrinə sadiq olub müstəqil dövlət yaratmaq arzusu.
2. Şəxsiyyətin yetişməsi, onun dövlət quruculuğu sahəsində görüləcək işləri mənimsəməsi.
3. Tərkibində olduğu dövlətin ictimai-siyasi və ya demokratik dəyişikliklərə məruz qaldığı şəraitdən düzgün istifadə etməsi.
4. Azərbaycanın vətənpərvər övladlarının yetişməsi və vətənini azad, müstəqil görmək dərki.

Uzun illər boyu Azərbaycan övladları müstəqil dövlət yaratmaq uğrunda mübarizə aparmışlar. Nəhayət, yaranmış tarixi şəraitdən istifadə edən azərbaycanlılar 1918-ci il may ayının 28-də Tiflisdə Azərbaycanın istiqlaliyyətini elan etdilər. Bu, elə bir vaxtda elan edildi ki, 1918-ci ilin yayında Trans-Qafqaz höku-

məti Azərbaycan türklərinin mənafeyinə zidd olaraq Osmanlı dövlətinə müharibə elan etmişdi, həmin ilin mart-aprel aylarında Qafqaz müsəlmanlarına qarşı daşnak erməni bolşevikləri təcavüzü gücləndirmiş, soy qırımı etmişdirlər (bu aylarda 50 min azərbaycanlı öldürülmüşdür. Təkcə Bakıda martın son üç günündə 12 min azərbaycanlı öldürülmüşdür).

AXC elan edilməzdən əvvəl Seymin azərbaycanlı fraksiya qrupu 1918-ci ilin mayın 27-sində fövqəladə iclas çağırdı. Müvəqqəti Milli Şura yaradıldı. M.Ə.Rəsulzadə sədr seçildi. (Ancaq namizədliyinə ittihad partiyası nümayəndəsi etiraz etdi), H.Ağayev və M.Seyidov sədrin müavinləri seçildilər. Milli Şuranın 9 nəfərdən ibarət İcraiyyə orqanı yaradıldı. F.X.Xoyski yekdilliklə İcraiyyə orqanının sədri seçildi. May ayının 28-də saat 8[10]-da Milli Şuranın ilk iclası keçirildi.

Ən mühüm məsələ: «Seymin buraxılması və Gürcüstanın istiqlaliyyətinin elan edilməsi ilə bağlı Azərbaycanın vəziyyəti». Məsələ barəsində Şuranın üzvü Xəlil bəy Xasməmmədov məruzə edərək təxirə salınmadan Azərbaycanın Müstəqil Respublika elan edilməsinin zəruriliyini əsaslandırdı. Bu təklif geniş müzakirədən sonra Milli Şurada 24 səslə (2 nəfər – S.M.Qəniyev və C.Axundov bitərəf qaldı) bəyənildi və Azərbaycan Milli Şurası istiqlaliyyətin elan edilməsi qərarını verdi və «İstiqlaliyyət bəyannaməsi» qəbul edildi. Bəyannamədə göstərildi: - «Bu gündən Azərbaycan xalqı hakimiyyətə və dövlətə məxsus olub xalq respublikası yaradır».

Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərə, xüsusilə qonşu olduğu millət və dövlətlərlə mehriban münasibətlər yaratmağı vacib sayır.

Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu olduğu millət və dövlətlərlə mehriban münasibətlər yaratmağı vacib sayır.

Millət, mənsəb, sinif, məslək və cins fərqi gözləmədən Azərbaycanda yaşayanların hamısına siyasi və vətəndaşlıq hüququ verir.

Milliyyətindən asılı olmayaraq onların hamısına sərbəst in-



kişaf etmək üçün geniş imkan yaradır.

Milli Şura həmçinin qərara alır ki, Məclisi-Müəssisən toplanana qədər (deputatlar seçilib parlament təşkil olana qədər) Azərbaycanı Milli Şura və Müvəqqəti hökumət idarə edəcəkdir.

Elə oradaca Milli Şura F.X.Xoyskiyə Azərbaycan hökumətinin yaradılması tapşırılmışdı. Bir saatlıq məşvərətdən sonra F.X.Xoyski aşağıdakı tərkibdə hökumətin tərkibini elan etdi. 1) Nazirlər Şurasının sədri və Daxili İşlər naziri Xoyski. 2) Hərbi Nazir Xosrov bəy Sultanov. 3) Xalq Maarifi və Maliyyə naziri – Nəsib bəy Yusifbəyli. 4) Xarici İşlər naziri – Xudadat bəy Məlik – Aslanov. 6) Əkinçilik və Əmək naziri – Əkbər ağa Şeyxülislamov. 7) Ədliyyə Naziri – Xəlil bəy Xasməmmədov. 8) Ticarət və Sənaye naziri – Məmməd Yusif Cəfərov. 9) Dövlət Müfəttişi – Cəmo bəy Hacınski.

Bəyannamə may ayının 30-da dünyanın bir çox dövlətlərinin paytaxtlarına – İstanbula, Berlin, Vyana, Paris, London, Roma, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Kopenhagen və Tokioya çatdırıldı.

Bununla da Müsəlman Şərqində türk mənşəli dövlətlər arasında birinci olaraq dünyəvi təməl üzərində qurulan bir dövlətin - Azərbaycan Xalq Cümhuriyyətinin varlığı dünya xalqlarına çatdırıldı. Beləliklə, Azərbaycan varlığını sübuta yetirdi. Respublikanın yaranması dünyada gedən sosial - siyasi proseslərin tərkib hissəsi kimi beynəlxalq əhəmiyyətli hadisə oldu.

Milli Şura və hökumət 16 iyunda Gəncəyə köçdü. Burada onların bu işi birmənalı qarşılanmadı. Xüsusilə də burcua – mülkədar nümayəndələrinin bəziləri bunu inqilabi iş bilir, bəziləri Azərbaycanı Türkiyə ilə birləşdirmək fikrini söyləyirdilər.

1918-ci il iyun ayının 17-də Milli Şuranın 7-ci iclasından sonra o, müvəqqəti olaraq öz fəaliyyətini dayandırdı.

12 nəfərdən ibarət olan 2-ci hökumət təşkil olundu. Müvəqqəti hökumət Azərbaycanın müstəqilliyini qorumaq məqsədilə 19 iyun 1918-ci ildə ölkədə hərbi vəziyyət elan etdi, iyunun 26-da isə müsəlman korpusu «Əlahiddə Azərbaycan korpusu» adlandırıldı. Bakını təmizləmək üçün hazırlıq işləri görüldü. İyu-

nun ortalarında İstanbulda Qafqaz respublikalarının iştirakı ilə keçirilən konfransa nümayəndə göndərildi. Almaniyanın AXC-ni tanıması üçün iş aparıldı. Türk sərkədəsi Tələt Paşanın köməyi ilə bu işə nail olundu.

AXC hökuməti Bakını təmizləmək məqsədilə əmr verdi və Azərbaycanın milli ordusu Bakıya daxil oldu (sentyabrın 15-də). Başlıcası isə 2-ci hökumət Azərbaycanda erməni – bolşeviklərinin 1918-ci il mart-aprel qırğınını təhqiq edən fövqaladə istintaq komissiyası yaratdı və bu işi təhlil etdi.

II. 1918-ci ilin payızında I dünya müharibəsində Alman-Türk bloku məğlub oldu. Oktyabr ayının 30-da Türkiyə və Azərbaycan üçün ağır olan Mudros barışığı imzalandı. Bu barışığa görə Türk dövləti Azərbaycandan öz ordusunu çəkməli, İngilis ordusu Bakıya daxil olmalı idi. Doğrudur, Azərbaycan Türkiyə ilə sülh və dostluq haqqında 4 iyun 1918-ci ildə Batumi şəhərində müqavilə bağlamışdı. Buna görə Azərbaycan Türk dövlətinə narazılığını bildirdi. Lakin bu zaman onun da vəziyyəti ağır idi.

Mudros barışığına əsasən ingilislərlə birgə fransızlar, italyan və yunan qoşunları, Türkiyə ərazisinə soxulmuşdular.
Ancaq 1923-cü ildə oktyabrın 29-da Türkiyənin böyük oğlu Mustafa Kamal Ata Türkün səyi ilə Türkiyəni bu bəladan qurtuldu və demokratik Türkiyə respublikası quruldu.

Qarışıqlıqdan istifadə edən İngilislər Bakıya (17 noyabr 1918) daxil oldular. Belə bir vaxtda seçkilər keçirilməsi barədə milli şura (19 noyabr 1918-ci ildə) qərar qəbul etdi. Bu qərara əsasən Azərbaycanda yaşayan bütün xalqların və siyasi partiyaların nümayəndələrinin parlamentdə təmsil olunması nəzərdə tutulmuşdu. Parlament vasitəsi ilə Azərbaycanın müstəqilliyi təsdiq edilməli idi. Seçkilər baş tutdu. Azərbaycan parlamenti 120 deputatdan ibarət olmalı idi. Onlardan 80 yer azərbaycanlılara, 21 yer ermənilərə, 10 yer ruslara, yəhudi, alman, gürcü və polyak nümayəndəsinin hərəsinə bir yer verildi.

Həmkarlar ittifaqları təşkilatları üçün beş yer ayrılmışdır. Azərbaycanda yaşayan hər iki cinsin seçki hüququ təsbit edildi.



Azərbaycan Şərqdə qadınlara ilk seçki hüququ verən ölkə oldu.

Milli Şura ciddi çətinlikdən sonra dekabrın 7-də Parlamentin açılmasına nail oldu. Azərbaycanın həyatında bu böyük beynəlxalq hadisə idi. Açılışda 120 deputatdan 96 nəfəri iştirak etdi.

Milli Şuranın sədri M.Ə.Rəsulzadə parlamenti açdı və böyük təbrik nitqi söylədi.

Ə.M.Topçubaşov Parlamentin sədri (özü Türkiyədə səfərdə idi), H.Ağayev sədrin 1– ci müavini və R.Vəkilov isə katib seçildilər.

Bütün hakimiyyət parlamentə verildi. Müvəqqəti hökumət buraxıldı. Yeni kabinetin (hökumətin) təşkili yenə də F.X. Xoyskiyə tapşırıldı. Siyasi məhbuslara amnistiya verildi. 1918-ci il dekabrın 26-da yeni hökumət təşkil edildi. On nəfərdən ibarət olan bu yeni hökumətin tərkibində 3 rus, 2 erməni nəzərdə tutuldu. Lakin ermənilər hökumət işində iştirakdan imtina etdilər.

Bu vaxt Bakıda olan ingilis qoşununun generalı Tomson da dövlətin işindən razı qaldı və dekabrın 28-də Azərbaycan Xalq Cümhuriyyətini tanıdığını bildirdi.

III. Seçkilərdən sonra təşkil edilmiş ilk hökumətin tədbirlərindən biri Azərbaycanın xaricdə tanınması və torpaqlarının ərazi bütövlüyünü təsdiqləmək üçün Paris sülh konfransına nümayəndənin göndərilməsi oldu. Bu tərkibə Ə.M. Topçubaşov rəhbərlik edirdi (22-26/IV-1919). Tərkibdə M.H. Hacınski, Ə.Şeyxülislamov, Ə.Ağayev, M.Məhərrəmov, M.Mehdiyev və C.Hacıbəyli var idi. (Bu dövrdə - 1918-ci ildə ADR-ın 97,3 min kv. km. Sahəsi vardı, 15,6 min kv.km sahə erməni və gürcülərin arasında mübahisəli idi. Onu da göstərək ki, 1913-cü ildə 200 min kv.km, 1920-ci ildə 114 min kv.km. 1922-ci ildə 86,6 min kv.km.).

Parisə çətinliklə də olsa gedib çıxan Azərbaycan nümayəndələri çox böyük iş gördülər. ABŞ, İngiltərə, Fransa, Polşa, İran, Ermənistan, Gürcüstan və s. dövlət başçıları və nümayəndələri ilə görüşlər keçirildi. Ermənilərin «Böyük Ermənistan» yaratmaq arzularını canlarında qoydular və s. Nəticə kimi deyək ki, Avropa dövlətləri 10-11 yanvar 1920-ci ildə keçirdikləri Paris

sülh konf. Ali Şurasında «Azərbaycanı və Gürcüstanı» de. fakto səviyyəsində tanıdılar və s.

AXC hökuməti mədəni, siyasi və iqtisadi həyatı sahəsində çox işlər görmüşdür. Məktəblər açılmış, Azərbaycan dili dövlət dili olmuş hərbi iş qaydaya salınmış, hərbi nazirlik, 30-dan çoxu xalq maarifi, səhiyyə və əmək, 12-ci isə əkinçilik nazirliyinin işinə aid idi.

Mövcud olduğu 23 ay ərzində daim müharibə və təhlükə şəraitində yaşayan AXC müstəqil dövlət üçün zəruri olan bir çox atributları bərqərar edə bilmişdir. Bayrağımız hazırlanmış, himni yazılmış, gerbimiz təsdiqə verilmişdir. Diplomatik əlaqələr genişləndirilmişdir. Səfirliklər və konsulluqlar açılmışdır.

Stalinin «bu müddətdə xalqınıza nə verdiniz?» sualına M.Ə. Rəsulzadə – «Milli azadlığın nə olduğunu başa saldıq, azca da milli istiqlal dadızdırdıq»- demişdir.

Milli-istiqlal aşiqləri olan vətən övladı ilə fəxr edirik. İndi hörmətlə adlarını yad etdiyimiz şəxslər 1918-ci il may ayının 28-də Tiflis şəhərində Azərbaycanın Müstəqilliyini elan etmişdir. Milli Şura aşağıdakı şəxslərdən ibarət olmuşdur.

M.Ə. Rəsulzadə və Fətəli xan Xoyski. Milli Şuranın Rəyasət heyətinin sədrləri.

Həsənbəy Ağayev - sədr müavini.

Mustafa Mahmudov - katib,

Üzvlər – Xəlilbəy Xasməmmədov, Nəsibbəy Yusifbəyli, Mir Hidayət Seyidov, Nərimanbəy Nərimanbəyov, Heybətqulu Məmmədbəyov, Mehdibəy Hacınski, Əli Əsgər bəy Mahmudbəyov, Aslan Bəy Qardaşov, Sultan Məcid Qənizadə, Əkbərağa Şeyxülislamov, Mehdi bəy Hacıbəyov, Məmməd Yusif Cəfərov, Xudadatbəy Məlik Aslanov, Rəhimbəy Vəkilov, Həmid bəy Şahtaxtinski, Firudin bəy Köçərli, Camo bəy Hacınski, Şəfi bəy Rüstəmbəyov, Xosrovpaşa bəy Sultanov, Cəfər Axundov, Məmməd Məhərrəmov, Cavad Məlik – Yeqanov və Hacı Molla Axundzadəni göstərmək olar. (Bax. Azərb. Dem. Res. 1918-20. B. G. 1990. səh. 24-86).



Bu şəxslərin ictimai fəallığı sayəsində Müstəqil Azərbaycan dövlətinin qurulmasını, Milli azadlığın nə olduğunu və milli istiqlaliyyətin əldə saxlanması yollarını əyani olaraq həyata keçirdi.

1920-ci il aprelin 27-də Sovet Rusiyasının (bolşeviklərin) hərbi gücü nəticəsində özünün varlığına son qoyuldu. Azərbaycan demokratik dövləti, onun adı yeni dünya xəritəsindən silinmək təhlükəsi qarşısında qaldı.

Belə bir şəraitdə, əslində Azərbaycan bolşeviklərinin fəallığı, özlərinə məxsus fikirlərinin nəticəsində 1920-ci ilin aprelin 28-də Rusiya bolşevik partiyasının və XI Ordunun müdaxiləsilə Azərbaycanda yeni bir dövlət quruldu. Bu dövlət II respublika – Azərbaycan Sovet Sosialist Respublikası (Az.SSR) adlandı. Bu dövlət 17 oktyabr 1991-ci il tarixinə kimi yaşadı. Bu dövlətin təşkilində Nəriman Nərimanov, M.D. Hüseynov, Ə.H. Qarayev, D.Bünyadzadə, H.Sultanov, Q.Musabəyov, A.Əlişov, Ç.İldırım və digər bolşeviklər fəallıq göstərmişlər.

Azərbaycan SSR-in dövlət fəaliyyəti Sovet Rusiyadan asılı idi. Buna baxmayaraq, özünün dövlət atributları, sərhədi var idi. Mövcud olduğu dövrdə bir çox müsbət işlər də görülmüşdür. Xüsusilə elm, təhsil, kənd təsərrüfatı, sənaye, səhiyyə, texnika və s. yüksəlməsində, ən başlıcası isə, bu günkü müstəqil dövlətimizin bərpası və möhkəmlənməsi üçün bir inkişaf yolu keçdi. Sadə desək, əgər AXC-nin ləğvindən sonra hər hansı bir ad altında Azərbaycanda dövlət qura bilməsəydik, SSRİ dağılan ərəfədə və sonra nələr olacaqdı? Biz dövlət, sərhəd və s. haqqında düşünəcəydik. Bu baxımdan Azərbaycanın 71 ildə keçdiyi yolu qiymətləndirməli, 71 ildə fəaliyyətimizi heçə endirməməliyik.

Gülüstan və Türkmənçay müqavilələri nəticəsində Azərbaycanın cənub torpaqları İran dövlətinin dörd əyalətindən biri olmaqla bu günədək müstəmləkə şəraitində yaşayır. Bununla belə İran-Azərbaycan türkləri elm-mədəniyyət sahəsində həm özlərini tanıtdırmış, həm də İran dövlətinin ərazisində Avropa mədəniyyətinin yayılmasında böyük rol oynamışlar. Mərd və döyüşkən olduğuna görə İran ordusunun 25%-i Cənubi Azərbaycan türklərindən təşkil edilmişdir. Bunun ikinci səbəbi də XIX-

XX əsrlərdə İranda dövlət başçısının həmişə azəri türkü olması ilə bağlıdır.

Şimali Azərbaycanda proletariatın, milli demokratiyanın inkişafı və Rusiyada 1905-ci il inqilabının başlanması Cənub qardaşlarımızı da inqilabi çıxışlara sövq elədi. Təbrizdə «İctima-iyyune amyyun» təşkilatının rəhbərliyi ilə 1905-ci ilin dekabrında Məşrutə inqilabı başladı və demokratik xarakter daşıdı. Əyalət əncuməni (təşkilatları) genişləndi, 1906-cı ilin sentyabrında Təbrizdə inqilabi təşkilat yarandı. (Əvvəl rəhbər Əli Müsyö idi). Bu təşkilat Bakı vasitəsilə Zaqafqaziya inqilabçılarından kömək alırdı (N.Nərimanov kömək edir). Hələ iranlı fəhlələr Bakıda 1905-ci ildə «Mücahid» partiyası yaratmışdılar.

İran inqilabının I-ci mərhələsində (1905-dekabr – 1907-ci ilin fevral) bütün sinif, təbəqə və qrupların istibdad quruluşuna qarşı mübarizəsi genişləndi, Konstitusiya verilməsi, məclis çağrılması tələb olundu.

1906-cı ilin axırlarından sonra Təbrizdəki inqilabi çıxışlarda Səttarxan fəallıq göstərdi. 1907-ci ilin yanvarın 26-da Təbrizdə silahlı üsyan baş verdi. İnqilab 1911-ci ilin sonunda irticaçı qüvvələr tərəfindən yatırıldı.

İnqilab zamanı demokratik qüvvələrə rəhbərlik etməklə aqrar məsələlərin həlli ortalığa çıxdı. Nəticədə inqilabi hərəkat burjua demokratik xarakter aldı. İndi üsyan, tətil və s. tələblər yox, mütləqiyyəti devirmək, Azərbaycan demokratik dövləti yaratmaq məsələsi əsas məsələ kimi qarşıda dururdu.

Bu məqsədlə Təbrizli üsyançılar Səttarxan başda olmaqla 1907-ci il mayın 8-də Tehrana gəldilər. Xalq onları çox yüksək səviyyədə qarşıladı. Tarixçi H.Həllacın «Azərbaycan nümayəndələrinin Tehrana gəlişini yokobinçilərin Parisə daxil olması kimi» xarakterizə etmişdir. Bundan sonra Tehran əhalisi mayın 14-də təbrizlilərlə həmrəylik əlaməti olaraq ümumi tətil elan etdilər.

İran inqilabının təsirindən qorxan Osmanlı Sultanı Əbdülhəmid ilə İran şahı Məhəmmədəli arasında danışıqlar aparılırdı.

Çar hökuməti isə ingilislərlə İranı nüfuz dairəsinə bölmək



haqqında öz aralarında 1907-ci il avqustun 31-də saziş imzaladılar və bu sazişi sentyabrın 24-də İran hökumətinə bildirdilər. Bu xəbər xalqı hiddətləndirdi və Azərbaycan əyalət əncuməni Cənubi Azrbaycanda Demokratik üsul-idarə «Əncumən hakimiyyəti» yaratdı.

Lakin İran dövləti inqilabçıları tərk-silah etmək üçün tədbir gördü (23 iyun 1908).

Qeyri-bərabər döyüş oldu, 300-dən çox konstitusiya tərəfdarları qətlə yetirildi, həbs, sürgün və s. həyata keçirildi.

Çətinliklərə baxmayaraq Səttarxan öz silahdaşları ilə birgç mübarizəni davam etdirirdi. Beləliklə, xalq hakimiyyəti yaradıldı. 1908-ci ilin noyabr - 1909-cu ilin yanvarına kimi bütün Cənubi Azərbaycan inqilabçıların əlinə keçdi. Lakin yanvarın axırlarında əksinqilab yenidən hücuma başladı. İngilislər və ruslar sülh yaratmaq məqsədilə işə qarışdılar. Çarizm İrandakı təbəələri qorumaq adı ilə oraya ordu göndərdi (29 aprel 1909).

Böyük itkiyə yol verməmək üçün hökumətin dəvəti ilə Səttərxan, Bağır xan və bir qrup nümayəndə ilə 1910-cu il 11 martda Tehrana ketdilər və aprelin 15-də ora çatdılar. Xalq onları yüksək səviyyədə qarşıladı. Lakin gecə saat 11 –də bu nümayəndə heyətinə basqın edildi. 300-dən artıq inqilabçı həbs edildi. Səttərxan və Bağır xanı geri buraxmadılar. Səttar Sərdari Milli 49 yaşında aldığı yaradan vəfat etdi.

İngiltərə və çarizmin köməyi ilə İran şahı Məhəmmədəli 1911-ci ilin iyununda İrana qaytarıldı. Vəziyyət gərginləşdi və 1912-ci ilin ilk aylarında irtica qəti hücuma keçdi. İnqilabçılara divan tutuldu.

İnqilabın əhəmiyyəti böyük idi. Bu inqilab burcua-demokratik inqilabı idi. Üç mərhələdən ibarət olmuşdur. Ən başlıcası bu inqilab Şərq ölkələrində ilk dəfə idi. Xalq hakimiyyəti yaratmaq üçün rüşeym idi.

Azərbaycan xalqını gələcək inqilablar etmək işinə səfərbər etdi. Səttərxan hərəkatının davamçıları Cənubi Azərbaycanda ikinci dəfə I dünya müharibəsi və 1917-ci ildə çar hakimiyyətinin devrilməsi ilə əlaqədar genişləndi. Cənubi Azərbaycanda 1917-

1920-ci ildə Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə milli-azadlıq və demokratik inqilabı baş verdi.

1917-ci ilin iyunun 17-də Təbrizdə milli azadlıq hərəkatı genişləndi. Avqustun 24-də Təbrizdə əyalət komitəsinin konfransı çağrıldı və Azərbaycan Demokratik Partiyası (ADP-nın) yarandığı elan edildi. Ölkədə inqilabi iş aparıldı.

1920-ci ilin 7 aprelində Təbriz üsyanı qələbə çaldı və ADP-nin iyunun 24-də özünün müvəqqəti hakimiyyət orqanı olan Milli hökumət (MH) yaradıldı. Ş.M.Xiyabanı bu hökumətin sədri seçildi, Bu tarixə «Azadistan» adı ilə düşdü (Çünki 1919-cu ildə imperialistlər İranla-Almaniya və İngiltərə talançı müqavilə bağlamışdılar. Buna qarşı üsyan genişləndi və Azərbaycanın birləşməsi arzusu şərəfinə «Azadistan» adlandı). «Azadistan» hökuməti az yaşadı (5 aya yaxın). Əksinqilab 14 sentyabrda hücuma keçib hakimiyyəti devirdi. Xiyabani özü də döyüşlərdə tikə-tikə doğrandı. Təbriz inqilabının böyük əhəmiyyəti vardır: 1) Milli şüurun formalaşmasına kömək etdi, xüsusi bir mərhələ təşkil etdi. 2) İranda xarici imperialist ağalığına, irtica özbaşnalığına tutarlı cavab verildi. Nəticə də İngilis imperialistlərinin İranda ağalığına qarşı bağlanmış 1919-cu il müqaviləsi 1921-ci ildə ləğv edildi. 3) Azərbaycan xalqının mübarizə əzmi daha da möhkəmləndi. 4) Bu inqilab gələcək azadlıq inqilabına yol göstərdi.

İran hökuməti Xiyabani hərəkatından sonra Cənubi Azərbaycanda irticanı gücləndirdi. İranda Türk dilində danışmaq qadağan edildi, milli dildə qəzet-curnal və kitab nəşrinə son qoyuldu. Hətta dini ayinlərin ana dilində icrasına icazə verilmədi. Azərbaycan anlayışını silmək üçün 1937-ci ildə buranı iki hissəyə ayırdı və 3-cü ostan, 4-cü ostanlıq adını verdilər. Azərbaycandakı bütün idarələrə fars məmurları dolduruldu. Ayrı-ayrı millətlərin (o cümlədən azərbaycanlı və ya türk) adı ləğv edilərək «İran milləti» sözü ilə əvəz edildi. Məktəblərdə ancaq fars dilində təhsil almaq, danışmaq olardı. Bu qaydaları pozanı mal axuruna bağlayır və döyürdülər.



Azərbaycanlılara qarşı təzyiq göstərildiyi halda, ermənilərə həmişə qayğı ilə yanaşılmış, iran ermənilərinə mədəni muxtariyyat verilmişdi.

II Dünya müharibəsi ərəfəsində İran Azərbaycanında rejim qismən yumşaldıldı . Xüsusilə Sovet ordusunun (1941-ci ilin avqust 25-də) İrana daxil olmasından sonra vəziyyət bir qədər dəyişdi. Göstərək ki, 1921-ci il 26 fevralda Sovet-İran müqaviləsi bağlanmışdı ki, əgər İranda Sovet dövlətinə qarşı təhlükə olarsa Sovet əsgərləri qeyri-şərtsiz İrana daxil olacaqdır. Belə bir vaxtda alman faşistlərinin hücumu müşahidə edilirdi.

İkinci dünya müharibəsindən sonra Cənubi Azərbaycanda milli-demokratik hərəkat yenidən canlandı. Azərbaycan Demokratik Partiyasının (ADP) 1945-ci ilin oktyabrın 2-də I qurultayı çağrıldı. Qurultay İran daxilində Respublika qurmağı bir vəzifə kimi qəbul etdi. 1945-ci ilin noyabr ayında vətənpərvər Azəri Türkləri Təbrizdə Azərbaycan Xalq Konqresi yaratdılar. Hökumətdən Muxtariyyət tələb olundu. Tehran bunu rədd etdi. Buna baxmayaraq Xalq Konqresi həmin ilin 27 noyabrında Milli məclisə seçkilər keçirməyi müəyyən etdi. İran hökuməti belə olduqda Təbrizə ordu yeritdi. Acı da olsa göstərək ki, bu ərəfədə Təbriz vətənpərvərləri ilə ordu arasında böyük qırğın oldu. Lakin xalq demokratik partiya dekabrın 1-də seçkilərin keçirilməsinə nail oldu. Milli Məclisə 32 dairədən 100-ə qədər deputat seçildi.

1945-ci ilin dekabrın 12-də (hicri tarixi ilə 1324-cü ilin Azər ayının 21-də) Təbrizdə Azərbaycan Milli Məclisi açıldı və Milli hökumət yaradıldı. Fədai qoşunları Təbrizə daxil oldu və dekabrın 15-nə kimi Cənubi Azərbaycandan İran qoşunlarını təmizlədi. Milli hökumət qalib gəldi. Lakin bəzən də bu inqilaba 21 Azəri inqilabı deyilir. Azəri inqilabı hökuməti 1946-cı ilin noyabrına kimi fəaliyyət göstərdi. S.C. Pişəvəri Nazirlər şurasının sədri, Z.Qiyasi Ali məhkəmənin sədri, F.İbrahimi baş prokuror vəzifələrini tutdular. Hərbi və xarici işlər Nazirliyini yaratdılar. Əsas götürüldü ki, milli hökumət İran daxilində Muxtariyyətlik

təşkil edir. Təəssüf ki, bu da onların fəaliyyətinə mənfi təsir göstərmişdir.

Vətənin çiçəklənməsi eşqi ilə alışıb-yanan Milli hökumət dərhal islahatlara başladı. Hökumətin himni yazıldı, Türk dili dövlət dili elan edildi, universitet, filarmoniya təsis edildi, doğma ana dilində radio verilişləri verildi, qəzetlər nəşrə başladı. Səttar xana, Bağır xana heykəl qoyuldu.

Azərbaycan milli hökuməti yarandığı gündən daxili və xarici təsirlərə məruz qaldı. Hətta Cənubi Azərbaycan hökumətinin məsələsi 3 aprel 1946-cı ildə Birləşmiş Millətlər Təşkilatında müzakirə edildi. Lakin bu dövlətin hansısa dövlət tərəfindən təşkili sübut olunmadı (SSRİ hökumətindən İran dövləti şübhələnirdi). Belə olduqda İran hökuməti diplomatik gediş edərək SSRİ rəhbərliyindən (Stalindən) Sovet ordusunun çıxarılması razılığını aldı. Nəticədə 1946-cı ilin mayında Sovet ordusu İrandan çıxarıldı. Bundan sonra danışıqlar aparıldı, bilərəkdən müqavilənin bağlanması gecikdirilirdi. Sonra özünə qüvvə toplayan Tehran 1946-cı ilin noyabrında Təbriz üzərinə hücuma keçdi. Bu hücumda İranın 50 min nəfərlik ordusu və bu ordunun sərəncamında 55 tank, 50 təyyarə, 174 top, 3 min pulemyot var idi. Döyüşdə Rza şah şəxsən özü də iştirak edirdi. Bunlara qarşı 18 minlik fədai ordusu var idi. Qeyri bərabər olan döyüş nəticəsində Milli hökumət məğlub edildi.

30 min nəfərdən çox Cənubi Azərbaycanın mərd vətənpərvər övladı qəhrəmancasına həlak oldu. Onların içərisində qadınlar da olmuşdur. Şahsevən qızı Səriyyə çox böyük qəhrəmanlıq göstərmişdir. Döyüşlərdə geri çəkilən demokratların bir çoxu Şimali Azərbaycana pənah gətirərkən Araz çayında boğulmuş, müəyyən hissəsi Sovet Azərbaycanına gəlib çıxmışdır. Ələ keçənlərin bir çoxu zindanda çürümüş, 300 min nəfər isə sürgün edilmişdir. S.C. Pişəvəri Azərbaycana gəlmiş, təssüf ki, o da 1947-ci ilin yayında Gəncə-Bakı yolunda (Şamaxı rayonu ərazisində) avtomobil qəzasına düşmüşdür. Bakıda Fəxri Xiyabanda torpağa tapşırılmışdır.



Böyük demokratik əhval-ruhiyyə ilə başlamış Cənubi Azərbaycan Demokratik Respublikası məğlub olsa da çox böyük tarixi əhəmiyyəti olmuşdur. Ən başlıcası odur ki, müstəqilliyə qovuşmaq, vətəni firavan görmək üçün milli mənlik şüurun, milli özünüdərkin möhkəmlənməsi və inkişafı artmışdır. Pişəvəri deyirdi: «Haqqı almaq lazımdır, onu verməzlər».

Bütün bunlar Cənubi azərbaycanlıların vətənə məhəbbətindən, onun müstəqil olmasına inamında və fədakarlığından irəli gəlmişdir. Təsadüfi deyildir ki, Cənubi Azərbaycanın böyük söz ustadı Şəhriyar göstərmişdir:

- Ya, qalx, azad ol!
- Ya da yan, Azərbaycan!

Buranın sadə zəhmət adamından tutmuş yüksək səviyyədə inkişaf etmiş şəxsləri vətənini sevir, onun azad, müstəqil olması uğurunda çalışır, mübarizə aparırlar.

Şimali Azərbaycanda müstəqil dövlətçiliyin yaranmasında XX əsrin görkəmli dövlət xadimlərindən M.Ə. Rəsulzadə, N.Nərimanovun, H.Əliyevin Ə.Əliyevin xidmətləri və şəxsi nümunədir. Onların hər biri öz dövründə Azərbaycan üçün çox faydalı işlər görmüşlər. M.Əmin müstəqil dövlətin yaradıcısı olmuş, N.Nərimanov bu günkü dövlət müstəqilliyi üçün baza yaratmış, Azərbaycanın elm, maarif, səhiyyə, sənaye, kənd təsərrüfatının inkişafını, dövlət atributlarının inkişafına səbəb olmuş, yarımasılı olsa da Azərbaycan dövlətçiliyini qoruyub saxlamışdır. Mircəfər Bağırov Böyük Vətən müharibəsi vaxtı ermənilərin fitfası ilə azərbaycanlıların Orta Asiya və Qazağıstan çöllərinə kütləvi köçürmənin, müsəlman qızlarının əsgər getməsinin, Bakı neft mədənlərinin yandırılmasının qarşısını almış, Azərbaycan diviziyasının yaradılmasına nail olmuşdur. Əbülfəz Əliyev 1989-90-cı illərdə milli azadlıq hərəkatınına rəhbərlərindən biri olmuşdur. Heydər Əliyev yeni Azərbaycanın, III respublikanın qurucusu olmuşdur.

XX əsrdə Azərbaycanda müstəqil dövlətçiliyin meydana gəlməsində Cənubi Azərbaycan türklərinin də böyük ictimai-siyasi və vətənpərvərlik fəaliyyətləri olmuş və böyük şəxsiyyətlər

yetişmişdir. 1905-1911-ci illər Səttarxanın, Bağırxanın rəhbərliyi ilə Milli Demokratik hərəkat baş vermiş, 1920-ci illərdə Ş.M. Xiyabani və 1946-cı illərdə S.C. Pişəvərinin rəhbərliyi ilə Demokratik Respublika qurulmuşdur. Çox təəssüflər olsun ki, onların da dövlətləri irticaya məruz qalmışdır. İrtica qalib gəlsə də bu mübarizə Cənubi Azərbaycanlıların İran ağalığını tutarlı cavabdır. Bu mübarizələr milli şüurun formalaşmasında xüsusi bir mərhələrdir. Bunun da yaranmasında şəxsiyyətlər böyük rol oynayır.

Məmmədəmin Ağa oğlu Rəsulzadə Azərbaycan Milli İstiqlalının başçısı, bütün islam dünyasında ilk Demokratik Respublikanın qurucularından biri olmuşdur. M.Ə. Rəsulzadə 1884-cü ilin yanvarın 31-də Bakının Novxanı kəndində anadan olub, 1902-ci ildə Müsəlman Gənclik Təşkilatı və 1904-cü ildə Müsəlman Sosial Demokratik Təşkilatın «Hümmət»in banilərindəndir. 1910-cu ildə Tehranda İran Demokratik partiyasının əsasını qoymuşdur. 1918-ci ilin mayın 27-də Azərbaycan Milli Şurasının sədri seçilmişdir. 1920-ci il aprelin 27-nə kimi ADR-in MŞ-a sədr vəzifəsində işləmişdir. 1920-ci il aprelin 28-də Sovet qoşunu Bakını tutduqdan sonra o, Lahıc kəndinə çəkilmişdi. Avqustun 17-də onu Lahıc kəndində həbs etmişlər. Lakin Stalinin göstərişi ilə RSFSR Millətlər Komissarlığında Mətbuat Müvəkkili işləmişdir. 1922-ci ilin payızında Skandinaviya ölkələrinə ezamiyyətə getmiş və geri qayıtmamışdır. Xaricdə Azərbaycan xalqını, millətini layiqincə təmsil etmişdir. O, «Qafqaz problemi ilə əlaqədar Panturanizm», «Milli Təsanüd» (Həmrəylik), «Əsrimizin Səyavuşu», «Çağdaş Azərbaycan ədəbiyyatı», «Çağdaş Azərbaycan tarixi», «Azərbaycan Respublikasının keçmişi, təşəkkülü və indiki vəziyyəti», «Azərbaycan Cümhuriyyəti» və s. əsərlərin müəllifidir.

M.Ə. Rəsulzadə 28 may İstiqlal günü münasibətilə gələcək nəsillərə vəsiyyət edərək demişdir:

«... Ey Gənclik! Sənin öhdəndə böyük vəzifə var: Səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yarat-



dı, onu min müşkülatla yüksəldərək dedi ki, bir dəfə yüksələn bayraq, bir daha enməz!

Əlbəttə ki, sən onun ümidini qırmayacaq, bu gün parlament binası üzərində azərilərin yanıq ürəklərinə enmiş bir bayrağı təkrar o bina üzərinə dikəcək və bu yolda ya qazi ya şəhid olacaqsan!»

Vətənini canından çox sevən, Azərbaycan Xalq Cümhuriyyətinin lideri M.Ə. Rəsulzadə 1955-ci il martın 6-da gecə saat on birə 10 dəqiqə qalmış üç dəfə «Azərbaycan ... Azərbaycan Azərbaycan ...» deyərək əbədiyyətə qovuşdu. O, Ankara qəbristanlığında dəfn olunubdur.

## 2.2. Azərbaycanın müstəqilliyinin bərpasına hazırlıq yolları

XX əsrin ilk onillikləri və son on illiklərində müəyyən oxşarlıq olduğuna görə ictimai-siyasi fəallığı ilə seçilən Şimali Azərbaycan müstəqil dövlətinin yaranmasında və xüsusilə möhkəmlənməsində xidməti olan şəxsiyyətlərdən biri ümummilli lider cənab Heydər Əliyevdir. H.Əliyevin siyasi xüsusiyyətlərindən biri odur ki, ictimai-siyasi quruluşu bir-birinə düz gəlməyən dövlətlərdə, Azərbaycan və eləcə keçmiş super dövlət olan SSRİ-də rəhbər vəzifədə işləmişdir. Azərbaycan dövlət müstəqilliyinin bərpasının və möhkəmlənməsinin rəhbəri olmuşdur.

1985-ci ildə SSRİ-də yenidənqurma nəticəsində digər respublikalarla yanaşı, Azərbaycanda da demokratik hərəkat yenidən canlandı. Azərbaycan üçün fəallıq bir də ona görə geniş vüsət aldı ki, Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağ Vilayətinin (o zaman belə adlandırılırdı) Ermənistan respublikasına birləşdirilməsi haqda ermənilər (iyun, 1988) qərar çıxardılar.

«Daşnaksütün» erməni partiyası 1985-ci ilin sonlarında Afina şəhərində (Yunanıstan) keçirdiyi XIII qurultayında əzəli Azərbaycan torpağı olan – Naxçıvan və Qarabağ (Arsaq) tor-

paqları daxil olmaqla «Vahid və müstəqil Ermənistan» yaratmaq ideyasını irəli sürdü.

Azərbaycanda yaşayan erməni icması onlar üçün yaradılan şəraitdən istifadə edərək Azərbaycan torpağı olan Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi haqqında qərar çıxardı.

Bunun ardınca 1988-ci ilin iyununda Ermənistan SSR Ali Soveti DQMV-in iqtisadi vəziyyətinin ağırlığını bəhanə edərək onun Ermənistana birləşdirilməsi haqqında qərar çıxardı.

Doğrudur, keçmiş SSRİ hökuməti 18 iyul 1988-ci il tarixdə bu üzdəniraq qərarları rədd etdi, Qarabağın Azərbaycan torpağı olduğunu rəsmən e'lan etdi.

Ermənistan və Azərbaycanda olan erməni millətçilərinin həyasız hərəkətləri, hüquq pozğunluğu və cinayətkar hərəkətləri başladı.

1988-ci ilin fevralında ermənilər Qafan şəhərindən azərbaycanlıları qovdular. Onların bir çoxu Sumqayıt şəhərində yerləşdi. Aranı qızışdırmaq məqsədilə 1988-ci il fevralın 28-də Sumqayıt hadisəsi deyilən bir qətl törətdilər. Bir-iki erməni öldürüb azərbaycanlıların adına çıxdılar (ilk azərbaycanlı qurbanlar 1988-ci ilin fevralın 24-də Ağdam-Əsgəran yolunda oldu. Əli və Bəxtiyar həlak oldular). Bundan sonra Azərbaycan xalqı ayağa qalxdı, öz qədim torpaqlarını mitinq, şüar və s. yollarla SSRİ hökumətindən tələb etdi.

1988-ci ilin 17 noyabr-5 dekabr günləri Azərbaycan xalqının ən yüksək oyanış günləri idi. Bu günlərdə bir milyondan artıq adam Bakının baş meydanı olan Azadlıq meydanında gecə-gündüz mitinqi davam etdirdi. «Yurd» qrupu ilk təşkilatçı olmuşdur.

İmperiya bu hərəkatdan qorxuya düşdü. Hərbi qüvvənin gücü ilə mitinq dağıdıldı. Lakin xalqın mübarizəsi davam edirdi. Bakıda və Azərbaycanın bir sıra rayonlarında fövqəl'adə vəziyyət rejimi yaradıldı. Bu, əslində siyasi böhran idi, çünki dövlət tənəzzülə gedir, ölkəni idarə edə bilmirdi.



1988-ci ilin yayında Bakı alimlər klubunda təşəbbüs qrupu yaradıldı. Bu qrup bir neçə ay ərzində AXS- nin Proqram və Nizamnaməsini (bir neçə qeyri-formal qrup var idi) hazırladı və buraya «Varlıq» qrupu da birləşdi, 16 iyul 1989-cu ildə AXS-nin təsis konfransı keçirildi (yarımleqal şəraitdə), Əbülfəz Əliyev sədr seçildi. Proqram və Nizamnamə qəbul edildi. 5 oktyabr 1989–cu ildə AXC Azərbaycan Nazirlər Soveti tərəfindən rəsmən qeydə alındı, rəsmi «Azadlıq» qəzeti nəşr olundu ( 24 dekabr 1989-cu il).

Sonrakı dövrdə AXC geniş nüfuz qazandı. Hökumət bundan qorxuya düşərək ona zərbə vurmaq, qarşıdakı seçkilərdə onların iştirakına mane olmaq məqsədilə müəyyən işlər gördü... DQMV-də xüsusi idarə komitəsi (Volskinin rəhbərliyi ilə) 1989-cu ilin yanvarında yaradıldı. (Bu, əslində ermənilər üçün şərait idi). Azərbaycan türklərinin və eyni zamanda orada yaşayan rusların qovulması üçün ermənilərə imkan verdi.

Nəticədə Bakıda xalq hərəkatı genişlənməyə başladı. Bunu görən hökumət xalq hərəkatını boğmaq məqsədilə gizlində 13 yanvar 1990-cı ildə Bakı şəhərində təxribat törətməyə başladı. Xalq cəbhəsi hökumətin iste'fa tələbini irəli sürdü (17 yanvarda). Lakin SSRİ hökuməti Bakıda yaranmış gərgin vəziyyəti bəhanə edərək 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıya, Neftçalaya, Lənkərana, Gəncəyə, Sabirabada və bir sıra digər şəhərlərə qoşun yeritdi, Azərbaycan xalqını qanına qəltan etdi. Lakin xalq geri çəkilmədi, qorxmadı, əyilmədi, əksinə mətinləşdi, mübarizəyə səfərbər oldu. Şəhid olanlar xalqın qəlbində heykələ döndülər. Yeri gəlmişkən müəllim göstərməlidir ki, Azərbaycan xalqı, onun vətənpərvər övladlarının mübarizəsi istismarçı imperiyaların sarsılmasına gətirib çıxarmışdı. Məsələn, Ərəb xilafətinə qarşı Xürrəmi hərəkatı, SSRİ-yə qarşı 1988-ci il Bakı «Meydan hərəkatı» olmuşdur.

1922-ci ilin 30 dekabrında saat 17.36 dəqiqədə böyük təmtəraqla meydana gəlmiş bu imperiya 1991-ci ilin 8 dekabrında Belorusiyanın Belovejskaya qəsəbə qonaq evində üç slavyan respublikası (Rusiya, Ukrayna, Belorusiya) rəhbərlərinin razılığı ilə 68 il 11 ay 7 gün 21 saat 19 dəqiqədən sonra süqut etdi.

Azərbaycan Respublikasının Milli Məclisi 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının istiqlaliyyəti haqqında Konstitusiya aktı qəbul edərək müstəqil dövlət olduğunu rəsmiləşdirdi. Bu məsələ həmin il dekabrın 29-da referendum yolu ilə bir daha təsdiq edildi. SSRİ tərkibində olan respublikalar arasında Azərbaycanda ilk dəfə həyata keçdi.

Azərbaycanın müstəqilliyinin elan edilməsi heç də rəvan olmadı, Azərbaycanda problemlər ortaya çıxdı, çoxlu hadisələr baş verdi.

Əsas hücum düşmənimiz Ermənistanın millətçi ordusunun işğalçı hücumları, xalqımızın mərd oğullarının həlakı, dinc əhalinin əsir düşməsi ilə yanaşı, öz mənafeyini üstün tutan şəxslərin ikibaşlı, deyərdim ki, üçbaşlı siyasəti nəticəsində gənc respublika üçün çətinliklər yarandı.

Respublikada 1991-1993-cü illərdə prezident, icra başçılarının, hərbi sərkərdələrin tez-tez dəyişilməsi ölkədə siyasi vəziyyətin ağırlığından xəbər verirdi.

Azərbaycan Xalq Cəbhəsi 1992-ci ilin iyulunda Əbülfəz Elçibəyin respublikada prezident seçilməsinə nail oldu. Lakin AXC-nin hakimiyyəti dövrü, «bəyçilik» dövrü həddindən artıq bir qrup kütlənin ictimaiyyətçilik dövrü oldu. Bütün cəbhəçilərin, təcrübəsi oldu-olmadı, vəzifə başına gəlməsi respublikada dövlətçiliyin möhkəmlənməsinə, iqtisadi və siyasi sabitliyə gətirib çıxarmadı... Xarici və daxili qüvvələr vasitəsilə təxribat törədildi. 1993-cü il iyulun 4-də Gəncədə hərbi hissədə qiyam baş verdi. AXC hökumətinin istefası tələb olundu. Ölkədə vətəndaş qarşıdurması yarandı.



### 2.3. Azərbaycan dövlət müstəqilliyinin bərpası və möhkəmlənməsində Heydər Əliyevin siyasi-iqtisadi strateji irsinin öyrədilməsi nümunəsində vətənpərvərlik tərbiyəsi

Azərbaycan müstəqilliyinin bərpasından əvvəl və ilk illəri çətin və dramatik olmuşdur. Respublikanın idarəçiliyində Qarabağ problemi, daxili və xarici siyasi problemlər mövcud idi. 1993-cü ilin iyunun 4-də Gəncədə hərbçilər qiyam qaldırmışdılar və s.

Belə ağır gündə Azərbaycanın əksər vətəndaşları, xüsusilə ziyalılar dünya şöhrətli Heydər Əliyevi xilaskar görürdülər. Məhz bu məqsədlə də cənab Heydər Əliyevə müraciət etdilər (Bax. «Səs» qəzeti, 16 oktyabr 1992-ci il). Eyni zamanda hakimiyyətdə olan Xalq Cəbhəsinin iqtidarda olan rəhbərliyi də Heydər Əliyevə müraciət edərək ona Naxçıvandan gəlmək üçün təyyarə göndərdilər. Naxçıvanın Muxtar respublikası Ali Məclisinin sədri, Azərbaycan Milli Məclisin müavini Heydər Əliyev 1993-cü ilin 15 iyulunda Bakıya gəldi. Heydər Əliyev Azərbaycanın Ali Məclisin sədri və sonra isə respublika (3 oktyabrda) prezidenti seçildi.

Sağlığında klassikləşmiş, fenomen dahi şəxsiyyət Heydər Əliyevin 1993-ci ildə hakimiyyətə qayıdışı tarixi bir hadisə oldu. Bu vətəninə, xalqına məhəbbət hissidir. Gənclərin bu nümunədə tərbiyəsi çox böyük əhəmiyyət daşıyır. Müəllim və tərbiyəçilər bu irsin öyrədilməsini həmişə diqqətdə saxlamalı, H.Əliyev nümunəsindən geniş istifadə edilməlidir.

Tarix müəllimi ulu öndər Heydər Əliyevin iqtisadi fəaliyyəti ilə gəncləri tanış edərkən göstərməlidir ki, ulu öndər 64 il Azərbaycanda rəhbər vəzifələrdə çalışmış, çox böyük mədəni iqtisadi, siyasi fəaliyyət göstərmiş, vətənpərvərlik nümunəsidir. Azərbaycanın, onun xalqının tərəqqisinə çalışmışdır. Ümummilli lider Heydər Əliyev Azərbaycanı sevən, müstəqilliyi istəyən şəxslərə yaxşı münasibətdə olmuşdur. Ulu öndər Heydər Əliyev böyük dövlət təcrübəsi əsasında müstəqil dövlətin yaranması

üçün 1960-cı illərdən baza yaratmağa başlamışdır. Bu, birinci növbədə "Gülüstan" poemasının müəllifi B.Vahabzadəyə rəğbətlə yanaşmasından başlanır, sonrakı illərdə gənclərin ittifaqın tanınmış şəhərlərində təhsilə cəlb etdirmələrində özünü göstərmişdir.

Bu bir həqiqətdir ki, ulu öndər Heydər Əliyev Azərbaycan Respublikası üçün zox böyük işlər görmüşdür. İlk rəhbərliyi dövründə (1969-1982) Respublikanı keçmiş Sovetlər birliyində tanıtmış, iqtisadiyyatın bütün sahələrinin inkişafına – kənd təsərrüfatının, xüsusən, pambıqçılığın, sənayenin, neft və qaz sənayesinin, elektrik energetikasının inkişafına (Kür çayı üzərində Yenikənd, Şamxor, Naxçıvanda Su elektrik stansiyası, Mingəçevirdə, Şirvanda İstilik Elektkrik Stansiyaları), Dağ-mədən sənayesinin yaradılması, Kür çayından Bakıya su kəmərinin çəkilişi, Bakıda Kondisoner zavodunun, Neft daşlarında görülən işlər, Bakının Qaradağ rayonundakı "Dərin özlülər" zavodunun tikintisi və yüzlərlə digər sənaye-kənd təsərrüfat sahələrinin yaradılmasına nail olmuşdur. Ulu öndər təhsil, səhiyyə, mədəniyyət, incəsənət – Azərbaycançılıq sahələrinin yüksəlməsinə və Azərbaycana lazım olan ixtisasları əldə etmək məqsədilə azərbaycanlı gənclərin keçmiş sovet dövlətinin aidiyatı ali məktəblərində təhsilə cəlb etmişdir. Hərbi işi canlandırmaq məqsədilə Naxçıvanski adına hərbi məktəbin açılışına nail olmuşdur və s. Bütün bunlar Azərbaycanın müstəqilliyinə, inkişafına xidmət olmuşdur.

1991-ci ildən müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında 15 iyun 1993-cü ildən hakimiyyətə gələn Ulu öndər Heydər Əliyev daha çox Azərbaycan üzün işlər gördü. Heydər Əliyev göstərmişdir ki, Azərbaycanın müstəqilliyi xalqın ən böyük sərvətidir. Ulu öndər Heydər Əliyevin fəaliyyətinin böyük və əvəz edilməz sahələrindən biri Azərbaycanın siyasi vəziyyətini beynəlxalq aləmdə tanıtması və möhkəmlətməsidir.

Ulu öndər Heydər Əliyev müstəqil dövlətin yaşamasını, möhkəmlənməsini siyasi-iqtisadi, mədəni və s. yüksəlişinə nail olmağı, qonşuluq və beynəlxalq münasibətlərin gözlənilməsini, ölkədə dini tolerantlığın qorunmasını və s. əsas götürmüşdür.



Ulu öndər Heydər Əliyev birinci hakimiyyət dövründəki müvəffəqiyyəti respublilkanın müstəqillik dövründəki fəaliyyətilə çox gözəl əlaqələndirmişdir.

Bununla da, Azərbaycan Respublikasının bugünkü inkişafının monolit bünövrəsini qoymuşdur.

Ulu öndər Heydər Əliyev həmişə Azərbaycanı, onun inkişafını düşünmüşdür və həyata keçirmişdir.

Heydər Əliyevin yeritdiyi siyasət nəticəsində insanların mənəviyyatı, məfkurəsi zənginləşdi. Azərbaycanın imici, nəinki keçmiş ittifaq respublikaları arasında, hətta Yaxın Şərqdə, Avropada, ABŞ-da belə yüksəkliklərə qalxdı. Böyük siyasi dövlət xadimi ilk öncə vətəndaşlarının maddi-rifah halının yaxşılaşmasına çalışdı. Yeni yaşayış məntəqələrinin salınması, geniş, abad evlərin, zavod-fabriklərin tikilməsi, elm-təhsil müəssisələrinin açılması və avadanlıqla zənginləşdirilməsi, kənd təsərrüfatında qlobal dirçəlişin və münbit şəraitin yaradılmasına nail olmuşdur. Azərbaycan tarixi üçün bir inqilab etmişdir. Azərbaycan abidələrinin, klassik yazıçı və şairlərimizin heykəllərinin paytaxtın ən möhtəşəm yerlərində ucaldılması, onların əsərlərinin akademik nəşri üçün fərman və sərəncam verdi. Müasir ədəbiyyat və sənət adamlarına dövlət mükafatlarının və fəxri adların verilməsi və yubileylərin keçirilməsi də həmin illərə təsadüf edir. Cəsarətlə demək olar ki, 80-ci illərdən Azərbaycanda demokratik hərəkatın inkişaf edib təşkilatlanmasında, 1990-cü ilin yanvarında Bakıda Sovet Ordusunun törətdiyi 20 Yanvar qırğınına siyasi qiymətin verilməsində, 1991-ci ortalarında Sovet dövlətinin dağılmasından əvvəl Naxçıvan Muxtar Respublikasında müstəqilliyin yaranmasında, ADR-in atributlarının bərpasında Heydər Əliyevin adının, nüfuzunun, xidmətlərinin böyük rolu olmuşdur. Bunlar Heydər Əliyev siyasi kursunun təntənəsi kimi başa düşülməlidir.

Müstəqilliyini bərpa etmiş Azərbaycan 1991-1993-cü illərdə çox məhrumiyyətlərə düçar olmuşdu. Əhali iqtisadi, siyasi böhranla üzləşmişdi. Ulu öndər o vaxt göstərmişdir ki, Azərbaycanın müstəqilliyi tük üzəri ilə addımlayır. Azərbaycan torpaq-

ları erməni millətçiləri tərəfindən işğala məruz qalmışdı. Daxildə demokratiya adı altında hər kəs öz bildiyini edirdi. Bizim müstəqilliyimizi sevməyən bəzi bədxah xarici qüvvələr bu vəziyyətdən məharətlə istifadə edərək aranı qızışdırır, vətəndaş müharibəsi törətməyə rəvac verirdilər. Xalq respublikanın bu ağır günündə ancaq xilaskar kimi H.Əliyevi görürdü.

H.Əliyev Azərbaycan dövlət müstəqilliyi sahəsində böyük işlər görməyə başladı. Az bir vaxtda Gəncədə və Lənkəranda vətəndaş müharibəsi təhlükəsi, Bakıda, Gəncədə və Qazaxda dövlət çevrilişinə cəhdləri ciddi səyi nəticəsində xalqla birlikdə aradan qaldırdı.

Müəllim fənlərarası əlaqədən istifadə edərək aşağıdakı sətirlərin emosiya ilə söylənməsi yaxşı olardı:

1) Kəssə hər kim tökülən qan izini
Qurtaran dahi odur yer üzünü.

*Hüseyin Cavid*

2) "Dünyada ən çətin yol
Azadlığının yoludur,
Milləti millət edən
millətin mərd oğludur!

*Nəbi Xəzri*

Heydər Əliyevin Azərbaycan dövlətinə 1993-cü ildə rəhbər gəlməsi müstəqilliyimizi qorudu, onu xilas etdi. Dünyaya tanıtdı.

Bu milli qurtuluş günü kimi tarixə düşdü. Məhz o gündən Azərbaycanın iqtisadi inkişafının əsası qoyulmağa, dövlətçilik, idarəetmə, müstəqil diplomatik siyasət və s. vüsətlə həyata keçməyə başlandı.

H.Əliyev Azərbaycan istiqlalının sərkərdəsi oldu. Cənab prezident İlham Əliyev qurtuluş günü münasibətilə göstərmişdir:



"...Qurtuluş gününün Azərbaycanın müasir tarixində çox böyük rolu vardır. Məhz bu gündən etibarən Azərbaycan öz inkişaf dövrünü yaşamağa başlamışdır.

Müstəqilliyimizi əldə etdikdən sonra ölkəmiz çox böyük problemlərlə üzləşmişdir. Demək olar ki, ölkəmiz idarə olunmaz vəziyyətə düşmüşdür. Məhz ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı, fəaliyyəti nəticəsində ölkəmiz bu çətin günlərdən şərəflə çıxa bildi. Öz inkişaf dövrünü yaşamağa başladı. Bu inkişaf indi sürətlə davam edir...". *("Azərbaycan "qəzeti, 15 iyun, 2007-ci il)*

Azərbaycanın dövlət kimi tanınmasında ulu öndər Heydər Əliyev dövlət səfərlərini həyata keçirdi. Rusiya, Türkiyə, İran, Gürcüstan, Qazaxıstan, Özbəkistan, Türkmənistan və inkişaf etmiş Fransa, İngiltərə, ABŞ, Səudiyyə Ərəbistanı, Misir, Çin, Əfqanıstan, İtaliya kimi ölkələrdə diplomatik əlaqələr yaradılmasına nail oldu. BMT-nin XIX sessiyasında, Macarıstanın Budapeşt, Mərakeşin Kasablanka, Portuqaliyanın Lissabon, Fransanın Strasburq şəhərlərindəki zirvə toplantısından dərin məzmunlu nitqlər söyləyərək dövlətin beynəlxalq aləmdə nüfuzunu artırmaqla yanaşı, Ermənistanın torpaqlarımızın 20 faizdən çoxunu işğal etməsini, bir milyondan artıq azərbaycanlının öz vətənində qaçqın olmasının dəqiq faktlarla diqqətə çatdırdı, Lissabon sammitində iştirakı 54 dövlətdən 53 dövlətin dəstəyini aldı, düşmənin torpaqlarımızdan qeyri-şərtsiz çıxarılması tələbini irəli sürdü və s.

1994-cü ilin may ayından atəşkəsə nail olması böyük tarixi xidmətdir. O, eyni zamanda respublika iqtisadiyyatının yüksəldilməsi, manatın məzənnəsinin sabitləşməsi, ölkəmizdə, xüsusən onun paytaxtı Bakı şəhərində sabitliyin yaranması respublikada yaşayan ayrı-ayrı millət və xalqlara hörmətlə yanaşılması, Xəzərin Azərbaycan sektorunda dünyanın aparıcı dövlətləri ilə "Əsrin müqaviləsi" adlandırılan neft konsorsiumunun bağlanması (20 sentyabr 1994-cü il və s.) və s. kimi məsələlərin həlli sahəsində yorulmadan fəaliyyət göstərmişdir. Bütün bunlar müstəqil dövlətin möhkəmlənməsi yolunda görülən tarixi əhəmiyyətli hadisələrdir.

XX əsrin əvvəllərində ermənilər "Böyük Ermənistan" yaratmaq məqsədilə azərbaycanlıları öz ata-baba torpağından didərgin salmaq məqsədilə 1905-1907-ci illərdə, 1917-ci və 1918-ci illərdə Qərbi Azərbaycanda, o cümlədən, Qarabağda türklərə qarşı soyqırımı törətməyə başlamışlar. Çar generalı Denikinin Qafqaza hücumundan istifadə edərək Qərbi Azərbaycanda 115 kəndi dağıtmış, 150 min nəfəri qırmışlar.

1918-ci il soyqırımı daha geniş ərazini əhatə etmişdir. Qərbi Azərbaycanı azəri türklərindən təmizləyən ermənilər Naxçıvanda, Gəncədə, Bakıda, Qubada, (qətliam qəbri bu illərdə tapılmışdır) Göyçayda, Kürdəmirdə, Şamaxıda, Qarabağda, Zəngəzurda və s. regionlarda böyük miqdarda dinc əhalini qırmışlar. Təkcə 1918-ci ilin martın 30, 31 və aprelin 1-də Bakıda 12 min, Bakı ətrafında isə 8 mindən çox dinc azərbaycanlını qırmışlar. Ümumilikdə bu soyqırımında 50 min azəri türkü ermənilər tərəfindən soyqırımına məruz qalmışdır. Eyni zamanda Azərbaycan mədəniyyət nümunələri, tarixi abidələri dağıdılmışdır.

XX əsrin sonlarında da ermənilər azərbaycanlılara qarşı soyqırımını həyata keçirmişlər. Azərbaycandan torpaq qoparmaq məqsədilə oyuncaq Qarabağ problemi yaratmaqla ermənilər 1988-ci ildə azərbaycanlıları silah gücünə qovmağa başladılar. Doğrudur, xalq özünümüdafiə dəstələri yaradır, vətəni qoruyurdular. Lakin fürsət tapan kimi ermənilər vəhşi hərəkətlərə əl atır, adamları öldürür, girov götürür, diri-diri tonqala atırdılar. Buna misal Meşəli kəndindəki bir qrup maldarın yandırılması, Qarakənd ətrafında dövlət nümayəndələri və görkəmli vətənpərvər ziyalıların mindiyi vertolyotu vurub yandırmaqla (20 noyabr 1991), Xocalı şəhər sakinlərinin (uşaqlı,böyüklü) kütləvi qırğınlarını (26 fevral 1992) göstərmək olar.

Vətəni uğrunda həlak olanlar sözsüz ki, şəhid adlanırlar. Şəhidlərimizə hörmət və ehtiram əlaməti olaraq abidələr ucaldılmış, cild-cild əsərlər yazılmış, şeirlər deyilmiş və sözsüz ki, bundan sonra da bu sahədə yeni-yeni əsərlər yaranacaqdır. Müəllim uşaqlara tariximizin qanlı səhifələrini öyrətməklə yanaşı, onlarda vətənə, vətən övladlarına məhəbbət hissi tərbiyə etmək və



düşmənə nifrət hissini emosional şəkildə aşılamaq məqsədi ilə mövcud ədəbiyyatdan dərs zamanı və sinifdənxaric, məktəbdənkənar tədbirlərdə geniş istifadə etməli, yeri gələndə inşa yazı yazdırmalı, disput və görüşlər keçirməli, vətən şəhidlərinə ucaldılmış abidələrə, muzeylərə aparmalı, abidələrə xidmət işini təşkil etməlidir.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı barədə Azərbaycanın ümummilli lideri, respublika prezidentliyi dövründə, dahi H.Əliyev 18 dekabr 1997-ci il və 26 mart 1998-ci ildə tarixdə tarixi əhəmiyyətə malik fərmanlar vermiş, ermənilər tərəfindən Azərbaycana qarşı törədilmiş talanların, soyqırımların mahiyyəti göstərilmişdir.

Ümummilli liderimiz cənab H.Əliyevin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR (Qərbi Azərbaycandan) ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" (18.XII.97.) verdiyi fərmanda deyilir: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli facia və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən, min illər boyu yaşadıqları və doğma etnik torpaqlardan didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi mədəni və yaşayış məskəni dağıdılıb viran edilmişdir". "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanda azərbaycanlıların soyqırımı barədə daha ətraflı danışılır. Xüsusilə də qırğınla yanaşı, onların bizim xalqa qarşı apardıqları mənəvi təcavüzləri göstərilir.

Tarixi faktlar təsdiq edir ki, "yazıq, məzlum erməni xalqı"nın surətini yaradaraq əsrin əvvəllərində Qafqazda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırım törədənlər soyqırım qurbanları kimi qələmə verilirdi...

Ermənilər tarixi saxtalaşdıraraq erməni uşaqlarının şovinist ruhunda böyüməsinə zəmin yaradır və bu, dövlət siyasəti sə-

viyyəsinə qaldırılır. Böyük humanist ideyalara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz erməni faşist ideologiyasının təqiblərinə məruz qalır...

1980-ci illərdə Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırımı siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı...

"...Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşahidə olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətin ayrı-ayrı mərhələlərini təşkil etmişdir..." (71).

Müəllim qeyd edərək göstərməlidir ki, azərbaycanlıların 1918-ci il mart soyqırımına Azərbaycan Xalq Cumhuriyyəti siyasi qiymət verməyə cəhd göstərmişdir. Digər sahələrdə olduğu kimi Cumhuriyyət bu işdə yarımçıq qalmışdır. Ancaq 90 ildən sonra dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası rəhbərliyi bir vasitə kimi 28 mart 1998-ci ildə ermənilərin azərbaycanlılara qarşı soyqırımına siyasi qiymət vermişdir. 1998-ci ildən 31 mart azərbaycanlıların soyqırımı günü kimi qeyd edilir.

Xarici siyasətin aparılması, daxili sabitliyin yaradılması ilə yanaşı müstəqilliyimizin möhkəmləndirilməsi və inkişafı naminə ölkədə iqtisadiyyat, təhsil, hərbi, səhiyyə və s. islahatlar başlanmış, "Dövlət mülkiyyətinin özəlləşdirilməsi" proqramını təsdiq olunmuşdur. Ölkədə iqtisadi, siyasi və hüquqi islahatlar həyata keçirilmişdir, Respublika Konstitusiyası qəbul edilmişdir.

Azərbaycanın müstəqil dövlət atributlarından biri onun Konstitusiyasıdır. Konstitusiya dövlətin əsasını təşkil edir və onun hansı yolla getdiyini özündə əks etdirir. Böyük dövlətçilik təcrübəsinə malik olan ulu öndər cənab Heydər Əliyev bu mühüm məsələni əsas götürərək müstəqillik qazanmış demokratik Azərbaycan Respublikasının Konstitusiyasını yaratmaq məqsədilə dövlət komissiyası yaratdı. Bu qanun layihəsi Heydər Əliyevin rəhbərliyi ilə yazıldı. 1995-ci il noyabrın 12-də Azərbaycan Respublikasında referendum yolu ilə qəbul edildi.



Azərbaycanın Respublikasının Qanunu – Konstitusiyası 1995-ci il noyabrın 27-də qüvvəyə mindi. Bununla da Azərbaycan dünyanın inkişaf etmiş demokratik dövlətlər birliyində özünə yer etdi. (32).

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin bu dahiliyi tarix müəllimlərinin gözündən yayınmamalı, gənc nəslə bu ibrətamiz irsi geniş şəkildə öyrətməlidirlər.

Azərbaycan Respublikasının Konstitusiyasının əsas niyyətlərini (əsas məqsədi) tələbə və şagirdlərə başa salan müəllim göstərməlidir: "Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, təntənəli surətdə aşağıdakı niyyətləri bəyan edir:

- *Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;*
- *Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;*
- *vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;*
- *xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;*
- *ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək;*
- *ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.*

Yuxarıda sadalanan ülvi niyyətlərlə ümumxalq səsverməsi – referendum yolu ilə bu Konstitusiya qəbul edilir".

Azərbaycan Respublikasının Konstitusiyası beş bölmədən, on iki fəsil, 158 maddədən ibarətdir. Bu qanun Azərbaycanda Heydər Əliyev irsinin məhsuludur. Bununla Heydər Əliyev Azərbaycanda hüquqi və dünyəvi dövlət qurmuşdur. Hazırda Azərbaycan Respublikası bu kökə söykənir və inkişaf edir (32).

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin Respublika prezidentliyi dövründə apardığı xarici siyasətin ana xətti Azərbaycanın Ermənistan tərəfindən təcavüzə məruz qaldığını bütün dünyaya başa salmaq olmuş və o, Qarabağ probleminin həllinə çalışmışdır.

Kəlbəcərin, Ağdamın və Azərbaycanın digər işğal edilmiş torpaqlarından ermənilərin çıxarılması tələbi ilə bağlı Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında 4 dəfə qətnamə qəbul edilmişdir ki, burada da H.Əliyevin xidmətləri böyükdür (30.04.1993-cü il, 822; 29.07.1993-cü il, 853; 14.10.1993-cü il, 874 və 12.11.1993-cü il, 884 saylı qətnamələrini göstərmək olar).

Yeri gəlmişkən, müəllim Azərbaycanın ümummilli lideri Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT Baş Məclisinin 59-cu (24 sentyabr 2004-cü il) sessiyasındakı vətənpərvərliklə dolu cəsarətli çıxışını tələbələrin (şagirdlərin) diqqətinə çatdırmalıdır. Cənab Prezident çıxışında göstərdi ki, BMT-nin işində həlli vacib məsələlər qalmaqdadır. BMT-nin çıxardığı qərar və qətnamələr, xüsusilə də silahlı münaqişələrə aid olan problemlər həyata keçirilməmiş qalır. Dövlət başçımız BMT-nin bu məsələni həll edə bilmədiyi fikrini dünyanın 190 dövlət rəhbərliyi qarşısında söyləmiş və BMT-də islahatların keçirilməsi təklifini vermişdir.

Azərbaycan Prezidenti BMT-nin Baş Katibinə müraciətən demişdir:

*«Cənab Baş Katib!*

*Təhlükəsizlik Şurasının biganəliyi münaqişənin həlli prosesinə dağıdıcı təsir göstərir. Qətnamələrə məhəl qoymayan, hərbi təcavüzünün nəticələrini möhkəmləndirməyə çalışan və bu hərəkətlərinə görə cəzasız qalan Ermənistan nəticə etibarilə işğal olunmuş Azərbaycan ərazilərində Ermənistan əhalisinin kütləvi*



*şəkildə qeyri-qanuni məskunlaşdırılması kimi siyasət həyata ke-*
*çirmişdir ki, bu da beynəlxalq hüququn, xüsusilə Müharibə Za-*
*manı Mülki Şəxslərin Müdafiəsi üzrə 1949-cu ildə qəbul edilmiş*
*4-cü Cenevrə Konvensiyasının müddəalarının açıq şəkildə po-*
*zulmasıdır. Bundan əlavə, həmin ərazilərdə narkotik maddələrin*
*qeyri-qanuni dövriyyəsi, silah ötürülməsi, qeyri-qanuni iqtisadi*
*fəaliyyət, qaçaqmalçılıq məqsədi ilə istifadə edilməsi, bu ərazilə-*
*rin terrorçu yuvasına çevrilməsi vəziyyəti daha da gərginləşdirir"*
və s. fikirlərini söyləmişdir ("Xalq qəzeti", 25.09.2004).

Müəllim onu da çatdırmalıdır ki, cənab İ.Əliyevin çıxışının
təsirilə Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət
BMT-nin Baş Assambleyasında müzakirəyə çıxarılaraq oktyab-
rın 28-də Komitənin iclasında gündəliyə salınmışdır ("Xalq qəze-
ti", 30.10.2004). Bu məsələ 2004-cü ilin noyabr ayında müzakirə-
yə çıxarıldı.

2001-ci ilin oktyabrında isə ABŞ höküməti 907-ci düzəlişin
ləğvinə dair qərar çıxarmışdı. Lakin bu, müvəqqəti oldu. (1992-
ci ildə ABŞ hökuməti Azərbaycana humanitar yardım etməmək
barədə qərar çıxarmışdı). H.Əliyev göstərmişdir: "*Azərbaycan*
*Respublikasının müstəqilliyi tarixi bir hadisədir. Bu, Azərbayca-*
*nın milli sərvəti, milli nailiyyətidir. Biz düz yolla-haqq yolu ilə,*
*Allah yolu ilə, Quran yolu ilə, demokratiya yolu ilə, həqiqət yo-*
*lu ilə, müstəqillik yolu ilə gedirik. Tutduğumuz yol bizi Azər-*
*baycanın çox gözəl gələcəyinə aparıb çıxaracaqdır. Bizim, Sizin,*
*hamınızın vəzifəsi müstəqil Azərbaycanın sağlam gənclərini milli*
*vətənpərvərlik ruhunda tərbiyə etməkdir. Gənclərimizi bilikli*
*etmək, müasir dünyanın əldə etdiyi nailiyyətlər səviyyəsinə qal-*
*dırmaqdır. Respublikamızın gənclərini Azərbaycanda müstəqil,*
*demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu işinə cəlb*
*etməkdir*" (10, səh. 19). Azərbaycanın dahi oğlu H.Əliyev res-
publikanın müstəqilliyi yolunda böyük xidmət göstərmişdir.
Ümummilli lider Azərbaycanın müstəqilliyinin qarantı kimi çı-
xışında göstərmişdir: "... *Mən Azərbaycanın müstəqilliyini*
*Azərbaycan xalqı üçün böyük nailiyyət hesab etmişəm və bu*
*müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra*

*ömrümün qalan hissəsini də Azərbaycanın müəstəqilliyinin möhkəmlənməsinə və inkişaf etməsinə sərf edəcəyəm"* (1).

Azərbaycanın dahi oğlu, milli lider xalqına, vətəninə, şah əsəri olan müstəqil Azərbaycana sevgisini belə bildirmişdir: "Mən bütün həyatımı xalqıma xidmət etməyə həsr etmişəm, başqa yolum yoxdur. Vətənə, xalqıma, millətimə məhəbbət, müstəqil Azərbaycan dövlətinə, Azərbaycan Respublikasına hədsiz məhəbbət mənim həyatımın mənasıdır, məzmunudur" (1).

Bəli, dahi şəxsiyyət, türk dünyasının mənəvi atası Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini yaratdı, dünya birliyində ona yer elədi, bu dövlətin inkişafı, möhkəmlənməsi üçün çox böyük xəzinə qoydu. Dövlətçiliyin inkişafı üçün xalq sevgisi, dövlət idarəçilik məktəbi, layiqli davamçı, müstəqil Azərbaycan Respublikasını qoydu.

Vətənpərvər şəxsiyyət, böyük dövlət xadimi ümummilli lider H.Əliyev şəxsiyyətinin öyrədilməsi böyük bir universitetdir və bu universitetdən hamının faydalanması gərəkdir. Bu dövr tariximizin qızıl hərflərlə yazılmış səhifəsidir.

Azərbaycanda müstəqilliyin yaranması və bərpası çox uzun bir tarixi yol keçmişdir. Bu yolda xalqın özünü dərk etməsi, ziyalı təbəqəsinin yetişməsi onun vətənpərvərliyindən irəli gəlmişdir. Yuxarıda göstərdiyimiz "azadlıq qoru (gözdən kiçik parça) kül altında" ancaq ona görə yanar qalıb ki, burada xalqın, millətin vətən sevgisi, yadlara, işğalçılara nifrət hissi güclü olmuşdur. Bu da nəticə etibari ilə yenidən alovlanmış, müstəqillik arzularını çin etmişdir» (72).

İstiqlal mübarizəsi tarixinin görkəmli tədqiqatçısı böyük vətənpərvər Hüseyn Baykara göstərmişdir ki, "Millətin həyatında hər dövr, hər çağ bir neçə yüz ili əhatə edir. Bu çağlarda xalq, millət (T.P.) inkişaf edir və yetişir.

...Azərbaycan tarixində yeniləşmə hərəkatının əvvəlcə ziyalıların fikir dünyasında doğması və fikirlərin həqiqi xalq həyatına keçirilməsi, yəni qərb anlamında renessans, reformasiya çağları və ondan sonra bu çağların üstündə qurulan hürriyyət, azadlıq mübarizəsi dövrü əsrdən çox bir müddəti əhatə etmişdir.



Millətlərin oyanışı renessansı çağında, o millətin içində yetişən ziyalı rəhbər şəxslərə görə əvvəlcə mənsub olduğu millətin kimliyi və keçmiş zamanlardakı vəziyyəti araşdırılır. Sonra geri qalmış və bu geriliyin səbəbi isə yabançı imperialist millətin əsarəti altına düşmüş olan xalqa onun kimliyi tanıdılır. Beləliklə, müstəmləkədə olan xalq öz mənliyini öyrənir, keçmiş zamanlarda atalarının əsarət altında yaşamadıqlarını, müstəqil dövlət qurduqlarını anlayır. Nəticədə millətin şüuru oyanır, azadlıq mübarizəsinə başlayır" ("Ziyalı" qəzeti. İyun-iyul, 1998-ci il).

Ulu öndər Heydər Əliyev xalqına sədaqətlə xidmət etmişdir. Milli dəyərlərə hörmətlə yanaşmışdır. Bunun bir nümunəsi də Azərbaycan xalqının milli və mənəvi ənənələrinə daim sadiq olması və bu ənənələrin müstəqil dövlətimizdə yaşamasını və inkişafını təmin etməsidir. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə respublikamızda qeyri-leqal keçirilən «Novruz bayramı»nın və «Qurban bayramı»nın rəsmi şəkildə qeyd edilməsi öz həllini tapdı. Dini tolerantlıq yaradıldı. (Məhz bunun nəticəsidir. 2010-cu ildən «Novruz bayramı»nın keçirilməsi beynəlxalq statusu qazanmışdır). Azərbaycanın mənəvi həyatında rol oynayan ədiblərin, əsərlərin əhəmiyyətli dərəcədə yubileyləri keçirildi. Məmməd Arazın, Məhəmməd Füzulinin yubileylərinin, "Kitabi-Dədə Qorqud"un 1300 illiyinin keçirilməsinə sərəncam vermiş, müstəqil dövlətin ilk ordeni olan "İstiqlal" ordenini Bəxtiyar Vahabzadəyə, Məmməd Araza və Xəlil Rzaya təqdim etmişdir. Bu, mədəni irsimizə qayğı deməkdir.

Heydər Əliyev tərəfindən Azərbaycanın nadir coğrafi-siyasi mövqeyi həm Böyük İpək yolunun dirçəldilməsi kimi genişmiqyaslı iqtisadi layihələrin reallaşdırılması üçün istifadə edildi, həm də o, Azərbaycan mədəniyyətinin əsl əhəmiyyətini bütün genişliyi və müxtəlifliyi ilə fəlsəfi baxımdan dərk etmək üçün bünövrə oldu. Azərbaycan Respublikasının təqvimində faşizm üzərində Qələbə gününün bərpası kimi sadə addımlardan başlayaraq, elm, mədəniyyət və təhsil sahəsində dəyişikliklərə qədər Heydər Əliyevin son 10 ildə gördüyü bütün işlər onun milli dir-

çəliş fəlsəfəsinin gerçəkləşdirilməsinə, azərbaycançılıq ideologiyasına xidmət etmişdir.

1993-cü il oktyabrın 28-də Heydər Əliyev Rusiyada yaşayan azərbaycanlıların nümayəndələrindən biri, məşhur neftçi Fərman Salmanovla görüşdü. Bu görüşü 2001-ci il noyabr ayının 9-da keçirilən Dünya azərbaycanlılarının birinci qurultayından Heydər Əliyev milli dövlətçiliyimizin ideya təməli barəsində danışarkən göstərmişdir: "***Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır***". Azərbaycanın siyasi, ictimai və mədəni həyatında baş verən bir çox hadisələr, əslində, milli dövlətçiliyimizin prinsiplərinin ideyası baxımından əhəmiyyətlidir. Bu prosesləri diqqətlə izləyən, çox vaxt onların təşəbbüskarı və iştirakçısı olan Heydər Əliyev belə bir fikri söyləmişdir: "*Azərbaycan xalqının milli sərvəti və intellektual mülkiyyəti, eyni zamanda Azərbaycanın ədəbiyyatıdır, mədəniyyətidir. Ona görə də biz müstəqil dövlətimizi boş yerdə qurmağa başlamamışıq. Bizim iqtisadi potensialımız olduğu kimi, bir potensialımız da – intellektual potensialımız da vardır. Bizim mənəvi potensialımız – ədəbiyyatımız, mədəniyyətimiz intellektual potensialımızın əsasını təşkil edir. Bunu yaradanlar var. Bunu yaradanlar bizim dahi insanlardır. Onlar bəşər mədəniyyətini əsrlərdən-əsrlərə zənginləşdirən əsərləri ilə Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradırlar*". (1)

Heydər Əliyev dünya azərbaycanlılarının qurultayındakı dolğun nitqini bitirərkən demişdir: "*Qoy, çaylarımız qurumasın! Qoy, ağaclarımız kəsilməsin! Qoy, çırağımız sönməsin!*". *Heydər Əliyevin bu sözlərini mahiyyətcə canlı orqanizmi xatırladan, milli dövlətçiliyimizi formalaşdıran və inkişaf etdirən azərbaycançılıq ideologiyasına da şamil etmək olar.*

*Qoy, bu azərbaycançılıq ideologiyasını daim qidalandıran tükənməz çaylar heç vaxt qurumasın! Qoy, bu azərbaycançılıq ideologiyasını göylərə qaldıran Azərbaycan incəsənətinin zirvələrini heç vaxt qara buludlar almasın! Qoy, Azərbaycanın bu həmişəyaşıl mənəvi sərvətlər ormanlığından bir ağac belə kəsilməsin! Qoy, Azərbaycanın və onun dövlətçiliyinin başı üzərində daim günəş nur saçsın! Azərbaycan xalqı yaşadıqca, Azərbaycan mədəniyyəti çiçəkləndikcə, azərbaycançılıq ideologiyası inkişaf etdikcə Azərbaycan milli dövlətçiliyi də əbədi var olacaqdır.*



*Lakin unutmamalıyıq ki, bu gün Azərbaycanda xarici qüvvələrin dəstəklədiyi, vətəndaş qarşıdurmasını qızışdırmaq istəyən məsuliyyətsiz adamlar vardır. Heydər Əliyev gözəl başa düşdüyü və qiymətləndirdiyi belə mürəkkəb vəziyyəti yalnız öz zəkasının gücü ilə idarə edirdi.*

*Azərbaycanın böyük dövlətlərin arasında məngənəyə alındığı ağır bir vaxtda Heydər Əliyev öz xalqının xilaskarı kimi gəldi. O, tədricən, qətiyyətlə, amma təzyiqsiz məcbur edə bildi ki, onun özünə və respublikaya hörmət etsinlər. Bunu yaxın və uzaq dövlətlər ilə münasibətlərdə etmək o qədər də çətin deyildi, çünki bu ölkələrin rəhbərləri başa düşürdülər ki, Heydər Əliyevi asılı vəziyyətə salmaq mümkün deyil və o, Azərbaycanın müstəqilliyindən heç vaxt imtina etməyəcəkdir. (31)*

Heydər Əliyev Azərbaycan siyasətinə təzə nəfəs, təzə ruh gətirdi. Xalqa arxalandı. Demokratiyanı əsas götürdü. Müstəqil Azərbaycan dövlətinin yaranması üçün nikbin əhval-ruhiyyə yaratdı. Azərbaycan hərc-mərcliyə, özbaşınalığa son qoyuldu. Müstəqilliyimiz haqqında yaranmış mənfi fikirləri aradan qaldırdı.

Heydər Əliyev Azərbaycan tarixində görkəmli yer tutmuş tarixi şəxsiyyət, milli liderdir. H.Əliyev Azərbaycan tarixinin XX əsrdə yaradıcısıdır. H.Əliyevin Azərbaycanın dövlətçiliyinin inkişafında və möhkəmlənməsində əvəzsiz xidmətləri olmuşdur. Azərbaycan Respublikasında dövlət atributlarının, Azərbaycan diplomatiyasının, dövlət təhlükəsizliyinin, Daxili və Sərhəd Qoşunlarının, Daxili və Xarici İşlər Nazirliyinin, dövlət gömrük işinin, dövlət vergi sisteminin, Azərbaycan təhsil, səhiyyə mədəniyyət, incəsənət sahələrinin, Dövlət Konstitusiyasının, demokratik seçki sisteminin, dini tolerantlığın, Dövlət Özəlləşmə siyasətinin, Respublikanın iqtisadi inkişafının, vətəndaş həmrəyliyinin, Dünya Azərbaycan Diasporunun və s. yaranması və inkişafını həyata keçirməklə Azərbaycanın inkişafı üçün yol müəyyən etmiş, böyük vətənpərvər şəxsiyyətdir.

Müstəqilliyini əldə etmiş Azərbaycan Respublikası yeni iqtisadi siyasəti həyata keçirməyə başlamışdır. Bu birinci növbədə ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan iqtisadiyyatının ilk dəfə olaraq müstəqillik, xüsusi mülkiyyətçilik, iqtisadi təhlükəsizlik və habelə real potensialının qiymətləndirilməsi, onun daxili və xarici bazarının formalaşması baxımından hər tərəfli öyrənilməsi obyektiv zəruriyyət olmuşdur. Yaşadığımız dövr Azərbaycanın nəzəri cəhətdən əsaslandırılmasını və əməli fəaliyyət üçün tövsiyələr verilməsini tələb edir.

Azərbaycanın iqtisadiyyatının strateji problemini dərindən bilən Azərbaycanın ümummilli lideri Heydər Əliyev dövlətin iqtisadi strateji planını vermişdir. Hüquqi baza yaratmışdır.

1996-cı ildən respublikamızın iqtisadiyyatında sabitlik yarandı və artım başlandı.

XX əsrin II yarısında Azərbaycan təhsilinin inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.

1969-cu ildə Azərbaycanda rəhbər vəzifəyə gələn H.Əliyev 1969-1987 və 1993-2003-cü illərdə Azərbaycan üçün çox iş görmüşdür. Bu dövr respublikamızın intibah dövrü olmuşdur. Professor Misir Mərdanov göstərmişdir ki, «Həmin dövrlərdə Azərbaycan istər sosial-iqtisadi, istərsə də ictimai-mədəni sahələrdə dinamik və güclü inkişaf yolu keçməsəydi, demokratik idarəetmənin ilk cücərtiləri meydana gəlməsəydi, milli-mədəni dəyərlərimizə qayıdışın əsası qoyulub inkişaf etməsəydi, biz bərpa etdiyimiz müstəqilliyimizi reallaşdıra, bütün sahələrdə qısa müddətdə güclü inkişafa nail ola bilməzdik» Ulu öndər Heydər Əliyev Azərbaycanda sənayedə, kənd təsərrüfatında və s. sahələr üzrə aparılan dövlət siyasəti kimi elmə, təhsilə, səhiyyəyə və mədəniyyət sahəsi üzrə də dövlət siyasəti yeridilmişdir. (59)

Azərbaycan dövlət müstəqilliyinin bərpası dövründə bütün sahələrdə, o cümlədən də təhsil sahəsində islahatlara hazırlıq dövrü kimi xarakterizə olunan 1993-1998-ci illərdə Heydər Əliyevin rəhbərliyi ilə bir sıra önəmli addımlar atıldı. 1993-1994-cü dərs ilindən ali təhsildə ikipilləli sistemə 4 illik bakalavra və 2 illik magistraturaya keçildi. 1995-ci ildə qəbul olunmuş Konstitusiyaya əsasən, ölkəmizdə icbari ümumi orta təhsil tətbiq olunmağa başlandı. Təhsilin bütün pillələrinin normativ hüquqi bazasının yaradılması, məzmunun yeniləşdirilməsi istiqamətində sistemli işlər görüldü, bir sıra addımlar atıldı. Azərbaycan Konstitusiyasında təsbit olunmuş bütün hüquq və azadlıqlarla yanaşı, təhsil hüquqlarının da təminatı həyata keçirildi, yeni iqtisadi sistemə keçid şəraitində konkret təhsil siyasəti formalaşdırıldı, sistemin təkmilləşdirilməsi, yeniləşdirilməsi məqsədi ilə islahatlara hazırlıq işləri aparılırdı.



1998-ci ildə Heydər Əliyevin sərəncamı ilə Təhsil Sahəsində İslahat Proqramının hazırlanması üçün xüsusi dövlət komissiyası yaradıldı. Ən nüfuzlu nazirliklərin və dövlət qurumlarının rəhbərlərinin daxil olduğu komissiyaya başçılıq etmək təhsil nazirinə həvalə olundu. Dövlət komissiyası tərəfindən çox qısa müddət ərzində Azərbaycan Respublikasının Təhsil Sahəsində İslahat Proqramını hazırlandı.

1998-ci ildə ulu öndərin rəhbərliyi ilə Təhsil Sahəsində İslahat Proqramı hazırlandı, xüsusi dövlət komissiyası yaradıldı.

13 iyul 1999-cu ildə «Azərbaycan respublikasında təhsil islahat proqrammı haqqında» fərman imzalanmışdır. Bu təhsilə ulu öndərin diqqət və qayğısını göstərir.

1993-2003-cü illərdə xarici dövlətlərə təhsil almaq üçün tələbələrin göndərilməsi işinin həyata keçirilməsinə başlanmışdır. Təkcə 2003-cü ildə 40 ölkəyə 160-a qədər ixtisas üzrə 3000-dən artıq azərbaycanlı gənc təhsil almışdır. Bu iş hər il ardıcıl davam etdirilir.

Məktəb tikintisi də diqqət mərkəzində olmuşdur. 1998-2002-ci illərdə 10 rayonda 8936 yerlik 28 məktəb binası tikilmiş, 15 rayonda 29045 yerlik 70 məktəb binası təmir edilmişdir. Bu sahə üzrə işlər indi də davam etdirilir. 1993-2003-cü illərdə ali məktəblərin sayı (6 yeni akademiya – Rəssamlıq, Milli Aviasiya, Dənizçilik, Milli Təhlükəsizlik, Musiqi, İdarəçilik) artırılmış, özəl ali məktəblər yaradılmışdır.

Proqram və dərsliklərin əksəriyyəti yeniləşdirilmişdir.

Azərbaycan respublikasında təhsilin inkişafı, məktəb tikintisi, maddi və texniki avadanlıqlarla təmini sahəsi üzrə bir çox proqram işlənmişdir. Hazırda nəzərdə tutulan tədbirlər icra olunur.

1992-2002-ci illərdə bir sıra fərman və sərəncamlar verildi:

- Meliorasiyanın inkişafına dair,

- Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı (1997-2005) dövlət proqramı.

- Sahibkarlığa Kömək Milli fondunun əsasnaməsinin təsdiqi, sahibkarlara dövlət qayğısı (2002)

- Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında (28.09.2002) və digər fərman və sərəncamlar Azərbaycan iqtisadiyyatının bugünkü inkişafının əsasını qoymuşdur.

Bu həll respublikada siyasi-iqtisadi sabitliyə və həm də ölkədə yeni-yeni iqtisadi müqavilələrin bağlanmasına, investisiyanın ölkəyə gəlməsinə səbəb oldu. Ölkədə gömrük işi təşkil edildi. Qara Dəniz İqtisadi və GUAM iqtisadi birliklərin işində Azərbaycanın fəal iştirakı təşkil olunmuşdur.

Hazırda respublikamızın iqtisadi-siyasi, sosial-mədəni inkişafı prezident cənab İlham Əliyevin rəhbərliyi və səyi nəticəsində uğurla həyata keçirilir. Bu Heydər Əliyev irsinin həyata keçməsi deməkdir. Müstəqil dövlətin möhkəmlənməsi yolunda görülən tarixi əhəmiyyətli hadisədir. Azərbaycan tarixinin yeni səhifəsidir.

Heydər Əliyevin siyasi, iqtisadi, sosial, mədəni irsinin öyrədilməsi nümunəsində şagird və tələbələrin tərbiyə edilməsi müstəqilliyimizin möhkəmlənməsi, inkişafı deməkdir. Vətənpərvərlik tərbiyə nümunəsidir.

Ölkədə sabitliyi əldə etmiş ulu öndər Heydər Əliyev iqtisadi islahatların hüquqi bazasının yaradılmasına nail oldu.

1. Ölkədə dövlət özəlləşməsinin hüquqi əsasının yaradılması.
2. Xarici investisiyanın respublikaya gəlməsi üçün şəraitin yaradılması.



3. Dövlətlərarası iqtsadi-ticari əlaqələrin qurulması.
4. Respublikada açıq qapı siyasəti üçün hüquqi bazanın yaradılması.
5. Əsrin neft müqaviləsinin bağlanması.
6. Xarici dövlətlərdə yaşayan həmyerlilərimizlə əlaqələrin qurulması
7. Azərbaycan dövlət rəhbərləri üçün iqtisadi fəaliyyət mexanizminin yaradılması və digər məsələlər ulu öndərin iqtisadi strategiyasının sahələridir.

Nəticə etibarilə aparılan islahatlar sosial yönümlüyü ilə xarakterizə edilir. Bu əhalinin əmək haqqının artırılmasının əsasını qoymuşdur. Eyni zamanda dövlətin digər sahələri üzrə də islahatlar aparıldı. Bugünkü siyasi, sosial-iqtisadi inkişaf Azərbaycanın ümummilli lideri Heydər Əliyevin şah əsəridir və Azərbaycan Respublikası demokratik inkişaf yoluna çıxdı. Bu yolun inkişaf etdirilməsi Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin doğru və düzgün seçim etməsi ilə bağlıdır. Azərbaycan Respublikasının sosial-iqtisadi vəziyyətinin yüksəldilməsi sahəsində prezident cənab İlham Əliyev müvəffəqiyyətli və ardıcıl iş görür, fərman, sərəncam, göstərişlər verir və şəxsən özü respublikadakı iqtisadi fəaliyyətə baxış keçirir.

Artıq Bakı-Ceyhan neft kəməri istifadəyə verilmiş, 1768 kilometrlik kəmər çəkilmiş, və 28 may 2006-cı ildə istifadəyə verilmişdir, Dövlət neft fondu yaradılmışdır, bir sıra sənaye obyektləri işə salınmış, şəhər və rayonlarda adamı təəccübləndirən sosial obyektlər istifadəyə verilmişdir. Dağ rayonlarında yol, qaz çəkilmiş, onlarca məktəb, xəstəxana tikilmiş, diaqnostika mərkəzləri yaradılmış, mobil elektrik stansiyaları istifadəyə verilmiş, Bakı şəhərində və digər şəhərlərimizdə mənzil tikintisi genişləndirilmiş, yol ötürücüləri inşa edilmişdir. Yeni-yeni iş yerləri açılmışdır. Əhalinin iqtisadi vəziyyətində yaxşılığa doğru dönüş yaranmışdır.

Neft fondu hesabına Azərbaycandan xaricdə tələbələrin təhsilinə, Bakı-Tiblis-Qars dəmiryolunun çəkilişinə, respublikada məktəb xəstəxana tikintisinə, tarix-mədəniyyət abidələrinin

bərpasına, qaçqınların yaşayış şəraitinin yaxşılaşdırılması üçün mənzil tikintisinə, şəhid ailələrinə, şəhidlər xiyabanının bərpasına, mədəniyyət ocaqlarının əsaslı təmirinə və s. küllü miqdarda pul xərclənmişdir və xərclənir. Onu da göstərək ki, 2009-cu ildə neft fondunda 12 milyard manat pul toplanmışdır. Müəllim və tərbiyəçi bu qəbildən olan nümunələrin gənc nəslə öyrədilməsilə müstəqilliyin əhəmiyyətini, Heydər Əliyev irsi nümunəsində vətənpərvərlik hissini tərbiyə edir.

Ümummilli lider Cənab Heydər Əliyev böyük şəxsiyyət olmaqla dünyanın görkəmli şəxslərinin və dövlət adamlarının diqqətini cəlb etmişdir. Bu dahi şəxsiyyət haqqında xoş sözlər söyləmişlər.

Tarix müəllimi proqram həcmində, xüsusən də XI sinifdə Azərbaycan tarixi fənnini tədris edərkən H.Əliyev şəxsiyyətinə müraciət etməli, dövlət adamları və ayrı-ayrı şəxslərin fikirlərindən nümunələr göstərməklə bu dahi şəxsiyyətin böyüklüyünü, vətənpərvərliyini, ictimai-siyasi fəallığını şagirdlərə çatdırmalıdır. Eyni zamanda sinifdənxaric tədbirlərdə və tarixdən fakultativ məşğələlərdə məsələ öz həllini tapmalıdır.

Bu baxımdan mövcud ədəbiyyata istinad edərək bir neçə nümunəni göstəririk:

– Corc BUŞ (ABŞ-ın keçmiş Prezidenti)

Heydər Əliyev kimi liderlə işləmək şansı əldə etdiyimə görə çox minnətdaram.

... Dünyada tanınmış görkəmli dövlət xadimi Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və nadir natiqlik istedadına valehəm.

– Bill Klinton (ABŞ-ın keçmiş Prezidenti):

Azərbaycanın son illər möhkəmlənməsində, iqtisadi islahatların aparılmasında və bu işdə böyük uğurlar əldə edilməsində Prezident Heydər Əliyevin xidmətlərini yüksək qiymətləndirirəm.

– Əhməd Necdet Sezər: (Türkiyənin keçmiş, 10-cu prezidenti)



Heydər Əliyevin dəyərli töhvələri ilə başlanmış müştərək layihələr dost və qardaş ölkələrimizi bir-birinə daha da yaxınlaşdırmışdır.

Heydər Əliyev bütün Qafqazın sülhün bərqərar olduğu məkana çevrilməsi sahəsindəki fəaliyyəti ilə daim xatırlanacaqdır.

– Vladimir Putin (Rusiya Federasiyasının keçmiş Prezidenti)

Mübaliğəsiz demək olar ki, Heydər Əliyev siyasət nəhəngi idi. O, böyük dövlət xadimi idi. Mən ona sadəcə, böyük hörmətlə yanaşmırdım, mən ona məhəbbət bəsləyirdim...

.... Postsovet məkanındakı heç də bütün dövlətlərdə Heydər Əliyev kimi müdrik adamlar dərhal rəhbərliyə gəlməmişlər.

– Jak Şirak (Fransanın keçmiş Prezidenti):

Azərbaycanın Avropa ölkələri ailəsində özünəlayiq yer tutmasını böyük təcrübəyə malik, şöhrətli dövlət xadimi Heydər Əliyevin uzaqgörən, müdrik siyasətinin gözəl bəhrəsi kimi dəyərləndirirəm. Azərbaycanın Avropa Şurasına qəbul olması, bu ölkədə insan haqlarının qorunması, demokratiyanın möhkəmlənməsi, daim inkişafda olması məhz Heydər Əliyevin siyasətinin nəticəsidir.

– Süleyman Dəmirəl (Türkiyənin 9-cu Prezidenti):

... Azərbaycanda nə varsa, hamısı Heydər Əliyevin xidməti sayəsində yaradılmışdır...

Atəşkəsə nail olaraq, ölkənin digər işləri ilə məşğul olmaq imkanı yaradırdı. Daxili sabitlik bərqərar edildi, iqtisadi inkişaf, quruculuq işləri başlandı.

Belə hünərlər göstərən şəxsiyyət fövqəladə şəxsiyyətdir.

☞ **Nikolay Baybakov** (əslən bakılı, Rusiya-Azərbaycan Dostluğu Cəmiyyətinin sədri):

*– Azərbaycanı və Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram. Heydər Əliyev bir çox çətin məsələləri həll etməyə və qarşıya qoyulan məqsədlərə nail olmağa qadir insan idi. Bu insanın xalqlarımız üçün nə qədər yaxşı işlər gördüyünü sadalamaq və qiymətləndirmək çətindir. O, sıravi vətəndaşların hər hansı xahişlərinə həmişə diqqətlə yanaşardı. Onun haqqında kitablar yazmaq lazımdır. Çünki Heydər Əliye-*

*vin gördüyü işlərin vüsətini təkcə çıxışlarında açıqlamaq mümkün deyildir. Bizim belə insanlara ehtiyacımız var, onun aramızda olmaması çox ağır dərddir.*

☞ **İhsan Doğramacı** (Bilkənd Universitetinin qurucusu, professor, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfinin sədri):

- "*Heydər Əliyev fırtınalı həyatın hər dövründə Azərbaycanı, türklüyünü unutmayan böyük şəxsiyyətdir. Heydər Əliyev əsrimizin nadir yetişdirdiyi dövlət xadimlərindəndir. Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, xalqın xoşbəxtliyi üçün çırpınmışdır. Azərbaycanın ən çətin anlarında vətəni xilas etmək üçün misilsiz fədakarlıq göstərmişdir*».

☞ **Çingiz Aytmatov** (məşhur qırğız yazıçısı):

- *Heydər Əliyev, həqiqətən də tarixi, hətta əfsanəvi bir şəxsiyyətdir. Bu sovet dövründə də belə idi, bugünkü MDB məkanında, xeyli çətinləşmiş müasir dünya şəraitində də belədir. Heydər Əliyev hər zaman xalqının xidmətində olmuşdur.*

Heydər Əliyev onun yaşıdlarının və hətta ondan cavan olan bir çox siyasi xadimin bacarmadığı xüsusiyyəti - müasir dövrün ən aktual çağırışlarına hazır olmağı nümayiş etdirə bilmişdir. Məhz Heydər Əliyevin zəngin siyasi təcrübəsinin və humanitar dünyagörüşünün genişliyi nəticəsində indi Azərbaycanda sabitlik, tolerantlıq, mədəniyyət, maarifçilik hökm sürməkdədir. Bütün bunlar isə Azərbaycan dövlətinin müasir inkişafını və tərəqqisini təmin edəcək əsas amillərdir...

... Heydər Əlirza oğlu XX əsrin ən böyük liderlərindəndir. O, müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularından biridir.

☞ **Anar** (Azərbaycan Respublikasının Yazıçılar Birliyinin sədri):

*«...Heydər Əliyev insan sərrafı idi. Və kimin kim olduğunu yaxşı bilirdi...Heydər Əliyev bu dünyaya həmişə qələbə çalmaq üçün gəlmişdi.*



*O, heç bir vaxt qarşısına çıxan çətinliyin qabağından qaçmazdı. Ən qorxulu vəziyyətdən belə zəfər çalaraq çıxardı....». 31*

Nəticə kimi göstərək ki, Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində vətənpərvərlik hissinin işığında Cənubi Qafqazda çox səmərəli fəaliyyət göstərmişdir. Nəticədə Şimali Azərbaycanda dünyəvi, hüquqi dövlət qurmuşdur, diplomatik səyi nəticəsində Azərbaycan dünya birliyində özünəməxsus bir yer tutmuşdur. Azərbaycanda gənc nəsil üçün böyük bir irs qoymuşdur.

Şəxsiyyət nümunəsi olan cənab Heydər Əliyevin fəaliyyəti dövrlərinə qısa nəzər salanda görürük ki, ulu öndər XX əsrin sonlarında Azərbaycanın ikinci dəfə müstəqilliyinin qurulmasında və möhkəmlənməsində III respublikada çox böyük iş, əsrlərə bərabər iş görmüşdür. Bu, elə bir vaxtda görülmüşdür ki, dünyanın inkişaf mərhələsində, yəni dünyanın bir hissəsində demokratiya olduğu, bir hissəsində isə hələ də qeyri-demokratiya, bürokratiya olduğu dövrə təsadüf edir.

Azərbaycan 1991-ci ildə müstəqilliyini elan və bərpa edərək öz dövlətini idarə etməyə başlamışdır. Lakin 1992 və 1993-cü illərdə, xalq və gənc dövlət çox çətinliyə düşdüyü belə bir vaxtda H.Əliyev Azərbaycana rəhbərliyə (ikinci dəfə) başladı. Azərbaycanın ulu öndəri, milli lider H.Əliyev Azərbaycanda müstəqil dövləti möhkəmləndirmək məqsədilə birinci növbədə vətəndaş müharibəsinin qarşısını aldı, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi üçün qəbul edilmiş rəsmi dövlət sənədləri, Azərbaycan Respublikasının müstəqilliyi, ilk Konstitusiyasının qəbuluna nail oldu. Demokratik seçki sistemini təşkili etdi, dövlət sərhədlərinin və gömrük işinin sahmana salınması, dövlətin iqtisadi proqramı, özəlləşmə, müstəqil müqavilələrin bağlanması, əsrin neft kontraktının bağlanması, daxili sabitliyin bərpası, bazar iqtisadiyyatının yaradılması, xaricdə yaşayan azərbaycanlılarla əlaqənin yaradılması dövlətlərarası iqtisadi əlaqələrin genişləndirilməsi, inkişaf etmiş ölkələrlə əlaqələrin genişləndirilməsi və yaxşı münasibətlərin əldə edilməsi, ümummilli liderin adı ilə bağlıdır. Dağlıq Qarabağ probleminin həlli istiqamətində

ümummilli lider böyük əmək sərf etmişdir. O, eyni zamanda, xaricdə Azərbaycan diasporunun yaradılması, diplomatik əlaqələrin genişləndirilməsi, elm-mədəniyyət, incəsənətin dirçəlməsi və s. sahələrdə çox böyük işlər gördü. Heydər Əliyev bütün bunları həll edərək öz vətəndaşlıq, vətənpərvərlik missiyasını həyata keçirdi. Yeni Azərbaycan dövlətçiliyinin əsasını qoymuş, qurmuş və inkişaf etdirmişdir. Erməni millətçilərinin azərbaycanlılara qarşı törətdikləri soyqırımını (1918, 1992) müzakirəyə çıxararaq ona siyasi qiymətin verilməsinə və 1948-1954-cü illərdə Ermənistandan soydaşlarımızın deportasiyası edilməsini dünya ictimaiyyətinə çatdırmağa nail oldu.

Heydər Əliyev irsinin öyrədilməsi sonsuzdur. Vətənpərvərlik nümunəsidir. Bunun üçün yeni-yeni əsərlər yazılmalı, qaynaqlardan (və arxiv materiallarından) geniş istifadə edilməli, ali təhsil müəssisələrində tələbələri bu sahəyə geniş cəlb etməli.

## 2.4. Müstəqilliyin bərpası, dövlətin fəaliyyəti və qarşıya çıxan problemlər

Müsəlman ölkələri arasında ilk dəfə olaraq Azərbaycanın şimalında 1918-ci ilin may ayının 28-də demokratik respublika yarandı. Bu dövlət 23 ay yaşadı. Müstəqil demokratik respublika 1920-ci ildə Sovet dövlətinin yaranması ilə süquta yetirildi. 1991-ci ildə Sovet dövlətinin süqutundan sonra Azərbaycan xalqının fəallığı və ayrı-ayrı şəxsiyyətlərin rəhbərliyi ilə Azərbaycan özünün müstəqilliyini bərpa etdi. 1918-ci ildə yaranmış AXC-nin varisi kimi yeni-yeni demokratik qərar və islahatlar qəbul edildi. Dövlət qurumları yarandı.

Bunların içərisində dövlətin sərhədləri, gerbi, bayrağı, himni, Milli pulu qəbul edildi, dövlət mülkiyyəti xüsusi mülkiyyətlə əvəz olundu, dövlətin işində amirlik ləğv edildi. Dövlətin Konstitusiyası və seçki sistemi həyata keçirildi. Dövlət qanunları Milli Məclisdə yaradıldı. Dövlət sənaye, kənd təsərrüfatı və s. sahələrdə özəlləşmə siyasəti həyata keçirdi. Sahibkarlar üçün qanunlar



müəyyən edildi. Prezident institutu yaradıldı. Dövlətin müstəqil xarici və daxili siyasəti müəyyən edildi. Arxivlər açıldı, mətbuatda senzura götürüldü, 100-dən çox dövlətlərdə diplomatik səfirlik və konsulluq açıldı. Təhsil, səhiyyə, rabitə, mətbuat inkişaf etdirildi. Bütün sahələrdə özəl müəssisələr yaradıldı. Dövlət gömrük işi təşkil edildi. Bələdiyyələr yaradıldı. Azərbaycan BMT-ə, Avropa birliyinə və Müsəlman Liqasına üzv qəbul edildi. Məhkəmə, hərbi iş, Dövlət Təhlükəsizlik Komitəsi, Daxili İşlər Nazirliyi, Fövqəladə İşlər Nazirliyi, Sərhəd Qoşunları İdarəsi, Respublika Prokurorluğu qaydaya düşdü. Hərbi Sənaye Nazirliyi, Qeyri dövlət təşkilatı, Heydər Əliyev fondu və s. yaradıldı. Azərbaycan Dövlət vergi sistemi, Xaricdə Yaşayan Azərbaycanlılarla Əlaqə Komitəsi yaradıldı. Melorasiya, idman işi, daxili və xarici nəqliyyat sahələri və s. səhmana salındı və ya yeniləri yarandı. Ölkədə əsaslı islahatlar keçirilməklə iqtisadiyyatın yüksəlməsi önəm daşıdı. Ölkənin mədəni, səhiyyə, təhsil və s. sahələrdə Heydər Əliyev fondu çox əhəmiyyətli işlərin icrasına nail oldu.

Dövlət orqanlarının bəzilərinin funksiyasını göstərməyi məsləhət bilirik:

– Daxili işlər orqanları funksiyası ölkədaxili sabitlik yaratmaq. Banditizm, terrorizm, narkomaniya, narkobiznesə qarşı digər qanun pozğuntularına qarşı mübarizə tədbirləri həyata keçirir və ictimai əsayişin qorunmasında bir sıra tədbirlər həyata keçirir və s.

– Konstitusiya dövlətin əsas qanunudur və vətəndaşların hüquq və vəzifələrini müəyyən edən konseptual hüquqi sənəddir və s.

– Prokurorluq orqanları dövlətin və ölkə vətəndaşlarının hüquqlarını və hüquqi vəzifələrini müdafiə edən orqandır və s. Prokurorluq eyni zamanda ölkədə cinayət hüququna, cinayət prosesinə və cinayət məcəlləsinin maddələrinin hüquqi cəhətdən yerinə yetirməsinə nəzarət edən, tənzimləyən orqandır.

– Məhkəmə vətəndaşların, idarə və təşkilatların, dövlət və qeyri dövlət qurumlarının hüquqlarını müdafiə edən, dövlət mənafeyini tənzimləyən və müdafiə edən orqandır.

– Dövlət sərhəddinin mühafizə orqanlarının vəzifəsi dövlətin ərazisinin bütövlüyünün qorunmasına nəzarət edir və sərhədlərinin keşiyində durur.

– Dövlət Təhlükəsizlik Komitəsi dövlətin təhlükəsizliyini təmin edir.

– Dövlət Gömrük komitəsi respublika əhalisini, dövlət və qeyri-dövlət kommersiya qurumlarının ölkəyə idxal və ixrac əməliyyatının tənzimlənməsinə nəzarət edir, digər dövlətlərin ölkə daxilindən tranzit kimi istifadəsi zamanı torpaq basdı fəaliyyətinin tənzimlənməsinə nəzarət edir, narko biznes və narko trasik işlərin həyata keçirilməsinin qarşısını alır, dövlət büdcəsinə gəlir gətirir.

– Fövqəladə Hallar Nazirliyi ölkədaxili fövqəladə hallar (zəlzələ, subasma, yanğın, qasırğa və s.) zamanı əhalinin xilas edilməsi ilə və s. məşğul olur.

– Dövlət Vergi Nazirliyi ölkədaxili və ixrac zamanı malötürmə əməliyyatında əhalinin fərdi və kommersiya gəlirlərindən dövlət rüsumunun tutulmasını həyata keçirir.

– İqtisadi İnkişaf Nazirliyi bank əməliyyatına (dövlət və kommersiya bank), daşınan və daşınmaz əmlakın qeydiyyatına və qiymətləndirməsinə, əhalinin özəlləşmə və vauçer çeklərinin istifadə qaydalarına, yeraltı və yerüstü sərvətlərin çıxarılmasına, daşınmasına, emalına və satılmasına nəzarət edir.

Dövlət Torpaq və Xəritə çəkmək komitəsi Azərbaycan respublikası daxilində torpağın kadastrının (bölgüsünü) müəyyənləşdirilməsində, yararlı və yararsız torpaqlarının müəyyənləşdirilməsində, çayların, göllərin, dağların, meşə zolaqlarının, əkin sahələrinin sputnik vasitəsi ilə məşğul olur və s.

Müəllim bu göstərilən sahələr və göstərilməyən dövlət qurumları haqqında gənclərə məlumat verməli, orada çalışan şəxslərin vətənpərvərlik fəaliyyətini göstərməklə onlarda vətənpərvərlik tərbiyəsi aşılamalıdır. Peşəyə və sahələrə maraq yaratmalıdır.



Bütün bunlar müstəqil dövlətin atributlarıdır və bunların əhəmiyyəti çox böyükdür. Tələbə və şagirdlərin bunları bilməsi mütləqdir. Bu sahələrin öyrədilməsi vətənpərvərlik tərbiyəsinin piriaritet məsələsidir. Müəllim yeri gəldikdə göstərilən sahələrin hər biri barədə, onun respublika üçün, xalq üçün nə dərəcədə əhəmiyyət daşıdığını göstərməlidir.

Acı da olsa göstərək ki, müstəqilliyimizin bərpası Azərbaycan respublikası üçün bir çox acı xatirələrlə yadda qalıb. Bunu əsasən xarici və daxili sahələrə ayırmaq olar.

Respublika 1918-ci ildə yaranandan sonra daxildə bir qrup burjua nümayəndələri AXC-nin Türkiyə dövlətinin vassalı, bəziləri kommunistlərlə əlbir olmaqda gördülər. İran dövləti isə Azərbaycanı ilk əvvəllər tanımaqdan imtina etdi. Bu təqdirdə AXC-ni Qafqaz Azərbaycanı adlandırdılar.

Sovet dövlətinin meydana çıxması ilə AXC-ə hücumlar başladı. Erməni daşnakları fəallaşdılar. Bakıda, Qubada, Şamaxıda, Göyçayda, Naxçıvanda, Salyanda və s. yerlərdə soyqırımı həyata keçirdilər. 1920-ci ilin aprelin 28-də Azərbaycanda yeni bir respublika – Sovet Respublikası yarandı və 1991-ci ilə kimi yaşadı. Bu illərdə də erməni məkri öz işini gördü. Azərbaycanın vətənpərvər övladları öldürüldü, həbs edildi, sürgün olundu, vətəndən didərgin düşdü. Nəticədə bu illərdə 48 min azərbaycanlı həlak oldu.

1995-ci ildə keçmiş Sovet hökuməti yenidən qurma siyasəti yeritdi. Bundan sui istifadə edən ermənilər Azərbaycana qarşı torpaq iddiası qaldırdı. Bu, Azərbaycan xalqının etirazına səbəb oldu. Xalq 1988-ci ilin noyabrında (5 noyabrdan 5 dekabra kimi) vətən, torpaq, müstəqillik uğrunda mübarizəyə başladı. Bu mübarizə azadlıq mübarizəsi oldu. Bakının Baş meydanına minlərlə insan toplaşdı. Buna "Meydan" hərəkatı deyildi. Bu meydan hərəkatı Sovet dövlətini sarsıtdı. Xürrəmilər hərəkatı Ərəb Xilafətini sarsıdan kimi.

Xalq hərəkatı 1990-cı ildə də baş qaldırdı. Sovet dövləti öz təbəəsinə qarşı amansız hərəkət etdi. 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə silahsız dinc əhaliyə qarşı silah işlətdi. Nə-

ticədə 134 (bəzi sənədlərdə daha çox deyilir) nəfər öldürüldü, 700 nəfər həbs edildi və bir çox insan itkin düşdü. (116). Bundan sonra xalq hərəkatı yeni mərhələyə qədəm qoydu.

1991-ci ildə SSRİ-nin süqutu və azadlıq hərəkatının yüksəlməsi nəticəsində Azərbaycan özünün dövlət müstəqilliyinin bərpasına nail oldu.

1991-ci ildə Azərbaycan demokratik respublikasının bərpası xarici qüvvələrin fəallaşmasına səbəb oldu. Ermənilər yenə də fəallaşdılar, 1988-ci ildən apardığı müharibəni gücləndirdilər, Azərbaycan respublikasının Dağlıq Qarabağ diyarını işğal etməklə yanaşı (Şuşa şəhəri daxil olmaqla), ona yaxın olan rayonları – Kəlbəcəri (3-4.04.92), Laçını (17.05.92), Qubadlını (31.08.93), Fizulini (23.08.93), Ağdamı (23.07.93), Zəngilanı (30.10.93), Cəbrayılı (18.08.93), o dilbər diyarlarımızı işğal etdilər. Ancaq uşaqlar elə başa düşməsin ki, biz azərbaycanlılar əlimizi əlimiz üstündə qoymuşuq. Bizim də igid oğul və qızlarımız mərdlik göstərdilər, çoxları qəhrəmancasına həlak oldular. Lakin o zaman ermənilər yaxşı silahlanmışdılar, rus ordusu köməklik göstərirdi. Bizim respublikada isə daxili çəkişmə var idi. Xarici qüvvələr də bundan məharətlə istifadə edirdilər. Nəticədə Qarabağ müharibəsində 7 rayonu, DQB-i, 30 minə yaxın vətən övladını itirdik. Əhali vətəndə vətənsiz, didərgin oldu. Düşmən 1918-1919-cu ildə olduğu kimi Qarabağda, Xocalıda, Meşəlidə, Daşaltında, Kərkicanda qırğın törətdi. Xocalı Bağenes Ayrımda soyqırımı daha dəhşətli oldu.

Ötən əsrin ən ağır faciəsi, qəddarlığı, amansızlığı ilə Naqasaki, Xirosima, Xatın soyqırımları ilə bir sırada dayanan Xocalı qətliamı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Ən dəhşətli səhifəsidir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərini zəbt etmiş erməni təcavüzkarları 613 dinc sakini, o cümlədən 106 qadını, 63 uşağı və 70 ahıl insanı amansızlıqla, 56 nəfəri xüsusi qəddarlıq və işgəncə ilə qətlə yetirdilər. 1275 nəfərin Əsir götürülməsi ilə nəticələnən azğın erməni hərbçilərinin amansız insan «ovu» 150 günahsız insanın İtkin düşməsi, 76-sı azyaşlı uşaq olmaqla 487 nəfərin ömürlük şikəst olması



ilə nəticələndi. Amansız qətllərlə dünya tarixində silinməz izlər buraxan Xocalı soyqırımı əslində, erməni təcavüzkarlarının yalnız Azərbaycan xalqına deyil, bəşəriyyətə qarşı Ən ağır cinayəti, insanlığa yönəldilmiş qəddarlıq təcəssümü idi.

Soyqırımı qurbanlarını daim yad edən, şəhidlərin xatirəsini əziz tutan ümummilli lider Heydər Əliyev 1997-ci il fevralın 25-də «Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında» fərman imzaladı. Ulu öndər qətliamı kəskin şəkildə pisləyərək bunu bəşəriyyətə qarşı Ən ağır cinayət adlandırdı. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, bu həqiqətlərin beynəlxalq aləmdə yayılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində atılan addımları ulu öndərin adını daşıyan Heydər Əliyev Fondu davam etdirir. Eyni zamanda dövlət, ayrı-ayrı vətən övladları, cəmiyyətlər və s. davam etdirilər.

Heydər Əliyev Fondunun ayrı-ayrı ölkələrdə geniş miqyasda təşkil etdiyi və faciənin həqiqətlərinin yayılmasına yönəldilmiş anım tədbirləri Rusiya Federasiyasındakı nümayəndəliyi tərəfindən Leyla Əliyevanın təşəbbüsü ilə İslam Konfransı Təşkilatının (İKT) Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumu çərçivəsində davam edir. İKT-nin Gənclər Forumunun və İslam, Təhsil, Elm və Mədəniyyət Təşkilarının (İSESKO) təşkilatçılığı ilə ötən il keçirilmiş toplantıda Rusiya Federasiyası nümayəndəliyinin bu istiqamətdə daha səmərli fəaliyyəti xüsusilə seçildi. İslam ölkələri birliyinin üzvləri olan dövlətlər Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin, onun rəhbəri Leyla Əliyevanın təşəbbüsünü dəstəkləyərək 26 fevral – Xocalı soyqırımı gününün İKT ölkələrində humanitar fəlakətlər qurbanlarının xatirəsini anma günü kimi qeyd olunması barədə qərar qəbul ediblər. 2008-ci ildən başlayaraq 26 fevral hər il islam ölkələrində humanitar fəlakətlər qurbanlarının xatirəsini anma günü kimi geniş miqyasda qeyd olunmuşdur.

Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış «Xocalıya ədalət – Qarabağa azadlıq» kampaniyası çərçivəsində keçirilən müzakirələr soyqırımı haqda dolğun təsəvvür formalaşdırdı.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda dinc yaşayan azərbaycanlılara qarşı törətdikləri soyqırımını sonra ermənilər özlərinə sərfəli şəkildə təbliğ etdilər. Dünyaya səs saldılar ki, guya Xocalıda qırılanlar azərbaycanlılar yox, zavalı, hər yerdən, hətta Ermənistandan belə, əli üzülmüş ermənilərdir. Guya azərbaycanlılar ermənilərə qarşı barbarcasına hərəkət edərək soyqırımına yol veriblər. Onlar saxtakarlıq ənənələrinə sadiq qalaraq bu dəfə də tarixi hərtərəfli saxtalaşdıraraq həqiqətə kölgə salmağa, Avropa və Amerikada yaşayan havadarlarını da özlərinin yalanlarına məharətlə inandırmağa çalışdılar. 1988-ci ildə, ondan sonra 1990-cı il yanvarın 13-də Bakıda və Sumqayıtda özləri özlərinə qarşı vuruşmaqla bir neçə ermənini öldürmüşlər. Mənfur siyasətlərini həyata keçirərək aləmə bəyan etdilər ki, azəri türkləri onları «vəhşicəsinə» qırır.

Xocalı faciəsində müasir silahlarla silahlanmış erməni və Xankəndində olan sovet hərbi birləşməsinin əsgərləri Xocalıya daxil olub yalın əllə torpağını müdafiə etmək istəyən xocalılı oğul və qızlarımızı qana qərq etdilər.

O qanlı gecə qəlbimizə elə dağ çəkildi ki, bu dağın sızıltısı torpaqlarımız azad olunmayınca davam edəcək və çəkdiyimiz bütün əzab və zilləti bizə həmişə xatırladacaq.

Bu az imiş kimi 1993-1994-cü illərdə ölkədə hərci-mərclik baş verdi, vətəndaş müharibəsinə səbəb ola biləcək Lənkəran-Talış Muğan respublikasının yaranmasına cəhd, Qazax rayonunda, Bakının 8-ci kilometrində amonçuların seperatçı çıxışı, Gəncədə hərbi hissədə əsgərlərin qarşı durması, qan tökməsi və qiyamçı əsgərlərin Bakıya hücumu (onlar Bakıya yaxın Nəvayi kəndi ətrafına qədər gəlmişlər), müstəqil dövlətin prezidentlərinin – Ayaz Mütəllimovun, Əbülfəz Elçibəyin hakimiyyətdən qaçmaları və ən nəhayət respublika sərhədlərinin boşluğundan, daxili çəkişmədən istifadə edərək bəzi «iş» adamları respublikadan çoxlu sənaye malları, polad, qurğuşun, miss, aliminum və s. malları dəyər-dəyməzinə xaricə satdılar, ölkəyə xəşiş, tiryək və digər narkotik maddələr ayaq açdı. Azərbaycana yardım verilməsinə ABŞ dövləti 907-ci düzəliş etdi və buna əsasən Azərbaycan yardımdan məhrum edildi. Respublikanın bəzi bölgələrində yeni «din» yaranmağa başladı. Bakıya gələn su kanalları (Samur-Dəvəçi) qurumağa başladı. Çörək növbəsi yarandı, infilyasiya artdı, əhali kasıblıq həddinə çatdı və s.



Respublikamızın iqtisadi çətinliklərindən istifadə edən bəzi iş adamları «xeyirxahlıq» edərək xalqa ərzaq yardımı göstərməyə başladılar. Bəzi güzəştli faizlərlə ərzaq malları – ət, yağ, süd, qarabaşaq, qənd, düyü, çay, un, konserva məhsulu və s. satdılar. Bunun üçün müəyyən miqdarda bu müəssisəyə pul ödəməli və bu ərzaq satan müəssisənin üzvü olmaq lazım idi. Belə müəssisədən biri «Vahid Bank» adlanırdı.

Ancaq işbazların bu siyasəti iflasa uğradı. Bank bağlandı, rəhbərləri qaçdılar. Yüzlərlə vətəndaşın banka verdiyi pul batdı.

Ancaq bunlar acı tariximizdir. Gənclərimizin bunu bilməsi özü bir hadisədir. Bu, diyarşünaslığın bir sahəsidir.

## 2.5. Müstəqillik mücahidləri bizim qürurumuz, and yerimizdir

Müstəqillik əldə etmək üçün xalqımız ağrılı-acılı illəri, əsrləri yola vermişdir. Azadlıq, müstəqillik arzusu ilə yaşamış, yanmış və qor olmuşlar. Həmin azadlıq "qoru" illərlə kül altında qalmışdır. İmkan və şəraitdən asılı olaraq "qor" üfürülmüş və azadlıq alovu yandırılmışdır. Heç şübhəsiz, bu alovun yandırılması üçün baza rolunu oynayan Azərbaycan xalqının bütün təbəqələrinin apardığı təbliğat işləri, gördüyü tədbirlər olmuşdur. Onlar Azərbaycanın mübariz əsgərləri sayılırlar. Onlar əsgər andı içmədən vətənin azadlığı yolunun mücahidləri olmuşlar. Mütərəqqi fikirli şəxslər, şair-yazıçılar, alimlər, müəllimlər, filosoflar, həkimlər, quruluşundan, partiya mənsubiyyətindən asılı olmayaraq dövlətin bəzi məmurları, ordu əsgər-zabitləri və s. sözün əsil mənasında Azərbaycan müstəqilliyinin əsgəri olmuşlar.

Tarixə nəzər salsaq xalq qəhrəmanı Babəkin başçılığı ilə mübarizəyə başlayan xürrəmilər hərəkatı bu baxımından ilkin

hesab edilə bilər. Açıq mübarizə baş verməditi təqdirdə isə Azərbaycanın uzaqgörən şəxsləri azadlıq toxumu səpməyə başlamışlar. Ədiblər, şairlər, nasirlər, tənqidçilər, dramaturqlar, ədəbiyyatşünaslar, tərcüməçilər, həkimlər, pedaqoqlar, siyasətçilər, diplomatlar, alimlər, filosoflar və ən nəhayət, xalq kütləsi azadlığa, müstəqilliyə qovuşmaq ideyasını yaymışlar. Bəziləri dövlət rəhbəri vəzifəsində olarkən bu ideyanı əsas götürmüşlər. Məsələn, Şah İsmayıl Xətai, Quba xanı Fətəli xan, Gəncə xanı Cavad xan, Atabəylər-dövlət rəhbərləri Qızıl Arslan, Cahan Pəhləvan, Nəriman Nərimanov, Heydər Əliyev və b. göstərmək olar.

Öz əsərləri ilə birliyi, müstəqilliyi göstərən Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, A.Bakıxanov, Ə.Hüseynzadə, Ə.Cavad, H.Cavid, Ü.Hacıbəyov, M.Müşfiq, C.Cabbarlı, M.Araz, R.Rza, B.Vahabzadə, X.R.Ulutürk, Qabil, M.Şəhriyar, F.Kərimzadə, Anar, S.Rüstəmxanlı, Z.Yaqub Azərbaycan xalqının mədəniyyət və mübarizə tarixində böyük rol oynamışlar.

Alimlərimiz və hərbçilərimiz də azadlıq carçılarıdırlar.

Aparılmış müsbət işlərin nəticəsində bütöv Azərbaycanda ayrı-ayrı vaxtlarda müstəqilliyə qovuşulmuşdur. 1918 (şimalda), 1920-ci və 1946-cı (cənubda) illərdə müstəqilliyin yaranması, 1991-ci ildə (Şimali Azərbaycanda) müstəqilliyin bərpası həyata keçmişdir. Müstəqilliyə qovuşma şərəfli, məsuliyyətli olmuşdur. Qəhrəmanlar meydana gəlmişlər. Lakin çətinliklərlə, ölüm-itimlə olmuşdur (xüsusən də 1918, 1920, 1937-1938, 1946, 1990, 1992-ci illərdə).

Müstəqilliyin qazanılması nəticəsində vətən övladlarından ölən, yaralanan, itkin düşən, vətəndən didərgin düşən qəhrəman olanlar bu ağrı-acıya təəssüf edir və onları fəxrimiz və inam yerimiz sayırıq. Cəsarətləri qarşısında baş əyirik, onların bu fədakarlığını gənc nəslə öyrətməyi özümüzə borc bilirik.

Azərbaycan dövlət müstəqilliyinin bərpası ərəfəsində istiqlaliyyətin əldə edilməsi və Azərbaycan torpağının ermənilər tərəfindən işğal edilməsinə qarşı xalq ayağa qalxdı. 1988-ci il noyabr-dekabr aylarında azərbaycanlıların apardığı dinc nümayiş genişləndi.



Yenə qırğınlar, həbslər başlandı. Sumqayıt sindromu baş verdi (Sumqayıtda ermənilər qətl törədib azərbaycanlıların üzərinə atdılar). Ermənistanda yaşayan azərbaycanlıların ermənilər tərəfindən qovulması, öldürülməsi meydana çıxdı.

1990-cı ilin yanvarın 19-dan 20-sinə keçən gecə rus-sovet Ordu hissələri Bakıda, Neftçalada, Lənkəranda, Naxçıvanını Kərki, Sədərək kəndlərində silahsız xalqa qarşı silah işlətdi, qırğın törətdi. Nəticədə 134 nəfər qanına qəltan etdi, 700 nəfər həbs edildi və bir çox insan itkin düşdü. Bu az imiş kimi Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar vilayətinin idarəçiliyi mərkəzin əlinə keçdi. Qarabağ vilayətindən də azərbaycanlılar öz ata-baba yurdundan silah gücünə çıxarıldı. Meşəlidə, Kərkidə, Bağenis Ayrım kəndlərində dinc vətən övladlarını ermənilər öldürdülər, yandırıb kül etdilər.

1991-ci ildə oktyabr ayında Şuşadan gələn vertolyota qarşı terror törətdilər, həmin ilin noyabrın 20-də Azərbaycan dövlət rəhbərlərdən bir qrupunun mindiyi vertolyotu Qarabağ diyarının Qarakənd kəndi yaxınlığında ermənilər snayperlə vuraraq yandırdılar. Bunun nəticəsində 22 nəfər dövlət adamı və onları müşayiət edən jurnalist, işıqçı, operatorlar şəhid oldular.

Azərbaycan dövlət müstəqilliyinin bərpası, yaranıb möhkəmlənməsinə erməni birləşmiş ordusunun hücumları mane olurdu. Bunlara cavab olaraq Azərbaycan xalqı sözün əsil mənasında müdafiəyə qalxdı. Çox zəif silahlarla Azərbaycanın vətən övladları vətəni müdafiə etdilər. Lakin bu, böyük itkilərlə nəticələndi. 30 minə yaxın azərbaycanlı vətən yolunda həlak oldu. Şuşa rayonu işğal edildi. Bunun ardınca Azərbaycanın 7 rayonu – Kəlbəcər, Laçın, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam rayonları işğal edildi. Nəticədə Azərbaycan ərazisinin 20 faizi işğal edildi, bir milyona yaxın azərbaycanlı köçkün, didərgin, qaçqın oldu. İşğal nəticəsində göstərilən rayonlar, onun kənd və şəhər-qəsəbələri barbarcasına ermənilər tərəfindən xarabalığa çevrildi. Meşələr qırıldı, sahələrə od vurdular. Tarix-mədəniyyət abidələri dağıdıldı.

Bu müharibənin ən ağrılı faciəsi 1992-ci ildə fevralın 25-dən 26-na keçən gecə Xocalı soyqırımı edildi. Şəhərin işğalı ilə

buranın əhalisinin 613 nəfərini qanına qəltan etdilər, 150 nəfər itkin düşdü, 1275 nəfər əsir götürüldü. Bütün xalqımıza Şuşa şəhərinin işğalından sonra ikinci böyük bir dərd oldu.

Lakin belə çıxmasın ki, müstəqilliyin yaranması və bərpası dövründə azərbaycanlı vətənpərvər övladlar çox zəiflik göstərmiş və öldürmüşlər. Gənc nəsil bilməlidir ki, vətən övladları düşmən qarşısından qaçmamış, mübarizə aparmış, qəhrəmanlıq göstərmiş, ölümün gözünə dik baxmış, vətəni qorumuş. Bu günə çatdırmışlar. Vətəni qorumaq üçün qan axıtmışlar. Bu vətən övladları öz ölümləri ilə xalqının qəlbində əbədi heykələ dönmüşlər.

Bizim indi iftixar etməli qəhrəman övladlarımız, iftixar etməli Azərbaycanın şimalında müstəqil demokratik respublikamız, onun qanuni və demokratik idarə quruluşu vardır.

Bundan çıxış edən dövlət rəhbərliyi müstəqilliyin yaranmasında və bu müstəqilliyin bərpasında xidmətləri olan şəxslərə böyük qayğı ilə yanaşır və həmişə bu sahəni diqqətdə saxlayır.

Azərbaycanın və türk dünyasının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə əlillərə, vətən qəhrəmanlarına yardım məqsədilə Dövlət Proqramı qəbul edilmişdir.

Azərbaycanın azadlığı, müstəqilliyi, torpağının bütövlüyü uğrunda yaralanan, həlak olan, sağlamlığını itirən şəxslərə və onun ailəsinə yardım göstərilir. Dövlət mükafatları, milli qəhrəmanlıq ordeni və medalları verilir. Bu qəbildən olan şəxslər həmişə xalq, dövlət tərəfindən hörmətlə yad edilir. Onlara, övladlarına, dul qalmış həyat yoldaşlarına qayğı göstərilir. Onlara ev tikilir, yaralılara minik maşını verilir. Şərəflərinə heykəl qoyulur, mədəniyyət saraylarına, küçə və xiyabanlara adları verilir. Şərəflərinə heykəl qoyulur, mədəniyyət saraylarına, küçə və xiyabanlara adları verilir. Fərdi təqaüdlə təmin edilirlər.

Tariximizi öyrətmək və yadda saxlamaq, onları vətən övladlarının adlarını əbədiləşdirmək məqsədilə bədii ədəbiyyatda, kino və teatr sənətində, rəssamlıqda, heykəltəraşlıqda geniş əks olunmuşdur. Bunlar yetişməkdə olan gənc nəslin vətənpərvərlik tərbiyəsində mühüm rol oynamaqla yanaşı müstəqillik dövrünün tarixinin daha dərindən öyrənilməsinə geniş imkan açır. Sənət əsərlərindən bəzi nümunələri qısaca olaraq göstərə bilərik:



M.Ə.Rəsulzadənin "Əsrimizin Səyavuşu" 1918-ci il Mart qırğınını "Aşura", "Vorfolomey gecəsi"nə bənzətmişdir. M.S.Ordubadinin "Qanlı illər", İ.Əliyevin "Qanlı günlərimiz" 20 yanvar 1990-cı il tarixli qətliamı haqqında B.Vahabzadənin "Şəhidlər" poemasını, Ə.Naxçıvanlının "Şəhidlər xiyabanında", B.Səlimovun "Şəhid" poemaları, C.Mirzəyevin "Fəryad" bədii filmi, "Xocalı soyqırımı" faciəsini əks etdirən "Ana fəryadı" heykəli, Bakının mərkəzində və Azərbaycanın bütün rayon mərkəzində salınmış "Şəhidlər xiyabanı", 1918-ci ildə Azərbaycan Demokratik Cümhuriyyətinin xilası yolunda həlak olan "Türk əsgəri" abidəsi (Bakı şəhərində), 1990-cı ilin yanvarında baş verən "Qara Yanvar" rəsm əsərləri və xalçası, 20 noyabr 1991-ci ildə vertolyot terrorunun nəticəsində həlak olan Azərbaycan respublikasının dövlət adamlarının qəbirüstü xatirə abidələri və onlarca bu qəbildən olan nümunələri göstərmək olar.

Azərbaycan dövlət müstəqilliyinin bərpası və onun möhkəmlənib dünya birliyində yer tutmasında titanik xidməti olan dahi Heydər Əliyevə Bakıda və respublikanın rayonlarında qranitdən heykəllər qoyulmuş, qəbirüstü abidəsi yaradılmışdır.

Müəllim və tərbiyəçilər ayrı-ayrı fənlərin tədrisi prosesində və sinifdən (auditoriyadan) kənar tədbirlərin icrası prosesində gənc nəslə Azərbaycan dövlət müstəqilliyi dövründə respublikamızın tarixinə həsr edilmiş bu qəbildən olan sənət əsərləri ilə gəncləri tanış etməli, vətənpərvərlik hissləri aşılamalıdırlar.

Çox təəssüflər olsun ki, Azərbaycanın mücahidləri – milli qəhrəmanları və onların fəaliyyətləri haqqında kütləvi mətbuatda, xüsusilə də radio və televiziya verilişlərində az danışılır. Vətən qəhrəmanlarına xidmət edən verilişlər çoxaldılmalı, şou-konsertlər azaldılmalıdır.

# III FƏSİL

# MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI VƏ DEMOKRATİK SEÇKİLƏR

## 3.1. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası

Azərbaycan Respublikasının Konstitusiyası dövlət müstəqilliyi şəraitində qəbul edilmişdir. Konstitusiyanın bölmə, fəsil və maddələrində müstəqilliyi və demokratiyanı bariz şəkildə özündə əks etdirir.

Böyük dövlətçilik təcrübəsinə malik olan dahi öndər Heydər Əliyevin sədrliyi ilə müstəqil Azərbaycan Respublikasının Konstitusiya layihəsini hazırlayan komissiya bu mükəmməl qanunu hazırlayaraq xalqın seçiminə vermişdir.

Konstitusiya 1995-ci ilin noyabrın 12-də Azərbaycan Respublikası keçirilən referendumunda qəbul olunmuşdur. 1995-ci il noyabrın 27-də qüvvəyə minmişdir.

24 avqust 2002-ci ildə və 18 mart 2009-cu ildə Konstitusiyaya referendum yolu ilə bəzi əlavə və dəyişiklik edilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyası 5 bölmədən, 12 fəsil və 158 maddədən ibarətdir.

Azərbaycan Respublikasının Konstitusiyasında bəyan edilir: (32)

Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, təntənəli surətdə aşağıdakı niyyətlərini bəyan edir:



– Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;

– Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;

– vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;

– xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;

– ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək;

– ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.

Yuxarıda sadalanan ülvi niyyətlərlə ümumxalq səsverməsi – referendum yolu ilə bu Konstitusiya qəbul edilir.

Konstitusiya qəbul olunan zaman Azərbaycan Respublikasının müstəqilliyə yenicə qovuşmasını və keçid dövründə olmasını, habelə konstitusiyanın çoxsaylı münasibətləri tənzimləməsinin nəzərə alsaq, əlavə və dəyişikliklərin edilməsini təbii qəbul etmək olar. Belə ki, getdikcə daha da qloballaşan dünyada zaman keçdikcə cəmiyyətin və dövlətin həyatında, o cümlədən Konstitusiya ilə tənzimlənən münasibətlərin xarakteri və təbiətində baş verən dəyişikliklər, bir sıra münasibətlərin hüquqi tənziminin əsaslarının Konstitusiya səviyyəsində təsbit olunması zərurəti bu əlavə və dəyişiklikləri şərtləndirən başlıca amillərdir.

### 3.1. 2. Azərbaycan Respublikasının Konstitusiyasında Dəyişiklərin edilməsi qaydası

Azərbaycan Respublikasının Konstitusiyasının 3-cü maddəsinə əsasən Azərbaycan xalqı öz hüquqları və mənafeləri ilə bağlı olan hər bir məsələni referendumla həll edə bilər. Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi və ona dəyişikliklər edilməsi isə yalnız referendumla həll oluna bilər (33). Konstitusiyanın 152-ci maddəsində təsbit olunur ki, Azərbaycan

Respublikasının Konstitusiyasının mətnində dəyişikliklər yalnız referendumla qəbul edilə bilər. 153-cü maddəyə əsasən Azərbaycan Respublikasının Konstitusiyasının mətnində dəyişiklikləri Azərbaycan Respublikasının Milli Məclisi və ya Azərbaycan Respublikasının Prezidenti təklif etdikdə, təklif olunan dəyişikliklərə dair əvvəlcədən Azərbaycan Respublikasının Konstitusiyası Məhkəməsinin rəyi alınır. Referendum təyin etmək hüququ ayrı-ayrılıqda Azərbaycan Respublikasının Milli Məclisinə və Azərbaycan Respublikasının Prezidentinə mənsubdur (Konstitusiyanın 95-ci maddəsinin birinci hissəsinin 18-ci bəndi və 109-cu maddəsinin 18-ci bəndi).

2002-ci il 24 avqustda Azərbaycan Respublikasının Konstitusiyasının mətnində ilk dəyişiklikləri Azərbaycan Respublikasının Prezidenti təklif etmiş, təklif olunan dəyişikliklərə dair əvvəlcədən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin rəyi alındıqdan sonra Prezident tərəfindən referendum təyin edilmişdir.

Hazırda dəyişiklikləri Azərbaycan Respublikasının Milli Məclisi təklif etmiş, təklif olunan dəyişikliklərə dair 24 dekabr 2008-ci ildə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin rəyi alındıqdan sonra Milli Məclisin qərarı ilə referendum 2009-cu il martın 18-ə təyin olunmuşdur.

Beləliklə, Azərbaycan Respublikasının Konstitusiyasının mətnində dəyişikliklərin təklif edilməsi və həmin dəyişikliklərə dair referendumun təyin olunmasının Konstitusiyada nəzərdə tutulmuş qaydasına tam şəkildə riayət olunmuş və hüquqi prosedurlar çərçivəsindən kənara çıxma hallarına yol verilməmişdir.

### 3.1. 3. Referendum Aktı layihəsinin mətninə dair

#### A. Ümumi qeydlər

Konstitusiyanın 155-ci maddəsində təsbit olunur ki, «Bu Konstitusiyanın 1-ci, 2-ci, 6-cı, 7-ci, 8-ci və 21-ci maddələrində dəyişikliklər və ya onların ləğv edilməsi haqqında, 3-cü fəslində nəzərdə tutulmuş insan və vətəndaş hüquqları və azadlıqlarının ləğvi və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğundan daha artıq dərəcədə məhdudlaşdırılması haqqında təfliklər referenduma çıxarıla bilməz».



Referendum Aktının layihəsində Konstitusiyanın sadalanan maddələrində dəyişikliklər və ya onların ləğv edilməsi, həmçinin 3-cü fəslində nəzərdə tutulmuş insan və vətəndaş hüquqları və azadlıqlarının ləğvi və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğundan daha artıq dərəcədə məhdudlaşdırılması haqqında təkliflər öz əksini tapmışdır. Buna görə də bütövlükdə Referendum Aktının layihəsinin referenduma çıxarılması Konstitusiyaya tam uyğundur.

#### B. Konkret dəyişikliklər

Konstitusiyaya təklif olunan dəyişiklikləri məzmunca bir neçə qruppa ayırmaq olar:

1. Birinci qrup dəyişikliklər mahiyyətcə dövlətin üzərinə əlavə pozitiv öhdəliklər qoyulmasını nəzərdə tutur.

Bu qruppa Konstitusiyanın 12, 15 və 17-ci maddələrində təklif olunan dəyişiklikləri aid etmək olar. Belə ki, Konstitusiyanın preambulasında «ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək» niyyət kimi bəyan olunduğu halda vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsi insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi ilə birlikdə dövlətin ali məqsədi kimi təsbit olunur, dövlətin məhz sosial yönümlü iqtisadiyyatı inkişaf etdirmək vəzifəsini nəzərdə tutur, ailənin və uşaqların müdafiəsi sahəsində əlavə təminatlar və dövlətin yeni vəzifələrini müəyyənləşdirir. Bütövlükdə bu dəyişikliklər dövlətin sosial təbiətini qeyd edir və Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərinə uyğundur. Belə ki, İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq Paktın 11-ci maddəsi insanların münasib həyat səviyyəsi hüququnu tanımağı və bu hüququn həyata keçirilməsi üçün müvafiq tədbirlər görməyi iştirakçı dövlətlərin öhdəliyi kimi müəyyənləşdirir. Paktın 10-cu maddəsi isə iştirakçı dövlətlər

tərəfindən bütün uşaqlara və yeniyetmələrə münasibətdə xüsusi himayə və kömək tədbirləri görməyi, onları iqtisadi və sosial istismardan müdafiə etməyi, uşaq və yeniyetmə əməyindən onların mənəviyyatları və səhhətləri üçün zərərli, həyatları üçün təhlükəli olan sahələrdə istifadəni qadağan etməyi, muzdlu uşaq əməyindən istifadə üçün yaş həddi müəyyənləşdirməyi nəzərdə tutur. Bu baxımdan göstərilən dəyişikliklər adı çəkilən Paktın müvafiq müddəalarının Konstitusiya səviyyəsində gerçəkləşdirilməsini ehtiva edir.

39-cu maddəyə təklif olunan dəyişikliklər də bu kateqoriyaya aid edilə bilər. Həmin dəyişikliklərlə insanların təsərrüfat və başqa fəaliyyəti nəticəsində ətraf mühitə, təbii ehtiyatlara vurula bilən zərərin hədlərinin qanunla müəyyən edilməsini nəzərdə tutulur və dövlətin ekoloji tarazlığın saxlanılmasına, yabanı bitkilərin və vəhşi heyvanların qanunla müəyyən edilmiş növlərinin qorunmasına təminat vermək öhdəliyi müəyyən edilir. Bu dəyişikliklər ətraf mühitin həm də gələcək nəsillər üçün qorunub saxlanması baxımından əhəmiyyətlidir. Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında Avropa Konvensiyasının 2-ci maddəsinə əsasən Razılaşan Tərəflər iqtisadi və əyləndirici tələbləri və riskli yerlərdə vəhşi heyvanları və yabanı bitkiləri, onların subnövlərini, müxtəlifliyini və ya formalarını nəzərə alarkən, yabanı bitkilərin və vəhşi heyvanların populyasiyasını və ya onu, xüsusilə ekoloji, elm və mədəniyyət tələblərinə uyğun səviyyədə qorumaq və ya həmin səviyyəyə uyğunlaşdırmaq üçün lazımi tədbirlər görür.

2. İkinci qrup dəyişikliklər bəzi insan hüquqlarının həyata keçirilməsi mexanizmini, qaydalarını və şərtlərini dəqiqləşdirir.

– 25-ci maddəyə təklif olunan dəyişikliklər bərabərlik hüququ üçün əlavə təminatlar müəyyənləşdirir, hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcılarının üzərinə hər kəsin bərabər hüquqlarını təmin etmək öhdəliyini qoyur.



– 29-cu maddəyə təklif olunan dəyişikliklər mülkiyyətin məcburi qaydada özgəninkiləşdirilməsinin Konstitusion əsaslarının dairəsini məhdudlaşdırır.

– 32-ci maddəyə təklif olunan dəyişikliklər şəxsi toxunulmazlıq hüququnun Konstitusion təminatlarının dairəsini daha da genişləndirir, insanların şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə olunmaq, özü haqqında toplanmış məlumatlarla tanış olmaq, onun barəsində toplanmış və həqiqətə uyğun olmayan, tam olmayan, həmçinin qanunun tələbləri pozulmaqla əldə edilmiş məlumatların düzəldilməsini və ya çıxarılmasını (ləğv edilməsini) tələb etmək kimi yeni hüquqlardır. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 17-ci maddəsində nəzərdə tutulur ki, heç kimin şəxsi və ailə həyatına özbaşına, yaxud qanunsuz müdaxilə edilə bilməz. Hər bir insan belə müdaxilə və qəsdlərdən qanunla qorunmaq hüququna malikdir.

Həmin maddəyə təklif olunan digər bir dəyişiklik yəni «qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və foto çəkilişinə, səs yazılışına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz» müddəası da məhz Paktın 17-ci maddəsinin tələbləri baxımından nəzərdən keçirilməlidir. Burada şəxsi və ailə həyatına özbaşına və qanunsuz müdaxilənin bəzi halları birbaşa sadalanaraq qadağan olunur. Yəni izlənilmək, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyulmaq şəxsi və ailə həyatına müdaxilənin mümkün üsulları kimi yalnız qanunla nəzərdə tutulan hallarda yol verilən hesab olunur. Mahiyyət etibarilə bu, insanın şəxsi və ailə həyatına özbaşına, yaxud qanunsuz müdaxilə və qəsdlərdən qorunmaq hüququnun təbiətindən irəli gəlir və həmin hüququn təminatlarından biri qiymətləndirilə bilər.

Bu qadağanı Konstitusiyanın 50-ci maddəsində təsbit olunmuş məlumat azadlığının məhdudlaşdırılması kimi qiymətləndirmək olmaz. Belə ki, 50-ci maddədə söhbət məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığından gedir. Yəni məlumat azadlığı məlumatın qanunsuz

yollarla axtarılmasını və əldə olunmasını ehtiva etmir. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 19-cu maddəsi məlumat azadlığından istifadənin başqa şəxslərin hüquqlarına və nüfuzlarına hörmət edilməsi üçün qanunla məhdudlaşdırılmasını nəzərdə tutur. İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 10-cu maddəsinə əsasən məlumat azadlığından istifadə hüququnun həyata keçirilməsi digər şəxslərin nüfuzu və ya hüquqlarının müdafiəsi üçün gizli əldə edilmiş məlumatların açıqlanmasının qarşısını almaq məqsədilə qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan müəyyən rəsmiyyətə, şərtlərə, məhdudiyyətlərə və ya sanksiyalara məruz qala bilər.

– 32-ci maddəyə təklif olunan dəyişiklik də məhz insanların şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə olunmaq hüququna hörmət edilməsi və onlar barəsində gizli toplanmış məlumatların açıqlanmasının qarşısının alınması üçün izlənilmə, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyulma hallarının qanunla məhdudlaşdırılmasını və yalnız qanunla yol verilən hallarda mümkünlüyünü nəzərdə tutur. Buna görə də Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 17 və 19-cu maddələrinin, İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 10-cu maddəsinin tələbləri ilə ziddiyyət təşkil etmir. Həmçinin nəzərə alınmalıdır ki, izləmə, video və foto çəkilişi, səs yazısı məlumat azadlığının həyata keçirilməsinin yeganə və mütləq yolları hesab oluna bilməz; məlumat azadlığının həyata keçirilməsinin başqa çoxsaylı qanuni yolları vardır.

– 48-ci maddəyə təklif edilən dəyişiklik insanın öz dini etiqadını və əqidəsini ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməzliyini nəzərdə tutur və vicdan azadlığının mahiyyətinə uyğundur. Belə ki, vicdan azadlığı hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək



və yaymaq hüququnu ehtiva edir. Buna görə də vicdan azadlığının həyata keçirilməsində hər hansı formada məcburiyyət yolverilməzdir. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 18-ci maddəsində nəzərdə tutulur ki, hər bir insan düşüncə, vicdan və din azadlığı hüququna malikdir. Bu hüquqa özü seçdiyi din və əqidəyə malik olmaq, yaxud öz istədiyi din və əqidəni qəbul etmək azadlığı, öz dininə və əqidəsinə təkbaşına və ya başqaları ilə birlikdə, aşkar və ya fərdi şəkildə etiqad etmək, ibadət etmək, dini ayinləri, mərasimləri və təlimləri yerinə yetirmək azadlığı daxildir. Heç kəs öz seçiminə görə din və əqidəyə malik olmaq və ya onları qəbul etmək azadlığını məhdudlaşdıran məcburiyyətə məruz qala bilməz.

– 50-ci maddəyə təklif olunan dəyişikliklə hər kəsin hüquqlarını pozan və ya mənafelərinə xələl gətirən, kütləvi informasiya vasitələrindən dərc edilən məlumatı təkzib etmək və ya ona cavab vermək hüququna Konstitusiya səviyyəsində təminat verilir. Bu da insan hüquqları və azadlıqlarının müdafiəsi baxımından təqdirəlayiq hal hesab olunmalıdır.

– 67-ci maddəyə təklif olunan dəyişikliklər bəzi ifadələrin dəqiqləşdirilməsi ilə yanaşı prinsipial əhəmiyyətli yeni müddəa da nəzərdə tutur. Müəyyən olunur ki, cinayət törədilməsində təqsirləndirilən şəxs barəsində qiyabi mühakiməni qadağan etməklə mahiyyət etibarilə ədalətli məhkəmə hüququnun həyata keçirilməsi üçün yeni təminatlar yaradır. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 14-cü maddəsinə əsasən hər bir şəxs ona qarşı irəli sürülən istənilən cinayət ittihamına baxılarkən öz iştirakı ilə mühakimə olunmaq və özünü şəxsən müdafiə etmək hüququna malikdir.

– 71 və 72-ci maddələrə təklif olunan düzəlişlər insan hüquqları və azadlıqlarının təmini baxımından mühüm əhəmiyyət kəsb edən və hüquq nəzəriyyəsində hələ klassik Roma hüququ dövründən mövcud olan, bu gün də hamılıqla qəbul edilən bir sıra prinsiplərin Konstitusiya səviyyəsində təsbit olunmasını nəzərdə tutur ki, bunu da ancaq təqdirəlayiq hal hesab etmək olar. Bu dəyişikliklər insan hüquqları və azadlıqlarının Konstitusiya-

da və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşdırmasını, hər kəsin qanunla qadağan olunmayan hərəkətləri edə bilməsini və heç kəs qanunla nəzərdə tutulmayan hərəkətləri etməyə məcbur edilə bilməzliyini, dövlət orqanlarının isə yalnız Konstitusiya əsasında, qanunla müəyyən edilmiş qaydada və hüdudlarda fəaliyyət göstərməsini, şəxsin üzərinə vəzifələrin yalnız Konstitusiya ilə və ya qanunla qovulmasının mümkünlüyünü müəyyən edir.

– 149-cu maddəyə təklif olunan dəyişiklik də bu kateqoriyaya aid edilə bilər. Bu dəyişiklik bütün normativ hüquqi aktlar dərc edilməsinin məcburiliyini müəyyən edir, şəxsin dərc edilməyən normativ hüquqi aktın icrasına (ona riayət olunmasına) məcbur edilə bilməzliyini və belə aktın icra olunmamasına (ona riayət olunmamasına) görə məsuliyyətin istisna olunmasını ehtiva edir. Bu da son nəticədə insan hüquqlarının həyata keçirilməsi baxımından çox mühüm müddəalardan biri hesab olunmalıdır.

Mahiyyət etibarilə bu dəyişikliklər dövlət orqanlarının və vəzifəli şəxslərin özbaşınalıqlarının qarşısının alınmasına, inzibati qaydada insan hüquqları və azadlıqlarının həyata keçirilməsinin məhdudlaşdırılmasının və onların üzərinə əlavə vəzifələr qoyulmasının qarşısının alınmasına xidmət edir.

– 75-ci maddəyə təklif olunan dəyişiklikliyə görə dövlət rəmzlərinə hörmətsizliyin nümayiş etdirilməsi qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur. Bu dəyişiklik də normal qəbul olunmalıdır. Çünki Dövlət rəmzləri – Dövlət Bayrağı, Dövlət Gerbi və Dövlət Himni dövlətin əsas əlamətlərindən biridir və dövlət suverenliyini təcəssüm etdirir. Dövlət Rəmzlərinə hörmət hər bir vətəndaşın vəzifəsidir. Bu baxımdan dövlət suverenliyini təcəssüm etdirən rəmzlərə hörmətsizliyin nümayiş etdirilməsinə görə məsuliyyətin nəzərdə tutulması məqsədəuyğundur.

3. Üçüncü qrup dəyişikliklər dövlət orqanlarının fəaliyyətinin hüquqi əsaslarının daha da təkmilləşdirilməsinə və ekstraordinar hallarda normal fəaliyyətin təmin olunmasına yönəldilib.

– 84-cü və 101-ci maddəyə təklif olunan dəyişikliklər müharibə şəraitində hərbi əməliyyatların aparılması seçkilərin keçirilməsini mümkün etmədikdə uyğun olaraq parlamentin və ya prezidentin səlahiyyət müddətinin hərbi əməliyyatların sonunadək uzadılmasını nəzərdə tutur. və bu barədə qərarın qəbul edilmə qaydasını dəqiqləşdirir. Bu cür normaların konstitusiyada nəzərdə tutulması bir sıra hallarda parlamentin və dövlət başçısının legitimliyinin təmin olunması zərurətindən irəli gəlir. Belə ki, Konstitusiyanın 84-cü maddəsinin birinci və ikinci hissələrinə əsasən Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının səlahiyyət müddəti 5 ildir və hər çağırışının seçkiləri hər beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir. 101-ci maddənin birinci hissəsinə əsasən Azərbaycan Respublikasının Prezidenti ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə 5 il müddətinə seçilir. Göründüyü kimi, parlamentin və prezidentin səlahiyyət müddəti 5 illə məhdudlaşır və hər növbəti seçkilər 5 ildən bir keçirilir.



Lakin müharibə şəraitində ölkə ərazisinin çox hissəsində hərbi əməliyyatların aparılması seçkilərin keçirilməsini mümkünsüz edə bilər. Seçki Məcəlləsinin 71-ci maddəsində müəyyən olunur ki, Azərbaycan Respublikasının ərazisinin 25 faizindən çoxunda hərbi və ya fövqəladə vəziyyət elan edildikdə, hərbi və ya fövqəladə vəziyyət zamanı, həmçinin hərbi və ya fövqəladə vəziyyətin ləğv edilməsindən sonra 3 ay müddətində seçkilər və ya referendum keçirilə bilməz. Yəni nəzəri cəhətdən elə vəziyyət yarana bilər ki, parlamentin və ya prezidentin Konstitusiya ilə müəyyən edilmiş səlahiyyət müddəti bitsin, lakin hərbi əməliyyatlara görə seçkilərin keçirilməsi faktiki qeyri mümkün olsun. Belə bir vəziyyətdə dövlətin qanunvericilik və icra səlahiyyətlərini həyata keçirən Konstitusion hakimiyyət orqanlarsız qalması üçün yuxarıda göstərilən dəyişikliyin edilməsi zəruridir.

– 101-ci maddəyə təklif olunan dəyişiklik həm də eyni bir şəxsin iki dəfədən artıq təkrarən Azərbaycan Respublika Prezdenti secilə bilməsinə qoyulan məhtudiyyət aradan qaldırılır. Bu baxımdan da təklif olunan dəyişiklik respublika quruluşu üçün təhlükəli və demokratik prinsilərə zidd hesab oluna bilməz. Belə ki, respublika quruluşunun hamılıqla qəbul olunmuş xarakterik

cəhətlərindən biri dövlət hakimiyyət orqanlarının, o cümlədən dövlət başçısının seçkili olması hesab olunur. Yəni dövlət başçısı seçilmək imkanını da ehtiva edir.

Həmin dəyişikliyin demokratik prinsiplərə zidd olması məsələsinə münasibətdə də oxşar fikir söyləmək olar. Belə ki, demokratiyanın hamılıqla qəbul olunmuş təməl prinsiplərindən biri ağlabatan müddətlərdə azad və ədalətli seçkilərin keçirilməsidir. Eyni bir şəxsin təkrar seçilmək imkanının olub-olmamasının isə seçkilərin azad və ədalətliliyinə heç bir aidiyyəti yoxdur. Yəni eyni bir şəxsin təkrarən dövlət başçısı seçilmək imkanının məhdudlaşdırılması deyil, məhz ağlabatan müddətlərdə azad və ədalətli seçkilərin keçirilməsi demokratik prinsip hesab olunur. Məsələn, demokratiyanın fundamental tədqiqatçılarından biri R.Dahl hesab edir ki, azad, ədalətli və mütəmadi keçirilən seçkilər müasir nümayəndəli demokratiyanın əsas siyasi institutları sırasına daxildir. ATƏT-in «Yeni Avropa üçün Paris Xartiyasında (1990-cı il)» qeyd olunur ki, demokratik idarəetmə xalqın mütamadi keçirilən azad və ədalətli seçkilərdə ifadə olunan iradəsinə əsaslanır.

Beləliklə, təklif olunan dəyişikliklə eyni bir şəxsin iki dəfədən artıq təkrarən dövlət başçısı seçilə bilməsinə qoyulan məhdudiyyətin aradan qaldırılması mahiyyət etibarilə respublika idarəetmə forması və demokratiya üçün təhlükəli hal hesab oluna bilməz.

– 88-ci maddəyə təklif olunan dəyişiklik parlamentin işinin təşkili üçün vacib olan bir məsələni - iclasların açıq keçirilməsini təsbit edir və qapalı iclasların keçirilməsinin şərtləri və qaydasını müəyyənləşdirir. Bu müddəaların Konstitusiya səviyyəsində təsbit olunması məqsədəuyğundur.

– 96-cı maddəyə təklif olunan dəyişiklik Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşına qanunvericilik təşəbbüsü hüququnun verilməsini nəzərdə tutur ki, bu halı da təqdirəlayiq hesab etmək olar. Müasir demokratik ölkələrin bir hissəsində mövcud olan və adətən «xalq təşəbbüsü» adlandırılan bu hal vətəndaşların qanun yaradıcılığında iştirak formasını mü-



əyyən etməklə onların ölkənin idarə olunmasında iştirak etmək hüququnun həyata keçirilməsi üçün əlavə təminatlar yaradır və mahiyyət etibarilə demokratik prinsiplərin daha da inkişafı üçün yol açmağa xidmət edir.

– 95-ci maddənin birinci hissəsinin 4-cü bəndinə və 109-cu maddənin 17-ci bəndinə təklif olunan dəyişikliklər Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələrin Milli Məclis tərəfindən təsdiq olunmasını nəzərdə tutur. Bu dəyişiklik də normal qiymətləndirilməlidir. Belə ki, Konstitusiyanın 148-ci maddəsinin ikinci hissəsinə əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Beynəlxalq müqavilələr dövlətlərarası, hökumətlərarası müqavilələrdə milli qanunvericilikdən fərqli qaydaların müəyyənləşdirilməsi beynəlxalq praktikada adi hal kimi qiymətləndirilir. Hal-hazırda qüvvədə olan qaydaya görə yalnız dövlətlərarası müqavilələr Milli Məclis tərəfindən təsdiq olunur. Hökumətlərarası müqavilələrin də bir hissəsinin Milli Məclis tərəfindən təsdiq edilməsi qaydasının müəyyənləşdirilməsi parlamentin icra hakimiyyəti üzərində nəzarət və beynəlxalq münasibətlərdə iştirak imkanının genişləndirilməsinə xidmət edir.

– 125, 129, 130 və 131-ci maddələrə təklif olunan dəyişikliklər ədalət mühakiməsi üçün vacib olan bəzi müddəaları Konstitusiya səviyyəsində təsbitini nəzərdə tutur. Bu müddəalar sırasına məhkəmə icraatının həqiqətin müəyyən edilməsini təmin etməsi, məhkəmə qərarının əsaslandırılmış və sübuta yetirilmiş olması, məhkəmə qərarının icra olunmamasının qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olması, Konstitusiya Məhkəməsinin və Ali Məhkəmənin qərarlarının dərc edilməsinin məcburiliyi aiddir. Bu müddəalar məhkəmə hakimiyyətinin təminatlar yaradılmasına xidmət edir. Ona görə də həmin dəyişikliklərin edilməsi mühüm əhəmiyyətə malikdir.

– 146-cı maddəyə təklif olunan dəyişikliklər yerli özünüidarəetmənin həyata keçirilməsi ilə bağlıdır. Bu dəyişikliklər ma-

hiyyətcə bələdiyyələrin müvafiq ərazidə yaşayan vətəndaşlar qarşısında məsuliyyəti, dövlətin bələdiyyələrin fəaliyyətinə nəzarəti və qanunla müəyyən edilmiş hallarda və qaydada bələdiyyələrin öz fəaliyyətləri barəsində Milli Məclisə hesabat verməsini ehtiva edir. Bələdiyyələr əhali tərəfindən seçilərək yerli özünüidarəetməni həyata keçirən və yerli əhəmiyyətli məsələləri həll edən, əhali ilə daim gündəlik təmasda olan orqanlar olduğu üçün onların müvafiq ərazidə yaşayan vətəndaşlar qarşısında məsuliyyəti tamamilə təbii qəbul olunmalıdır. Bələdiyyələrin fəaliyyətinə dövlət nəzarəti qanunçuluğa əməl olunması baxımından vacibdir. Əksər ölkələrdə «inzibati qəyyumluq» adlanan sistem mövcuddur ki, bu sistemə görə icra hakimiyyəti orqanları müxtəlif səviyyələrdə bələdiyyələrin fəaliyyətində qanunvericiliyin tələblərinə əməl olunmasına nəzarət etmək hüququna malikdirlər. Bələdiyyələrin Milli Məclisə hesabat təqdim etmək məsələsinə gəldikdə isə nəzərə almaq lazımdır ki, bu cür hesabatlar heç də həmişə deyil, yalnız qanunla müəyyən edilmiş hallarda və qaydada təqdim olunacaq. Söhbət bələdiyyələrə qanunvericilik tərəfindən əlavə səlahiyyətlər də verilməsindən və bu səlahiyyətlərin həyata keçirilməsi üçün dövlət büdcəsindən bələdiyyə üzrə müvafiq zəruri maliyyə vəsaiti ayrılmasından gedir. Milli Məclis dövlət büdcəsinin həyata keçirilməsinə nəzarət etdiyindən və dövlət büdcəsi haqqında hesabatları təsdiq etdiyindən bələdiyyələrə qanunvericiliklə verilmiş əlavə səlahiyyətlərin həyata keçirilməsi üçün dövlət büdcəsindən ayrılmış maliyyə vəsaitinin xərclənməsinə də nəzarət etmək imkanına malik olmalıdır. Bu baxımdan bələdiyyələrin Milli Məclisə hesabat verməsi əhəmiyyətlidir.

108-ci maddəyə təklif olunan düzəliş əvvəllər Azərbaycan Respublikasının Prezidenti seçilmiş şəxsin təminatı qaydaları Konstitusiya qanunu ilə müəyyən edilməsini nəzərdə tutur ki, bu da mövcud qanunvericilikdə olan bu boşluğun aradan qaldırılmasını - eks-prezidentlərin statusunun hüquqi tənzimlənməsini ehtiva edir və müsbət dəyişiklik kimi qiymətləndirilməlidir.



4. Dördüncü qrup dəyişikliklər Konstitusiyanın bəzi müddəalarının konkretləşdirilməsi və bəzi ifadələrin başqası ilə əvəz edilməsini nəzərdə tutur.

Buraya 18, 19, 92-ci maddələrə, 109-cu maddənin birinci hissəsinin 10-cu və 13-cu bəndlərinə təklif olunan dəyişikliklər aiddir. Bu dəyişikliklər mahiyyətcə prinsipial əhəmiyyətli yeniliklər gətirməsə də hazırkı mətnləri təkmilləşdirir.

Müəllim və tərbiyəçi nəticə kimi göstərməlidir:

1. 2009-cu ilin 18 martında keçirilməsi nəzərdə tutulan referendumla əlaqədar Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklər təklif edilərkən və həmin dəyişikliklərə dair referendum təyin olunarkən Konstitusiyada nəzərdə tutulmuş qaydalara tamamilə riayət edilmişdir.

2. Referendum Aktının layihəsində təklif olunan dəyişikliklərin referenduma çıxarılması Konstitusiyaya tam uyğundur.

3. Konstitusiyaya təklif olunan dəyişikliklərin mətni Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə heç bir ziddiyyət təşkil etmir.

4. Təklif olunan dəyişikliklər mahiyyət etibarilə respublika idarəetmə forması, demokratik prinsiplər üçün heç bir təhlükə yaratmır və demokratik proseslərin ləngidilməsinə, məhdudlaşdırılmasına və ya ləğvinə yönəldilmiş hal kimi qiymətləndirilə bilməz.

5. Konstitusiyaya təklif olunan dəyişikliklər 18 mart 2009-cu ildə keçirilən referendumda yüksək səslə qəbul edildi.

## 3.2. Demokratik seçki dövlətin əsası kimi

Mövcud ədəbiyyata istinadən göstərək ki, ölkədaxili siyasi sabitliyin və cəmiyyətin birləşməsinə yönəlmiş demokratik islahatların inkişafının ən önəmli nailiyyətlərindən biri qeyri-hökumət təşkilatlarının təşəkkülüdür. Müxtəlif sosial sahələrdə mövcud problemlərin həllində fəal iştirak etməklə QHT-lər vətəndaş cəmiyyətinin inkişafı və möhkəmlənməsi, ictimai-siyasi proses-

lərdə rolunun artması, ölkədə gedən proseslərə vətəndaş cəmiyyətinin üzvlərinin cəlb edilməsi, onlarda vətəndaşlıq şüurunun aşılanması, vətəndaş təşəbbüsünün, siyasi mədəniyyətin artırılması və s. məqsədlərə dəstək olur.

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) artıq bir neçə il ərzində ictimai-siyasi proseslərdə yaxından iştirak edərək 2004-cü ildən seçkilər və ölkənin idarə edilməsi ilə bağlı geniş miqyaslı layihələr həyata keçirir. İlk layihələr «İlham Əliyevin prezidentliyinin 365 günü və vətəndaş cəmiyyəti» nəşrlərində təqdim edilibdir.

Keçirilmiş tədqiqatların davamı olaraq Assosiasiya müntəzəm olaraq müxtəlif aktual məsələlərlə bağlı ictimai rəyin dəyişməsini izləmək məqsədilə dövri sosioloji tədqiqatların keçirilməsini planlaşdırmışdır. Bu zaman müxtəlif vaxtlarda verilən cavabların müqayisəsini aparmaq üçün sorğu anketlərində sualların bir hissəsinin dəyişmədən saxlanılması, tədqiqat nəticələrinin işlənməsi nəticəsində müəyyən olunmuş xüsusiyyətlərin mahiyyətini, xarakterini və asılılığını araşdırmaq üçün sualların daxil edilməsi, son tədqiqatdan keçən müddətdə bütün aktuallaşmış problemlərlə bağlı yeni sualların daxil edilməsi nəzərdə tutulmuşdur.

Beləliklə, 2003-cü ilin prezident seçkilərindən sonra AVCİYA tərəfindən ölkədə baş verən ictimai-siyasi proseslərin monitorinqi, mövcud vəziyyətin təhlili və ölkə əhalisinin rəy və qiymətləndirmələri öyrənilmişdir. Bu məqsədlə 2008-ci ilin oktyabr ayının 15-də keçirilmiş prezident seçkilərindən sonra geniş miqyaslı sosioloji sorğu aparılaraq seçicilərin keçirilmiş seçkilər, həm də son beş ildə ölkədə baş verən dəyişikliklər barədə rəyləri aşkarlanmışdır. Alınan nəticələr təhlil edilərək bu nəşrdə diqqətinizə təqdim olunur.

Sosioloji tədqiqatların keçirilməsi «ELS» Müstəqil Araşdırmalar Mərkəzinə (MAM) həvalə olunmuşdur. Buna səbəb «ELS» MAM-ın bu sahədə böyük təcrübəyə və kadr potensialına malik olması, öz fəaliyyətində proseslərə elmi-metodoloji prizmadan yanaşma bacarığıdır. Qeyd edək ki, AVSİYA-nın «İlham Əliyevin prezidentliyinin 363 günü və vətəndaş cəmiyyəti» və «İlham Əliyevin son 6 ayda prezidentlik fəaliyyəti və Azərbaycanda vətəndaş cəmiyyəti» nəşrlərində istifadə edərək gənc nəslin Azərbaycanda demokratik şəraitdə müstəqilliyimiz inkişaf edir. Bu sorğular demokratiyanın müstəqilliyin rəhnidir.



Təqdim olunan rəy sorğusu 2008-ci ilin noyabr ayında Azərbaycan Respublikasının bütün ərazisində aparıb.

Seçicilər (18 və daha yuxarı yaşı olan şəxslər) və eləcə də seçki məntəqələri barədə məlumatlar Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasının məlumatları əsasında əldə olunub. Ölkə üzrə mövcud olan 5359 seçki məntəqəsindən sorğunun keçirilməsi üçün 125 dairəsini əhatə edən 168 məntəqə seçilib.

Məntəqələrin yerləşməsi və sorğunun ölkənin bütün ərazilərini bərabər surətdə əhatə etməsi tədqiqatın obyektivliyini və tanınmasını təmin edən məcburi şərtlərdən biridir. Ölkə üzrə 1769 respondentin rəy sorğusu keçirilib və burada mümkün orta statistik yanlışlıqlar (+/-) 2,1% olub.

Beləliklə, tədqiqat respublikanın bütün rayonlarını əhatə etməklə ümumrespublika miqyaslı olub ki, bununla da yaşayış məntəqələrinin seçimi çoxpilləli stratifikasiyaya uyğun təsadüfi ərazi seçimi üsulu ilə aparılıb.

Sorğu anketi «ELS» Müstəqil Araşdırmalar Mərkəzinin sosioloq qrupu tərəfindən tərtib edilib. Tədqiqatın sahə hissəsini, yəni birbaşa rəy sorğularını xüsusi hazırlıq kurslarında iştirak etmiş təcrübəli intervüerlər həyata keçirib. Onlar sorğunun keçirilməsi zamanı respondentlərin sərbəst və səmimi cavablarının alınması üçün verilən göstərişlərə düzgün əməl edərək lazımi şərait yaradıblar. Bunun nəticəsində, verilən suallara, tam əminliklə demək olar ki, həqiqi vəziyyəti əks etdirən cavablar alınıb.

Maraqlıdır ki, bir çox Avropa ölkələrindən Fərqli olaraq Azərbaycan seçicilərinin əsas hissəsi gənc və orta yaşlı nəslin nümayəndələridir.

Sorğuda iştirak edən respondentlərin 77,6%-i ailəli, 17,6 %-i subay, 4,2 %-i isə duldur. Tədqiqat zamanı nigah pozulması hallarının çox aşağı faizi (0,6 %) müəyyənləşdirilib. Nəticələrdən

də göründüyü kimi, kənd respondentlərinin 82,2 %-i, şəhər respondentlərinin isə 75,3 %-i evlidir. Eyni zamanda, şəhərdə subay respondentlərin sayı kəndə nisbətən daha çoxdur. Beləliklə, ölkədə ailə institutunun qorunması tendensiyasının mövcudluğu sübut olunur.

Məşğulluğa görə respondentlər aşağıdakı formada bölünüb: işləyənlər - 61,3 %, təqaüdçülər-11,8 %, ev xanımları - 15,2 %, işsizlər - 11, 9 %.

İşsizlərin yaş kateqoriyalarına ayrılması bu sahədə ən az müdafiə olunan yaş qrupunu müəyyənləşdirməyə imkan verir ki, bunlar da 18-24 yaş arasında olan gənclərdir.

Bu da onunla izah olunur ki, iş təcrübəsinə malik olmayan gənclər, təhsillərindən asılı olmayaraq, işəgötürənlər üçün maraq kəsb etmir. Təhsil müəssisələri məzunlarının işlə təmin olunması mexanizmi isə hazırda mövcud deyil. Digər tərəfdən, gənclər heç bir yerdə işləmədən təcrübə yığa bilməzlər. Beləliklə, gənc nəslin işsizlik problemi gündəmə gəlir.

Qeyd etmək lazımdır ki, rəyi soruşulanların yarıdan çoxu (56,4 %) tam orta və orta ixtisas, 24,5 %-i isə ali təhsillidirlər.

Maraqlıdır ki, işsizlərin əsas hissəsi orta və orta ixtisas təhsillidirlər.

Şəhər və kənd üzrə təhlil göstərir ki, işsizlər kənddə əsasən orta təhsilli, şəhərdə isə orta, orta ixtisas və ali təhsillərlə eyni dərəcədə təmsil olunub.

Respondentlərin əksəriyyəti (95,7%) milliyyətcə azərbaycanlı olduğunu bildirib. Digər respondentlərin verdiyi cavablar Azərbaycan cəmiyyətinin çoxmillətli olduğunu təsdiqləyir: respondentlərin arasında ruslar, tatarlar, ləzgilər, talışlar, yəhudilər, kürdlər və s. olub.

Respondentlərin bildiyi və adətən ünsiyyətdə ən çox istifadə edilən dillər kimi Azərbaycan, rus, talış və ləzgi dilləri göstərilib.

Beləliklə, sorğu zamanı respondentlər barədə alınan sosial-demoqrafik məlumatlar seçilən metodologiyanın və respondent seçiminin düzgünlüyünü, eləcə də müsahibə götürmə texnologi-



yasına riayət olunduğu və ölkə seçicilərinin geniş spektrini əhatə etdiyini göstərir.

### 3.3. Ailənin sosial rifah halı və gəlirlərin sahəsi

15 oktyabr 2003-cü ildə keçirilən seçkilərdə seçicilərin 76, 84% səsini toplayaraq Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyevdən xalq çox şey gözləyirdi. Ən azı o baxımdan ki, ümummilli lider Heydər Əliyev irsinin layiqincə davam etdirilməsi dövlətin və cəmiyyətin inkişafı baxımından böyük əhəmiyyət kəsb edirdi. Xalqın ondan böyük gözləntilərini dərk edən İlham Əliyev də prezident kimi And içərkən belə bir ifadə işlətmişdi: «Mən hər bir azərbaycanlının prezidenti olacağam». O, çıxışında iki təmayüllü - iqtisadi inkişafı və demokratik-siyasi islahatları ölkənin konseptual inkişaf strategiyasının prioritet istiqamətləri kimi önə çəkmişdi: «Siyasi islahatlar iqtisadi islahatlarla tamamlanmalıdır. Azərbaycanda həm siyasi, həm də iqtisadi islahatlar paralel şəkildə aparılır və hesab edirəm ki, bizim uğurumuzun əsas səbəbi məhz bundan ibarətdir. Biz siyasi islahatları artıq yaranmış çox güclü iqtisadi təməl üzərində qururuq. Əgər bu iqtisadi təməl olmasa, siyasi islahatları aparmaq o qədər də asan olmayacaq».

Bu, söz xatirinə deyilmiş ifadə və ya sadəcə, bəyanat deyildi. İlham Əliyev son beş ildə imzaladığı fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin etməyi, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin işləkliyinə nail olmağı bacardı.

Təsadüfi deyil ki, MDB dövlətlərinin büdcə vəsaitləri son beş ildə təxminən 15-20% artdığı halda, respublikamızda bu göstərici üzrə fərq 10 dəfədən çoxdur. Azərbaycanın büdcə gəlirlərinin illik artım tempi ötən dövrdə orta hesabla 30-40% artımla müşayiət olunmuşdur. Məsələn, əgər 2003-cü ildə büdcə gəlirləri 1 milyard 500 milyon manat təşkil edirdisə, 2004-cü ildə bu rə-

qəm 1 milyard 500 milyon manat, 2005-ci ildə 2 milyard 100 milyon manat, 2006-cı ildə 3 milyard 800 milyon manat olmuş, 2007-ci ildə 50%-dən də çox yüksələrək 6 milyard manatı ötmüşdür. 2008-ci ilin büdcəsinin 10 milyard manatı ötməsi də artım dinamikasının miqyasını əyani surətdə nümayiş etdirir. Büdcə gəlirlərinin sürətli artımı nəticəsində artıq 3 ildir ki, hökumət may-iyun aylarında dövlət büdcəsində əlavə və dəyişikliklər etməli olur.

2009-cu ilin büdcəsi də nikbindir. Proqnozlara əsasən, 2009-cu ildə ölkənin əsas makroiqtisadi göstəricisi olan ümumi daxili məhsulun (ÜDM) həcmi 43,6 milyard manat, artım tempi 18% təşkil edəcəkdir. 2009-cu ilin büdcə gəlirlərinin məbləği ÜDM-in təxminən 28%-i nisbətində olacaqdır. 2009-cu ildə büdcənin gəlirlər bölməsi cari illə müqayisədə 16,1% artaraq 12 milyard 177 milyon manata çatacaqdır. 2009-cu il Azərbaycanın icmal büdcəsinin gəlirləri 22 milyard 680 milyon manat təşkil edəcəkdir və bu da 2008-ci ilə nisbətən 29,9% çoxdur.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2003-2008-ci illərdə Azərbaycanın iqtisadiyyatı, ümumi daxili məhsul 2,7 dəfə, orta aylıq əməkhaqqı 3,4 dəfə, əhalinin gəlirləri 2,9 dəfə yüksəlmiş, orta pensiya məbləği 17 manatdan 90 manata çatmışdır. Bu, MDB-də pensiyaların məbləği nisbətən yüksək olan ilk 5 dövlət arasında ən yuxarı artımdır.

Beləliklə, həyata keçirilən bütün tədbirlər sosial müdafiənin keyfiyyətcə yeni mərhələyə keçid alması kimi dəyərləndirilə bilər. Onlar kompleks xarakter daşıyır və bu konsepsiyanın davamı qarşıdakı beşilliyin də sosial rifah və tərəqqi dövrü kimi səciyyələndiriləcəyinə münbit zəmin və möhkəm təminat yaradır.

### 3.4. Daxili siyasət

2003-2008-ci illərdə xalqın radikal müxalifətə etimadının getdikcə azalması prosesi müşahidə olundu. Bu, təkcə müxalifət liderlərinin siyasi səbatsızlığı, bacarıqsızlığı və fəaliyyətini daxili



çəkişmələr üzərində qurması ilə deyil, həm də ölkədə həyata keçirilən siyasi-iqtisadi islahatlar nəticəsində xalqın prezident İlham Əliyevə inam və etibarının getdikcə artması ilə əlaqədar olmuşdur.

İlk prezidentliyi dövründə İlham Əliyev müxalifəti dəfələrlə dialoqa, ölkənin problemlərinin həlli üçün birliyə çağırdı. Bu çağırış ilk dəfə prezidentin andiçmə mərasimində səsləndi.

O, Azərbaycanda vətəndaş həmrəyliyinin baş tutması üçün 2003-cü il prezident seçkilərindən sonra kütləvi iğtişaşlar törətməkdə təqsirləndirilərək həbs olunmuş və müxtəlif müddətlərə azadlıqdan məhrum edilmiş müxalifət liderlərini, eləcə də sıravi müxalifətçiləri konstitusion hüququndan istifadə edərək əfv etdi. Daha sonra müvafiq məhkəmə instansiyaları bu liderlərin üzərindən məhkumluğu götürərək, 2005-ci ilin noyabrında keçirilən parlament seçkilərində iştirakına şərait yaratdı. Onlardan iki nəfər - sabiq baş nazir Pənah Hüseyn və Ümid Partiyasının sədri İqbal Ağazadə Milli Məclisin deputatı seçildilər və hazırda millət vəkili kimi parlamentdə fəaliyyətlərini davam etdirirlər.

Daxili siyasətdə İlham Əliyev ilk gündən iqtisadiyyatın birqütblü inkişafını yolverilməz sayaraq, respublikanın neft gəlirlərindən asılılığının aradan qaldırılmasına - qeyri -neft sektorunu istehsal sahibkarlığının inkişafına xüsusi diqqətlə yanaşmış, regionların tarazlı və davamlı inkişafı, tarixi məşğulluq ənənələrinin bərpası istiqamətində ardıcıl tədbirlər sistemi həyata keçirilmişdir. Bu siyasət neftdən asılılığı azaltmaqla ölkədəki dinamik iqtisadi inkişaf tempini sabit saxlamağa imkan verən fundamental əsasların yaradılmasını nəzərdə tutur. «Biz öz siyasətimizi elə aparmalıyıq ki, guya Azərbaycanda neft yoxdur. İqtisadiyyatın bütün sahələrində və ilk növbədə, qeyri-neft sektorunda mövcud strukturlar inkişaf etdirilməlidir» - deyən dövlət başçısı neft gəlirlərini digər strateji sahələrə yönəltməklə qeyri-neft sektorunun, sənayenin inkişafına, infrastrukturun müasirləşməsinə, davamlı tərəqqiyə zəmin yaradan investisiya layihələrinin gerçəkləşməsinə xüsusi diqqətlə yanaşır.

Yuxarıda göstərilənlər sadə insanların nəzərində onların

həyatının təhlükəsizliyinin, firavanlığının, sabit gələcəklərinin təmin edilməsindədir. Demək olar ki, 2003-cü ildən bugünədək ölkə prezidentinin həyata keçirdiyi daxili və xarici siyasətin qiymətləndirilməsi zamanı məhz bu amillər nəzərə alınmışdır.

Azərbaycanda ictimai-siyasi vəziyyəti qiymətləndirən respondentlərin əksəriyyəti Azərbaycanda ictimai-siyasi vəziyyətin sabit olduğunu bildirib. Respondentlərin 91,7%-i ölkənin ictimai-siyasi həyatını sabit, 5,9%-i qeyri-sabit hesab edir.

İlham Əliyevin prezident olduğu müddətdə əhəmiyyətli və vaxtında atdığı addımları qeyd edərkən respondentlər, ilk növbədə, prezidentin regionlara səfərlər edərək əhali ilə sıx təmasda olmasını qeyd edib. Görüşlər zamanı sakinlər mövcud problemləri haqqında məlumatı bilavasitə ölkə başçısına verməklə yanaşı, ölkədə baş verənlərlə bağlı öz fikir və təkliflərini bölüşməyə imkan əldə ediblər. Prezidentin sakinlərlə ünsiyyətdə olduğu zaman bu problemlərlə diqqətlə tanış olması və onların həlli üçün göstərişlər verməsi respondentlər tərəfindən yüksək qiymətləndirilib. Onlar bu görüşlərin real nəticələrini müşahidə etdiklərini və bunun davam etməsini arzuladıqlarını bildiriblər (25,7%).

Son beş ildə ölkədə abadlıq işlərinin genişləndirilməsi və müasir üslubda tikililərin ucaldılması, körpülər və yol ayrıclarının tikilməsi, tikinti işlərinin həcminə görə Azərbaycan regionda alternativsiz liderdir. Bunun həyatlarında müsbət rol oynadığını qeyd edən respondentlər ikinci yerdə məhz abadlıq işlərinin aparılmasını, yolların və körpülərin tikintisini qeyd ediblər (12,4%).

Ölkə ərazisinin beşdə bir hissəsinin işğalı probleminin həlli istiqamətində İlham Əliyevin fəaliyyəti və danışıqların intensivləşdirilməsi rəyi soruşulanların 10,5%-i tərəfindən qeyd olunmuşdur.

İlham Əliyevin prezidentliyi dövründə gənclərə və idmana göstərdiyi diqqət sayəsində ölkə idmançıları beynəlxalq yarışlarda böyük uğurlar qazanaraq Azərbaycanın qüdrətini bütün dünyaya yaymışlar. Bunlar və ölkəmizdə beynəlxalq yarışlar və çempionatların keçirilməsi, ölkəmizin ilk dəfə olaraq «Evrovision» müsabiqəsində təmsil edilməsi respondentlər tərəfindən irə-



liyə doğru atılmış əhəmiyyətli bir addım kimi qiymətləndirilərək qeyd edilib (9,3%).

Digər qeyd olunan addımlar sırasında yeni iş yerlərinin açılması (7.5%), kadr dəyişiklikləri (7,3%), yoxsulluğun azaldılması (6,1%) və başqaları qeyd edilmişdir.

Azərbaycan vətəndaşının normal yaşayışı üçün kommunal xidmətlərin səviyyəsi yüksəldilir, zəruri infrastruktur layihələri gerçəkləşdirilir, ilk növbədə, əhalinin fasiləsiz olaraq elektrik enerjisi, təbii qaz, içməli su ilə təminatı, yolların bərpası və yenidən çəkilişinə xüsusi diqqət yetirilir. İnfrastrukturun yeniləşdirilməsi məqsədilə dövlət büdcəsində investisiya xərcləri ildən-ilə artır. Əgər 2006-cı ilin dövlət büdcəsində investisiya layihələrinin maliyyələşdirilməsi üçün 600 milyon manat ayrılmışdısa, 2007-ci ildə bu rəqəm 1,5 milyard manat təşkil etmiş, 2008-ci ildə isə 4 milyard manatı ötmüşdür.

Regionların sosial-iqtisadi inkişafı tədbirləri çərçivəsində 730 mindən artıq iş yeri açılmış, Bakıya İsmayıllı-Oğuz bölgəsindən su kəməri, Qubanın Xınalıq kəndinə yol çəkilmiş, Lerik kimi ucqar rayonlar təbii qazla təmin olunmuş, yeni məktəblər tikilmiş, köhnə məktəblər əsaslı təmir və bərpa olunaraq istilik sistemi ilə təmin olunmuş, Bakıda müasir körpülər salınmış, yol şəbəkəsi müasirləşdirilmişdir. Son beş il ərzində Azərbaycanda 4 beynəlxalq aeroport istismara verilmiş, səkkiz elektrik stansiyası tikilmiş, minlərlə kilometr yol salınmışdır.

Ötən beş ildə kiçik və iri sahibkarlara dövlət büdcəsindən ayrılan vəsaitlərin həcmi ildən-ilə artırılmış, iş adamlarının fəaliyyətinə süni müdaxilələr aradan qaldırılmış, antiinhisar və korrupsiyaya qarşı mübarizə tədbirləri gücləndirilmiş, biznes subyektlərinin qeydiyyatı və lisenziya sistemi sadələşdirilərək «vahid pəncərə» prinsipi əsasında aparılmış, yerlərdə regional iqtisadi məhkəmələri formalaşdırılmış, kənd təsərrüfatı sahəsində çalışan fermerlərin lazımi texnika, gübrə və toxum məhsulları ilə təmin edilməsinə kömək məqsədilə «Aqrolizinq» Səhmdar Cəmiyyəti yaradılmış, onlar gəlir vergisindən azad edilmiş, güzəştli şərtlərlə yanacaq və motor yağları ilə təmin olunmuşdur. Sahibkarlığın

inkişafı ilə bağlı kompleks tədbirlərin davam etdirilməsi məqsədilə «2008-2015-ci illər üçün sahibkarlığın inkişafı Dövlət Proqramı»nın layihəsi hazırlanmışdır və hazırda aidiyyəti qurumlarla razılaşdırılır.

Beynəlxalq qurumların reytinqləri Azərbaycanın dünyanın nüfuzlu maliyyə təşkilatlarının etibarlı tərəfdaşına çevrildiyini və kreditlərin cəlb edilməsində açıq məkan olduğunu təsdiqləyir. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, ötən beş ildə Azərbaycan iqtisadiyyatına 44 milyard ABŞ dolları sərmayə qoyulmuşdur ki, bu da müstəqillik dövründə respublikamıza yatırılan sərmayələrin 77%-ni təşkil edir.

Davos Dünya İqtisadi Forumunun 2008-ci il üzrə hesabatında rəqabətqabiliyyətlilik sahəsində Azərbaycan 66-cı yeri tutmuşdur. «Goldman Sachs» kimi mötəbər qurumun reytinqində (2008-ci il üzrə) isə Azərbaycan 61-ci yerdə qərar tutmuşdur. Dünya Bankının ən iri maliyyə strukturlarından olan Beynəlxalq Maliyyə Korporasiyasının dünya ölkələrində biznes mühitinə dair hazırladığı növbəti «Doing Bisiness-2009» hesabatında isə Azərbaycan «İslahatçı ölkə» elan edilmişdir. İşgüzar mühitin əlverişliliyi baxımından ötən il dünya üzrə 97-ci yerdə olan respublikamız bu il 33-cü yerə yüksəlmişdir. Bununla da hesabatın tərtib edildiyi tarix ərzində ən böyük sıçrayış rekordu müəyyən edilmişdir.

2003-cü ildə İlham Əliyevin seçkiqabağı verdiyi vədlərdən biri əhalinin məşğulluğu və işsizlik probleminin həll edilməsi naminə yaxın 5 il ərzində 600 min yeni iş yerinin açılması idi: son beş ildə dayanmış müəssisələrin fəaliyyətinin bərpası, yeni müəssisələrin açılması, müxtəlif sahələrdə istehsalatın təşkil edilməsi və s. Verilən vədlərin reallaşdırılaraq gerçəkliyə çevrilməsi hər bir ailənin güzəranına təsir edib. Bunu respondentlərin ölkədə iş yerlərinin açılmasının onların həyatına təsirinə dair suallara verdiyi cavablardan bilmək olar. Belə ki, respondentlərin əksəriyyətinin (79,3%) ölkədə yeni iş yerlərinin açılması barədə məlumatı var. Bu barədə onlar məlumatı kütləvi informasiya vasitələrindən (KİV) alıb. Lakin artıq rəyi soruşulanların 39,6%-i yaşadıqları yerlərdə yeni iş yerlərinin açılmasına dair konkret faktlara malikdirlər. Yeni iş yerlərinin açılması nəticəsində ailələrin 31,4%-nin həyatında müsbət dəyişikliklər baş verib-ailənin bir və ya bir neçə üzvü işlə təmin edilib.



Alınan nəticələr 2004-cü ildə keçirilmiş tədqiqatın nəticələri ilə müqayisə edildikdə son dörd ildə baş verən dəyişikliklərin ciddi olduğu aydın görünür. Göründüyü kimi, respondentlərin özlərinin və yaxud ailə üzvlərinin bir və ya bir neçəsinin yeni iş yeri ilə təmin olunması 2008-ci il üçün üç dəfədən artıq respondent tərəfindən göstərilib.

## 3.5. Xarici siyasət

İstənilən dövlətin xarici siyasəti ölkənin sosial-iqtisadi və ictimai-siyasi inkişaf səviyyəsi, coğrafi mövqeyi və milli-tarixi ənənələri, o cümlədən suverenliyin və təhlükəsizliyin təmin edilməsi faktorları ilə müəyyən olunur. Bütün bunlar da xirici siyasətin kontekstində milli maraqlar konsepsiyasının əsasını formalaşdırır. Tarix göstərir ki, istənilən dövlətin xarici siyasətinin uğuru təkcə milli maraqların dəqiq müəyyənləşdirilməsindən yox, həm də milli maraqların təmin edilməsinə aparan yolun və vasitələrin aydın şəkildə dərk edilməsindən asılıdır. Bu mənada İlham Əliyevin ilk prezidentliyi dövründə Azərbaycanın milli maraqlarının təmin olunmasına yönəlmiş fəaliyyəti məhsuldar hesab oluna bilər.

İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan balanslaşdırılmış xarici siyasət kursunu davam etdirdi. Gənc prezident xarici siyasətdə yüksək vətənpərvərlik, təşəbbüskarlıq, müasir Avropa və dünya siyasətinin incəliklərinə bələd olduğunu nümayiş etdirərək, həm də bacarıqlı diplomat olduğunu ortaya qoydu.

Məlumdur ki, Azərbaycanın xarici siyasətinin prioritetləri ölkənin ərazi bütövlüyünün tezliklə bərpa edilməsindən, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələrinin aradan qaldırılmasından, qonşu ölkələrlə mehriban qonşuluq və

qarşılıqlı fayda kəsb edən münasibətlərin inkişaf etdirilməsindən, NATO, Avropa Birliyi və Avropa Şurası da daxil olmaqla Avropa və Transatlantik təhlükəsizlik və əməkdaşlıq strukturlarına inteqrasiyadan, Azərbaycanın Qərb və Şərqin qovşağında yerləşməsindən faydalanmaqla mühüm strateji-coğrafi mövqeyindən bəhrələnərək, ölkə iqtisadiyyatının müxtəlif sahələrinin inkişafını sürətləndirməsindən, Azərbaycanın iştirakçısı olduğu Avrasiya nəqliyyat dəhlizini inkişaf etdirməsindən, regionda təhlükəsizliyin və sabitliyin gücləndirilməsindən ibarətdir.

Ötən beş ilin yekunları göstərir ki, sadalananlar prezident İlham Əliyevin xarici siyasətində prioritet istiqamətlər təşkil etmişdir. Ötən müddət ərzində ölkə diplomatiyasının başlıca uğuru Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsindən ibarət oldu. Məhz uğurlu xarici siyasətin nəticəsidir ki, bu gün beynəlxalq ictimaiyyət Azərbaycanı Cənubi Qafqazda ən güclü insan potensialına, ən zəngin karbohidrogen yataqlarına və ən yaxşı perspektivli iqtisadiyyata malik ölkə kimi nəzərdən keçirir. Artıq heç kim mübahisə etmir ki, regionu Qərbə «açan» ölkə də Azərbaycandır. «Əsrin müqaviləsi»nin imzalanmasından sonra regionun Qərblə yeni mərhələyə qədəm qoymuş iqtisadi münasibətlərinin indi siyasi müstəvidə inkişaf etməyə başlaması dönməz xarakter almışdır. Əlamətdar haldır ki, qloballaşma şəraitində Azərbaycan vacib layihələrin həyata keçirilməsində, o cümlədən dövlətlər və regionlar arasında fasiləsiz və təhlükəsiz əlaqələrin yaradılmasını səmərəli şəkildə təmin etməyə imkan verən transregional infrastrukturun formalaşdırılmasında əsas rol oynamaqda davam edir.

Azərbaycanın xarici siyasətində başlıca istiqamətlərdən biri də Qərbin müxtəlif təşkilatları ilə münasibətlərdə əməkdaşlıq səviyyəsinin yüksəlməsinə nail olmaqdan ibarətdir. Ötən müddət ərzində, xüsusilə də NATO, Avropa Birliyi və Avropa Şurası kimi nüfuzlu beynəlxalq təşkilatlarla münasibətlərimiz davamlı olaraq inkişaf etmişdir ki, bunun da konkret səbəbləri var. Birinci səbəb ölkə başçısının Azərbaycanın unikal coğrafi mövqeyindən maksimum dərəcədə faydalanaraq, Avropa ölkələrinin regiona gəlmələrinin sürətlənməsinə şərait yaratmasıdır.



İkinci və ən mühüm səbəblərdən biri də budur ki, prezident İlham Əliyevin dəstəyi və rəhbərliyilə Azərbaycan regional və qlobal əhəmiyyətli enerji layihələrinin həyata keçirilməsində böyük rol oynamışdır. Bu faktor Şərqlə Qərb arasında təbii körpü rolunu oynayan ölkə kimi Azərbaycanın əhəmiyyətini daha da artırmışdır. Neftlə zəngin digər regionlarda siyasi vəziyyətin gərginləşməsi və perspektivdə gərginliyin təkrar başvermə təhlükəsinin qalması da Azərbaycanın qlobal enerji təhlükəsizliyinin təmin edilməsində mövqelərini möhkəmləndirmişdir.

Nəticə kimi ölkə əhalisinin Azərbaycanın Avropa Birliyi strukturlarına yaxınlaşmasını, gələcəkdə həmin birliyə daxil olması nəzərdə tutulmaqla aparılan siyasətin davam etdirilməsini bəyənməsidir.

Azərbaycanın NATO-ya üzvlüyünə də respondentlər müsbət münasibət bildiriblər. Belə ki, rəyi soruşulanların 66,0%-i Azərbaycanın NATO-ya üzvlüyünə tərəfdardır. Onların 11,1%-i tərəfdar olmadığını bildirib, 22,9%-i isə «deyə bilmərəm» deməklə cavab verməyə çətinlik çəkib.

Burada xüsusi qeyd etmək istərdik ki, Avropa Birliyi ilə Azərbaycan arasında əməkdaşlığı gücləndirəcək «Yeni qonşuluq siyasəti» planı imzalanıb. Azərbaycan Gürcüstan və Ermənistandan fərqli olaraq, Avropa Birliyi ilə əlavə iki sənəd imzalanıb. Energetika sahəsini əhatə edən sənədlərin tərəflər arasında münasibətlərin daha da möhkəmlənməsinə xidmət edəcəyi şübhəsizdir.

Azərbaycanın xarici siyasət kursunda strateji müttəfiqliyə ciddi önəm verilir. Ölkəmizin strateji müttəfiqləri dedikdə, təbii ki, qardaş Türkiyə Cümhuriyyəti, həmçinin GUAM çərçivəsində əməkdaşlıq etdiyimiz Gürcüstan, Ukrayna və Moldova nəzərdə tutulur. Rəsmi Bakı hər zaman strateji müttəfiqləri ilə, ilk növbədə, Türkiyə ilə razılaşdırılmış xarici siyasət yürütməyə üstünlük verir. Dünyadakı türk və Azərbaycan diaspor təşkilatlarının Bakıda keçirilən möhtəşəm qurultayı bu siyasətin doğru olduğunu bir daha sübut etdi.

Azərbaycanın balanslaşdırılmış xarici siyasəti tam aydınlığı ilə özünü 2008-ci ilin avqust ayında Rusiya-Gürcüstan hərbi münaqişəsi zamanı göstərdi. Həmin dövrdə Rusiya Gürcüstana hücum edib orada işğal siyasəti apararkən bəziləri rəsmi Bakını tutduğu mövqeyə görə qınadı. Azərbaycanı təxribata cəlb etmək istədi. Ancaq əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş balanslı siyasətə sədaqət, böyük uzaqgörənlik və yüksək siyasi bacarıq göstərən prezident İlham Əliyev ətrafımızı bürüyən müharibə alovundan ölkəmizi minimum zərərlə çıxarmağı bacardı. Həmin dövrdə həm daxildə, həm də xaricdə bəziləri iddia edirdi ki, guya Rusiyanın növbəti hədəfi Azərbaycandır. Amma bütün bunların əksinə, Rusiya Gürcüstanda baş verənlərdən sonra regionun əsas güc mərkəzi olan Azərbaycana daha da yaxınlaşmağa, münasibətləri dərinləşdirməyə başladı.

Bu mürəkkəb siyasi şəraitdə düzgün ölçülmüş siyasətin seçilib həyata keçirilməsi və ölkəmizin təhlükəsizliyi və siyasi sabitliyini təmin etmək böyük siyasi bacarıq və müdriklik tələb edir. Azərbaycan prezidenti bu çətin məsələnin öhdəsindən gələrək ölkəmizin maraqlarını qorudu. Təsadüfi deyil ki, 2003-cü il prezident seçkilərindən sonra dövlətimizin idarə edilməsində ən əhəmiyyətli uğurları qeyd edərkən, respondentlərin 32,4%-i sabit siyasi vəziyyəti, insanların təhlükəsiz yaşaması üçün şəraitin yaradılıb qorunmasını ən əhəmiyyətli uğur kimi göstəriblər.

Lakin ölkəmizin beynəlxalq arenada artıq möhkəm mövqeyə malik olması və digər ölkələrə qarşı səmimi və dostluq siyasətini həyata keçirməsinin vətəndaşlarımızda qarşılıqlı münasibəti gözləmələri təbiidir. Azərbaycan ərazilərinin bir hissəsinin işğal altında olduğu vaxtda nəinki beynəlxalq dəstək, həm də real köməklik addımları atılmalı idi. 2004-cü ildə sorğu zamanı müxtəlif ölkələrdə siyasi əlaqələrin fəallaşmasının zəruriliyini qiymətləndirən respondentlər həmçinin müəyyən etibar göstərərək bu ölkələrə öz ümidlərini bağlayırdılar. Hazırda sorğu zamanı eyni suallar verildikdə alınan cavablar bir qədər fərqlənib.



Belə ki, Rusiya ilə iqtisadi və siyasi əlaqələrin fəallaşdırılmasına yönəldilmiş siyasəti 2008-ci ildə respondentlərin 46,6%-i tam dəstəkləyir, 34,3%-i isə, demək olar ki, dəstəkləyib.

Digər MDB ölkələri ilə iqtisadi və siyasi əlaqələrin fəallaşdırılmasına yönəldilmiş siyasətə respondentlərin münasibəti müsbət olsa da, müəyyən dəyişiklik burada da müşahidə olunur.

ABŞ-la iqtisadi və siyasi əlaqələrin fəallaşdırılmasına yönəldilmiş siyasətin respondentlər tərəfindən 2004 və 2008-ci illərdə qiymətləndirilməsini müqayisə etdikdə ümidlərin reallaşmasına inamın azalması daha çox nəzərə çarpır.

Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasətə münasibətlərini bildirən respondentlərin əksəriyyəti bu siyasəti dəstəklədiyini bildirib. Belə ki, rəyi soruşulanların 62,0%-i bu siyasəti tam, 31,0%-i isə, demək olar ki, dəstəkləyir.

2004-cü ilin sorğusunun nəticələrilə yuxarıdakı rəqəmlər müqayisə edildikdə keçən müddətdə aparılan siyasətin dəstəklənməsinin artması açıq görünür. Bu da ölkə əhalisinin prezidentə olan inam və dəstəyinin artmasının təsdiqidir.

### 3.6. Söz və mətbuat azadlığı

Ümummilli lider Heydər Əliyevin birbaşa rəhbərliyi ilə hazırlanmış və ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında söz və mətbuat azadlığı insan haqlarının ayrılmaz tərkib hissəsi kimi götürülmüşdür. Heç də təsadüfi deyil ki, Heydər Əliyevin söz və mətbuat azadlığının qorunması sahəsindəki xidmətlərini nəzərə alan jurnalistlər 2002-ci ildə onu «Mətbuat dostu» seçmişdilər.

İlham Əliyev 2003-cü ildə prezident seçildikdən sonra bir çox sahələrdə olduğu kimi, söz və mətbuat azadlığının qorunması sahəsində də ümummilli liderimizin yolunu layiqincə davam etdirdi. Ölkədə mətbuatın və televiziyanın inkişafı, dünya standartlarına cavab verməsi və müasir texnika ilə təminatı üçün hər cür şərait yaradıldı.

Azərbaycanda söz və mətbuat azadlığının qorunması üçün İlham Əliyev bəzən öz prezident səlahiyyətlərindən də istifadə edir. Dövlət başçısı beş il ərzində müxtəlif cinayətlərə görə azadlıqdan məhrum edilmiş bir neçə jurnalist əfv etdi. 2006-cı ilin noyabrında Milli Televiziya və Radio Şurası (MTRŞ) ANS teleradio şirkətinə fəaliyyətini davam etdirmək üçün lisenziya vermədiyi və qurumun fəaliyyətini dayandırdığı bir vaxtda da İlham Əliyev söz azadlığının müdafiəsində durdu. Prezident ANS-in Azərbaycan tarixindəki xidmətlərini yüksək qiymətləndirərək, MTRŞ-ni qərarına yenidən baxmağa çağırdı. Nəticədə ANS teleşirkətinə 6 illik lisenziya verildi.

2008-ci ildə ölkəmizdə mətbuata dövlət qayğısı özünün ən yüksək səviyyəsinə çatdı. Milli Mətbuat günü münasibətilə prezident gündəlik kütləvi informasiya vasitələrinə (KİV) 5000 manat məbləğində birdəfəlik yardım ayrılması barədə sərəncam imzaladı.

Azərbaycan tarixində ilk dəfə olaraq 2009-cu ilin dövlət büdcəsində mətbuatın inkişafına 1,3 milyon manat vəsait ayrıldı. Prezidentin tapşırığı ilə Mətbuat Şurası tərəfindən kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyası hazırlanır. Bu konsepsiyada mətbuatın inkişafı ilə bağlı müəyyən tədbirlərin həyata keçirilməsi - mətbuata qrantların ayrılması, kreditlərin, ünvanlı yardımların, subsidiyaların verilməsi nəzərdə tutulur. Bu məqsədlə 2009-cu ilin əvvəlində Mətbuatın İnkişafına Dəstək Fondu yaradılması nəzərdə tutulub. Konsepsiya KİV-lərin iqtisadi baxımdan özlərini maliyyələşdirməsinə imkan yaradaraq Azərbaycan jurnalistikasında yeni dövrün başlanğıcının təməlini qoyacaq.

Kütləvi informasiya vasitələrinin məlumatı dəqiq, obyektiv və qərəzsiz hər bir vətəndaşa çatdırması çox aktual və gündəmdə olan əsas məsələlərdəndir. Təqdim olunan məlumatlar oxucular tərəfindən qiymətləndirilərək hər bir kütləvi informasiya vasitəsinin populyarlığı və ona göstərilən etibarın səviyyəsini formalaşdırır.



Cəmiyyətdə KİV-in rolu sosial institutlar və kütləvi auditoriyanın informasiyaya olan tələbatlarına əsaslanır ki, burada məlumat verən mənbələrin etibarlılıq səviyyəsi xüsusi önəm daşıyır. Sorğuda iştirak edən respondentlərdən hakimiyyətin icra orqanlarının fəaliyyəti barədə hansı mənbələrə daha çox etibar etdikləri öyrənilib. Hakimiyyətin icra orqanlarının fəaliyyəti barədə məlumat aldıqları informasiya mənbələrinin siyahısı müəyyənləşdirildikdə rəyi soruşulan seçicilər, ilk növbədə, özəl televiziya və radiokanallarını göstəriblər.

Obyektivlik nöqteyi-nəzərdən müxtəlif qəzet və jurnalları ən az qiymətləndirən respondentlər bunu bu nəşrlərdə dərc olunan yazılarda, adətən, faktların təhrif edilərək kiminsə maraqlarını təmsil etdiyini və nəticədə həmişə eyni səpkili olması ilə əsaslandırıblar.

Diqqəti cəlb edən son dörd ildə internetdən rəsmi xəbərlər mənbəyi kimi istifadə edənlərin sayının 9 dəfə artmasıdır. Bu isə ölkədə informasiya texnologiyalarının inkişafının göstəricisi sayıla bilər.

İnternetdə rəsmi xəbərləri izləyən respondentlərin yaş kateqoriyalarına paylanmasını bütün respondentlərin yaş kateqoriyalarına paylanması ilə müqayisə etdikdə müasir elektron məlumat mənbəyinə üstünlük verənlərin əsasən gənc və orta yaşlı nəslin nümayəndələri olması görünür. Söhbətin, sadəcə, internetdən müxtəlif məqsədlərlə (oyunlar, musiqili və video kliplər, ünsiyyət və s.) istifadə edənlərdən getmədiyini nəzərə alsaq, məhz ölkənin ictimai-siyasi həyatında baş verən hadisələri artıq internetdən araşdıranların sayının belə kəskin artması sevindirici haldır. Qeyd etmək lazımdır ki, bu marağın reallaşdırılması üçün imkanı yaradan, ilk növbədə, dövlət tərəfindən son illərdə elektron informasiya vasitəsindən istifadə şərtlərinin rahat və əlçatan edilməsi istiqamətində atılan addımlardır.

Sorğuda iştirak edən respondentlərdən hansı mənbələrə daha çox etibar etdikləri öyrənilib. Rəylərdən aydın olur ki, hakimiyyətin icra orqanlarının fəaliyyəti barədə məlumat verən mənbələrdən ən çox etibar edilən müstəqil mətbuatdır.

Azərbaycan kütləvi informasiya vasitələrinin ölkəmizin ictimai-siyasi həyatına göstərdiyi təsirin qiymətləndirilməsi zamanı rəyi soruşulanların 51,2%-i «bəli, çox», 35,3%-i isə «o qədər də yox» cavabını verib.

Ölkəmizdə söz azadlığı ilə bağlı vəziyyəti qiymətləndirən respondentlərin çoxu (73,9%) ölkəmizdə söz azadlığının qorunduğunu qeyd edib. Rəyi soruşulanların 10,2%-i söz azadlığı üçün şərait yaradılmadığını iddia edib, 15,9%-i isə vəziyyəti qiymətləndirməkdə çətinlik çəkib.

Beləliklə, bu sorğunun nəticələri İlham Əliyevin ilk prezidentlik müddətində söz və mətbuat azadlığı sahəsində gördüyü işlərin əhali tərəfindən müsbət qiymətləndirildiyini ortaya qoyur. Bu sorğudan aşağıdakı qənaətlər hasil olur:

– Azərbaycanda informasiya texnologiyaları sahəsində vəziyyət ildən-ilə yaxşılaşır;

– Kütləvi informasiya vasitələrinin cəmiyyət həyatında rolu artır;

– Əhalinin müstəqil mətbuatda inamı getdikcə möhkəmlənir;

– Partiya mətbuatı populyarlığını günü-gündən itirir.

## 3.7. Dağlıq Qarabağ

Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə riayət edilməsi əsasında diplomatik vasitələrlə həlli Azərbaycan prezidenti İlham Əliyevin xarici siyasətinin əsas prioriteti olmuşdur.

Azərbaycan rəhbərliyi bütün siyasi və diplomatik vasitələrdən istifadə edərək, problemin konstruktiv həllinə çalışdığı aydın və birmənalı şəkildə dünya istimaiyyətinə nümayiş etdirir. Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunmasından sonra Dağlıq Qarabağın statusuna baxılmasını, məcburi köçkünlərin doğma yurdlarına qayıtmasını nəzərdə tutan strategiya ardıcıl surətdə davam etdirilir. Bura həmçinin Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmalarının dinc-yanaşı yaşaması, bölgənin iqtisadi inkişafı və əhalinin sosial rifahı məsələləri də daxildir.



Azərbaycan və Ermənistan arasında ən yüksək – prezidentlər səviyyəsində keçirilən görüşlər, xarici işlər nazirlərinin apardığı danışıqlar silahlı münaqişənin nəticələrinin aradan qaldırılması və danışıqların aparılması üçün münbit şəraitin yaradılması istiqamətində müəyyən irəliləyişlərə səbəb olmuşdur. Bununla yanaşı, beynəlxalq birliyin münaqişənin Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə riayət edilməsi əsasında həlli variantını dəstəkləməsi və Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktını pisləməsi istiqamətində də səylər davam etdirilmişdir.

Azərbaycan prezidenti İlham Əliyev hələ 2003-cü ildə, öz səlahiyyətlərinə başladığı dövrdə heç vaxt torpaqlarımızın itirilməsi ilə nəticə verməyəcəyi təqdirdə, Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün digər zəruri vasitələrdən, konkret desək, hərb yolundan istifadə olunması məsələsinin müzakirəyə çıxarılacağını açıq bəyan edir. Bu qətiyyətli mövqeyi ilə prezident Azərbaycandan güzəşt umanlara sərt mesaj ünvanlayır, xalqın heç zaman ərazi itkisi ilə barışmayacağını bir daha diqqətə çatdırır. O, Ermənistanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tanıması müqabilində rəsmi Bakının da Dağlıq Qarabağa ən yüksək status verməyə hazır olduğunu dəfələrlə vurğulayıb: «Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına heç vaxt razılıq verməyəcəkdir. Dağlıq Qarabağda yaşayan insanlara, ermənilərə və oraya qayıdacaq azərbaycanlılara yüksək özünüidarə statusu verilə bilər». Budur dövlət başçısının vətənpərvərliyi.

Mübaliğəsiz demək olar ki, informasiya mübarizəsində prezidentin fəal mövqeyi hamıya nümunə göstərilə bilər. Məhz bu fəaliyyət nəticəsində ermənilər haqqında «əzabkeş xalq» anlayışı «işğalçı, təcavüzkar və terrorçu» dövlət imici ilə əvəzlənmişdir.

İstər xarici ölkələrə rəsmi və işgüzar səfərlərində, istərsə də müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində keçirilən görüşlərin-

də prezident diqqəti Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ qaçqınlar və məcburi köçkünlər məsələsinə yönəldir. Azərbaycan prezidenti AŞPA-da, Avropa Birliyində, NATO-da, BMT Baş Assambleyasının sessiyasındakı çıxışlarında, nüfuzlu kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrində Ermənistanın işğalçılıq siyasətindən geniş danışır, Dağlıq Qarabağ, qaçqınlar və məcburi köçkünlər probleminin həllinə yönələn çağırışlar edir. Artıq bunun ilkin müsbət nəticələri də görünməkdədir. Hər halda, 2008-ci il noyabrın 2-də münaqişənin tənzimlənməsinə dair Azərbaycan, Ermənistan və Rusiya prezidentləri arasında Moskvada baş tutmuş görüşün yekunu olaraq imzalanan birgə Moskva Bəyannaməsi belə deməyə əsas verir.

Qeyd edək ki, bu, Azərbaycan və Ermənistan prezidentləri arasında ilk və ATƏT-in Minsk Qrupunun vasitəçiliyi dövründə Azərbaycanla Ermənistanın dövlət başçılarının münaqişənin həlli məqsədilə imza atdıqları yeganə birgə sənəddir. Beş bənddən ibarət bəyannamədə deyilir:

«Dağlıq Qarabağ probleminin siyasi vasitələr, Rusiyanın və ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında birbaşa dialoqun davam etdirilməsi üolu ilə həll perspektivlərini müzakirə edərək prezidentlər bəyan edir ki,

1. Cənubi Qafqazda daha sağlam ab-havanın yaranmasına, Dağlıq Qarabağ probleminin siyasi, təhlükəsiz yolla, qəbul edilmiş beynəlxalq hüquq normaları, əldə olunmuş sənədlər çərçivəsində həllinə səy göstərəcək ki, bu da bölgədə iqtisadi və hərtərəfli əməkdaşlığa təkan verəcək.

2. 2007-ci il noyabrın 29-da Madriddə keçirilmiş görüş nəzərə alınmaqla, ATƏT-in Minsk qruppu həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqların davam etdirilməsinin və bundan sonra da münaqişənin siyasi prinsiplər əsasında həllinə dair aparılacaq görüşlərin vacibliyini vurğulayırlar.

3. Razılaşırlar ki, problemin sülh yolu ilə həll üçün tərəflərin həll variantının bütün aspektləri və mərhələlərində hüquqi məsuliyyət daşımasına dair beynəlxalq zəmanət olmalıdır.



4. Qeyd edirlər ki, Azərbaycan və Ermənistan prezidentləri bundan sonra da ən yüksək səviyyədə əlaqələri davam etdirmək, Dağlıq Qarabağ probleminin sülh yolu ilə həllinə dair işləri davam etdirmək qərarına gələrək xarici işlər nazirlərinə ATƏT-in Minsk qrupunun iştirakilə danışıqlar prosesini daha da fəallaşdırmaq tapşırığını verirlər.

5. Nizamlama prosesində qarşılıqlı inamın yaranması üçün göstərilən bütün şəraiti alqışlamağı vacib bilirlər».

Əlbəttə, ölkəmizin ərazisinin 20%-nin işğal olunması cəmiyyətimizdə ən ağrılı problem kimi qəbul olunur. Belə ki, hələ də həllini tapmamış üç problemi sadalayan respondentlərin 82,8%-i birinci yerdə Qarabağ probleminin adını çəkmişlər.

Münaqişənin sülh yolu ilə həlli istiqamətində atılan addımlar, dövlət başçısının son zamanlarda verdiyi sərt bəyanatlar respondentlər tərəfindən qeyd edilərək İlham Əliyevin prezidentlik dövründə əhəmiyyətli və vaxtında atdığı addımlar sırasında göstərilib. Sorğuların nəticələrindən bu addımların səmərəliliyinə inamın getdikcə artdığı aydın görünür. Belə ki, əgər 2004-cü ildə münaqişənin sülh yolu ilə həllinə inam bəsləyənlərin sayı respondentlərin 44,2%-ni təşkil edirdisə, 2008-ci ildə bu rəqəm artıq 60,7% təşkil edib.

Qarabağ probleminin sülh yolu ilə həll olunması naminə Azərbaycanın hər hansı bir güzəştə getməsinə gəldikdə, burada respondentlərin çoxu (76,7%) «heç bir güzəştə gedilməməlidir» hesab etdiklərini deyib.

Münaqişənin «müharibə etməklə, yoxsa danışıqlar aparmaqla həllinə tərəfdarsınız» sualına respondentlərin 73,6%-i «danışıqlar yolu ilə», 25,9%-i «müharibə etməklə» cavabını verib. Bu da xalqın vətənpərvərliyinin nəticəsi kimi dəyərlidir.

Göründüyü kimi, əhali münaqişənin danışıqlar yolu ilə həllini qanlı savaşdan üstün tutur. İlk növbədə, bu, ölkə prezidentinin apardığı siyasətin uğurla bitəcəyinə inamın artması ilə bağlıdır. Bunu qeyd edən respondentlər xüsusilə uzun müddət ərzində münaqişənin həllində xarici dövlətlər və beynəlxalq təşkilatların fəaliyyətinə bəslənən ümidlərin boşa çıxmasını vurğu-

layıblar. Belə ki, münaqişənin həllində beynəlxalq qurumlar və dünyanın aparıcı dövlətləri tərəfindən göstərilən yardımın effektivliyini, beynəlxalq təşkilatların nümayəndələrinin bu sahədə uzunmüddətli fəaliyyətini nəzərə alaraq respondentlər onların köməyinin səmərəliliyini qiymətləndiriblər.

Türkiyənin son vaxtlar Qarabağ münaqişəsinin həllində vasitəçilik təşəbbüsü ilə çıxış etməsi bu ölkəyə olan inamın artması ilə nəticələnib. Bunu şərtləndirən digər amil rəsmi Ankaranın hər zaman Azərbaycanın yanında olması, beynəlxalq basqılara rəğmən, Ermənistanla sərhədləri açmamasıdır.

Son illər respondentlərin inamını ən çox itirən ölkə Rusiyadır. Respondentlər münaqişənin həllinə kömək edə bilən ölkələr sırasında ön mövqelərdən birini əvvəllər məhz bu ölkəyə ayırdığı halda, illər boyu nəinki etimadlarının doğrulmaması, hətta Rusiyanın Ermənistana müxtəlif üsullarla siyasi və hərbi dəstək verməsi nəticəsində prosesi ləngitdiyini səbəb gətirərək, artıq bu ölkəyə ümidlərini bağlamırlar.

Bütün bunlar nəticəsində artıq əsas ümidləri vasitəçilərə yox, rəsmi Bakı tərəfindən atılacaq addımlara bağlayanların sayı üç dəfə artmışdır.

Son illər ərzində ölkə prezidentinin apardığı danışıqlar və verdiyi bəyanatlar, Azərbaycanın hərbi büdcəsinin getdikcə artması bu gözləntilərə əsas verir. Əldə olunan nailiyyətlər cəmiyyətimiz tərəfindən yüksək qiymətləndirilir. Ölkə prezidentinin Qarabağ probleminin həlli istiqamətində son 5 ildə artdığı addımları qiymətləndirərkən respondentlərin yarıdan çoxu bu fəaliyyəti uğurlu hesab ediblər.

Müəllim gənclərin vətənpərvərlik tərbiyəsində bu qəbildən olan məsələlərin öyrədilməsi onlarda bu günlərin işinə aydınlıq gətirir, dünyagörüşlərinə təsir edir.



### 3.8. Neft strategiyası

Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasını təməli Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyası təşkil edir. Məhz ümummilli lider Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində çoxlarının mif saydığı «üç dəniz əfsanəsi» - Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft boru kəməri layihəsi reallığa çevrildi. 1994-cü il sentyabrın 20-də Bakıda 7 ölkənin 11 neft şirkətinin iştirakı ilə «Əsrin müqaviləsi» adı ilə tarixə düşmüş ilk neft müqaviləsinin imzalanması müstəqil Azərbaycanın enerji təhlükəsizliyinin təminatında mühüm mərhələnin başlanğıcı oldu. Yeni neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində Azərbaycanın müstəqil dövlət kimi digər dünya ölkələri ilə əməkdaşlığının genişlənməsinə, Avropa Birliyinə və digər mötəbər strukturlara inteqrasiyasına münbit zəmin formalaşdı.

«Əsrin müqaviləsi» imzalanandan sonra hasil olunacaq milyonlarla ton xam nefti Qərb bazarlarına çıxaracaq boru kəmərlərinin marşrutu düzgün seçildi. 1997-ci ildə neftin Qara dənizə çıxarılması üçün onun Bakı-Tbilisi-Supsa marşurutu ilə nəqli haqqında Azərbaycanla Gürcüstan hökuməti arasında saziş imzalandı. 1999-cu il aprelin 17-də Azərbaycan, Gürcüstan və Ukrayna prezidentlərinin iştirakı ilə uzunluğu 850 km, illik buraxılış qabiliyyəti 5 milyon ton olan Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verildi. Beləliklə, Azərbaycan Qərbə alternativ çıxış imkanı qazanaraq birqütblü boru kəməri asılılığından çıxaraq, qonşu Gürcüstanın da iqtisadi inkişafı istiqamətində mühüm addım atdı. 2002-ci il sentyabrın 18-də isə Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə əsas ixrac neft boru kəmərinin - BTC-nin əsası qoyuldu, beləliklə, təkcə Azərbaycanın deyil, bütövlükdə Cənubi Qafqaz və Avropa məkanının enerji təhlükəsizliyinə xidmət edən strateji bir layihə əfsanədən gerçəkliyə çevrildi.

İlham Əliyev reallığı düzgün dəyərləndirərək, ölkə iqtisadiyyatının hərtərəfli inkişafının stimullaşdırılması üçün neft stra-

tegiyasının davam etdirilməsini vacib hesab etdi. 2005-ci il fevralın 18-də «Əsrin müqaviləsi» çərçivəsində «Mərkəzi Azəri» platforması istismara verildi, mayın 25-də BTC-nin Azərbaycan, oktyabrın 12-də isə Gürcüstan hissəsinin neftlə doldurulması ilə bağlı təntənəli mərasimlər keçirildi. Artıq 1768 kilometrlik neft kəməri 28 may 2006-cı ildə istifadəyə verildi və 2006-cı il iyulun 13-də isə Türkiyənin Ceyhan terminalında Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə BTC-nin tam istismara verilməsi ilə bağlı möhtəşəm mərasim keçirildi.

İlham Əliyevin siyasi iradəsi və səyləri ilə ötən beş ildə həmçinin Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. Azərbaycanın mavi yanacağının Avropa bazarlarına nəql olunmasına başlandı. Burada Azərbaycan prezidentinin 27 sentyabr 2004-cü il tarixli fərmanı ilə təsdiq edilmiş «Neft və qaz gəlirlərinin istifadə olunması üzrə uzunmüddətli strategiya»nı xüsusi qeyd etmək istərdik. Bu strategiyada vəsaitlərin qeyri-neft sektorunda, regionların, kiçik və orta sahibkarlığın inkişafında, infrastruktur sahələrin genişmiqyaslı inkişafında, yoxsulluğun azaldılması üzrə tədbirlərin həyata keçirilməsində, «insan kapitalı»nın formalaşmasında, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsində və digər bu kimi istiqamətlərdə istifadə olunması nəzərdə tutulurdu.

Azərbaycanın ildən-ilə əhəmiyyətli dərəcədə artan maliyyə imkanları onun həm də sərmayədar ölkəyə çevrilməsini, digər dövlətlərin iqtisadiyyatına kapital yatırmasını şərtləndirir. Türkiyə, Gürcüstan, Moldova ərazisində inşa edilən nəhəng sənaye obyektləri respublikamızın həmin ölkələrin bu məhsullara olan təminatında həlledici rol oynaması ilə bərabər, sərmayədar dövlət kimi dünya bazarında rəqabət imkanlarını artırır. Türkiyənin nəhəng sənaye sütunu olan «Petkim»in və «Tekfen» Holdinqin səhmlərinin böyük bir hissəsinin ARDNS tərəfindən alınması respublikamızın iqtisadi qüdrətinin bariz nümunəsidir. Azərbaycan Şərqlə Qərbi birləşdirəcək strateji əhəmiyyətli Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin maliyyələşdirilməsi üçün Gürcüstana 25 il müddətinə 200 milyon dollar kredit vermişdir.



2006-cı ilin sonlarına yaxın dünyada yaşanan bir sıra gərgin və mürəkkəb proseslər enerji təhlükəsizliyi məsələsinin bütövlükdə Avropa üçün ciddi problemə çevrildiyini təsdiqlədi. Rusiyanın «Qazprom» şirkətinin təbii qazın qiymətlərini qaldırmaqda işrarlı olması nəinki MDB-nin, eyni zamanda Avropanın bir sıra dövlətlərinin kəskin etirazı ilə qarşılansa da, Azərbaycan hökuməti ilk gündən bu məsələdə kifayət qədər təmkinli mövqe tutdu. Prezident İlham Əliyev mavi yanacağın qiymətlərinin artırılmasını Rusiyanın daxili işi kiki qiymətləndirərək, respublikamızın bundan heç bir narahatlıq keçirmədiyini bəyan etdi. Eyni zamanda Rusiya qazından imtina etməyi bacaran Azərbaycan dövlətçilik maraqları baxımından qətiyyətli mövqeyini ortaya qoydu. İlham Əliyevin tapşırığı ilə 2006-cı ilin dekabr ayında Azərbaycan hökuməti Gürcüstana təbii qaz verməklə qonşu dövlətin əhalisini qışın dəhşətli soyuğundan xilas etdi.

2007-2008-ci illərdə Azərbaycanın qlobal enerji təhlükəsizliyindəki rolunun artması isə Avropa dövlətlərinin respublikamızla bu sektorda sıx əməkdaşlıq etmək marağını daha da gücləndirmişdir. Ötən il Türkiyə-Yunanıstan qaz kəmərinin istismara verilməsi də Azərbaycanın Avropanın bir sıra dövlətlərinin enerji təhlükəsizliyindəki rolunu gücləndirmişdir. Xatırladaq ki, Türkiyə ilə Yunanıstanın qaz kəmərləri şəbəkələrini birləşdircək bu boru xəttinin inşasına dair ilkin sənəd 2002-ci ilin aprelində imzalanmış, 2003-cü ilin fevralında isə hökumətlərarası razılıq əldə olunmuşdur. 2012-ci ilin sonunadək Adriatik dənizinin dibi ilə Yunanıstanla İtaliyanı birləşdirəcək daha bir kəmərin inşası planlaşdırılır. Nəticədə Xəzər regionunda hasil ediləcək təbii qazın Mərkəzi Avropaya çatdırılması imkanı daha da genişləndəcəkdir.

2007-ci ilin mayında Polşanın Krakov şəhərində, həmin ilin oktyabrında Litvanın paytaxtı Vilnüsdə, 2008-ci ilin mayında Ukraynanın paytaxtı Kiyevdə keçirilmiş enerji sammitləri Xəzərin zəngin karbohidrogen ehtiyatlarının nəqlində alternativ neft və qaz kəmərləri sisteminin yaradılması zəruriliyi ətrafında geniş fikir mübadiləsi aparılmış, bir sıra konkret nəticələr əldə

olunmuşdur. Vülnis konfransının yekunu kimi Azərbaycan, Gürcüstan, Litva, Polşa, Ukrayna və Qazaxıstanın dövlət başçılarının 10 oktyabr 2007-ci ildə imzaladıqları birgə kommunikeyə əsasən, Xəzər neftinin karbohidrogen ehtiyatlarının Avropa bazarlarına daşınması üçün milli şirkətlərin iştirakı ilə yeni konsorsiumun - «Sarmatiya»nın yaradılması barədə razılığa gəlmişlər. Yeni konsorsiumun əsas məqsədi Azərbaycan, Gürcüstan, Ukrayna, Polşa respublikalarının ərazisindən keçməklə Xəzər dənizindən Avropa bazarlarına və beynəlxalq bazarlara gedən daşınma sistemlərinin reallaşdırılmasının mümkünlüyünü təhlil etməkdir. Prezidentlər həmçinin enerji sahəsində əməkdaşlığın daha da gücləndirilməsi ilə bağlı niyyətlərini bəyan etmişdilər.

2008-ci ilin noyabrında Bakıda təşkil olunmuş IV Enerji Sammiti isə Odessa-Brodı-Plotsk-Odansk marşrutunun reallaşdırılması istiqamətində səylərin daha da genişləndiyini göstərir. Samitin yekunu kimi Azərbaycan, Bolqarıstan, Macarıstan, Yunanıstan, Gürcüstan, İtaliya, Latviya, Litva, Polşa, Rumıniya, ABŞ, Türkiyə, Ukrayna, İsveçrə, Estoniya, habelə Avropa Komissiyasının birgə imzaladıqları Bəyannamə regionda daha bir qlobal enerji əməkdaşlığının başlandığını göstərir. Bəyannamə ilə IV Bakı Enerji Sammitinin iştirakçıları Avropa bazarlarına neft göndərilməsi üçün Avrasiya Neft Nəqli Dəhlizi sistemində Odessa-Brodı neft kəmərinin işə salınmasının əhəmiyyətini önə çəkmiş, karbohidrogenlərin etibarlı və təhlükəsiz nəqlinə zəruri şəraitin təmin edilməsi üçün Xəzər-Qara dəniz-Baltik Enerji Tranziti Məkanının yaradılması təşəbbüslərini dəstəkləmişlər. Sənəddə «Sarmatiya» beynəlxalq boru kəməri müəssisəsi (BBKM) təşkilatı strukturunun yaradılması, həmçinin Odessa-Brodı-Plotsk-Odansk neft kəmərinin istismarı istiqamətində görülmüş təşkilatı-əməli tədbirlər dəstəklənmişdir.

İlham Əliyev ilk prezidentliyi dövründə daha bir tarixi layihəyə imza atdı. 2007-ci il noyabrın 21-də Gürcüstanın Marabda kəndində Bakı-Tbilisi-Qars (BTQ) dəmiryolu xəttinin tikintisinin təməli qoydu. Hər üç ölkənin prezidentlərinin iştirakı ilə Gürcüstanın Marabda stansiyasında açılış mərasimi keçirildi.



BTQ Azərbaycan üçün həm siyasi, həm iqtisadi, həm də strateji baxımdan böyük bir əhəmiyyyət daşıyır. Dəmiryolu vasitəsilə Azərbaycan beynəlxalq nəqliyyat dəhlizlərinə və Türkiyəyə birbaşa gediş əldə edəcək. Dəmiryolu ilə bir günə Qarsa və iki gün yarıma İstanbula getmək mümkün olacaq. Bakı-Tbilisi-Qars dəmiryolu Bakı-Tbilisi-Ceyhan boru xəttindən sonra Azərbaycanın iqtisadiyyatını daha da inkişaf etdirəcək. Azərbaycanın ilk illərdə tranzitdən minimal illik gəliri 50 mln. dollar təşkil edəcək.

Bütün bunlar bir daha göstərir ki, ölkə prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu enerji strategiyası respublikamızın milli təhlükəsizliyinin vacib amilinə çevrilmişdir. Təsadüfi deyil ki, sorğular zamanı neft hasilatından alınan gəlirlərin həyatlarına müsbət təsir edəcəyini gözlədiklərini deyən respondentlərin sayı 69,6% təşkil etmişdir.

Dövlət başçısı ölkənin artan iqtisadi potensialını məhz səmərəli və güclü enerji kompleksinin formalaşmasına yönəltməklə, respublikamızın həm də daim müstəqil siyasət yeritməsini təmin etməyə çalışır və respublikamızı Avropa məkanında etibarlı tərəfdaşa çevirir. Bu siyasətin ölkəmiz üçün əhəmiyyətli rol oynadığı əhali tərəfindən dərk edilməsi və dəstəklənməsi, ilk növbədə, sorğu zamanı respondentlərin verdiyi cavablarla təsdiqlənir.

### 3.9. Parlament və prezident seçkiləri

Azərbaycan dövlət müstəqilliyi ölkədə demokratik seçki sistemində də özünü bariz şəkildə göstərir.

İlham Əliyevin ilk prezidentliyi dövründə ölkəmizin demokratikləşməsi istiqamətində mühüm addımlar atıldı. Bu özünü, ilk növbədə, seçki qanunvericiliyinin getdikcə təkmilləşdirilməsində göstərirdi. Məhz bunun nəticəsi idi ki, İlham Əliyevin prezidentliyi dönəmində keçirilən ilk seçkilərdə - 2005-ci ilin parlament seçkilərində böyük fəallıq müşahidə olunurdu. 125 deputat yeri uğrunda 2000-ə yaxın namizəd mübarizə aparırdı.

Prezidentin göstərişi ilə bütün namizədlərə təbliğat-təşviqat aparmaq üçün bərabər imkanlar yaradılmış, icra strukturlarına seçki prosesinə müdaxilə etmək qadağan olunmuşdu. Təsadüfi deyil ki, seçkilərdən sonra Mərkəzi Seçki Komissiyası (MSK) kobud qanun pozuntularının baş verdiyi 4 seçki dairəsi və 470 seçki məntəqəsi üzrə seçkinin nəticələrini ləğv etdi, bir neçə icra başçısı isə seçki prosesinə kobud müdaxilə etdiyi üçün vəzifəsindən azad olundu. Seçkinin yekun nəticələri isə Milli Məclisdə rəngarəng palitra ortaya qoydu- parlamentdə olan Müsavat, Ümid, Ədalət, Böyük Quruluş, Vətəndaş Həmrəyliyi və Bütöv Azərbaycan Xalq Cəbhəsi partiyaları da təmsil olundu.

2008-ci ilin 15 oktyabrında keçirilən prezident seçkiləri isə ciddi rəqabət və səviyyəli siyasi mübarizə ilə yadda qaldı. Mərkəzi Seçki Komissiyası bu seçkilərə hazırlıq işlərinə hələ seçkilərə start verilməmişdən öncə başlamışdı. 2007-ci ildə 125 dairə seçki komissiyasından (DSK

207-si yeni müasir tipli binalarla təmin edilmiş, digərləri yüksək səviyyədə təmir olunmuşdur. Bütün seçki komissiyaları zəruri mebel və texniki avadanlıqlarla təchiz edilmiş, onların normal işləməsi üçün bütün şərait yaradılmışdır. DSK-larda ştat tərkibi 6 nəfərdən ibarət katibliklər formalaşdırılmış, Milli Məclis Seçki Məcəlləsində mütərəqqi əlavələr və düzəlişlər edərək seçkilər üçün təkmil hüquqi baza yaratmışdır.

Seçkilərin vaxtı elan olunduqdan sonra prezident seçkilərində iştirak etmək üçün MSK-ya müraciət etmiş 12 şəxsin hamısının namizdliyi təsdiq edilmiş və onlara imza vərəqləri verilmişdir. 12 nəfərdən 2-si namizədliyini geri götürmüş, 10-u imza vərəqləri və digər zəruri seçki sənədlərini komissiyaya təqdim etmişdir. Onların sənədləri araşdırılmış və yalnız 7-sinin qeydə alınması üçün əsaslar müəyyən olunmuşdur. Namizədliyi qeydə alınmış 7 nəfərin hamısına bərabər şəraitdə təşviqat aparmaq üçün bütün imkanlar yaradılmışdır. Təkcə bir faktı qeyd etmək yerinə düşər ki, seçki kampaniyası başlamamışdan prezident İlham Əliyev bütün şəhər və rayonlarda özünün şəkillərinin yığışdırılması barədə göstəriş vermişdir. Qeydə alınmış namizədlərin



seçicilərlə sərbəst görüşlər, toplantılar keçirmələri üçün respublikanın bütün ərazisində yerlər ayrılmış, hər bir namizədin xüsusi seçki hesabına dövlət büdcəsindən vəsait köçürülmüş, ictimai teleradionun efirində və təsisçisi dövlət orqanları olan və ya büdcədən maliyyələşən dövri nəşrlərin səhifələrində pulsuz yer ayrılmışdır. Qeyd etmək lazımdır ki, namizədlər tərəfindən təşviqat kampaniyası sivill qaydada aparılmışdır.

MSK-nın məlumatına görə, müşahidəçiliklə bağlı müşahidə aparmaq hüququ olan bütün yerli və xarici subyektlərə müsbət cavab verilmiş, nəticədə 50 minə yaxın yerli, 100-ə yaxın nüfuzlu beynəlxalq qurumdan 1250 müşahidəçi qeydiyyatdan keçmişdir. 60-a yaxın xarici kütləvi informasiya vasitələri (KİV) MSK-da akkreditasiyadan keçmiş, yerli KİV-lərin seçkiləri heç bir maneə olmadan, azad şəkildə işıqlandırmasına şərait yaradılmışdır.

Maraqlısı budur ki, beynəlxalq müşahidəçilərin iştirakı nəinki dövlət, həm də seçicilər tərəfindən zəruri hesab edilmişdir. Belə ki, sorğu zamanı respondentlərin 77,6%-i 2008-ci ildə keçirilmiş prezident seçkilərində beynəlxalq müşahidəçilərin iştirakını məqsədəuyğun hesab etmişdir.

Rəyi soruşulanların 74,8%-i hesab etmişdir ki, beynəlxalq müşahidəçilərin seçkilərlə bağlı verdikləri rəylər əhəmiyyətlidir.

«Beynəlxalq müşahidəçilərin verdiyi rəylərin əhəmiyyətini Siz nədə görürsünüz?» sualına cavab olaraq respondentlərin 50,5%-i «seçkilərin ədalətli keçirilməsi üçün», 22,6%-i «beynəlxalq aləmdə Azərbaycanın imici üçün», 14,2%-i «Azərbaycanın dünyada tanınması üçün», 11,9%-i «seçkilərin keçirilməsinin təkmilləşdirilməsi üçün» deyib.

Rəyi soruşulanların «exit-poll»a (məntəqələrin çıxışında səs vermiş seçicilərin rəy sorğusu) olan münasibəti də müsbət olmuş və prezident seçkilərində bunun keçirilməsini 50,6%-i tam dəstəkləyir, 24,5%-i isə, demək olar ki, dəstəklədiyini bildirmişlər.

Aşkarlıq institunun daha geniş tətbiq edilməsi məqsədilə 500 seçki məntəqəsində veb-kameralar quraşdırılmış və onların İnternetə çıxışı təmin edilmişdir. Sesvermə günü arzu edən hər

bir şəxs İnternet vasitəsilə həmin məntəqələrdə səsvermənin gedişini əvvəldən sonradək izləmək imkanı əldə etmişdir ki, bu da dünya seçki praktikasında yenilik idi. Sesvermə günü seçicilər böyük fəallıq nümayiş etdirmiş, 5359 seçki məntəqəsindən yalnız 8-nin nəticələri DSK-lar tərəfindən etibarsız hesab edilmişdir. Səsvermədən sonrakı 3 gün müddətində MSK-ya qanun pozuntuları ilə bağlı heç bir müraciət daxil olmamışdır.

Seçkinin nəticələrinə görə, Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi İlham Heydər oğlu Əliyev seçkidə iştirak etmiş seçicilərin səsinin 88,73%-ni qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu seçkilərin digər mühüm cəhəti isə indiyədək Azərbaycanda müşahidə olunmayan praktikanın əsasının qoyulması oldu. Prezidentliyə digər namizədlərin hamısı - İqbal Ağa-zadə, Fazil Qəzənfəroğlu, Qüdrət Həsənquliyev, Qulamhüseyn Əlibəyli, Fuad Əliyev və Hafiz Hacıyev siyasi mədəniyyət nümayiş etdirərək, seçkidə qələbə qazanan qalibi təbrik etdilər.

Bu vətəndaş yetkinliyi, vətəni sevmək, qorumaq, onu inkişaf etdirmək arzusunun nəticəsidir.

Parlament seçkiləri də demokrativ şəraitində keçirilmiş və dövlət əhəmiyyətli qərarlar qəbul edilmişdir.

## 3.10. Seçkilərə ictimai nəzarətin təşkili

Qeyd etmək lazımdır ki, seçki prosesinin təkmilləşdirilməsi ilə eyni zamanda ölkəmizdə beynəlxalq aləmdə hazırda geniş tətbiq edilən və seçkilərin şəffaflığı və demokratikliyinə xidmət edən «exit-poll» və «quick count» sosioloji tədqiqatlarının keçirilməsi 2003-cü ildən başlanıb. Demək olar ki, «exit-poll» və «quick count» tədqiqatlarının Azərbaycanda seçkilər zamanı keçirilməsi artıq ənənəyə çevrilib. Belə ki, «exit-poll» tədqiqatı ölkəmizdə 2003-cü ildən keçirilən bütün seçkilərdə aparılıb. Bu tədqiqat 2003-cü ildə prezident seçkilərində «Şəffaf seçkilər» Monitorinq Mərkəzi, 2004-cü ildə bələdiyyə seçkilərində Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) «Şəffaf seçkilər» Monitorinq Mərkəzi ilə birgə, 2005-ci il parlament seçkilərində AVCİYA və «Mitofsky International» təşkilatı ilə birgə, 2006-cı ildə təkrar parlament seçkilərində AVCİYA və «Azad və demokratik seçkilər uğrunda vətəndaş təşəbbüsü» QHT (Bolqarıstan) tərəfindən həyata keçirilmişdir. Tədqiqatların nəticələri geniş ictimaiyyətə açıqlanmış və keçirilmiş seçkilərin qiymətləndirilməsində əhəmiyyətli rol oynamışdır.



«Quick cout» tədqiqatı ilk dəfə olaraq 2006-cı ildə keçirilmiş təkrar parlament seçkilərində AVCİYA və «Azad və demokratik seçkilər uğrunda vətəndaş təşəbbüsü» QHT (Bolqarıstan) tərəfindən aparılmış və nəticələri keçirilmiş «exit-poll» tədqiqatının nəticələrilə birgə seçkilərin rəsmi nəticələri ilə müqayisə edilərək açıqlanmışdır.

Qeyd etməliyik ki, «ELS» Müstəqil Araşdırmalar Mərkəzinin əməkdaşları 2004-2006-cı illərdə keçirilən «exit-poll» tədqiqatlarında və 2006-cı ildə keçirilən «quick count» tədqiqatında fəal iştirak etmiş və kifayət dərəcədə təcrübə və bacarıqlara malikdirlər.

Bu sırada AVCİYA-nın Seçki Qərargahının Prezident seçkiləri ilə bağlı gördüyü işləri də qeyd etmək lazımdır. AVCİYA-nın Seçki Qərargahı 2007-ci ilin noyabr ayından başlayaraq beynəlxalq təşkilatlarla sıx əlaqədar yaradıb, İFES, ABŞ Respublikaçılar İnstitutu (İRİ), Avrasiya Əməkdaşlıq Fondu, ATƏT-in müşahidə missiyası və s. təşkilarlarla əməkdaşlıq edib. AVCİYA Seçki Qərargahının üzvləri 2007-ci ilin dekabr ayında İFES-in Vaşinqtondakı baş ofisində təşkilatın vitse-prezidenti James Vermillion, Avropa və Asiya proqramlarının meneceri Entoni K.Boyer və həmin proqramların koordinatoru İrina Zaslavskaya, Avrasiya Fondunun meneceri Robert Odonovan ilə görüş keçiriblər.

Prezident seçkiləri ərəfəsində AVCİYA Seçki Qərargahı Assosiasiyanın regional nümayəndəliklərinin üzvləri üçün treninqlər keçirib. «Prezident seçkilərinin Monitorinqi. Yaddaş ki-

tabçası»nı nəşr edib. Bundan əlavə, Seçki Qərargahının rəhbəri Prezidentliyə namizədlər Fazil Qəzənfəroğlu, Qüdrət Həsənquliyev, İqbal Ağa-zadə və prezidentliyə namizəd Qulamhüseyn Əlibəylinin səlahiyyətli nümayəndəsi Qorxmaz İbrahimli ilə görüşüb. Seçki günü, yəni 15 oktyabrda Seçki Qərargahının əməkdaşları rayon koordinatorları və müşahidəçilərlə gün ərzində 4 dəfə əlaqə saxlayaraq, seçki fəallığı və qanun pozuntuları ilə bağlı məlumat toplayıblar. 16 oktyabr 2008-ci il tarixdə səhər saat 11.00-da AVCİYA Seçki Qərargahı «Hyatt Regencu» otelində mətbuat konfransı keçirərək, prezident seçkisi ilə bağlı AVCİYA-nın ilkin rəyini açıqlayıb. Noyabr ayında prezident seçkiləri ilə bağlı AVCİYA-nın yekun rəyi elan olunub.

Bununla bərabər AVCİYA və «ELS» Müstəqil Araşdırmalar Mərkəzi (MAM) birgə «exit-poll» və «quick count» tədqiqatlarını həyata keçirmişlər. Bununla bağlı bu təşkilatlar 2008-ci il 2 oktyabr tarixdə «exit-poll» tədqiqatını keçirmək üçün Mərkəzi Seçki Komissiyasının 25/117 saylı qərarı ilə akkreditasiyadan keçmişlər.

Diqqəti çəkən daha bir məqamı da qeyd edək ki, 2008-ci il prezident seçkilərində «ELS» Müstəqil Araşdırmalar Mərkəzi «exit-poll» tədqiqatın keçirilməsi üçün tələb olunan intervüer və supervayzerlər qruplarının tərtibində həmin regional şəbəkələrdən istifadə etməklə lazımi kontingenti toplayıb onların təlimlərini keçirib və səsvermə günü sorğuları təşkil etmişlər. «Quick count» tədqiqatı «exit-poll» tədqiqatı keçirilən məntəqələrdə nəzərdə tutulduğundan bu məqsədlə bu prosesə müşahidəni aparan AVCİYA-nın müşahidəçiləri cəlb olunmuşlar. Onlar tələb olunan məlumatı «exit-poll» və «quick count» tədqiqatlarını həyata keçirən mərkəzi qərargaha ötürərək operativ şəkildə səsvermənin nəticələrini əldə etməyə imkan yaradılar. Beləliklə, iki təşkilatın birgə fəaliyyəti nəticəsində böyük həcmli layihə həyata keçirilib.

Layihə çərçivəsində ölkənin 118 dairəsinin 800 seçki məntəqəsində «exit-poll» və «quick count» tədqiqatları keçirilmişdir. Seçki məntəqələrinin seçimi müasir sosiologiyada özünü təsdiq-



ləmiş «təsadüfi seçim» üsulu ilə aparılmış və nəticədə çoxpilləli və ölkə üzrə reprezentativ seçim əldə edilmişdir. Orta statistik yanlışlıqlar bu seçim zamanı 2,17%-dən artıq olmamışdır.

Hazırlıq mərhələsi seçki günündən əvvəl başlanmış və tərtib olunmuş operativ plana əsasən həyata keçirilmişdir. İlk növbədə, tədqiqatı həyata keçirən qrupun tərkibinə daxil olan təlimçilər, supervayzerlər, intervüerlər və köməkçi texniki personalın (telefon, kompüter operatorları və s.) vəzifələrini müəyyən edən metodik göstərişlər hazırlanmış və təlimat şəklində tərtib edilərək dərc olunmuşdur.

Sonra tədqiqatlar keçirilən seçki məntəqələrində supervayzer və interüerlərin siçimi aparılmış, treninqlər qrafiki tərtib olunmuş və bu qrafikə əsasən bütün regionlarda iki mərhələli təlimlər aparılmışdır. Təlimləri hazırlıq terinqlərini keçmiş təcrübəli təlimçi qruppu aparmışdır. Hər bir supervayzer və intervüer belə treninqlərdə iki dəfə iştirak etmişlər. Beləliklə, həm qrupların qoyulan tələblərə uyğun formalaşması təmin olunmuşdur. Habelə, «quick count» tədqiqatına cəb olunan müşahidəçilərin də təlimləri keçirilmişdir.

Təlimlər zamanı tərtib olunmuş sorğu anketləri, məlumatı ötürmək üçün tələb olunan formaların nümunələri, istifadə edilən avadanlıq (intervüer və supervayzerlərin adları göstərilən lövhəciklər, anketlərin yığımı üçün şəffaf qutu, planşetlər və s.) təqdim edilərək iştirakçıların vəzifələri, iş qaydaları, sorğunun aparılması təfərrüatı ilə izah edilib, sorğu zamanı yarana bilən məqamlar araşdırılıb və bütün suallar cavablandırılıb.

Hər məntəqədə iki intervüer və bir müşahidəçinin fəaliyyət göstərməsini, hər beş məntəqəyə bir nəfər işə nəzarət edən supervayzerləri nəzərə alsaq və lazımi saya ehtiyat kimi cəlb olunanları da əlavə etsək, ümumi hesabla təlimlərlə təxminən 2840 nəfər əhatə olunub. Onların təlimləri 2008-ci il sentyabrın 1-dən başlayaraq oktyabr ayının 8-dək həyata keçirilmişdir. Oktyabr ayının 12-dən 14-dək isə sorğuların keçirilməsi üçün tələb olunan sənədlər və avadanlıq kompleksləşdirilərək intervüerlərə çatdırılıb. Nəticə etibarilə, hazırlıq mərhələsi bununla başa çatıb.

15 oktyabr 2008-ci il tarixində keçirilmiş seçkilər zamanı seçimə düşən 800 məntəqədə «exit-poll» tədqiqatı həyata keçirilmişdir. Bu məqsədlə seçimə düşən məntəqələrin çıxışında sorğunu aparan intervüerlər dayanmışlar. Onlar səsvermə başlandıqda seçki məntəqəsindən səs verib çıxan və seçimə düşən seçicilərə yaxınlaşıb özlərini təqdim edir, tədqiqatın anonimliyinə dair şifahi zəmanət verib, seçicilərdən seçki məntəqəsində etdikləri seçimi təkrarlamağı xahiş etmişlər. Bu zaman onlar seçimi mərkəzi qərargah tərəfindən hər seçki məntəqəsi üçün ayrıca müəyyənləşdirilmiş seçim addımına (sorğu götürüləcək respondentlərin sıra sayı, məsələn: hər beşinci seçicidən) aparmışlar.

Respondentlərə anketin doldurulması qaydaları izah edilmiş və anketlərin sərbəst doldurulması üçün şərait yaradılmışdır. Seçicilər anketi doldurduqdan sonra dörd qatlayıb qutuya atmışlar.

Toplanmış anketlər gün ərzində 5 dəfə: saat 11:00, 13:00, 15:00, 17:00 və 19:00-da qutudan çıxarılmış, anketlərdə olan cavablar sorğu vərəqində göstərilən telefonla zəng vurularaq Bakıda yerləşən mərkəzi qərargaha ötürülmüşdür. Bu məqsədlə Bakı mərkəzi qərargahında məlumatın qəbulu üçün tərtib edilmiş və təlim keçmiş telefon və kompüter operatorları qrupları fəaliyyət göstərmişdir. İnformasiyalar qəbul edilən kimi dərhal operatorlar tərəfindən kompüterə daxil edilən məlumat işlənilmişdir. Beləliklə, məlumatın gün ərzində müntəzəm ötürülməsi və dərhal işlənilməsi nəticəsində səsvermə bitən kimi namizədlərə verilən səslərin sayı, seçicilərin demoqrafik göstəriciləri, onların seçkilər barədə rəyləri əldə edilmişdir.

Nəticədə səsvermə bitdikdən dərhal sonra «exit-poll» tədqiqatının ilkin nəticələri işlənilib hazır olmuş, nəticələr həm İnternet sayta, həm də televiziya vasitəsilə geniş ictimaiyyətə çatdırılmışdır.

Səsvermə bitdikdən sonra seçki məntəqələrində verilən səslər hesablandıqdan sonra həmin məntəqələrdə müşahidəni aparan AVCİYA-nın müşahidəçiləri Bakıdakı mərkəzi qərargaha zəng vuraraq seçki protokoluna qeyd olunan rəqəmləri ötürüb.



Həmçinin gündüz saat 13:00-da onlar səs vermih seçicilərin sayını qərargaha xəbər vermişlər. Ötürülmüş məlumat kompüterdə işlənilərək səsvermənin nəticələri «exit-poll» tədqiqatı vasitəsilə alınan nəticələrlə müqayisə edilmiş və beləliklə, keçirilmiş seçkilərin qiymətləndirilməsi və yekun rəy əldə edilmişdir.

Beləliklə, keçirilən «exit-poll» tədqiqatının ilkin nəticələri səsvermə günü alınan məlumatlar əsasında əldə edilmişdir. Seçki başa çatdıqdan sonra isə doldurulmuş sorğu anketləri toplanaraq təhlil edilmişdir. Bu məqsədlə məntəqələrdən alınan 134000-ə yaxın anketin 20%-i kompüterə daxil edilərək işlənilmişdir. Aparılan təhlil respondentlər haqda məlumatı, onların keçirilmiş seçkilərə Aid rəylərini müəyyən etməyə imkan yaratmışdır.

Tədqiqatın nəticələri regionlar üzrə təhlil edilmişdir. Bu məqsədlə ölkə rayonları müvafiq olaraq 11 region üzrə qruplaşdırılmışdır:

Sorğuda 134000-ə yaxın seçici iştirak edib, bunların 57,3%-i kişi, 42,7%-i isə qadın olub.

Respondentlərin yaş kateqoriyalarına görə paylanması isə təxmini olaraq seçicilərin rəsmi məlumatlara əsasən yaş kateqoriyalarına paylanmasına uyğun gəlir. Bu da seçicilərə bütün yaş kateqoriyalarında olan seçicilərin marağının olması və seçici fəallığının kifayət qədər yüksək səviyyədə olduğunu və vətənpərvərliyini təsdiqləyir.

Ölkə üzrə ən fəal tam orta təhsilli seçicilər olub. Bu mənzərə Bakı istisna olmaqla digər regionlarda da müşahidə edilir. Bakıda ali təhsilli respondentlər 44,6%, orta təhsillilər isə 33,5% təşkil edib.

Respondentlərin məşğulluqlarına görə paylanması seçkilərdə bütün sahələrdə fəaliyyət göstərən seçicilərin iştirak etməsini müəyyən edib.

Sorğuda iştirak edən seçicilərin əsas hissəsi 2003-cü ildə prezident seçkilərində sesvermədə iştirak etdiklərini qeyd ediblər.

2003-cü il prezident seçkilərində respondentdərin seçimini müəyyənləşdirmək məqsədilə onların kimə səs verdikləri barədə rəyi soruşulanların 19,8%-i səsvermədə iştirak etmədiyini deyib.

Onların bir qismi (3,7%) 18 yaşı tamam olmadığından iştirak etmədiyini qeyd edib. Seçkidə iştirak edən respondentlərin 79,5%-i İlham Əliyevə, 8,2%-i İsa Qəmbərə, 1,8%-i Lalə Şövkət Hacıyevaya, 1,2%-i Etibar Məmmədova və s. səs verdiklərini qeyd edib.

2008-ci il prezident seçkilərində respondentlərin verdiyi səslərin düzgün hesablanmasına inamlarının yüksək olduğunu onların 93,3%-nin «bəli, inanıram» cavabını vermələridir.

Respondentlərin seçdikləri namizədə səs vermək qərarına gəlmələrinə çatdıqda 72,1% rəyi soruşulan bunu tərəddüd etmədən səs verdikləri şəxsin namizədliyini irəli sürməsi barədə bilən kimi qərara gəldiklərini demişlər.

Lakin bu rəqəmlər namizədlər və cins üzrə araşdırıldıqda fərqli mənzərə alınır. Belə Ki, qadınlar heç də kişilərdən qətiyyətlikdə fərqlənmir və əgər rəyi soruşulan kişilərin 71,7%-i üstünlük verdikləri namizədi dərhal müəyyən etdiklərini qeyd ediblərsə, qadınların 72,7%-i bunu etiraf edib.

Namizədlər üzrə araşdırıldıqda görünür Ki, yalnız İlham Əliyevə səs verənlər öz seçimlərini onun namizədliyi irəli sürülən kimi ediblər (74,5%). Digər namizədlərə səs verənlərə isə bunun üçün müəyyən bir vaxt və seçkiqabağı kampaniya zamanı aparılan təbliğat tələb olunub.

Respondentlərin səsverməsinin paylanması İlham Əliyevin böyük fərqlə seçicilərin səslərinin qazanmasını göstərir. Belə ki, rəyi soruşulanların 87,1%-i İlham Əliyevə, 3,5 %-i İqbal Ağa-zadəyə, 2,3%-i Qulamhüseyn Əlibəyliyə, 0,9%-i Fuad Əliyevı, 0,7%-i Hafiz Hacıyevə, 2,8%-i Qüdrət Həsənquliyevə, 2,4%-i Fazil Mustafayevə səs verdiklərini qeyd ediblər.

Seçki günü keçirilmiş «quick count» tədqiqatının nəticələri bir daha «exit-poll» tədqiqatında alınan rəqəmləri təsdiqlədi və İlham Əliyevin səslərin 87,8%-ni, İqbal Ağa-zadənin – 3,1%-ni, Qulamhüseyn Əlibəylinin – 2,5%-ni, Fuad Əliyevin – 0,9%-ni, Qüdpət Həsənquliyevin – 3,5%-ni, Fazil Mustafayevin – 2,0%-ni topladığını aşkar etdi.



Bu mövzunun öyrədilməsi əgər demokratiyadan xəbər versə də, bu həm də gənclərin yeni qurumlarla tanışlığı deməkdir. Müəllim bu məsələyə diqqət yetirməlidir.

## 3.11. Milli və dini tolerantlıq

Azərbaycan milli və dini tolerantlıq səviyyəsinə görə beynəlxalq aləmdə nümunə göstərilən dövlətdir. Ölkə konstitusiyasına görə, bütün məzhəblərə mənsub olan insanlar heç bir məhdudiyyət qoyulmadan istədikləri dini seçib ona etiqad və qulluq edə bilərlər. Rəsmi rəqəmlərə əsasən, əhalinin 96%-i müsəlmandır. Əhalinin qalan hissəsi isə rus, provoslav, yəhudi dini icmalarına və ümumiyyətlə, heç bir dinə mənsub olmayan insanlardan ibarətdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQDK) məlumatına görə, müsəlmanların təxminən 65%-i şiə, 35%-i isə sünnidir; onlar arasında müxtəliflik ənənəvi olaraq kəskin şəkildə nəzərə çarpmır.

Ölkə xristianlarının böyük əksəriyyəti provoslavlardır. Xristianlar əsasən Bakıda və bir sıra digər şəhərlərdə məskunlaşıb. Ölkədə yaşayan təxminən 20000 yəhudinin böyük əksəriyyəti Bakıda məskunlaşıb. Kiçik icmalar Qubada və digər ərazilərdə də mövcuddur.

Dörd qrup (şiələr, provaslav ruslar və yəhudilər) ənənəvi dini qrup sayılır. bundan başqa, ölkədə artıq 100 ildən çoxdur ki, lüteranlar, katoliklər, baptistlər, malakanlar (rus provoslavlarına aid olan köhnə dinə inananlar), Yeddinci günün avventistləri və bəhailərin kiçik icmaları var. Dövlət qeydiyyatına alınmış 529 dini icmadan 29-u qeyri-müsəlman icmasıdır.

Azərbaycan çoxmillətli ölkədir. Burada azərbaycanlılarla yanaşı, rus, tatar, ləzgi, talış, yəhudi, kürd və s. millətlərin nümayəndələri yaşayır. Onların bərabər hüquqlara malik olduğu rəy sorğusu zamanı da aydın olur. Azərbaycan vətəndaşları mil-

liyyətindən və dinindən asılı olmayaraq, müxtəlif seçkili və təyinatlı orqanlarda təmsil oluna bilirlər.

Rəyi soruşulanların əksəriyyəti mülliyyətcə azərbaycanlı (94,9%), 2,0%-i ləzgi, 0,8%-i talış, 0,4%-i rus və digərləri (1,3%) olub.

Respondentlər mənsub olduqları milliyyətin təmsilçilərinin hökumət, qanunvericilik və icra strukturlarında ədalətlə təmsil olunmaları barədə sualı cavablandırarkən onların 72,3%-i «bəli, kifayət qədər», 13,(%-i «bir qədər az», 5,2%-i isə «çox az» deyib. Rəyi soruşulanların 1,9%-i mənsub olduqları milliyyətin nümayəndələrinin dövlət strukturlarında heç təmsil olunmadığını, 7,6%-i isə qiymətləndirə bilmədiklərini deyib.

Respondentlər yaşadıqları regionun hökumət qanunvericilik və icra strukturlarında ədalətlə təmsil olunmalarını qiymətləndirərkən rəy müxtəlifliyi aşkar edildi: 39,3%-i kifayət qədər təmsil olunduğunu, 24,2%-i bir qədər az, 17,3%-i çox az, 4,7%-i isə heç təmsil olunmadığını qeyd edib. 14,5% respondent isə cavab verə bilməyib.



# IV FƏSİL

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN MƏNBƏYİ KİMİ

## 4.1 Azərbaycan Respublikasının dövlət bayrağı

Azərbaycan qədim tarixə malik bir ölkədir. Azərbaycanda qədim və orta əsrlərdə bir-birini əvəz edən irili-xırdalı dövlətlər yaranmışdır. Hər bir dövlətin özünü tanıtmağa nişanları -müasir sözlə desək, dövlət rəmzləri olmuşdur. XIX əsrdə Azərbaycanın parçalanması ilə dövlətçiliyimizə çox böyük zərbə vurulmuşdur. Eləcə də, (dövlət rəmzlərimizə) XX əsrin əvvəllərində Şimali Azərbaycanda müstəqil dövlətin yaranması ilə dövlət rəmzlərimiz də yarandı. Bu rəmzlər dövlətin, dövlət adamlarının və ümumilikdə xalqın fəxri, qürur hissi hesab edilir. Təsadüfi deyildir ki, bu dövlət rəmzlərinin biri olan bayraq respublikamızın inzibati binalarında, orduda, sərhəddə qaldırılır. Milli pulların üzərində dövlət nişanları həkk olunur. Xarici ölkələrdən gələn dövlət nümayəndə heyəti şərəfinə və ölkəmizdən xaricə gedən dövlət nümayəndə heyyətinin qarşılanması şərəfinə dövlət bayraqları qaldırılır, dövlət himnləri çalınır. Belə bir mərasim böyük idman yarışları zamanında da həyata keçirilir.

Biz XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə bağlı dövlət rəmzləri – bayraq, gerb və himn haqqında, onun tarixi haqqında mənbələrə, rəsmi sənədlərə əsasən danışmaq istərdik.

Əsası hələ 1904-1905-ci illərdə görkəmli Azərbaycan mütəfəkkiri Əlibəy Hüseynzadə (1864-1941) tərəfindən «Türkləşmək, islamlaşmaq və avropalaşmaq» şəklində irəli sürülən və 1912-ci

ildə İstanbulda keçirilən konfransda görkəmli türk alimi Ziya Göyalp (1876-1924) tərəfindən «Türkləşmək, islamlaşmaq və müasirləşmək» doktrinası halına salınan bu şüar XX əsrin əvvəllərində türk aləminin hər tərəfində geniş yayılmışdır.

1902-ci ildə Müsəlman Gənclər Təşkilatının əsasın qoyan, 1904-cü ildən müsəlman sosial-demokratik təşkilatı «Hümmət» və 1913-cü ildən «Müsəlman demokratik», «Müsavat» partiyasının rəhbəri olan M.Ə.Rəsulzadə (1911-ci ildə oktyabrda «Müsavat» partiyası yaradılıb və 1913-cü ildə partiyanın lideri olub) 1915-ci ildə yazırdı: «Sağlam, mətin və oynaq məfkurəli bir millət VÜ-cuduna çalışmaq istərsək ki, zaman bunu iqtiza ediyor- mütləq üç əsasa sarılmalıyız»: «Türkləşmək, islamlaşmaq və müasirləşmək» işdə millətimizin həyati-ictimaiyyəsinin islah üçün üzərinə dayanacaq». (2 və «Açıq söz» qəzeti, 2 avqust, 1915).

1918-ci ilin may ayının 28-də öz müstəqilliyini elan edən Azərbaycan Cümhuriyyəti özünün bayrağını məhz bu əsasda qurdu.

Bayraqda göy rəng türkçülüyü, qırmızı müasirliyi və yaşıl isə islam ideologiyasını ifadə edir. Lakin islam dini meydana gəlməzdən qabaq əski türkdilli xalqlarda bu rənglərin başqa mənası olmuş və müqəddəs sayılmışdır. (58) və M.Seyidov, «Azərbaycan Milli Təfəkkür qaynaqları». Bakı, 1985.

XX əsrin əvvəllərində türk ədəbi dilinin yaradılması, ərəb, fars sözlərindən təmizlənməsi məqsədi güdülmüşdür.

Bu da bu xalqların dil cəhətdən yaxınlaşması demək idi.

Bayraqda türkləşmək ideyasının göy rənglə ifadə edilməsi orta əsrlərdə islam dinində olan türkdilli xalqların yaşadığı ərazilərdə saysız-hesabsız qədim abidələrlə əlaqədardır. Həmin abidələrdə göy başqa rənglərə nisbətən üstünlük təşkil edir və onların əzəmətli görünməsinə təkan verir. Bu baxımdan türkləşmək ideyasının göy rənglə ifadə edilməsi simvolik məna daşıyır. Bununla yanaşı qeyd etmək lazımdır ki, XX yüzilin əvvəllərində «türkçülük» təbliği naminə İstanbulda nəşr olunan bəzi mətbuat səhifələrində belə bir uydurma da özünə geniş yer tapmışdır ki, guya türklərin damarlarında axan qan göy rəngdədir.



İslam ideologiyası milli hərəkatının bayrağının yaşıl rəngli olmasının Əlibəy Hüseynzadə özünün «Qırmızı qaranlıqlar içində yaşıl işıqlar» adlı məqaləsində açıq izahını vermişdir. («Füyuzat» jurnalı, 8 dekabr, 1906, №5).

Məlumdur ki, hələ XVIII yüzilin axırlarında baş vermiş Fransa burjua inqilabından sonra kapitalizmin sürətli inkişafı dövrünə qədəm qoymuş Avropa ölkələri böyük sıçrayışla çox irəli getməyə başlamışlar. Həmin dövrdə isə Şərq ölkələri geri qalmış, feodal münasibətlərinin hələ də hökm sürdüyü dövlətlər idi. Aydındır ki, kapitalizmin inkişaf mərhələsinə keçən Avropa dövlətlərində proletariat meydana gəlmişdir. Kapitalizm quruluşuna qarşı proletariatın apardığı mübarizə nəticəsində tökülən qanlar və saysız-hesabsız tə'tillər zamanı qaldırılan bayraqlar Avropa dövlətləri üçün əlamətdar bir hadisə idi. Həmin dövrlərdə demək olar ki, qırmızı rəng Avropanın simvoluna çevrilmişdir. Buna görə də bayraqda avropalaşmanın və yaxud da müasirləşmənin rəmzi olaraq qırmızı rənglə göstərilməsi bu baxımdan nəzərə alınmışdır. Qırmızı rəng Azərbaycan tarixində qəhrəmanlıq rəmzi kimi göstərilir. Azadlıq uğrunda Məzdək hərəkatı hələ V əsrdə başlamışdır. V əsrdə İran Sasanilərinin istismarına qarşı 450-ci ildə Qazax rayonundakı Xalxal üsyanı qan tökülməsilə yadda qalır. Sonrakı əsrlərdə şüurlu mübarizələr nəticəsində vətən övladları vətənpərvərlik nümunəsi göstərərək qan axıtmışlar. Qana boyanmış köynəklərini rəmzi bayraq edib xarici işğalçılara qarşı xalqı mübarizəyə çağırıb azadlıq, müstəqillik uğrunda mübarizə aparmışlar. Bunun bariz nümunəsini Ərəb xilafətinə qarşı Babəkin başçılığı ilə xalq hərəkatını, Babilər üsyanını, Ş.M.Xiyabani, Səttərxan, 1988-ci il Bakı meydan hərəkatını və s. göstərmək olar.

Bayraqda qırmızı rəngin üzərində tən ortada aypara və səkkiz guşəli ulduzun təsviri verilmişdir.

Qeyd etməliyik ki, müxtəlif guşəli ulduzların təsvirlərinin izləri dünya sivilizasiyasının ən qədim məskəni hesab olunan Mesopotamiya ilə əlaqədardır. Həmin ulduz təsvirlərinin yaranması astronomiya elmi ilə bağlı olmuşdur. Sonralar həmin təs-

virlər dekorativ-ornament sənətinə keçərək həmin ərazidən Yaxın Şərqin başqa xalqlarına da yayılmışdır. Beşguşəli ulduz təsvirinin müqəddəs rəmzi şəkil alması xristianlıq dininin meydana gəlməsi ilə əlaqədar olmuşdur. Altıguşəli ulduz təsvirinin müqəddəsləşməsi isə iudaizm dini ilə bağlıdır. VII yüzildə islam dini meydana gələrək altıguşəli ulduz təsvirini daha da müqəddəsləşdirmişdir. Orta əsr Azərbaycan və Yaxın Şərq ölkələrində olan qəbir başdaşlarında altıguşəli ulduzun təsviri cənnət sferasının rəmzi kimi yayılaraq, geniş şəkildə öz əksini tapmışdır. Orta yüzilliklərdə Azərbaycan memarlığında da altıguşəli ulduzun təsviri geniş yayılmışdır. Sonralar islam dinində müxtəlif təriqətlərin ortaya çıxması ilə əlaqədar olaraq yeddi, səkkiz və doqquzguşəli ulduzların təsvirləri meydana gəlmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin üç rəngli bayrağında səkkizguşəli ulduzun təsviri ana vətənimiz odlar yurdunun bütün bəşəriyyətdə cənnətin məskəni olduğunun bir rəmzi kimi öz simvolunu tapmışdır.

AXC mövcud olduğu vaxtdan özünün üç rəngli bayrağını təsdiq etsə də lakin Dövlət himni və Dövlət Gerbi Layihə şəklində (1920-ci ilin may ayında təsdiq olunacaqdı) digər arzular kimi yarımçıq qaldı. Lakin 1991-ci ildə Azərbaycanda müstəqilliyin bərpası nəticəsində müstəqil Azərbaycan dövlətinin rəmzləri təsdiq edildi və 12 noyabr 1995-ci ildə Azərbaycan Respublikasının təsdiq olunmuş Konstitusiyasında (23-cü və 75-ci maddələrdə) öz dolğun əksini tapdı.

Azərbaycan Xalq Cümhuriyyətinin ilk bayrağı 1918-ci ilin iyunun 24-də Gəncədə fəaliyyət göstərən Fətəlixan Xoyskinin rəhbəri olduğu Müvəqqəti Milli hökumətin qərarı ilə qəbul edilib. (Onu da deyək ki, bu dövrdə həm də hərbi vəziyyət elan edilib (19 iyun), Azərbaycan Milli ordusu yaradılıb (26 iyun), Azərbaycan dili dövlət dili elan edilib (27 iyun) və s.). Lakin ilk dəfə qəbul edilən müstəqil dövlət bayrağı qırmızı rəngli olmaqla üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri vardı.

1918-ci ilin sentyabrın 18-də Bakıya köçən Azərbaycan Xalq Cümhuriyyəti dövlət quruculuğuna başlayır.



Nazirlər Şurası 1918-ci il noyabrın 9-da F.Xoyskinin məruzəsi əsasında Azərbaycanın yeni üçrəngli mavi, qırmızı, yaşıl zolaqlardan ibarət və üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan dövlət bayrağının təsdiqi barədə qərar qəbul edir.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan 70 il sonra 17 noyabr 1990-jı ildə Naxçıvan Muxtar Respublikasının Ali məclisində ulu öndər Heydər Əliyevin məsləhəti və sədrliyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanın Dövlət bayrağı kimi qəbul edilir və həmin bayrağın Azərbaycan respublikası üçün də qəbul edilmə tələbi irəli sürülür. Bu vətənpərvərlik nümunəsi gənc nəslə geniş öyrədilməli, həmişə diqqətdə saxlanmalıdır.

Bu qərarın işığında 1990-cı ilin noyabrın 29-da «Azərbaycan SSR-in adının və dövlət bayrağının dəyişdirilməsi haqqında» Azərbaycan SSR Prezidenti fərman verir və 1991-ci ilin fevralın 5-də Azərbaycan respublikası Ali Soveti «Azərbaycan SSR-in adının və dövlət bayrağının dəyişdirilməsi haqqında» qərar qəbul edir. Az müddətdən sonra, yə'ni 1991-ci il oktyabrın 18-də «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı» ilə Azərbaycan Respublikası özünün dövlət müstəqilliyini elan etmişdir.

Azərbaycan Respublikasının Dövlət bayrağı üçrəngli zolaq üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsvirindən ibarətdir.

Azərbaycan Respublikasının Dövlət Bayrağından istifadə müstəqil Azərbaycan Respublikası Konstitusiyasının 23-cü və 75-ci maddələri «Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında Əsasnamə» əsasında tənzimlənir. Azərbaycan Respublikasının Dövlət Bayrağının rəngli və sxematik təsviri adı çəkilən Qanun və Əsasnamə ilə təsdiq edilmişdir. Əsasnaməyə görə, «Azərbaycan Respublikasının Dövlət Bayrağı eni bərabər olan rəngli üç üfüqi zolaqdan ibarət düzbucaqlı parça şəklindədir: üst zolaq mavi rəngdə, orta zolaq qırmızı rəngdə, aşağı zolaq yaşıl rəngdədir. Bayrağın hər iki üzündə, qırmızı zolağın ortasında ağ

rəngli aypara və səkkizguşəli ulduz təsviri vardır. Bayrağın eninin uzununa nisbəti 1:2-dir». (2-ci maddə).

Əsasnamədə daha sonra aypara və səkkizguşəli ulduzun sxematik təsviri ölçüləri bu cür göstərilir: «Ayparanın və səkkizguşəli ulduzun təsvirləri tərəfinin nisbəti 3:4 olan düzbucaqlının içərisində yerləşir; düzbucaqlının diaqonalı bayrağın eninin 1/2-nə bərabərdir. Ayparanın təsviri konsentrik (eyni mərkəzli) olmayan iki dairənin hissələri şəklindədir; böyük dairənin diametri xarici düzbucaqlının eninə, kiçik dairənin diametri isə bayrağın eninin 1/4-ə bərabərdir. Kiçik dairənin mərkəzi bayrağın həndəsi mərkəzindən sol tərəfdə, bayrağın eninin 1/60-ə bərabər olan məsafədə yerləşir. Səkkizguşəli ulduzun təsviri ayparadan sağda yerləşir, ulduzun xarici dairəsinin diametri bayrağın eninin 1/6-ni, daxili dairəsinin diametri isə 1/12-ni təşkil edir» (2-ci maddə).

### 4.2. Azərbaycan Respublikasının dövlət gerbi

1993-cü il yanvarın 19-da «Azərbaycan Respublikasının Dövlət Gerbi haqqında Azərbaycan Respublikasının Qanunu» qəbul edilmişdir. Bu Konstitusiya Qanunu ilə rəngli və ağ-qara təsvirli gerb Azərbaycan Respublikasının Dövlət Gerbi kimi təsdiq olunmuşdur.

Dövlət Gerbindən istifadə qaydaları isə «Azərbaycan Respublikasının Dövlət Gerbi haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının 23 fevral 1993-cü il tarixli, 516 saylı Qanunu ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Dövlət Gerbi haqqında Əsasnamə» ilə tənzimlənir. «Əsasnamə»də Dövlət gerbinin rəngli təsviri haqqında deyilir:

Azərbaycan Respublikasının Dövlət Gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikası Dövlət Bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır.



«Azərbaycan Respublikasının Dövlət Gerbinin rəngli təsvirində ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı rəngdədir. Qalxanın və ulduzun sağanaqları, habelə qalxanın qiymətləri və palıd qozaları qızıldır» (2-ci maddə).

Beləliklə, araşdırmalar göstərir ki, Azərbaycan Respublikasının Dövlət Gerbində **QALXAN** – Azərbaycanlıların Şərq xalqlarından biri, Azərbaycanın isə Şərq dövləti kimi özünü müdafiə qüvvələrinə malik olduğunu, qalxanın üzərindəki dairəvi **ÜÇRƏNG** – milli bayrağımızdakı simvolları (türklük, müasirlik, islamlıq), **SƏKKİZGUŞƏLİ ULDUZ** əbədiyyət rəmzi olan Günəşi, **ALOV** – «Odlar yurdu»nu – Azərbaycanı, **PALID BUDAQLARI** – milli hərbi qüdrətimizi, **SÜNBÜL** – Vətənimizin bolluğunu, bərəkətliliyini, çörəyə olan müqəddəs münasibətini, **GÜNƏŞİN AĞ RƏNGDƏ** verilməsi isə Azərbaycan dövlətinin sülhsevərliyini, xalqımızın sülh, barış, əmin-amanlıq tərəfdarı olduğunu bildirməyə xidmət edir.

Qalxandakı 8 düymə isə Günəşin səkkiz şüasına müvafiq olaraq verilmişdir və xüsusi funksiya daşımır.

### 4.3. Azərbaycan Respublikasının Dövlət Himni

1992-ci il mayın 27-də «Azərbaycan Respublikası Dövlət himni haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Həmin qanunda musiqisi Ü.Hacıbəyovun, mətni Əhməd Cavadın olan «Azərbaycan marşı» Azərbaycan Respublikasının Dövlət Himni kimi təsdiq edilmişdir.

«Azərbaycan Respublikası Dövlət himni haqqında» Azərbaycan Respublikasının Qanunu ilə Dövlət himninin yuxarıda verilən mətni ilə yanaşı, himnimizin bəstəkar Aydın Əzimov tərəfindən aranceman edilmiş musiqi mətni (klaviri) də təsdiq edildi. Azərbaycan Respublikası Dövlət himnindən istifadə qaydaları 2 mart 1993-cü il tarixli «Azərbaycan Respublikası Dövlət himni haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Qanunu ilə təsdiq olunmuş «Azərbaycan

Respublikası Dövlət himni haqqında Əsasnamə» ilə tənzimlənir. Adı çəkilən Konstitusiya Qanunları və Əsasnamə ilə Azərbaycan Respublikası Dövlət himni Azərbaycan dövlətinin, onun müstəqilliyinin və birliyinin müqəddəs rəmzi, Dövlət himninə dərin ehtiram bəsləmək isə onun hər bir vətəndaşının vətənpərvərlik borcu kimi təsbit olunmuşdur.

Azərbaycanın dövlət rəmzləri xalqımızın vətənpərvərlik tərbiyəsinin mənbəyini təşkil etməklə dövlət əhəmiyyətli işdir. Bunu nəzərə alaraq respublika prezidenti cənab H.Əliyev 1998-ci ilin martın 13-də «Azərbaycan respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi» haqqında xüsusi sərəncam vermişdir.

Sərəncamda göstərilmişdir: ***Azərbaycan Respublikasının bayrağı, gerbi və himni Azərbaycan dövlətinin müstəqilliyini təcəssüm etdirən müqəddəs rəmzlərdir.***

Vətəndaşlarımıza, xüsusən gənclərimizə dövlət atributlarına dərin ehtiram hislərinin aşılanması cəmiyyətdə vətənpərvərlik ruhunun möhkəmləndirilməsi işinə bilavasitə xidmət edir. Dövlət atributlarının mahiyyətinin və əhəmiyyətinin əhali arasında geniş təbliğ olunması, gənc nəslin Azərbaycanın bayrağına, gerbinə və himninə hörmət ruhunda tərbiyə edilməsi vətəndaş cəmiyyətinin yaranmasının mühüm amillərindən biridir...[1]

### 4.4. Diplomatiya və onun mahiyyəti

Dövlətin yaranması və inkişafı ilə dövlətlərarası əlaqə yaranmışdır. Dövlət xadimləri, sərkərdələr yetişdiyi kimi diplomatlar da meydana gəlmişdir və inkişaf etmişdir. Diplomatiya dövlətlər arasında yaradılan əlaqədir ki, bunun da arxasında qarşılıqlı maraq durur.

İctimai fəallığın motivlərindən biri də məhz maraqdır.

[1] *Bax. «Azərbaycan Müəllimi» qəz.. 18-22 oktyabr 1991-ci il.*



Diplomatiyanın inkişafını və əhəmiyyətini, xüsusilə də bizim gənc respublika üçün əhəmiyyətini nəzərə alaraq tarix müəllimlərinə kömək məqsədilə bir sıra tövsiyələr veririk. Nəzərə alınmalıdır ki, ictimai fəallıq tərbiyəsi üçün diplomatiyanın öyrədilməsi ən yaxşı vasitədir.

Ən əvvəl onu deyək ki, bizim üçün təzə olan və bu sahədə Azərbaycan dilində ədəbiyyatın azlığını nəzərə alaraq Fikrət Sadıqovun «Diplomatiya və diplomatik xidmət» adlı əsəri çox faydalıdır.

Azərbaycan Respublikasının müstəqilliyinin 30 avqust 1991-ci tarixdə bərpası və oktyabrın 18-də «Azərbaycan Respublikasının müstəqilliyi haqqında» konstitusiya aktının qəbul edilməsindən sonra respublikanın möhkəmlənməsi onun dünya dövlətləri tərəfindən tanınmasına gətirib çıxarmışdır.

Lakin iki yerə bölünmüş və uzun illər müstəqilliyi olmayan Azərbaycanın bu illərdə onun özünün diplomatiyası olmamışdır.

Ancaq Azərbaycanın şimal hissəsində müstəqillik əldə edildikdən sonra respublikanın diplomatiyası və diplomatik əlaqələri meydana çıxmışdır. Bu da Azərbaycanda diplomatiyanın III mərhələsinin bərpa olunması deməkdir.

Şagirdlər bilməlidirlər ki, diplomatik tanınmalar dövlətimizi beynəlxalq münasibətlər prosesinə, buradan irəli gələn hüquq, vəzifə və öhdəliklərə cəlb etmişdir.

Azərbaycan nümayəndələri demək olar ki, beynəlxalq səviyyəli konfrans, konqres, müşavirələrin və digər tədbirlərin daim iştirakçılarıdır. Bununla əlaqədar, dövlət fəaliyyətinin müəyyən növünü təmsil edən diplomatiyanın və onunla birlikdə diplomatik xidmətin öyrədilməsi vacibdir.

Şagirdlər bilməlidirlər ki, insan cəmiyyətinin inkişaf tarixində dövlətin xarici siyasət məsələləri, onun mümkün vasitəsi-diplomatiya hər zaman görkəmli yer tutmuşdur. Məhz buna görə də diplomatiyanın yaranması və inkişafı tarixini öyrətmək dövlət əhəmiyyətli bir işdir.

Biz bunları nəzərə alaraq diplomatiya anlayışını, onun yaranma və inkişaf tarixinə nəzər salır, ictimai fəallığın formalaşdı-

rılmasında xidmətini göstərməklə, Azərbaycan diplomatiyasının tədrisi yollarını tövsiyə edirik.

Diplomat F.Sadıqova istinadən deyə bilərik ki, - diplomatiya işi dövlət strukturlarında özünəməxsus xüsusiyyətləri ilə fərqlənən dövlət xidmətinin bir növüdür, dövlətlər arasında yaradılan əlaqələrin körpüsüdür. Diplomatın hərfi mə'nası «diplomu» olan şəxs deməkdir. Qədim Romada yunan terminologiyasına görə senat tərəfindən verilən zəmanət və ya etimadnaməyə deyilir[1]. «Diplomat», «diplomatiya» sözləri yunanca «diploma» sözündən əmələ gəlmişdir. Qədim Yunanıstanda mühüm məktub və sənədlərin yaxşı saxlanması üçün lövhəciklərin mumlanmış üzvlərini ikiqat bükürdülər. Diplom – ikiqat bükülmüş sənəd deməkdir. Buradan belə bir məntiq də əmələ gəlir. Diplomat sənədi, fikiri, sirri möhkəm saxla deməkdir (red. – T.P.). Bu fikir indi də öz aktuallığını saxlamışdır. Lakin bunlar sözün hərfi mə'nasındadır. Bəs diplomatiya ümumilikdə nədir və hansı funksiyaları yerinə yetirir? - Diplomatiya əsasən danışıqlar, bir-birini anlaşma şəraitində gedən danışıqlar vasitəsidi. Burada yaxşı mənada məharət, pis mə'nada hiyləgərlik, uzaqgörənlik və s. yerinə yetirir. Buna görədir ki, diplomatiyaya bir çox tərif verilmişdir və onların fikri əsasən birdir. Məs, məşhur İngilis diplomatı və publisisti Q.Nikolsona görə, Diplomatiya danışıqlar vasitəsilə beynəlxalq münasibətlərin aparılmasıdır... «Bu münasibətlərin tənzimlənməsinə kömək edən metodlar səfirlər və diplomatik nümayəndələr tərəfindən yerinə yetirilir»[2]. Digər görkəmli ingilis diplomatı E.Satua görə diplomatiya – müstəqil dövlətlərin hökümətləri, bə'zən isə bu dövlətlərlə onların vassalları arasında rəsmi münasibətlərin aparılmasında ağıl və nəzakətin tətbiq edilməsidir...

Fransız diplomatı Q.Qardenə görə «Diplomatiya-bu terminin geniş mənasında xarici münasibətlər və ya xarici işlər haqqında elmdir, daha dəqiq mənada – bu danışanlar elmi və ya da-

[1] Bax. Дипломатический словар. М.,1948, I cild, səh. 570.
[2] Дипломатия Г.Николсон. М., 1941, с. 19.



nışıqlar aparmaq məharətidir[3]. Tanınmış alman hüquqşünası Q.Martensə görə «Diplomatiya dövlətlərinin xarici əlaqələri və ya xarici işləri haqqında elmdir, daha məhdud mə'nada danışıqlar aparmaq elmi və ya danışıqlar aparmaq məharətidir»[4].

Super dövlətlərin ABŞ və SSRİ-nin qarşıdurması dövründə siyasi realizm məktəbinin banisi Q.Morqentaya diplomatiyanın tərifini və mahiyyətini açaraq onun dövr elementdən ibarət olduğunu göstərmişdir.

1. Diplomatiya öz məqsədlərini, bu məqsədləri həyata keçirmək üçün sərəncamlarındakı həqiqi və potensial qüvvədən asılı olaraq müəyyənləşdirilməlidir.

2. Diplomatiya digər ölkələrin məqsədlərini və bu məqsədləri həyata keçirmək üçün ölkənin sərəncamındakı həqiqi və potensial qüvvəni qiymətləndirməlidir.

3. Diplomatiya müxtəlif məqsədlərin nə dərəcədə uyğun olduğunu müəyyənləşdirməlidir.

4. Diplomatiya bu məqsədlərin həyata keçirilməsi üçün yarayan bütün vasitələrdən istifadə etməlidir.

Q. Marqenauya görə SSRİ kimi bir super dövlətin parçalanması və yeni-yeni müstəqil dövlətlərin yaranması ilə nəticələnməsi öz mahiyyətini saxlamaqla diplomatiyanın metodları sahəsində müəyyən dəyişikliklər edilməyə başlanmışdır.

İstər II Dünya müharibəsinə qədər olan diplomatiya, istər II Dünya müharibəsindən 1991-ci ilə qədər olan diplomatiya istərsə də son illərin diplomatiyasının əsas ana xəttini F.Sadıxovun ümumiləşdirmə apararaq gəldiyi nəticədən çıxış edərək göstərmək olar, «Diplomatiya-dövlətin xarici siyasətinin həyata keçirilməsi üçün vasitə olub konkret şərait və yerinə yetirilən vəzifələrin xarakteri nəzərə alınmaqla tətbiq edilən qeyri-hərbi praktik tədbirlərin üsul və metodların məcmusudur, onun əsas metodu da danışıqlarıdır»[5]. Bu danışıqlar əsasında diplomatlar döv-

[3] Bax. Diplomatiyanın tam kursu. Q.Qarden. F. 1833. səh. 27.
[4] Я.Сатоу «Руководство по дипломатический практике». М, 1961. с.11.
[5] Bax. F.Sadıxov. «Diplomatiya və diplomatik xidmət». B.: ADN, 1993.

lətlər və xalqlar arasında körpü rolunu oynayır. Diplomat Xarici İşlər Nazirliyinin əməkdaşı olub, öz dövlətinin digər dövlət və dövlətlərlə rəsmi əlaqəsini həyata keçirən şəxsdir.

Müəllim diplomatın vəziyyətlərindən söz açaraq bildirməlidir ki, bu göstərilən faktorları həll etmək, diplomat olmaq üçün aşağıdakı keyfiyyətlərə malik olmaq lazımdır: Diplomat dövlətini, xalqını yaxşı təmsil etməli, ağıllı, təmkinli vicdanlı, xeyirxah və səmimi, nəzakətli, ünsiyyətli, iradəli, iti idrak sahibi və s. olmaqla bərabər bir neçə dil bilməlidir.

XIX yüzilliyin fransız diplomatiyasının patriarxı Taleyranın fikrincə, diplomatya sahəsində nailiyyət qazanmağın iki keyfiyyət dərəcəsi vardır.

1. Ehtiyatlıq, təvazökarlıq, tam təmənnasızlıq, nəhayət, xaricdə milləti təmsil etmək və ölkə daxilində onun siyasi hüquqlarını qorumaq vəzifəsinin əzəmətini duymağa kömək edən yüksək hisslərin olması.

2. Siyasi münasibətlərin öyrənilməsinə mənəvi həvəs, məsələlərin mahiyyətini dərhal və yaxşı anlamaq daxildir, zira heç bir məşğuliyyət belə təcili və çox vaxt da ani reaksiya tələb etmir, məlum fikir genişliyi, çünki bu sahədə bütün detallar vahid tam halında ümümiləşdirməlidir.

Ümumiyyətlə, diplomatın keyfiyyətini ümumiləşdirərək, indi də öz aktuallığını saxlamış XÜŞ yüzilliyin fransız diplomatı Kalyerninin «Monarxlarla danışıq aparmaq qaydaları haqqında» (Paris, 1716-cı il) kitabında göstərdiyi fikirlə yekunlaşdırmaq olar. O, göstərmişdir ki, diplomatda «bu keyfiyyətlər əsasdır: kef və əyləncə dalınca qaçmağı özünə rəva bilməyən diqqətli və çalışqan ağıl, əşyaları olduğu kimi qəbul edən danışıq apardığı şəxslərdə nifrət doğura biləcək hərəkətlərlə təfərrüata vardan və lazımsız hiylələrə yol vermədən məqsədə doğru qısa və təbii yolla getməyi bacaran sağlam düşüncə. Özünü yaxşı idarə etmək bacarığı diplomat üçün və deməyə hazırlaşdığı sözü əsaslı surətdə düşünmədən danışmaq arzusuna qarşı durmağı bacar-



malıdır ki, ona edilən təklifə fikirləşmədən cavab verməyə tələsməsin»[6].

Diplomatik nümayəndənin tə'yin edilməsi, etimadnamənin təqdim edilməsi və geri çağırılması, daimi diplomatik miqyasların meydana gəlməsi XI yüzilliyə aiddir. Bu zaman müstəqil olan Venetsiya, Vyana, Paris, Madrid, Roma özünün daimi nümayəndəliklərini tə'sis etdi. Lakin məhz XVIII yüzillikdən başlayaraq diplomatik agentlərin, prezidentlərin əvəzinə səfirlər, diplomatik nümayəndələr təyin edilməyə başlandı.

1815-ci il Vyana reqlamentinə görə səfirlər yüksək dərəcəli diplomat, yüksək dərəcəli agentlərə aid edilmişdir. Səfir şəxsən dövlət başçısının təmsilçisi idi və onun adından digər monarx qarşısında çıxış edə bilərdi. O vaxtdan diplomatik xidmətdə böyük demokratik dəyişikliklər baş vermişdir. 1961-ci il Vyana konvensiyasına görə diplomatik nümayəndəlik başçılarının dərəcələri dəqiqləşdirilmişdir: Səfir və nunsirlər dərəcəsi: diplomatik nümayəndə və internunsilər dərəcəsi (hökumət başçıları yanında akreditə edilirlər). «Nümayəndəlik başçıları arasında fərq onların bu və ya digər dərəcələrinin nəticəsi kimi deyil, yalnız rütbə və etiketə görə qoyulmalıdır» (Vyana konvensiyası materiallarından).

Diplomatik münasibətlər ilk dəfə yaradılarkən səfir ölkəyə gələnə kimi oraya texniki işçilər göndərilir, bina hazırlanır, öz səfirini göndərmək qərarına gələn hökumət qəbul edən tərəfdən əvvəlcədən razılıq (aqreman) alır. Xarici İşlər Nazirliyi arasında səfirin qəbul edilməsi üçün məktub yazılır və göndərilən səfirə ölkə başçısının etimadnaməsi verilir. Səfirlik binası üzərində onun təmsil etdiyi dövlətin bayrağı asılır.

Aqreman sorğusuna səfirlik açılacaq ölkənin dövlətinin cavab verməməsi və gecikdirilməsi həmin şəxsi səfir kimi qəbul etmək istəməməsinə dəlalət edir. Bu zaman gərək başqa adam müəyyənləşdirilsin. Səfiri qəbul etmək istəyəndə «persona qrata»

[6] Я.Сатоу «Руководство по дипломатической практике» М., 1947, с. 103-104.

(arzu edilən şəxs). Səfiri qəbul etmək istəməyəndə «persona non qrata» (arzuedilməyən şəxs) sözlər yazılır.

Dövlət başçısının e'timadnaməsi əsasında xarici dövlətin birində işləyən səfir, hökumətinin öz fərmanı ilə geri çağrılır və Səfir gedəndə apardığı e'timadnamə kimi geri çağırma sənədləri dövlət başçısı və xarici işlər naziri tərəfindən imzalanır və s.

Müəllimin diplomatiyaya dair verdiyi məlumatlar onların dünya görüşünün inkişaf etdirilməsi ictimai fəallıq tərbiyəsinin yüksəldilməsi işinə xidmət göstərməlidir. Müəllim qabarıq şəkildə göstərməlidir ki, diplomat olmaq üçün sə'ylə oxumalı, milli adət-ənənələri, tarixi gözəl bilməli, poeziyanı sevməli, milli qürur hissləri güclü olmalı. Ən başlıcası isə vətənpərvər şəxs olmalıdır.

Azərbaycan ərazisində b.e.ə. VII əsrin başlanğıcında Manna (b.e.ə. IX-VII əsrlərdə) hakimləri Skiflərlə və Assuriya ilə ittifaqa girməklə biz deyərdik ki, diplomatiyanın əsasını qoymuşlar (Bax: «Azərbaycan tarixi» və «Qədim Şərq tarix»ləri – səh. 10-105 və 268-355). Maraqlar iqtisadi, siyasi və şəxsi mənafe kəsb edir.

Həyat inkişaf etdikcə bir sıra məsələlər ortalığa çıxmışdır. Feodal dövlətlər öz hakimiyyətlərini möhkəmlətmək üçün xarici qüvvəni nəzərə aldığından məcbur olmuşlar ki, onunla əlaqə yaratsın (diplomatiya danışıqları aparmağın ilkin rüşeymləri tədricən diplomatik əlaqələrin yaranma prosesi ilə əvəz olunmuşdur).

Digər bir tərəfdən də Azərbaycanın iqtisadiyyatı, ölkədə olan xammallar da qonşu dövlətlərin marağını özünə cəlb etmişdir və yaxud öz quruluşunu, dövlətini saxlamaq xatirinə qonşu dövlətlər üçüncü dövlətə qarşı ittifaqa girməyə maraq göstərmişlər. Deməli, diplomatik əlaqələr nəticəsində hər iki tərəf həm iqtisadi, həm də siyasi sahə üzrə fayda görmüş olur. Bunun üçün ictimai fəallıq göstərilməli, ictimai fəallığın fəaliyyət motivi üzrə hərəkət edilməlidir. Əgər buna əməl edilməsə göstərilən cəhdlər, bağlanmış müqavilələr əbəsdir (Yə'ni diplomatik yolla əldə edilmiş danışığa əsasən bağlanmış müqavilə öhdəliyini hər iki tərəf yerinə yetirsin). Məsələn, «Azərbaycanın bölüşdürülməsi» haqqında elmi təhlilə nəzər salanda görürük ki,1813-cü il 12 oktyabrda İranla-Rusiya arasında Gülüstan müqaviləsinin bəzi



maddələri yerinə yetirilməmişdir. Məsələn, bunun nəticəsi olaraq ikinci dəfə İran-Rusiya müharibəsi başlamış və 1828-ci il fevralın 10-da Türkmənçay müqaviləsi ilə başa çatmışdır. Çox təəssüf ki, bu müqavilə Azərbaycanı iki yerə bölmüşdür.

Diplomatiya siyasi sayıqlıq, ictimai fəallıq tələb edir. Bunu nəzərə alaraq şagirdlərə hələ orta məktəb dərsliklərində verilmiş biliklərlə kifayətlənmək olmaz, onlara əlavə ədəbiyyatlar əsasında ətraflı biliklər verilməlidir.

Tarixçi alim, professor Y.Mahmudova istinadən deyə bilərik ki, diplomatiyanın genişləndirilməsi və formalaşdırılması işi XV əsrin II yarısında Azərbaycan Ağqoyunlu dövləti tərəfindən həyata keçirilmişdir.

Tarixi məxəzlərdən məlumdur ki, Ağqoyunlular xalqımızın təşəkkülündə mühüm rol oynamış oğuz tayfalarındandır. Bayraqlarında ağ qoç rəmzi olan bu böyük tayfa birliyi (Qaraqoyunlular da onlarla bir kökdəndir) hələ VI əsrin sonu VII əsrin əvvəllərində Cənubi Qafqazda, başlıca olaraq Qafqaz dağları ilə Araz çayları arasındakı ərazidə, o cümlədən Qarabağda, Göyçə gölü (indiki Sevan) ətrafındakı torpaqlarda, Alagöz yaylaqlarında və s. yaşayırdılar (hazırda Ermənistan adlandırılan qədim Azərbaycan torpaqlarında ermənilər mədəniyyətsizlik edərək ağqoyunlu və qaraqoyunlulardan qalma qəbristanlıqları, tarixi abidələri yerlə-yeksan etmişlər).

Ağqoyunluların ön dəstələri Azərbaycanın cənub rayonları, Şərqi Anadolu, Qərbi İran, Dəclə və Fərat vadiləri də daxil olmaqla çox geniş ərazidə yayılmışdı və VI əsrdən başlayaraq bu geniş coğrafi rayonun hərbi-siyasi tarixində fəal iştirak etmişlər. Ağqoyunlu dövlətinin diplomatiya tarixinə nəzər salanda aydın olur ki, Azərbaycan diplomatiyası bir mənalı və təsadüfi xarakterli deyil, əsl diplomatiyadır, müasir tələblərlə səslənir. Burada həm siyasi (hərbi qüvvələrdə nəzərdə tutulur), həm iqtisadi əlaqələrin qurulması uğrunda yeridilən siyasət yox, həyata keçirilən siyasət olmuşdur. Vətən sevgisi güc gələrək ictimai fəallığın fəaliyyət motivi üzrə hərəkət edilmişdir. Belə siyasəti-diplomatiyanı inkişaf etmiş dövlət, dövlətin şəxsiyyətli rəhbəri edə bilər. Belə

şəxsiyyətlərdən biri XV əsrdə Azərbaycanın qüdrətli dövlət başçısı ağqoyunlu Uzun Həsən (1453-1478) olmuşdur. Uzun Həsənin dövründə feodal çəkişmələrinə son qoyulmuş iqtisadi dirçəliş baş vermiş, nizamlı qoşun yaradılmış, görkəmli mütəfəkkirlər, elm və sənət adamları sıraya cəlb edilmişdir (təkcə şəxsi kitabxanadan 58 alim çağrılmış, müasir sözlə desək, «prezident» institutu yaradıbmış).

İqtisadi və siyasi inkişaf imkan vermişdir ki, Azərbaycan özünün xarici siyasətini inkişaf etdirsin. Azərbaycan xarici siyasət iqlimini müəyyənləşdirən dövlətlər sırasına daxil olmuşdur. Həm şərqdə, həm qərbdə dünyanın ən tanınmış dövlətlərindən birinə çevrilmişdir. Diplomatiyanın coğrafiyası genişləndirilmişdir. Ağqoyunlarla bu zaman Venesiya respublikası, Böyük Moskva knyazlığı, Böyük Orda, Polşa, Macarıstan, Avstriya, Çexiya, Almaniya, Papalıq, Burqundiya, Neapol krallığı Rodos, Kipr, Qaraman əmrliyi aralıq dəniz sahillərində Misir, Hindistan və bir çox başqa ölkələr arasında diplomatik əlaqələr yaradılmışdır. Xarici ölkələrdən isə burada daimi səfirliyi fəaliyyət göstərmişdir.

Uzun Həsənin qərb ölkələri ilə belə geniş əlaqə yaratmaqda əsas məqsədi Azərbaycanın beynəlxalq ticarət əlaqələrini, ilk növbədə ipək ticarətini sahmana salmaq, bunu Qara dənizə və Aralıq dənizinə çıxmaq yolu ilə əldə etmək və beləliklə Qərb ölkələri ilə birbaşa ticarət əlaqəsi yaratmaq idi. Digər tərəfdən, vətənin qorunması üçün öz ordusuna müasir silahlar almaq, Azərbaycanda topçuluq sənətini inkişaf etdirmək üçün Avropadan artilleriya mütəxəssisləri dəvət etmək idi.

Ağqoyunlu dövlətinin diplomatiyasında Uzun Həsənin anası Sara xatunun da böyük ictimai fəallığı üzə çıxmışdır. Sara xatun bütün Şərqdə yeganə diplomat qadın olmuşdur. (Uzun Həsənin ana nənəsi, yəni Sara xatunun anası Suriyanın xiristian əsilzadələrindən birinin qızı olmuşdur. Uzun həsənin arvadı Genuyalı IV qızı Feodoranla Dəslinə xatun olmuşdur. Dəslinə xatundan doğulan qızı artanı – Aləmşahın bacısı oğlu Şeyx Heydərə vermişdir. Ondan da Səfəvi hökmdarı Şah İsmayıl doğulmuşdur).



Azərbaycan diplomatiyasının inkişafı Azərbaycan Səfəvilər dövləti dövründə də inkişaf edərək yeni-yeni şəxsiyyətlərin yaranmasına gətirib çıxarmışdır. Onların gözəl nümayəndələrindən biri I Şah İsmayıl idi (1502-1524). İsmayıl qısa vaxt ərzində İranı, Ərəb İraqını, Diyarbəkiri, Kiçik Asiyanın başqa vilayətlərini, Özbəkistanı və s. yerləri fəth etmişdi. I Şah İsmayıl müstəqil diplomatik əlaqələr yeitmişdir[7].

Tarixdə bir sıra diplomatik əlaqələr vardır ki, o, özünə və öz zəmanəsinə görə lazım olub. Ardıcıl siyasət yeridilmədiyinə, Azərbaycan birliyi, onun mənafeyi uğrunda diplomatik əlaqənin zəifləməsi nəticə etibarı ilə XVIII əsrdən Azərbaycanın feodal dövlətlərə parçalanmasına gətirib çıxartmışdır. Bu da Azərbaycanın yaxın və uzaq xarici dövlətlər yanında nüfuzdan düşməsinə gətirib çıxarmışdır. Buna görədir ki, Azərbaycan XIX əsrin əvvəllərində (1813 və 1828-ci illərdə) Rusiya ilə İran arasında bölüşdürülmüşdür. Bununla da Azərbaycanın Müstəqilliyi və diplomatiyası iflasa uğramışdır.

1918-ci ildə Azərbaycanın şimal hissəsində Azərbaycan Demokratik Respublikası yaradıldıqdan sonra diplomatik əlaqələr yarandı. Az bir vaxtda 20-yə yaxın dövlətlərlə diplomatik əlaqə yaradılmışdır. Bakıda ABŞ-ın, Belçikanın, Danimarkanın, İngiltərənin, İranın, İsveçin, İsveçrənin, İtaliyanın, Yunanıstanın, Latviyanın, Gürcüstanın, Ermənistanın, Polşanın, Ukraynanın, Fransanın, Finlandiyanın diplomatik nümayəndəliyi fəaliyyət göstərmişdir[8]. Bunu biz şərti olaraq 2-ci mərhələ adlandıra bilərik.

1920-ci ilin aprelin 28-də Azərbaycanda Rusiya bolşeviklərinin təzyiqi nəticəsində yarımasılı Azərbaycan Sovet Sosialist Respublikası qurmaqla müstəqil diplomatik siyasət yeritmək arxa plana çəkildi. Formal olaraq xarici işlər nazirliyi yarandı. Bu Azərbaycan diplomatiyasının tarixinin passiv olan 3-cü mərhələsi başladı.

[7] Bax: Y.Mahmudov. «Səfəvilər dövlətinin diplomatiyası», B., 1996.
[8] Bax: «Səhər» qəzeti, 26 aprel 1990-ci il.

## 4.5. Azərbaycanın müstəqillik dövrünün diplomatiyası

1991-ci ilin oktyabrından özünün müstəqilliyini bərpa edən Azərbaycan Respublikasının diplomatiyasının 4-cü mərhələsi başlamışdır.

Artıq indi Azərbaycan dünya dövlətlərilə müstəqil diplomatik əlaqələr yaradır və bu əlaqələri inkişaf etdirir.

Bu gün 130-dan artıq dövlət tərəfindən tanınan və 80-dan çox xarici ölkə ilə diplomatik münasibətlər yaradan Azərbaycan beynəlxalq fəaliyyətin mühüm nöqtələrindən birinə çevrilmişdir. Artıq Azərbaycanda bir çox Qərbi Avropa ölkələrinin, Amerika Birləşmiş Ştatlarının, Yaxın və Orta Şərq dövlətlərinin, Birləşmiş Millətlər təşkilatının diplomatik nümayəndəlikləri fəaliyyət göstərir. Azərbaycan respublikasının Səfirlikləri Pakistanda, Türkiyədə, İranda, Almaniyada, Amerika Birləşmiş Ştatlarında, İngiltərədə, Fransada, Çində, Səudiyyə ərəbistanda və digər dövlətlərdə təsis edilmişdir və bu iş davam edir.

1992-ci ilin martından Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının tam hüquqlu üzvlüyünə qəbul edilmiş və BMT-də Azərbaycan nümayəndəliyi açılmışdır. Elə həmin ildən respublika Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinə (indi ATƏT adlanır), İslam konfransı təşkilatına, İqtisadi Əməkdaşlıq Təşkilatına, Beynəlxalq İnkişaf və Yenidənqurma Bankına, İslam İnkişaf Bankına, 1994-cü ilin yazında NATO-nun Sülh məramlı təşkilatına və bir sıra beynəlxalq təşkilatlara qəbul edilmişdir. 1991-1992-ci illərə nisbətən 1993-cü ilin II yarısından, 1994-cü ildən bu əlaqələr daha yüksələn xətt üzrə inkişaf edir.

1988-ci ildən Azərbaycanın zorla «Qarabağ» məsələsi ilə əlaqədar olaraq münaqişəyə və sonra müharibəyə Ermənistan tərəfdən cəlb edilməsi bizim respublikanın bir sıra çətinliklər qarşısında qoymuşdur. Bu çətinliyində ən başlıcası Azərbaycanın müstəqil diplomatik əlaqələrinin olmaması idi. Bu zəruriyyətlə əlaqədar Azərbaycan diplomatiyası həm kövrək addımlarını atdı, həm də bu sahədə müəyyən işlər görməklə özünün kamilliyinə səy etdi. Müəllim şagirdlərə bu deyilənlərlə yanaşı Azərbaycan diplomatiyasının Qarabağ məsələsi ilə əlaqədar gördüyü işlərin qısa xronikasını verərək göstərməlidir ki, diplomatik əlaqələr vasitəsilə Azərbaycan diplomatları Qarabağ torpaqlarının Azərbaycanın bölünməz hissəsi olmasının həllini, Ermənistandan 1988-ci ildə qovulmuş soydaşlarımızın vəziyyətini, 1991-93-cü illərdə Azərbaycanın işğal olunmuş Laçın, Kəlbəcər, Zəngilan, Qubadlı, Füzuli, Cəbrayıl, Ağdam, Şuşa və s. rayonların geri qaytarılmasını, Vətəndə qaçqın vəziyyətində olan bir milyondan artıq azərbaycanlıların yerləşdirilməsini, onlara humanitar yardımların verilməsini, cəbhədə atəşin kəsilməsini və sülh bağlanmasını və s. işlərlə əlaqədar olaraq dünya dövlətlərilə, Birləşmiş Millətlər Təşkilatı və onun ATƏT, Minsk qruplarının işə cəlb edilməsinə çalışmışlar.



1994-cü ildə Azərbaycan diplomatiyası Azərbaycanın ümummilli lideri H.Əliyevin prezidentliyi dövründə apardığı müstəqil xarici siyasəti nəticəsində daha da inkişaf etmişdir. Onun Fransaya, İngiltərəyə, Çinə, Rusiyaya, İrana Türkiyəyə, Səudiyyə Ərəbistanına, Misirə, Amerika Birləşmiş Ştatlarına və s. ölkələrə dövlət əhəmiyyətli səfərləri müstəqil Azərbaycan diplomatiyasının inkişafı deməkdir.

Bu diplomatik əlaqələr nəticəsində müstəqil Azərbaycanın ərazisinin bütövlüyü və toxunulmazlığı təsdiq edildi, müsəlman dünyasında nüfuzu artdı. Bütün bunların nəticəsində Qarabağ müharibəsinin dayandırılmasına zəmin yarandı, iqtisadiyyatın inkişafı üçün bir sıra müqavilələr, kontraktlar bağlanıldı və s.

Müəllim Azərbaycanın müstəqil diplomatiyasının yeridilməsini və onun əhəmiyyətini göstərərək xüsusi vurğulamalıdır ki, Azərbaycanın müstəqilliyinin elan edilməsindən bəri Azərbaycanla iri Qərb dövlətləri arasında Xəzər dənizində neft yataqlarının birgə işlənməsi barədə üç ildən artıq davam edən danışıqların nəticəsi əsasında 1994-cü ilin sentyabr ayının 20-də Bakı şəhərində təntənəli şəraitdə 30 illik müqavilə bağlanmışdır. Bu müqavilə əsasən iqtisadiyyatımızın yüksəldilməsi üçün (34

milyard dollar gəlir nəzərdə tutulur) nəzərdə tutulsa da bunun siyasi əhəmiyyəti vardır.

«Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunu barəsində» Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1994-ci il tarixli fərmanında göstərilmişdir: «Əldə edilən mənfəət Azərbaycan iqtisadiyyatının bir çox sahələrində yüksək texnologiyalara keçilməsini təmin edəcək, o cümlədən infrastrukturunun yeniləşdirilməsinə imkan verəcəkdir. İri neft şirkətlərinin Azərbaycan Respublikasında uğurlu işi xaricdə dövlətimizə etimadı möhkəmləndirəcək və şübhəsiz ki, yeni xarici investisiyaların cəlb edilməsinə zəmin yaradacaqdır»[3]. Nəticə etibarı ilə Azərbaycan diplomatiyasının belə nailiyyətlər qazanması müstəqilliyimizin bariz nümunəsidir.

Müqavilənin bağlanması mərasimində Azərbaycanın ümummilli lideri cənab Heydər Əliyev böyük iftixarla göstərdi ki, ... «Neft müqaviləsinin Bakıda imzalanması müstəqilliyimizi bir daha sübut edir» (Azərb. Qəz. 22.09.84).

Ümumiyyətlə, tarix, xüsusilə Azərbaycan tarixi dərslərində diplomatiyanın, diplomatların fəaliyyətinin öyrənilməsi və bu sahə üzrə məsələlərin təhlili şagirdlərin vətənpərvərliyi, ictimai fəallığı üçün ən yaxşı vasitədir. Bu məsələ müəllimlərin həmişə diqqət mərkəzində olmalıdır.

Azərbaycan Respublikası hazırda iqtisadi-siyasi yüksəlişdədir. Dövlət, dövlət başçısı cənab İlham Əliyev müstəqil dövlətin inkişafında tarazlaşdırılmış siyasət yeridir. Bir çox dövlətlərlə bərabər çıxış edir. Dövlətin tarazlaşdırılmış siyasəti Azərbaycan diplomatiyasında özünə yer tapmışdır. (Əsərdə 5-ci fəslin 8-ci paraqrafda verilmişdir).

[3] Bax: «Azərbaycan» qəz., 20.09.1994.



# V FƏSİL

# DÖVLƏT MÜSTƏQİLLİK DÖVRÜNÜN İQTİSADİ İNKİŞAF YOLLARI

## 5.1. Müstəqillik dövrün ilk əvvəlarində Azərbaycanın iqtisadiyyatına bir baxış

1991-ci ildən başlayaraq bu dövr Azərbaycanın həyatında xüsusi əhəmiyyətli və yeri olan ən əlamətdar yeni tarixi zamandır, Azərbaycan xalqının milli dövlət müstəqilliyi əldə etdiyi ildir. Müstəqilliklə bərqərar olunan yeni ictimai-siyasi sistemin doğurduğu əlverişli mühit Azərbaycanın həyatının bütün sahələrində olduğu kimi,onun iqtisadi tərəqqisi üçün də çox möhkəm və təminatlı zəmin yaratdı. Lakin qazanılmış müstəqilliyin ilk dövrlərində bu imkanlardan tələb olunan səviyyədə istifadə etmək mümkün olmadı. Çünki Sovetlər İttifaqı gözlənilmədən birdən-birə çox sürətlə parçalandı və bu zaman respublikada azadlıq uğrunda hərəkat xeyli güclü şəkildə cərəyan etməkdə idi. Belə bir şərait də suveren dövlətin nə aydın, ardıcıl inkişaf strategiyasına malik mütəşəkkil ümumi milli təşkilatı qüvvəsi var idi, nə də müstəqil ölkə kimi hadisələrin gedişi prosesində dərhal onun necə idarə olunması məsələlərini müəyyən etmək barədə düşünməyə vaxt və imkan yox idi. 1) Bir tərəfdən də Azərbaycan Dağlıq Qarabağ problemi ilə məşğul idi. Respublikada müharibə gedirdi. 2) Tarix müəllimi mövcud ədəbiyyata istinadən göstərməlidir ki, müstəqilliyin ilk əvvəllərində siyasi dəyişiklik nəticəsində Azərbaycanda iqtisadi durğunluq yarandı. Nəticədə ölkənin əldə etdiyi müstəqilliyin ilk dövrlərində baş verən hakimiyyət böhranından və onun doğurduğu qarmaqarışıqlıq mühitindən istifadə edən müxtəlif qüvvələrin çox səriştəsiz və məsuliyyətsiz nümayəndələri gənc dövlətin ali idarəetmə orqanlarını müxtəlif yollarla ələ keçirdilər. Respublikanın iqtisadiyyatının yeni şəraitin tələblərinə

uyğun olaraq istiqamətləndirilməsində verilən göstərdikləri bacarıqsızlıq nəticəsində bütün təsərrüfat sahələrinin təşkilində tənəzzülə uğrama meyli tapdı. Hakimiyyətdə olanların bir qismi isə cürbəcür yollarla, hətta ölkənin var-dövlətini, yaranmış çox güclü istehsal potensialını müxtəlif vasitələrlə açıq-aydın talan etməklə bir müddət respublikada sanki ümumi soyğunçuluq mühiti və əhval-ruhiyyəsi yaradaraq, onun iqtisadiyyatında başlanan böhranın daha da dərinləşməsinin sürətləndirilməsinə imkan verdi. Bundan başqa onilliklərlə keçmiş Sovetlər İttifaqının bütün respublikalarının hər biri kimi qarşılıqlı geniş iqtisadi əməkdaşlığa əsaslanan Azərbaycan iqtisadiyyatı da tədricən bu əlaqələrin pozulması böhranın getdikcə güclənməsinin həlledici amillərindən birinə çevrildi. Nəticədə Azərbaycan uzun illərdən bəri özünün çox mühüm istehsal sahələrinin inkişafı üçün keçmiş SSRİ-nin müxtəlif regionlarında yaranmış etibarlı xammal bazalarını və hasil etdiyi məhsullarının satış bazarlarının tamamilə və ya qismən itirmiş oldu. Nəticədə, bir tərəfdən, bir çox mühüm sənaye sahələrində istehsalın həcmi xeyli azaldı, digər tərəfdən isə iqtisadiyyatı yüksək səviyyədə inkişaf etmiş qabaqcıl dünya ölkələrinə nisbətən rəqabətə davam gətirməyən məhsulların uzaq xarici ölkələrin bazarlarına çıxarılması imkanları da xeyli məhdud idi. Və Azərbaycan iqtisadiyyatının bütün sahələrinin tənəzzül etməsi meyli ildən-ilə gücləndi.

Ölkə iqtisadiyyatının inkişafında mənfi meyillərin meydana gəlməsinin ən təsirli amillərindən biri də Qarabağ münaqişəsi əsasında Azərbaycanın çox ağır müharibəyə cəlb edilməsidir. Xarici havadarlarının böyük iqtisadi və hərbi köməkliyinə arxalanan Ermənistanın Azərbaycana qarşı apardığı böyük miqyaslı işğalçı müharibəsi ölkənin təsərrüfat sistemini, onun daxili istehsal əlaqələrini xeyli pozaraq, bir çox sahələrdə yaranmış potensialın demək olar ki, tam məhv olmasına səbəb oldu.

Azərbaycanın zorla cəlb edildiyi müharibənin vurduğu yaralar çox ağırdır. Respublika küllü miqdarda maddi nemətlər istehsal edəbiləcək iqtisadi potensialın xeyli hissəsini Ermənistanın təcavüzü nəticəsində işğal edilmiş ərazilər hesabına olaraq itirmişdir. Bu ərazi-



lərdə yüzlərlə sənaye, tikinti, nəqliyyat obyektləri, kənd təsərrüfatına yararlı torpaqların 14,8 faizi, o cümlədən əkin yerlərini 13 faizi, üzümçülük və meyvə bağlarının 21 faizi, qış və yay otlaqlarının 15 faizi, biçənəklərin 15,7 faizi bu gün respublika iqtisadiyyatı üçün işləmir. Bundan başqa respublikadakı iqtisadi əlaqələrin pozulması nəticəsində ölkənin bir çox bölgələrində xeyli miqdar təsərrüfat sahələrində istehsalın ahəngi pozulmuş, məhsul hasilatı ya tamam dayanmış, ya da görünməmiş səviyyədə aşağı düşmüşdür. Məsələn, Azərbaycanın əksər rayonları Ermənistan tərəfindən müvəqqəti işğal edilmiş ərazilərdə yerləşən yay və qış otlaqlarından, biçənəklərdən məhrum olması nəticəsində respublikada heyvandarlığın inkişafına ağır zərbələr vurulmuşdur.

Ermənistanın müvəqqəti işğalı altında olan ərazilər vaxtilə respublika iqtisadiyyatında, xüsusən onun bir sıra aparıcı sahələrinin inkişafında çox əhəmiyyətli rol oynamışdı. Burada yaşayan yüz minlərlə yerli əhali mövcud istehsal potensialı əsasında nəinki öz tələbatlarının mühüm hissəsini ödəyirdilər, həm də respublikanın ümumi məhsul fonduna böyük həcmdə pay da verirdilər. Bu insanlar indi demək olar ki, heç bir maddi nemət istehsal etməyən istehlakçıya çevrilmişdir. Bundan başqa Ermənistanın başladığı müharibə nəticəsində uzun müddətdir ki, mühasirə şəraitində olan Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı əsaslı dərəcədə öz əvvəlki istehsal imkanlarını itirmiş, burada bir sıra mühüm təsərrüfat sahələrində məhsul buraxılmasının həcmi demək olar ki, yox dərəcəsinə enmişdir. Halbuki, Ermənistanın işğal etdiyi ərazilər və mühasirə şəraitində olan Naxçıvan Muxtar Respublikasının istehsal fəaliyyəti vaxtilə Azərbaycan iqtisadiyyatında nə qədər əhəmiyyətli rol oynadığını aşağıdakı faktlardan görmək olar. Güclü istehsal potensialına malik olduqlarına görə 1985-ci ildə respublika xalq təsərrüfatının inkişafına yönəldilən kapital qoyuluşunun 10 faizə qədəri bu bölgələrin payına düşmüşdür,sənaye müəssisələri respublikada hasil edilən ümumi sənaye məhsulunun 7 faizə qədərini vermiş, kənd təsərrüfatının məhsul istehsalında payı 17 faizə bərabər olmuşdur. Həmin ilin məlumatına görə onlar respublikada hasil edilən bəzi ma-

şınqayırma məhsullarının xeyli miqdarda, hər cür tikinti materiallarının mühüm hissəsini, pambıq mahlıcının 9 faizini, ipək xammalının 49 faizini, xam ipək parçanın 40 faizdən çoxunu, trikotaj məmulatlarının 33 faizini, ayaqqabının 20 faizini, konservlərin 7 faizini, mineral suların 100 faizini, taxılın 15 faizini, tütünün 13 faizini, üzümün 33 faizini, ət və süd məhsullarının hər biri üzrə 22 faizini və s. vermişdir. Bütün bu rəqəmin bilavasitə müharibə şəraitində məruz qalmış bölgələrin respublika iqtisadiyyatı üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyi barədə şübhəsiz ki, əlavə izahatına ehtiyac yoxdur.

Azərbaycan iqtisadiyyatının kəskin böhrana məruz qalması nəticəsində onun ümumi inkişaf səviyyəsi az müddət içərisində əvvəlki illərə nisbətən xeyli aşağı düşdü. Məsələn, 1995-ci ildə onun ümumi məhsulunun həcmi 1990-cı il səviyyəsinin 48 faizini, o cümlədən mühüm sənaye məhsulları istehsalının isə 30 faizini təşkil etmişdir. Maşınqayırma kompleksində bu indeks 38 faizə, kimya sənaye kompleksində 23 faiza, tikinti materialları sənayesində 44 faizə, metallurgiya kompleksində 8 faizə yüngül sənayedə 57 faizə, aqrar-sənaye komplsksinə daxil olan emal sənaye sahələrində 36 faizə bərabər olmuşdur. Kənd təsərrüfatında da ağır böhran vəziyyəti hökm sürür. Onun bütün kateqoriyalar üzrə ümumi məhsulunun həcmi 1995-ci ildə 1990-cı il səviyyəsinin 54 faizinə enmişdir. Eyni vəziyyət tikinti, nəqliyyat və maddi istehsalın bütün başqa sahələri üçün də səciyyəvi olmunşur. Bu dövrdə xalq təsərrüfatının əsas sahələrinin texniki-iqtisadi və iqtisadi səmərəlilik göstəriciləri xeyli pisləşmişdir. İqtisadiyyatda baş verən geriliyin ən təhlükəli tərəfi ondan ibarətdir ki, bu böhran nəticəsində ən mühüm sənaye və kənd təsərrüfat məhsulları istehsalının bir çox hallarda on dəfələrlə azalmasına səbəb olmuşdur. Təkcə son 5 ildə (1990-1995-ci illər) respublikada elektrik enerjisi istehsalı 1,3 dəfə azalaraq 17,0 milyard kilovat saata dəmir filizi istehsalı 334 dəfə azalaraq 1,5 min tona, polad borular istehsalı 49 dəfə azalaraq 10 min tona, mancanaq dəzgahlar istehsalı 87 dəfə azalaraq 60 ədədə, dərinlik nasosları istehsalı 658 dəfə azalaraq 800 ədədə, güc transformatorlar istehsalı 36 dəfə azalaraq 54 min kilovata, quraşdırma dəmir-beton konstruksiyalar və məmulatlar istehsalı 14 dəfə azalaraq 90 min kubmetrə, mineral gübrələr istehsalı 112 dəfə azalaraq 1,9 min tona, susuz sulfat turşusu istehsalı 25 dəfə azalaraq 24 min tona, sulfanol istehsalı 453 dəfə azalaraq 300 tona, 1990-cı ildə 34 milyon kvadratmetr olan ipək parça istehsalı tamam dayanmış, xalça və xalça məmulatları istehsalı 29 dəfə azalaraq 77 min kvadratmetrə, konservlər istehsalı 8 dəfə azalaraq 82 milyon şərti bankaya, qənnadı məmulatı istehsalı 100 dəfədən çox azalaraq 10 min tona, mineral sular istehsalı 160 dəfədən çox azalaraq 1,0 milyon yarım litrə, daş duz istehsalı 25 dəfə azalaraq 4 min tona enmişdir və ilaxır.



İqtisadi böhran respublikanın bütün bölkələrində də təsərrüfatı iflic vəziyyətinə salmışdır. Ölkənin əsas iqtisadi mərkəzi olan Bakıda sənayenin ümumi məhsulunun həcmi 1995-ci ildə 1990-cı il səviyyəsinin ancaq 52%-ni, Naxçıvan Muxtar Respublikasında 9%ni, Gəncə şəhərində 17%-ni, Sumqayıt şəhərində 10%-ni, Mingəçevir şəhərində 42%-ni, Əli-Bayramlı şəhərində 59%-ni, Yevlax şəhərində 19%-ni, Lənkəran şəhərində 13%-ni, Şəki şəhərində 11%-ni təşkil etmişdir.

Bütün sahələrdə istehsalın həcminin xeyli aşağı düşməsi respublikanın xarici iqtisadi əlaqələrinin mənfi saldosunun yaranmasına, onun maliyyə vəziyytinin xeyli pisləşməsinə, inflyasiyanın hədsiz dərəcədə güclənməsinə, əhalinin həyat səviyyəsinin xeyli aşağı düşməsinə, ökədə böyük miqdarda işsizlər ordusunun yaranmasına səbəb oldu. 1990-1995-ci illərdə maddi istehsalın aparıcı sahələri olan sənayedə kənd təsərrüfatında, tikintidə, nəqliyyat və rabitə sahələrində işləyənlərin miqdarı 1,6 dəfədən çox, yəni 500 min nəfərdən çox azalmışdır.1994-cü ildə iqtisadiyyatda məşğul olmayan əmək qabiliyyətli yaşda olan əhalinin sayı 1150 min nəfər olmuşdur.

Azərbaycanda iqtisadi böhranın kəskinləşaməsinin başlıca səbəblərindən biri də müstəqillik əldə etdikdən sonra uzun müddət ölkənin ictimai-siyasi həyatının bir çox istiqamətlərdə olduqca mürəkkəb proseslərin cərəyan etməsi, dövlət çevrilişli və təxribat xarakterli hadisələrin baş verməsi olmuşdur. 1993-cü ilin ortalarından başlayaraq respublika prezidenti Heydər Əliyevin cəmiyyət həyatının bü-

tün sferalarının normal vəziyyətə gətirilməsi sahəsində apardığı müdrik, ardıcıl və qəti tədbirlər nəticəsində artıq ölkənin ictimai-siyasi həyatında sabitlik yaranmış və onun inkişafında müsbət meyllər meydana gəlmişdir. İndi azad Azərbaycan Respublikası tərəqqi yollarını müəyyən etmək və gerçəkləşdirmək üçün imkanlar əldə etmişdir.

## 5.2. Demokratiya şəraitində iqtisadiyyatın yenidən qurulması

Müəllim Azərbaycanın müstəqilliyinin bərpasının ilk əvvəlləri verilən proqnozları mövcud ədəbiyyatdan istifadə etməklə göstərməlidir ki, Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra birinci növbədə özünün milli iqtisadiyyatını hansı sosial iqtisadi sistemdə inkişaf etdirmək məsələsi qarşıya qoymuşdur. Dağılmış Sovet İttifaqının bütün keçmiş respublikalarında olduğu kimi Azərbaycan xalqı da heç bir tərəddüd etmədən bazar münasibətlərin sistemi şəraitində inkişaf etmək yolunu seçdi. Çünki heç kim şübhə etmirdi ki, məhsuldar qüvvələrin hər tərəfli və ahəngdar yüksəlişində qabaqcıl dünya ölkələri təcrübəsində ən mütərəqqi iqtisadi sistem kimi təsbit olunmuş bazar münasibətləri Azərbaycanın da böyük tərəqqiyə çatmasında yeganə mümkün olan etibarlı inkişaf yoludur. Məhz bu sistem mühitində Azərbaycan həm də iqtisadiyyatının məruz qaldığı indiki kəskin böhran vəziyyətindən tezliklə çıxmaq imkanı əldə edə bilər.

Şübhəsiz ki, əgər söhbət təkcə ölkənin dağılmış əvvəlki güclü istehsal potensialının sadəcə olaraq bərpasından və ya hətta onun bir çox sahələrinin müasir texnika və texnologiyanın tələbləri səviyyəsində yenidən qurulmasından getmiş olsa idi, onda iqtisadiyyatın qarşıdakı inkişafı vəzifələrinin həlli bəlkə də bir o qədər ciddi çətinliklərlə qarşılaşmazdı. Ancaq respublika iqtisadiyyatının gələcək taleyini dövlətin başlıca strateji məqsədlərinin irəli sürdüyü yeni vəzifələr mövqeyindən baxıldıqda qarşıda onların həlli prosesinin daha mürəkkəb olduğu aydın görünər. Məsələnin mürəkkəbliyi ondan



ibarətdir ki, Azərbaycan vahid mərkəzdən və inzibati amirlik yolu ilə tənzim olunan sərt planlı təsərrüfat sistemindən, bəlkə də bərabərçilikdən, mülkiyyət üzərinə mövcud olan dövlət inhisarından, qapalı iqtisadiyyata əsaslanan idarəetmə üsullarından azad olmalıdır. Əvəzində isə əvvəlki sistemə zidd olaraq müxtəlif mülkiyyət formalarına, azad sahibkarlığa, təşəbbüsə və rəqabətə, sərbəst qiymətlər bazarına, istehsalın inkişafının başlıca meyarı olan tələb və təklif mühitinə əsaslanan yeni sistemin əsaslarını yaratmalıdır.

Digər tərəfdən isə bu gün ölkənin dağılmış və dərin böhran keçirən iqtisadiyyatını dirçəldilmək və ölkə iqtisadiyyatının bir sıra önəmli istiqamətlərinin yenidən qiymətləndirilməsi tələb olunur. Bu isə köklü makroiqtisadi dəyişikliklər aparılmaqla həyata keçirilə bilər. Məlumdur ki, uzun müddət çar Rusiyasının, sonra isə Sovet İttifaqının tərkibində asılı əyalət kimi Azərbaycan heç zaman özünün milli mənafelərinə uyğun gələn iqtisadiyyata malik olmamışdır. Halbuki, öz istiqlalını qazanmış hər bir dövlət kimi indi Azərbaycanın da müstəqilliyi möhkəm zəmin üzərində qurulan çox güclü iqtisadi potensiala əsaslanmalıdır. Keçmişdən miras qalmış iqtisadiyyat isə öz inkişaf istiqamətlərinə və yerinə yetirdiyi istehsal funksiyalarına görə Azərbaycanın qarşısında duran yeni vəzifələrə və inkişaf meyllərinə heç də tam cavab vermir.

Bütün bu çətinliklər müqabilində Azərbaycanın gələcək tərəqqisini təmin etmək yolunda diqqətəlayiq cəhət ondan ibarətdir ki, ölkənin çox zəngin təbii sərvətləri, əvvəlki nəsillərin qurduğu güclü istehsal imkanları, təşəkkül tapmış samballı elmi və zehni potensial Respublika iqtisadiyyatının yeni inkişaf tələblərinə uyğun dirçəliş prosesini sürətləndirmək üçün çox etibarlı və möhkəm zəmin yaradır. Bu imkanlardan istifadə edərkən ölkənin qarşısında duran önəmli vəzifələrlə onun imkanları düzgün əlaqələndirilməli və geniş təkrar istehsal prosesi yeni əsaslar üzərində həyata keçirilməlidir. Bu zaman iqtisadiyyatın miqyası əvvəlki dar istehsal məqsədləri çərçivəsindən xeyli kənara çıxmalıdır. Azərbaycan zəngin sərvətlərindən istifadə etməklə beynəlxalq əmək bölgüsünün yaratdığı böyük üstünlüklərdən bəhrələnərək dünya təsərrüfat sisteminə geniş miqyas-

da qoşulmaq istiqamətində öz istehsalını qurmalıdır. Azərbaycan ərazicə nisbətən kiçik ölkə olsa da, bazar münasibətlərinin əlverişli mühitində burada iqtisadiyyatın yerinə yetirəcəyi geniş istehsal funksiyalarının əhatəliliyinə görə dünyanın inkişaf etmiş böyük dövlətlərinə xas olan bütün başlıca əlamətlərini əks etdirən səviyyəyə qədər yüksələ bilər.

Öz üstünlüklərini tezliklə gerçəkləşdirilməsi üçün Azərbaycan özünün azad bazar münasibətlərinə keçid yollarını düzgün müəyyən etməklə düşünülmüş, ölçülüb-biçilmiş üsullarla bu istiqamətdə ardıcıl fəaliyyət göstərmişdir.

Bunun əsasında ümummilli lider Heydər Əliyevin iqtisadi strategiyası durdu. Müstəqil dövlətin qanununu, Milli Məclis yaratdı. Torpaq islahatı, özəlləşmə, bazar iqtisadiyyatı və s. üzrə hüquqi baza yaradıldı.

1995-ci ilin noyabrın 12-də müstəqil ölkənin ilk Konstitusiyasının ümumxalq referendumu yolu ilə qəbul edilməsi və seçki yolu ilə Azərbaycanın Milli Məclisinə millət vəkillərinin seçilməsi nəticəsində yaranan əlverişli ictimai-siyasi zəmin əsasında ölkənin miqyaslı sosial-iqtisadi inkişafına nail olunmasına təminat verilmişdir. Azərbaycanın gələcək yolu demokratik və hüquqi dövlət yaratmaqla, iqtisadi inkişaf sahəsində bazar münasibətlərinə əsaslanan təsərrüfat sisteminin bərqərar edilməsi və onu dünya təsərrüfatına qovuşdurmaqda görürdü.

Respublikada bazar iqtisadi münasibətlərinə keçidi təmin etmək üçün bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Milli Məclis tərəfindən özəlləşdirmə barədə qanun, "Azərbaycan Respublikasının 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin dövlət proqramı", aqrar islahatlar haqqında bir neçə əsas qanunlar və digər mühüm sənədlər qəbul edilmişdir. Qeyd etmək lazımdır ki, axır illərdə ardıcıl olaraq iqtisadiyyatda yeni təsərrüfat formalarının va bazar iqtisadiyyatının çox mühüm ünsürlərinin yaradılması istiqamətində fəaliyyətə başlamışdır. İndi respublikada çoxlu özəl kiçik müəssisələr, kooperativlər, müştərək müəssisələr, kəndli (fermer) təsərrüfatları, birjalar yaradılmışdır və keçid dövrünün çətinliklərinə



baxmayaraq onların əksəri öz fəaliyyətlərində artıq ümidverici nəticələr göstərirlər. Yaranmış zəmin əsasında 1996-cı ildə Azərbaycanda islahatların geniş miqyasda həyata keçirilməsinə başlanmışdır. Əlbəttə, bazar iqtisadiyyatına keçidin bu mühüm mərhələsində yeni ictimai-siyasi və sosial-iqtisadi münasibətlərin bərqərar olmasının strateji xəttinin hərtərəfli düşünülmüş şəkildə yeridilməsi yüksək dərəcədə məsuliyyətli və çətin işdir. Burada ilk növbədə dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsində sınaqdan çıxmış bazar təsərrüfat sisteminin hamılıqla artıq qəbul olunmuş ümumi tələb və prinsiplərini əsas götürərək, onların Azərbaycan gerçəkliyindən irəli gələn real şəraitlə düzgün əlaqələndirilməsi çox vacibdir. Bu cəhətdən xalqın psixologiyası, onun yeni şəraitə uyğun cərəyan edəcək təfəkkür meylinin xarakteri və nəticələri, məhsuldar qüvvələrin nail olunmuş inkişaf səviyyəsinin yaratdığı real imkanlar, respublikanın çoxsaylı təbii zənginliklərinin istifadəsinin düzgün əlaqələndirilməsinin və sairə proseslərin düzgün qiymətləndirilməsinin müstəsna əhmiyyəti vardır. Qabaqcıl ölkələrdə etdikləri tarixi təcrübəyə və öz reallıqlarımıza əsaslanaraq Azərbaycanda böyük dəyişikliklər yolunda aparılan islahatları, yeni təsərrüfat sisteminə keçid tədbirləri ardıcıl, mərhələlər üzrə və qarşılıqlı əlaqəliliyi pozmadan həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Bazar iqtisadi münasibətlərinin bərqərar olmasının ən mühüm əsaslarından biri mülkiyyət çox növlülüyün təmin edilməsidir və bu məqsədlə ilk növbədə özəlləşdirmənin aparılması və mülkiyyətin bütün formalarının inkişafı üçün onların hamısına eyni şəraitin yaradılması tələb olunur. Eyni zamanda bunun əsasında bazar təsərrüfat sistemi üçün çox zəruri şərtlərdən olan sahibkarlığın inkişafı və sərbəst rəqabət mühitinin təşəkkülünə lazımi şərait və imkan yaradılmasıdır. Bu məqsədlə ölkədə müxtəlif həcmli və təyinatlı müəssisələrin mərhələlər üzrə (kiçik və orta müəssisələrdən başlamaqla) özəlləşdirilməsi prosesinə başlanmışdır. 1996-cı ilin iyul ayının 16-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmiş "Torpaq islahatı haqqında" Qanun ümummilli lider H.Əliyevin prezidentliyi dövründə imzalandı Həmin qanuna görə respublikanın

torpaqları üzərində indiyədək dövlətin mövcud olan müstəsna mülkiyyət hüququna son qoyularaq onların xeyli hissəsi özəlləşdirilməklə, dövlət, xüsusi və bələdiyyə mülkiyyətçiləri arasında bölüşdürülür. İlkin hesablamalara görə respublikanın malik olduğu torpağın əsas mülkiyyətçisi dövlət olacaqdır. Mövcud ədəbiyyata istinadən göstəririk ki, ölkənin 8 milyon 641 min hektar ümumi ərazisinin 3 milyon 864 min hektarı və ya 45 faizi dövlətin mülkiyyətində olacaqdır, Dövlət mülkiyyətinə hakimiyyət orqanlarının, başqa obyektləri və müəssisələrinin, meşə sahələrinin, su təsərrüfatı fondlarının, yay və qış otlaqlarının tutduqları torpaqlar daxildir. Bu torpaq sahələri qanunda nəzərdə tutulmuş qaydada icarəyə verilə bilər. Sonrakı yerdə duran bələdiyyə mülkiyyəti respublika torpaqlarının ümumi sahəsinin 33 faizinə malik olmaqla 2 milyon 866 min hektar torpaq fondunun sahibi olacaqdır. Pulsuz torpaq almaq hüququ olan 3,8 milyon nəfər respublika torpaqlarının 1 milyon 911 min hektar və ya onların ümumi sahəsinin 22 faizinə qədərinin xüsusi mülkiyyətçisi olacaqdır. Ərazinin müxtəlif hissələrində kənd təsərrüfatına yararlı torpaq fondunun miqdarca xeyli müxtəlifliyi nəticəsində xüsusi mülkiyyətçilərə düşən torpaq sahələri inzibati rayonlar üzrə 0,7 hektarla 1,93 hektar arasında tərəddüd edəcəkdir. Damazlıq, təsərrüfatlararası iri heyvandarlıq kompleksləri və digər ümumi dövlət əhəmiyyəti kəsb edən müəssisələrdən başqa respublikada olan bütün heyvan növləri xüsusi mülkiyyətə veriləcəkdir.

Bazar iqtisadi münasibətlərinin inkişafınım uğurları ona keçidin ilk mərhələlərindən dərhal ölkənin maliyyə-kredit və vergi sistemlərinin yeni mühitin tələblərinə uyğun səviyyədə qurulmasına başlamağı tələb edir. Azərbaycan iqtisadiyyatının yaranmış kəskin böhran vəziyyətini, maliyyə imkanlarının indiki məhdudluğu şəraitində respublikanın dövlət müstəqilliyinin möhkəmləndirilməsinin və qorunmasının ali məqsədlərini nəzərə almaqla ölkənin məhsuldar qüvvələrinin hərtərəfli inkişafı üçün xarici investisiyaların cəlb olunmasına geniş şərait yaradılmalıdır. Bununla belə, bütün hallarda ən əvvəl Azərbaycanın öz işgüzar adamlarının bu sahədəki fəaliyyətlərinə üstünlük verilməsi əsas götürülməli və bunun üçün zəruri



güzəştli tədbirlər nəzərdə tutulmalıdır. Azərbaycanın dünya birliyinin iqtisadi məkanında öz layiq olduğu yeri tutmalı və onun başqa ölkələrlə bütün istiqamətlərdə geniş inteqrasiyası həyata keçməlidir. Bu istiqamətdə ölkənin geniş fəaliyyətinin təmin olunması üçün onun mənafeini nəzərdə tutan əlverişli xarici iqtisadi əlaqələr strategiyasının yaradılmasına xüsusi diqqət verilməsini tələb edir. Bunun üçün ilk növbədə respublika iqtisadiyyatının imkanlarına görə elə səmərəli quruluşunu yaratmaq lazımdır ki, bunun nəticəsində həyata keçirilən ixrac əməliyyatından ölkəyə çoxlu valyuta daxil olsun və bir sıra rəqabətə davamlı mühüm məhsullar üzrə o, dünya bazarında özünün möhkəm və sabit mövqeyini əldə edə bilsin. Azərbaycan ərazicə kiçik ölkə olsa da, o, dünyanın o dövlətləri sırasında durur ki, yerli istehsal hesabına çox məhsullarla az daxili tələbatını daha əhatəli ödəmək imkanlarına malikdir. Buna görə də Azərbaycanın bu böyük üstünlüyündən ölkə iqqisadiyyatının müvafiq sahələrinin səmərəli əsasda inkişafı üçün istifadə etməklə, onun başqa dövlətlərlə idxal əlaqələrində respublikanın dünya bazarından asılılığını xeyli azalda bilər. Bazar təsərrüfatı münasibətləri şəraitində, xüsusən bu sistemə keçid mərhələsində iqtisadiyyatın tənzimlənməsində və idarə olunmasında, onun bazar infrastrukturasının inkişafı və islahatların sosial problemlərinin həllində dövlətin rolu və funksiyalarının müəyyən edilməsi nəzərdə tutulan tədbirlərin uğurla gedişində həlledici əhəmiyyətə malik olan amillərdən biridir. Buna görə də bu köklü dəyişikliklər prosesində dövlətin tənzimləyici fəaliyyətini istiqamətləndirməyin aydın proqramı olmalıdır.

Azərbaycanda bazar iqtisadi mühitinin yaranması strategiyasının gerçəkləşdirilməsi ilə respublika iqtisadiyyatının müstəqil ölkənin tələblərinə uyğun olaraq inkişaf istiqamətlərinin və zəruri quruluş dəyişikliklərinin aparılması vəzifəsi eyni vaxtda qarşılıqlı uzlaşdırma əsasında həyata keçirilməlidir. Ancaq bu şərtlə Azərbaycanın hərtərəfli inkişaf etmiş səmərəli iqtisadiyyatını yaratmaq mümkün ola bilər.

Artıq ölkədə aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində 90-cı illərin əvvəllərində iqtisadiyyatda xroniki xarakter almış

geriləmə prosesinin qarşısı alınmış, Azərbaycanın iqtisadi inkişafında yeni mərhələnin təməli qoyulmuşdur. Əldə olunmuş makroiqtisadi sabitlik, sənayedə və digər sahələrdə iqtisadi göstəricilərin artması Azərbaycanın bazar iqtisadiyyatı istiqamətində inamla irəlilədiyini təsdiq edir.

1997-ci ilin yekunları Azərbaycanın sosial-iqtisadi inkişafında pozitiv meyllərin ildən-ilə möhkəmləndiyini sübut edir. Belə ki, ölkədə 1996-cı ildə ümumi daxili məhsul istehsalı 1,3 faiz artdığı halda 1997-ci ildə bu artım 5,8 faiz təşkil etmişdir. Sənaye istehsalında 1997-ci ilin əvvəllərindən yaranmış sabitlik ilin sonunadək davam etmişdir və il ərzində azca da olsa /0,3/ əldə edilən artım bu sahədə irəliləyiş olduğunu sübut edir. 1997-ci ildə ən mühüm 26 sənaye məhsulu növlərinin 19 növü üzrə artım müşahidə edilmişdir.

1997-ci il ölkənin kənd təsərrüfatı üçün köklü sosial-iqtisadi dəyişikliklər ili olmuşdur. Həyata keçirilən islahatlar nəticəsində 1997-ci ildə kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə irəliləyiş əldə edilmişdir. Belə ki, taxıl /109,8 faiz/, kartof /104,1 faiz/, meyvə /102,8 faiz/, tütün /121,6 faiz/, bostan məhsulları /109,7 faiz/ istehsalında xeyli artım olmuşdur.

1997-ci ildə infrastruktur sahələrində də iqtisadi fəallıq artmışdır. İqtisadiyyatda investisiya qoyuluşu xeyli çoxalmışdır. 1996-cı illə müqayisədə kapital qoyuluşunun həcmi 67 faiz artmışdır. Həyata keçirilən tədbirlərin nəticəsində inflyasiya azalmış və 1997-ci ilin sonunda 1996-cı ilin müvafiq dövrünə nisbətən onun artımı 0,4 faiz olmuşdur. 2007-ci ildə Azərbaycanın iqtisadi artımı daha yüksək olmuşdur.

## 5.3. İqtisadi inkişafın hüquq bazası

Azərbaycan dövləti iqtisadiyyatın inkişafı üçün müstəqillik dövründə hüquqi baza yaradılmışdır. Mövcud ədəbiyyata istinadən göstəririk ki, yeni iqtisadi sistem dövlətin istehsalın təşkili və texnoloji proseslərin idarə olunmasında bir başa iştirakını istisna edir. Bazar iqtisadiyyatı hər bir iqtisadi subyektin müstəqil təsərrüfatçılıq qərarları qəbul etməsini və fəaliyyət göstərməsini nəzərdə tutur.



Orada istehsalın təşkili və texnologiyası, hazır məhsulun harada və hansı qiymətə reallaşdırılması haqqında qərarı sahibkarın özü qəbul edir və təbii ki, fəaliyyətinin nəticəsinə özü məsuliyyət daşıyır. Burada dövlətin işi istehsalçıların və istehlakçıların iqtisadi fəaliyyətinin ümumi qaydalarını və prinsiplərini müəyyən etməkdən ibarətdir.

Yeni iqtisadi sistemdə istehlakçılar arasında yaranan iqtisadi münasibətlərin qanunla müəyyən olunduğu kimi həyata keçirilməsində obyektiv arbitr olmaq dövlətin iqtisadi funksiyalarının əsasını təşkil edir.

Bu gün dövlətin iqtisadi funksiyalarında baş verən transformasiyanın düzgün dərk edilməsi və ona əməl olunması, stabilləşmədən dinamik inkişafa keçidi təmin edən təkmil hüquqi baza yaradılması iqtisadi inkişafın vacib şərtinə çevrilir.

Azərbaycan Respublikasının Konstitusiyası qəbul olunandan indiyə kimi iqtisadi bloka aid 300-dən artıq qanunlar, məcəllələr qəbul edilmiş, mövcud qanunlara dəyişikliklər, əlavələr və düzəlişlər aparılmışdır. Bu qanunlar ölkədə makromaliyyə, makroiqtisadi stabilliyin yaranmasına və iqtisadi inkişafa xidmət edir.

İqtisadiyyatda yeni idarəçilik metodları və üsulları yaranır. Onların reallaşması və yüksək səmərə verməsi idarəçiliyin prinsipləri və qaydalarını müntəzəm olaraq təkmilləşdirməyi, iqtisadi artıma dinamizm gətirən hüquqi baza yaradılmasını zərurətə çevirir.

"Banklar və bank fəaliyyəti haqqında", "Milli Bank haqqında "Səhmdar cəmiyyəti haqqında", "Dövlət rüsumları haqqında", "Qiymətli kağızlar haqqında", "Aksizlər haqqında", "Lizinq haqqında" və s. qanunlar yenidən işlənməli, onlarda müəyyən edilmiş qaydalar və prinsiplər hazırkı şəraitə və perspektiv inkişafa uyğunlaşdırılmalıdır.

Azərbaycan Respublikasının "Büdcə Məcəlləsinin" və "Büdcə təsnifatı haqqında" qanunun hazırlanması başa çatdırıl-

malı və iqtisadiyyatın ayrı-ayrı sahələrinə aid qəbul olunmuş Məcəllələrdə hazırkı gerçəkliyə adekvat dəyişikliklər edilməli, "Dövlət satınalmaları haqqında" qanun qəbul olunmalıdır.

Dövlət bütün iqtisadi subyektlərin əməl etməli olduğu prinsipləri, qaydaları müəyyən etmək, ümum-iqtisadi arbit funksiyasını öz üzərinə götürməklə sosial-iqtisadi stabilliyin dinamik inkişafa çevrilməsinə iqtisadi metodlarla təsiri gücləndirməlidir.

Sonrakı illərdə bu özünü aydın göstərmişdir. İqtisadçılara istinadən göstəririk ki, hazırda iqtisadi siyasətin tərkib hissələrinin milli istehsalın inkişafını stimullaşdırmasına təsirini gücləndirmək üçün, fikrimizcə, ən azı 3 istiqamətdə iş aparılmalıdır:

Birinci, makroiqtisadi siyasətin mühüm tərkib hissəsi kimi pul-kredit siyasəti təkmilləşdirilməli, iqtisadiyyatın maliyyə və real sektorları arasında əlaqələri gücləndirən, bankların iqtisadi inkişafın lokomotivinə çevrilməsini təmin edən tədbirlər görülməlidir.

Hazırda bank real iqtisadiyyata investisiya qoyuluşunun artımında, milli istehsalın inkişafında fəal rol oynadığını demək olmaz. Ən azı ona görə ki, bank kreditlərinin 95-97 faizini qısa müddətli, yalnız 3-5 faizi uzunmüddətli kreditlər təşkil edirlər. Kredit qoyuluşunun 95-97 faizinin qısamüddətli olması, bankların iqtisadiyyatın real bölməsinin inkişafına meylli olmadıqlarını göstərir. Bu kreditlər kommersiya xarakterli əməliyyatlara yararlıdır.

Azərbaycan iqtisadiyyatına uzunmüddətli, investisiya xarakterli kredit qoyuluşunun artımı bu gün dinamik inkişafın zəruri şərtidir.

İnvestisiya yönümlü deyil sosial yönümlü büdcə siyasəti yeridildiyi şəraitdə bu amilin rolu və əhəmiyyəti daha da artır. Hazırda dövlət büdcəsindən real iqtisadiyyatın inkişafına kapital qoyuluşları aparılmır. Ən azı ona görə ki, dövlət büdcəsinin sosial yükü real iqtisadiyyata maliyyələşdirmələrin aparılmasına imkan vermir.

Hər il dövlət büdcəsindən milyardlarla manat məbləğində ayrılan vəsait, yarımçıq qalmış sosial obyektlərin inşasının başa



çatdırılmasına yönəldilir və milyardlarla manat yeni sosial obyektlərin tikintisinə sərf olunur. Son illərdə dövlət büdcəsi xeyli artırıldığından, xüsusən neft sənayesi və qeyri-neft sənayesindən gələn gəlirə əsasən xarici investisiyaya böyük ehtiyac yoxdur.

İqtisadiyyata kredit qoyuluşunun ümumi məbləği, iqtisadi inkişafın vacib şərtidir. Onun hansı səviyyədə həyata keçirilməsinin göstəricisi ölkə iqtisadiyyatına kredit qoyuluşunun ÜDM-a nisbəti ilə müəyyən olunur.

Azərbaycanda kredit qoyuluşu məbləğinin ümumi daxili məhsula nisbəti 10-13 faiz təşkil edir. Xatırladırıq ki, kredit qoyuluşunun ÜDM-a nisbəti Almaniya Federativ Respublikasında 119, ABŞ-da 130, Yaponiyada 190 faiz təşkil edir. Azərbaycanda bu nisbət həmin ölkələrlə müqayisədə 10-15 dəfə aşağıdır. Həm də bu Azərbaycanda kreditə ehtiyacın heç də az olması ilə əlaqədar deyildir.

Ölkədən kapital axınının qarşısını alan, pul sahiblərini öz kapitallarını milli istehsalın inkişafına qoymağa vadar edən, respublikamıza xarici investorların cəlb edilməsini stimullaşdıran sistem xarakterli tədbirlərin hazırlanıb həyata keçirilməsinə təkmil hüquqi baza yaradılmalıdır.

Azərbaycanın təbii resursları, elmi-texniki potensialı, iş qüvvəsi ehtiyatları iqtisadiyyatın real bölməsinin inkişafı üçün əlverişli şərait yaradır. Biz bu imkanlardan maksimum səmərəli istifadə etməliyik. Həm də ona görə ki, bu bölmənin inkişafı iqtisadiyyatda zəncirvari reaksiya yaradar, istehlakın, infrastruktur sahələrinin artımına təsir edə bilər. O həmçinin ölkədən kapital axınının qarşısını almağa sistemli təsir etməklə milli istehsalın inkişafına təkan verir.

Dövlət büdcəsinin icrasına nəzarət Milli Məclisin Konstitusiya ilə müəyyən edilmiş səlahiyyətidir. Qalan bütün qanunların icrası da, onların icrasına nəzarət də icra strukturlarının funksiyasına aiddir. Elə büdcənin cari icrasına nəzarətin özü də Maliyyə Nazirliyinin funksiyasıdır.

Göstərilən məsələlər Azərbaycan tarixinin bir sıra mövzularının öyrədilməsi zamanı nəzərə alınmalı, gənclərin vətən-pərvərlik tərbiyə hissinə təsir göstərilməlidir.

### 5.4. Müstəqil Azərbaycan Respublikasının iqtisadi-sosial həyat və fəaliyyəti

Tarix müəllimi Azərbaycanın iqtisadi və sosial coğrafiyası haqqında məlumat verərkən təbii sərvətini, təsərrüfat sahələrini, Azərbaycanın iqtisadi rayonlarını Azərbaycanın coğrafiyasına istinadən tələbələrə (şagirdlərə) öyrətməklə iqtisadi biliklərin formalaşması üçün zəmin yaradır. Eyni zamanda fənlər arası əlaqəni də yaratmış olur. Bunun üçün "Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası" adlı dərslikdə yaxşı mənbələr vardır. Biz buna istinadən fikrimizi bildiririk.

Azərbaycan iqtisadi cəhətdən zəngin və inkişaf etmiş məkandır. Onun yaxşı iqtisadi mövqeyi, təbii sərvətlər, təbii və əmək ehtiyatları vardır.

Bir çox təsərrüfat sahələrini – yanacaq energetika, maşınqayırma, qara və əlvan metallurgiya, kimya sənayesi, tikinti materialları, mebel və mebel istehsalı sahələri, istehlak malları istehsalı və xidmət sahələri, aqrar sənaye kompleksi, nəqliyyat və iqtisadi əlaqələr, daxili və xarici iqtisadi əlaqə və sahələri göstərmək olar.

Azərbaycan Respublikasının iqtisadi rayonlarını – Abşeron, Quba-Xaçmaz, Dağlıq Şirvan, Şəki-Zaqatala, Gəncə-Qazax, Kəlbəcər-Laçın, Yuxarı Qarabağ, Aran, Lənkəran-Astara və Naxçıvan iqtisadi rayonları göstərmək iqtisadi biliklərin verilməsilə Azərbaycan tarixinin xüsusən də müasir tədrisi üçün tutarlı mənbədir.

İqtisadi-coğrafi mövqeyin əhəmiyyəti dünyanın siyasi həyatında baş verən hadisələrdən, elmi-texniki tərəqqidən, xüsusən qonşu ölkələr arasındakı münasibətlərdən asılı olaraq dəyişir. Məsələn, keçmiş SSRİ ilə Türkiyə arasında münasibətlər çox



gərgin olduğuna görə Naxçıvan Muxtar Respublikasında sərhəddə yerləşən Sədərək qəsəbəsi çox əlverişsiz iqtisadi-coğrafi mövqeyə malik idi. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən və Türkiyə ilə özünün dostluq, qardaşlıq münasibətlərini bərpa etdikdən sonra Sədərək qəsəbəsinin iqtisadi-coğrafi mövqeyi əhəmiyyət kəsb etməyə başladı. Yaxud, Bakı-Türkmənbaşı gəmi-bərə xətti işə düşdükdən sonra Mərkəzi Asiya respublikalarının, Rusiyanın Sibir, Uzaq Şərq regionlarının, habelə Çin və Yaponiyanın Avropa ölkələri ilə nəqliyyat-iqtisadi əlaqələrində Respublikamızın iqtisadi-coğrafi mövqeyinin (İCM) rolu artmışdır.

Dövlət sərhədlərimizin ümumi uzunluğu 3472 Km-dir. Respublikamız cənubdan İranla 765 km, Türkiyə ilə 13 km, şimaldan Rusiya ilə 391 km, şimal-qərbdən Gürcüstan ilə 471 km, qərbdən Ermənistanla 1007 km məsafədə həmsərhəddir.

Xəzər hövzəsində dünyanın üçüncü böyük neft rayonunun kəşfi, hasilat və yanacağın dünya bazarlarına çıxarılması ilə əlaqədar olaraq Azərbaycan Respublikasının geosiyasi mövqeyinin əhəmiyyəti daha da artmışdır. Azərbaycan nefti ilə yanaşı, Qazaxıstan nefti də Azərbaycan ərazisindən neft kəmərləri ilə Qərbə nəql ediləcək.

Azərbaycanın orta enliklərində, Güney Qafqazın şərqində yerləşməsi və şərqdə Xəzər dənizi ilə əhatələnməsi onun təbii şəraitinə böyük təsir göstərir.

Ərazimizin 85%-nin iqlimi subtropik, 33% isə mülayimdir. Qışın qısa, mülayim keçməsi yanacağa və isti qış paltarına çəkilən xərcləri azaltmağa imkan verir. Mal-qara, xüsusən qoyun sürüləri bütün il boyu örüş-otlaq şəraitində bəslənilir. Günəş enerjisinin bolluğu çox istilik sevən qiymətli bitkilər becərməyə, torpaqdan ildə iki dəfə məhsul götürməyə imkan verir. Lakin buxarlanmanın yüksək olmasına görə əkinçilikdə süni suvarma tətbiq olunur.

Xəzər dənizində yerləşən Abşeron və Bakı arxipelaqları da Azərbaycana daxildir. Onu şərqdə 825 km məsafə donmayan Xəzər dənizi əhatə edir.

Son illərdə İran və Türkiyə ilə Azərbaycanın mehriban qonşuluq münasibətləri möhkəmlənir. Astara, Biləsuvar, Cəlilabad, Babək, Sədərək, Qazax rayonlarında yeni yaradılmış sərhəd-keçid məntəqələri və gömrükxanalar, Araz çayı üzərində salınan yeni körpülər, vizasız gediş-gəliş buna əyani nümunədir.

Respublikamızın Rusiya və onun tərkibindəki Dağıstan Respublikası ilə şimal sərhədlərinin, ancaq Şollar düzündən keçən hissəsi müasir nəqliyyat əlaqələrinə imkan verir. Samur çayı üzərində tikilmiş körpülərdən bütün il boyu hər iki istiqamətdə qatarlar və avtomobillər hərəkət edir. Respublikamızın şimal-cənub və şərq-qərb istiqamətli nəqliyyat magistralların Avropa və Asiya ölkələri arasında beynəlxalq yük və sərnişindaşımalarda rolu ildən-ilə artmaqdadır.

Qərbdə respublikamız Gürcüstan Respublikası ilə Qazax-Tbilisi, Ağstafa-Rustavi və Balakən-Laqodexi istiqamətlərində gedən dəmir yolu və şose yolları, elektrik xətləri, neft və qaz kəmərləri ilə əlaqələnir. Gürcüstanın Azərbaycanla qonşu rayonlarında – Borçalı mahalında və Kaxetidə 500 mindən çox azərbaycanlı yaşayır. Buna görə də qərb sərhədlərimizdən keçən yollar Gürcüstanla Azərbaycanın iqtisadi əlaqələrini təmin etməklə bərabər, Borçalı sakinlərinin mədəni, mənəvi tələbatının ödənilməsində xüsusi əhəmiyyət kəsb edir.

Cənub-qərb sərhədlərimiz Ermənistanın təqsiri üzündən hazırda ayrıca rol oynayır. Naxçıvan Muxtar Respublikası ilə Respublikamızın nəqliyyat əlaqələri Ermənistan ərazi vasitəsilə saxlanılır. Ermənistanın respublikamıza qarşı 1988-ci ildən gücələnən təcavüzü nəticəsində bu əlaqələr kəsilmişdir.

Əlverişli dənizkənarı mövqeyi, Volqa-Don və Volqa-Baltiksu sistemləri vasitəsilə Dünya Okeanına çıxışı olan Azərbaycan Respublikası bir çox ölkələrlə, birinci növbədə, Rusiya, Türkmənistan, Qazaxıstan və İranla müntəzəm dəniz-nəqliyyat əlaqələri saxlayır.

Qara dəniz sahili dəmir yolu çəkilənə qədər Güney Qafqazı Avropa ilə birləşdirən yeganə dəmir yolu Bakı-Rostov xətti idi. Qara dəniz sahili dəmir yolu sıldırım yamaclardan keçdiyi üçün



ağıryüklü qatarların hərəkətinə yaramır, həmin yoldan, əsasən, sərnişin daşınmasında istifadə edilir. Buna görə də qonşu respublikalara xaricdən ağıryüklü qatarlarla daşınan yüklər, əsasən, Azərbaycan ərazisindən keçir. Gürcüstanın MDB və dünya ölkələri ilə dəmir yolu əlaqələri Azərbaycan ərazisi vasitəsilə həyata keçirilir. Əlverişli mövqe Bakı Hava Limanının da beynəlxalq əhəmiyyətini və onun çox mühüm nəqliyyat qovşağı kimi rolunu gücləndirir məşhur İpək Yolunun bərpa edilməsi respublikamızın Şərqi və Mərkəzi Asiya dövlətləri ilə Avropa dövlətləri arasında böyük nəqliyyat-ticarət dəhlizinə çevrilməsini xeyli sürətləndirəcək.

Yaxın vaxtlarda Rusiya və İran dəmir yollarının Azərbaycan ərazisi vasitəsilə birləşdirilməsi gözlənilir. Bu məqsədlə İran ərazisindən Astara şəhərinədək cəmi 250 km uzunluğunda dəmir yol xətti çəkilməlidir. Eyni zamanda İran dəmir yolları Pakistan və Hindistan dəmir yolları ilə birləşdiriləcəkdir. Nəticədə Azərbaycan Respublikası Avropa, Cənub-Qərbi Asiya və Cənubi Asiya kimi dünyanın böyük regionlarını bir-biri ilə birləşdirən müstəsna nəqliyyat dəhlizi – koridoru olacaqdır.

Respublikamızın zəngin təbii şəraiti və təbii ehtiyatları əhalinin həyatı və təsərrüfatın inkişafı üçün əlverişlidir. Böyük və Kiçik Qafqazın dağlıq relyefi, Naxçıvan Muxtar Respublikasının ərazisinin, Qobustanın, Ceyrançölün və s. quraq iqlimi və susuzluğu bu ərazilərin mənimsənilməsini çətinləşdirir. Məsələn, hündürlüyü 2000 metrdən yuxarı olan sahələr respublikamızın ərazisinin 7,5%-ni təşkil edir. 1989-cu ildə burada cəmi 20 yaşayış məntəqəsi olmuş və 9 min nəfər, yəni respublika əhalisinin 0,1%-indən bir qədər çox əhali yaşamışdır.

Zəlzələ, sürüşmə, tufan, fırtına, sel kimi təhlükəli təbiət hadisələri təsərrüfata böyük zərər vurur. Xəzər dənizinin səviyyəsinin on illər ərzində tədricən aşağı düşməsi və yenidən yuxarı qalxması sahil zonasında, dənizdə neft-qaz hasilatı, gəmilərin hərəkəti və başqa istehsal işlərində ciddi problemlər yaradır.

Təsərrüfat fəaliyyəti prosesində əhali təbii şəraiti nəzərə almaqla bərabər, onu yaxşılaşdırmaq üçün bir sıra tədbirlər gör-

müş və görməkdə davam edir. Kür-Araz ovalığında, digər quraq ərazilərdə suvarma sistemlərinin yaradılması, dik yamacların terraslaşdırılması, qoruyucu meşə zolaqlarının salınması kimi meliorasiya tədbirləri buna misal ola bilər.

Təbiətlə istehsal arasındakı qarşılıqlı asılılıq və əlaqələr tarixi xarakter daşıyır. Təsərrüfat inkişaf etdikcə təbii ehtiyatlardan daha çox istifadə edilir. Yeni-yeni yataqlar, mədənlər işə salınır, əvvəllər istifadə olunmayan torpaqlar mənimsənilir. Nəticədə təbii ehtiyatlar get-gedə azalır, hava və su hövzələri çirklənir, torpaqlar korlanır, meşələr qırılır. Buna görə də hazırda bütün dünyada və o cümlədən, respublikamızda təbiətin qorunması ilə əlaqədar ciddi tədbirlər həyata keçirilir. Təbii ehtiyatlardan qənaətlə istifadə olunması və bu məqsədlə daha mükəmməl texnologiyanın tətbiqi ümumbəşəri və milli əhəmiyyətə malikdir. Təbii şəraitdən fərqli olaraq, təbii ehtiyatlar bilavasitə istehsala cəlb olunaraq, onun xammal və enerji bazasını təşkil edirlər. Faydalı qazıntı ehtiyatlarından sənayedə, su ehtiyatlarından bir çox sahələrdə və məişətdə, iqlim və torpaq ehtiyatlarından kənd təsərrüfatında istifadə olunur.

Bitki örtüyü və heyvanat aləmi insanlara xidmət edir.

Təbii ehtiyatların növləri, onlardan istifadə problemləri ilə tanış olmaq üçün 1-ci cədvələ diqqət yetirək. Tükənməyən təbii ehtiyatlardan istənilən qədər istifadə edilə bilər, lakin elmin və texnikanın müasir inkişaf səviyyəsi hələlik buna imkan vermir. Deməli, biz tükənən təbii sərvətlərdən qənaətlə istifadə edərək, onun əsas hissəsini gələcək nəsillərə saxlamalıyıq.

Təbii ehtiyatlardan səmərəli istifadə etmək üçün onları təsərrüfata yararlıq cəhətdən qiymətləndirmək, başqa sözlə, elm və texnikanın müasir inkişafı səviyyəsində onların istehsala cəlb edilməsinin məqsədəuyğun olub-olmadığını əsaslandırmaq lazımdır.

**Faydalı qazıntı ehtiyatları.** Bu ehtiyatlar arasında neft və qaz əsas yer tutur. Ərazimizin 70%-i neft qaz cəhətdən perspektivlidir. Hazırda respublikamızda onlarla neft və qaz yatağı işlədilir. Bunlar həm quruda, həm də dənizdədir.



Neft ehtiyatlarının $^{9}/_{10}$-dan çoxu Xəzərin payına düşür.

Dərin qatlarda və xüsusən, dənizdə yerləşən neft və qaz yataqlarının səmərəli istifadəsi mütərəqqi texnika və texnologiya tələb edir. ABŞ, Böyük Britaniya, Norveç, Rusiya və s. ölkələrin tanınmış neft şirkətləri bu sahədə respublikamıza əməli yardım göstərirlər.

Azərbaycanda xeyli metallurgiya xammal ehtiyatları vardır. 1964-cü ildən Gəncə alüminium zavodunu xammalla təmin edən Zəylik alunit yatağı ehtiyatına görə Çindəki yataqdan sonra dünyada ikinci yeri tutur. Respublikada polimetal-filiz yataqları çoxdur. Zaqatala-Balakən polimetal-filiz rayonunun böyük ehtiyatı və perspektivi vardır.

Kəlbəcər, Zəngilan, Xocavənd, Daşkəsən və Gədəbəydə qızıl yataqları aşkar edilmişdir. Naxçıvan Muxtar Respublikasında Gümüşlü polimetal, Parağaçay, Qapıcıq molibden yataqları istismar edilir. Kiçik Qafqazda və Naxçıvan ərazisində 50-dən çox civə yatağı aşkar olunmuşdur. Kəlbəcər rayonunda Şorbulaq, Ağyataq və Löhçay civə yataqları vardır.

50-ci illərdən son vaxtlara qədər Rustavi metallurgiya Kombinatını konsentratla təmin edən Daşkəsən yatağı Qafqazda istismar olunan ən böyük dəmir filizi yatağıdır. Keçən müddətdə burada Qoşqarçayın dərəsi 30 milyondan artıq kasıb sayılan filiz tullantıları ilə hədsiz çirkləndirilmişdir.

Respublikamızın ərazisi qeyri-metal xammal ilə də zəngindir. Bunların arasında Qazax rayonundakı Daş Salahlı bentonit gili yatağı, Tovuz rayonundakı Ağdağ seolit yatağı, Goranboy rayonundakı Ağcakənd gips yatağı, ehtiyatı 1 milyard ton olan Nehrəm daşduz yatağı, çoxsaylı rəngarəng tikinti materialları yataqları, Neftçala-Xıllı, Böyük Şor və Şirvan odlu-bromlu su yataqları diqqəti cəlb edir.

Qiymətli təbii ehtiyatlar arasında müalicəvi mineral bulaqlar xüsusi yer tutur. Çexiyadakı dünya şöhrətli Karlovı-Varıdan üstün olan Kəlbəcər rayonundakı İstisu, Naxçıvandakı Sirab, Badamlı, Vayxır, Siyəzən rayonundakı Qalaaltı və b. mineral sular

böyük müalicə əhəmiyyətinə malikdir. Respublikada termal su ehtiyatı da az deyil.

Azərbaycan çoxçeşidli və qiymətli tikinti materialları ilə də zəngindir. Abşeronun, Ağdam, Şəmkir, Tovuz, Qazax, Şərur və s. rayonlarının əhəngdaşı, travertin, mərmər yataqları şəhər və Kəndlərimizin abadlaşdırılmasında istifadə olunur.

**İqlim ehtiyatları.** Respublikamızın ərazisinin yarıdan çoxunun bol istilik enerjisinə malik olması fəal temperatur – yəni 10°C-dən yuxarı olan orta sutkalıq temperaturların cəminin 4000-4700°C-yə çatması pambıq, zeytun, çay kimi çox istilik sevən bitkilər yetişdirməyə, ildə eyni sahədən iki dəfə məhsul götürməyə imkan verir.

Respublikamızın ərazisinin üçdə iki hissəsinin termik ehtiyatları suvarma şəraitində kənd təsərrüfatı məhsullarının keyfiyyətinə, meyvələrdə şəkərin və üzvi maddələrin toplanmasına müsbət təsir göstərir. Ölkəmizin iqliminin digər səciyyəvi cəhəti şaxtasız dövrün uzun olması, qışın mülayim keçməsidir. Bu, istehsalat və məişət xərclərini xeyli azaltmağa imkan verir.

**Su ehtiyatları** müasir dövrdə istehsalın inkişafı və yerləşdirilməsinin ən mühüm amillərindən biridir. Son zamanlarda respublikamızda ildə 17-18 $km^3$ təzə su işlədilir ki, bunun da 14 $km^3$-i kənd təsərrüfatında suvarmaya, 3 $km^3$ sənayeyə sərf edilir.

Respublikamızın çaylarının potensial enerji ehtiyatı 37 milyard kilovatdır. Bu, Gürcüstanın hidroenerji ehtiyatlarından 4 dəfə az, Ermənistanınkından isə 2 dəfə çoxdur.

Su məsələsi respublikamızın ən ciddi problemlərindən biridir. Onun həlli üçün çayların rejiminin tənzim edilməsi, suvarma sistemlərinin yenidən qurulması tələb olunur. Su qıtlığını aradan qaldırmaq üçün mövcud suvarma kanallarının faydalı suburaxma əmsalının artırılması, sənaye müəssisələrində dövrəli su təchizatı sisteminə keçilməsi, işlədilmiş suların təmizlənib təkrar istifadəyə verilməsi, kollektor-drenaj sularının və Xəzər dənizinin suyunun şirinləşdirilərək təsərrüfatda istifadə edilməsi mühüm rol oynaya bilər.



**Torpaq ehtiyatları.** Sənaye və nəqliyyat üçün torpaq sahəsi adi tikinti yeri olduğu halda, kənd təsərrüfatı üçün əsas istehsal vasitəsidir.

Bununla yanaşı, Azərbaycan dünyanın torpaq ehtiyatı qıt olan ölkələri sırasına daxildir. Məsələn, hər nəfərə Avstraliyada 3, Kanadada 1,8, ABŞ-da 0,8, dünyada 0,24 ha, Azərbaycanda isə 0,22 ha əkin yeri və 0,59 ha kənd təsərrüfatına yararlı torpaq düşür. Əhalinin sayının artması, sənaye, tikinti və nəqliyyatın ehtiyacları üçün yeni torpaq sahələrinin ayrılması ilə əlaqədar hər nəfərə düşən torpaq sahəsi azalmaqda davam edir. Buna görə də torpaq ehtiyatlarından səmərəli istifadə, şoranlaşmış və korlanmış torpaqların bərpası ümumxalq və dövlət işi olmalıdır.

**Bitki ehtiyatlarının** mühüm təsərrüfat əhəmiyyəti vardır. Okean səviyyəsindən alçaqda yerləşən düzənliklərimizdən uca dağlaradək müxtəlif bitki qurşaqları bir-birini əvəz edir. Mərkəzi aran və dağətəyi düzənliklərdə, əsasən, efemerlər, yovşan və şoran bitkiləri yayılmışdır. Bu bitkilərin heyvandarlıq üçün örüş-otlaq əhəmiyyəti böyükdür.

Dağ çöllərində yayılmış müxtəlif ot bitkiləri, subalp və alp çəmənlikləri mal-qara üçün təbii yem bazası kimi qiymətlidir.

Respublikamızın ərazisinin 11%-ni tutan meşələr, əsasən, dağlıq sahələrdədir. Onların torpaq və suqoruyucu əhəmiyyəti böyükdür. Meşə və kolluqlarımız ərzaq, müalicə əhəmiyyətli cır meyvə və giləmeyvələrlə zəngindir. Bunlara görə meşələrimizin əksərində odun tədarükü dayandırılmışdır. Parket və mebel istehsalı üçün az miqdarda palıd, vələs kimi qiymətli oduncaq tədarükü İsmayıllı, Qəbələ və Lənkəran rayonlarında aparılır.

Respublikamızda dərman bitkiləri rəngarəng olub, böyük ehtiyata malikdir. Bioloji ehtiyatlardan Xəzər dənizinin, Kür və Araz çayının, Mingəçevir, Şəmkir və Araz su anbarlarının balıq sərvətləri qiymətlidir. Zəhərindən çox qiymətli dərmanlar alınan gürzə, xarici qonaqlara ovlanmasına yüksək qiymətli lisenziya ilə icazə verilən dağ keçisi və dağ kəli, digər kütləvi ov heyvanları, habelə gölməçələrdə olan müalicə zəlisi təsərrüfat əhəmiyyətlidir.

## 5.5. Azərbaycan iqtisadiyyatının inkişafında yeni intibah mərhələsi

Müstəqil Azərbaycanın yaranması və möhkəmlənməsində iqtisadiyyatın möhkəmlənməsi ölkənin siyasi fəaliyyətinin tərkib hissəsidir. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycan iqtisadiyyatı Azərbaycanın prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə inkişaf etdirilir.

Buna bariz nümunə 2004-cü ildə fevralın 11-də qəbul edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)" qəbul edilməsidir. Eyni zamanda son beş ildə ölkə başçısının Quba-Xaçmaz, Şəki-Zaqatala və Yuxarı Qarabağ iqtisadi rayonlarına daxil olan şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə 17 sərəncam imzalamışdır.

Dövlət başçısı sərəncam və Dövlət Proqramının icrası vəziyyəti cənab İlham Əliyevin qayğısı və köməkliyi ilə nəzərdə tutulmuş iqtisadi proqram müvəffəqiyyətlə öz həllini tapmışdır. Müəllim və tərbiyəçilər gənc nəslə dövlətçilik, vətənpərvərlik, icraçılıq, mədəni quruculuq, iqtisadi siyasəti, onun əhəmiyyətini öyrətməli, dəyərli söhbət aparmalı, müstəqil dövlətin olmasının əhəmiyyətini bu faktlarla sübuta yetirməlidir. Bunun üçün 2009-cu ilin fevralında respublika əhəmiyyətli "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) icrasının yekunlarına həsr olunmuş konfransın materiallarından faydalanmaq yaxşı olardı (bax: "Azərbaycan" qəzeti, 24.02.09).

Respublika konfransında cənab İlham Əliyev ölkənin hərtərəfli inkişafına, zənginləşməsinə, insanların firavanlığına yönəlmiş iqtisadi yüksəlişi göstərdi və onun siyasi əhəmiyyətindən danışdı.

Cənab prezident göstərmişdi ki, "... Bu gün deməyə əsas verir ki, bölgələrin bir sıra problemləri öz həllini tapmışdır. (bax: qəzet. səh.1. 24 fevral, 2009).



Cənab prezident İlham Əliyev iqtisadi inkişafın bütün sahələrindən geniş danışdı. Ölkənin iqtisadiyyatının inkişaf mərhələlərini, iqtisadiyyat sahələrinin nailiyyətlərini göstərdi. Eyni zamanda sosial məsələlərin həlli, sosial proqramlar, ünvanlı sosial yardım, sosial infrastrukturun yaradılmasını dövlətin ən prioritet mənası hesab etdi.

Xalqın rifah halının yaxşılaşdırılması sahəsi üzrə görülən bütün işlər müstəqilliyin bizə verdiyi tarixi nailiyyətdir. Müəllim və tərbiyəçi gənc nəslin tərbiyəsində bu məsələləri məmnuniyyətlə diqqətdə saxlamalı, dövlət rəsmlərinin məruzə və nitqlərindən tədris vəsaiti kimi istifadə etməlidir.

## 5.6. Dövlət proqramının uğurlu həlli

Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev Dövlət proqramının müvəffəqiyyətlə həyata keçirilməsinin yekunlarına dair respublika konfransında geniş məzmunlu nitq söyləmişdir (Bax: Azərbaycan qəzeti, 24 fevral 2009). Dövlət rəhbərinin nitqindən irəli gələn məsələlər çox böyük əhəmiyyət daşıyır və onun öyrədilməsi, gənc nəslin bunu bilməsi vacibdir. Əhəmiyyətlidir, vətənpərvərliklə dolu hisslərdir. Bu nitq qürur hissi yaradır. Bunu nəzərə alaraq tədris vəsaitində onun bir hissəsini verməyi məsləhət gördük.

Ölkə iqtisadiyyatında, həmçinin regionların həyatında mühüm rolu olan sahibkarlığın inkişafı üçün əlverişli biznes mühiti yaradılmışdır. Beş il ərzində dövlət büdcəsindən sahibkarlığın inkişafına ayrılan vəsaitin həcmi ilbəil artırılmış, Sahibkarlığa Kömək Milli Fondu vasitəsilə 7 min investisiya layihəsinə 324 milyon manat kredit verilmişdir. Bu layihələrin 87 faizi, kreditlərin isə 70 faizi regionların payına düşür.

Dövlət Proqramının icrası 7 ilə bağlı regionlarda həyata keçirilən layihələrin maliyyələşdirilməsinə beynəlxalq maliyyə qurumlarından 2,2 milyard dollar məbləğində kredit cəlb edilmişdir.

Dövlət Proqramının uğurla icrası ilə yanaşı, makroiqtisadi sabitliyin qorunması, dinamik inkişafın davam etdirilməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi, bir sözlə ölkə başçısı cənab İlham Əliyevin həyata keçirdiyi mükəmməl sosial-iqtisadi siyasət nəticəsində beş il ərzində Azərbaycanda ümumi daxili məhsul istehsalı 2,6 dəfə artmış və bu göstəriciyə görə Azərbaycan dünyada lider ölkə olmuşdur.

Beş il ərzində sənaye inkişafı 3,7 dəfə, investisiyalar 2,4 dəfə, strateji valyuta ehtiyatları 9,8 dəfə, ümumu daxili məhsulda qeyri-neft sektorunun payı 1,7 dəfə, bu sahəyə yönəldilən investisiyalar 6,2 dəfə, qeyri-neft məhsullarının ixracı 2,2 dəfə, orta aylıq əmək-haqqı 2,7 dəfə, pensiyaların orta aylıq məbləği 4 dəfə artmış, yoxsulluğun səviyyəsi 2003-cü ildəki 49 faizdən 13,2 faizə enmişdir. Təsadüfi deyil ki, aparılan islahatlar nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilmiş və 2008-ci ildə Dünya Bankı Azərbaycanı ən islahatçı ölkə elan etmişdir.

Gənc nəsil bilməlidir ki, proqramın uğurla icrası və son beş ildə bütün sahələrdə əldə olunmuş nailiyyətləri real qiymətləndirən və məramı xalqımıza layiqli xidmət olan cənab İlham Əliyevin tapşırığı və şəxsi nəzarəti ilə 2009-2013-cü illəri əhatə edən yeni Dövlət Proqramı hazırlanmışdır. Qlobal iqtisadi böhran vəziyyətinə baxmayaraq, ölkə iqtisadiyyatının şaxələndirilməsi və dünya iqtisadiyyatına səmərəli inteqrasiyası, bölgələrin infrastruktur və kommunal xidmətlərlə təminat səviyyəsinin və xalqın rifah halının daha da yüksəldilməsi yeni proqramın əsas səbəbləri kimi müəyyən edilmişdir.

Bütün bu müvəffəqiyyət Azərbaycan xalqının müstəqilliyinin nəticəsidir.

Cənab prezident İlham Əliyev Azərbaycanın iqtisadi-siyasi müvəffəqiyyətlərini Azərbaycan xalqının müstəqilliyinin nəticəsi kimi görmüş və göstərmişdir:

"Bu gün deməyə əsas verir ki, bölgələrin bir sıra problemləri öz həllini tapmışdır.

Təkcə bir neçə statistik rəqəmə fikir vermək kifayətdir ki, biz proqramın nə dərəcədə əhəmiyyətli olduğunu görək. Son beş ildə Azərbaycan iqtisadiyyatı 2.6 dəfə artmışdır, adambaşına düşən gəlir 5500 dollara çatmışdır. Azərbaycanda sənaye istehsalı 205 dəfə artmışdır və sənayeləşmə prosesi çox geniş vüsət almışdır. Bunun nəticəsində 7666 min yeni iş yeri açılmışdır ki, onlardan da 547 mini daimi iş yeridir. Bunun nəticəsində yoxsulluğun səviyyəsi kəskin şəkildə azalmış, 49 faizdən 13,2 faizə düşmüşdür. Azərbaycanda aparılan uğurlu neft strategiyası və iqtisadi islahatlar nəticəsində büdcə xərclərimizin 12 dəfədən çox artmışdır. 18 milyard dollardan çoxdur və bu əlbəttə, bizə əlavə əminlik verir və imkan verir ki, gələcəyə də çox böyük nikbinliklə baxaq... Nəticə etibarilə bizim məqsədimiz Azərbaycanı inkişaf etmiş ölkəyə çevirməkdir ki, Azərbaycanda bütün meyarlar dünyanın qabaqcıl inkişaf etmiş ölkələrin səviyyəsinə çatsın...

...İndi Azərbaycan iqtisadiyyatının inkişaf potensialı çox böyükdür. Azərbaycan iqtisadiyyatına çox böyük təkan verilmişdir və o, bu gün də davam etdirilir. Bütün bunlar, əlbəttə ki, növbəti illərdə iqtisadiyyatımızın daha da şaxələndirilməsinə gətirib çıxararcaqdır. Azərbaycanın uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcək, neft-qaz amilindən asılılıq daha da aşağı düşəcəkdir. Beləliklə, ölkə öz inkişafını uğurla davam etdirəcəkdir və Azərbaycan xalqı, Azərbaycan vətəndaşları bundan sonra da ildən-ilə daha da yaxşı yaşayacaqlar. Bu da 2004-cü ilin əvvəlində qarşıya qoyduğumuz ən vacib məqsədlərdən biri idi. Bizim bütün işlərimiz, proqramlarımız, tədbirlərimiz ilk növbədə, Azərbaycan xalqının daha da yaxşı yaşamasına yönəldilməlidir və yoxsulluğun" səviyyəsinin aşağı düşməsinin dinamikası bunu çox aydın göstərir. O da həqiqətdir ki, – dünya tarixindən bunu yaxşı bilirik, – neft və qazla zəngin olan ölkələrdə bir çox hallarda təbəqələşmə prosesi gedir, varlılar daha da varlanır, kasıblar daha da müflisləşir. Eyni zamanda, o da reallıqdır ki, neft-qaz sənayesi çoxlu iş yerlərinin yaradılmasına xidmət etmir. Yəni bu sahədə iş yerlərinin açılması kütləvi xarakter daşımır. Nə qədər çox neft hasil olunursa, insanlar bir o qədər çox kasıblaşırlar. Ancaq Azərbaycanda biz bunun tam əksini görürük. Bu da bizim üçün bir sınaq, imtahan idi ki, bu böyük maliyyə im-

kanlarından necə istifadə edəcəyik, onları hansı istiqamətə yönəldəcəyik. Çünki müxtəlif fikirlər var idi və bəzi hallarda indi də biz bunu eşidirik ki, bu vəsaitdən belə istifadə edilməliydi, yaxud da ki, başqa cür istifadə olunmalıydı. Azərbaycanın təcrübəsi və apardığımız siyasət onu göstərir ki, biz öz maliyyə imkanlarımızdan ən düzgün, ən ağıllı şəkildə istifadə etdik. O maliyyə resursları investisiyalara qoyuldu, iqtisadiyyatın real sektoruna qoyuldu, energetika, qazlaşdırma, nəqliyyat, səhiyyə və təhsilə, humanitar sahəyə qoyuldu. Beləliklə, xidmət səviyyəsi qalxdı, imkanlar artdı, biznes üçün daha da yaxşı şərait yaradıldı.

Ən önəmlisi odur ki, neftdən əldə olunan gəlirlər ədalətli bölünür, xalqımız və bütün dünya bilir ki, Azərbaycanın nə qədər valyuta ehtiyatları var, Neft Fondunun gəlirləri nə qədərdir, xərcləri nə qədərdir, gəlirlər necə xərclənir, necə istifadə olunur. Yəni şəffaflıq tam şəkildə təmin olunubdur. Bu da, deyə bilərəm ki, neft-qaza zəngin olan ölkələrdə xüsusi diqqətə layiq olan bir məqamdır. Azərbaycan şəffaflıq təşəbbüsünə qoşulmuş ölkələrin öndə gedənlərindən biridir. 2007-ci ildə Birləşmiş Millətlər Təşkilatı şəffaflıq sahəsində əldə edilmiş uğurlarla əlaqədar Azərbaycan Dövlət Neft Fondunu xüsusi mükafatla təltif edibdir. Bu şəffaflıq ilk növbədə bizə lazımdır, Azərbaycan xalqına, Azərbaycan dövlətinə lazımdır. Bu şəffaflıq hər yerdə olmalıdır. Bütün maliyyə sahəsində, iqtisadi sektorda maksimum dərəcədə şəffaflıq olmalıdır ki, biz öz imkanlarımızdan, maksimum dərəcədə səmərəli istifadə edək. Bu istiqamətdə müəyyən işlər görülüb, ancaq gələcəkdə daha da böyük işlər görülməlidir. Bizim çox böyük potensialımız var.

Son beş il ərzində Azərbaycanda minimum əməkhaqqı 8,3 dəfə, minimum pensiya təxminən 4 dəfə artıbdır. Azərbaycanda sosial infrastrukturun yeniləşməsinə və yaradılmasına böyük vəsait qoyulubdur. Son beş il ərzində 1600 məktəb tikilib, hamısı da müasir səviyyədə, hamısı da kompüterlə təmin edilibdir. Beş il ərzində ölkəmizin müxtəlif bölgələrində yüzlərlə tibb ocağı tikilibdir. Onlardan 8-i ən yüksək dünya standartlarına cavab verən müalicə-diaqnostika mərkəzləridir ki, onlar da ölkəmizin



müxtəlif bölgələrində yerləşir. Növbəti 8 müalicə-diaqnostika mərkəzinin tikintisi bu gün davam edir.

İdman qurğuları, olimpiya-idman kompleksləri son beş il ərzində 10-dan çox olimpiya-idman kompleksi tikilibdir. Yəni bütün bunlar Azərbaycan vətəndaşlarına xidmət göstərir. Azərbaycanın inkişafına xidmət göstərir. Biz artıq nail ola bilmişik ki, bölgələrdə də heç də ən qabaqcıl ölkələrdəkindən geri qalmayan müasir, sosial infrastruktur yaradılıbdır.

Böyük iqtisadi imkanlarımız var. Elə etməliyik ki, onlardan yüz faiz səmərəli şəkildə istifadə olunsun. Şəffaflıq tam şəkildə təmin olunsun və beynəlxalq praktikanın ən gözəl nümunələri Azərbaycanda tətbiq edilsin. Mən deyəndə ki, biz öz imkanlarımızdan istifadə edib Azərbaycanda bütün meyarları dünyanın ən qabaqcıl səviyyəsinə gətirib çıxarmalıyıq o cümlədən bunu nəzərdə tuturam. Çünki biz bilirik ki, inkişaf etmiş ölkələr nəyin hesabına bu inkişafa nail olublar. Onlar heç də neft-qaz hesabına buna nail olmayıblar. İnkişaf etmiş ölkələr bu uğurlara, ilk növbədə, iqtisadiyyatın səmərəliliyi, şəffaflıq, demokratik əsaslar, köklü islahatlar, texnoloji tərəqqi və təhsil sənayesində nail olublar. Biz də onlardan yaxşı nümunələri götürüb, ölkəmizi daha da sürətlə inkişaf etdirməliyik.

Gələcəkdə kənd təsərrüfatının inkişafına yeni proqramlar əlavə ediləcək və biz bu sahəyə maksimum dərəcədə diqqət göstərməliyik. Bu həm təhlükəsizlik məsələsidir, həm iqtisadi məsələdir, həm də sosial məsələdir. Çünki Azərbaycan əhalisinin, demək olar ki, yarısı kənd təsərrüfat bölgələrində yaşayır.

Elektroenergetika sahəsi, buna çox böyük diqqət verilmişdir. Çünki bu, iqtisadiyyatın əsasıdır. Azərbaycanda 9 elektrik stansiyası tikilmişdir. Onların ümumi istehsal gücü 1000 meqavatdan çoxdur. Bu stansiyalar ölkəmizin müxtəlif bölgələrində tikilibdir. Beləliklə, bu sahəyə də biz öz prinsipimizi, yəni şaxələndirmə prinsipini gətirdik. Bu, həm itkilərin azalmasına kömək edir, həm də ki, hər bir bölgədə güclü energetika potensialı yaradılmalıdır. Bu il əlavə 2 stansiya istismara veriləcəkdir. Onların ümumi istehsal gücü təxminən 600 meqavat olacaqdır.

Daha 2 stansiyanın tikintisi gedir və onların da istehsal gücü 1000 meqavata yaxın olacaqdır. Yəni görülən işlər nəticəsində Azərbaycanda energetika sistemində 3 min meqavata yaxın əlavə güc yaradılacaqdır.

Eyni zamanda, beş il ərzində Azərbaycanda qazlaşdırma prosesi çox sürətlə getdi. Beş il bundan əvvəl Azərbaycanda qazlaşdırma 60-62 faiz idi. Bu gün 85 faizdir və vəzifə qoyulub ki, biz bunu 93-95 faizə qaldıraq. Ondan çox, bəlkə də, ehtiyac yoxdur, başqa vasitələrdən istifadə etmək olar. Son beş ildə 8 rayona qaz verilibdir. Naxçıvan Muxtar Respublikası 13 il fasilədən sonra təbii qazla təmin olunur və bu gün Naxçıvan tamamilə qazlaşdırılmışdır. Vaxtilə qazın verilməsi dayandırılmış rayonların qaz təchizatı bərpa edildi. Ağcabədi, İmişli, Beyləqan, Ağdam rayonunun Quzanlı qəsəbəsi, Füzuli rayonunun Horadiz şəhərinə qaz verildi. Tarixdə heç vaxt qaz almayan Yardımlı və Lerikə də qaz xətləri çəkilmişdir. Bunun nə demək olduğunu bu işlərdə təcrübəsi olan insanlar bilirlər. Çünki dağ rayonlarına qaz xətti çəkmək həm texniki cəhətdən çox böyük problemdir, həm də böyük vəsait tələb edir. Yəqin ki, məhz ona görə vaxtilə o rayonlara qaz xətti çəkilməmişdir. Çünki çox böyük pul tələb edirdi. Onu da biz etdik. Bu gün Azərbaycanda elə rayon yoxdur ki, ora təbii qaz verilməsin və biz bu işi davam etdirəcəyik. Bu həm insanlara rahatlıq verir, həm də yeni müəssisələrin yaradılmasına xidmət göstərir. Əgər elektrik enerjisi və qaz olmasa, heç bir yeni müəssisə yaradıla bilməz. Bu, heç kim üçün sirr deyildir.

Demək istəyirəm ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının qəbul edilməsi və uğurla icrası bizim böyük uğurumuzdur, böyük nailiyyətimizdir. Deyə bilərəm ki, bu, tarixi bir nailiyyətdir. Növbəti beş il ərzində biz bu istiqamətdə siyasətimizi artıq bu gözəl əsas üzərində davam etdirəcəyik.

Bölgələrdə yaşayan vətəndaşların arzu və istəklərini, onların qayğılarını əhatə edən Dövlət Proqramının təsdiq edilməsi ölkəmizin inkişafında yeni mərhələnin başlanğıcını qoymuş, regionların inkişafını dövlət siyasətinin prioritet istiqamətlərindən biri səviyyəsinə qaldırmışdır. Böyük uzaqgörənliklə müəyyənləşdirilmiş bu strategiyanın düzgünlüyü ötən beş ildə bariz təsdiqini tapmış, bütün rayonların siması köklü şəkildə dəyişmiş, paytaxta və digər iri şəhərlərə kütləvi axın səngiyərək əks-proses başlamış, regionlarda işləməyə və yaşamağa üstünlük verənlərin sayı artmışdır. Bu gün hər bir ailə, hər bir vətəndaş Dövlət Proqramının real nəticələrini öz gündəlik həyatında hiss edir.



Ötən beş ildə ölkə başçısı regionların bütün rayonlarını əhatə etməklə 127 səfər etmiş, o cümlədən 6 dəfə Naxçıvan Muxtar Respublikasında olmuş, yerlərdə görülən işlərlə, xalqımızın həyat səviyyəsi ilə maraqlanmış, tapşırıq və tövsiyələrini vermiş, ölkəmizin abadlaşması və inkişafı üçün əhəmiyyətli olan 500-dək müəssisə və obyektin təməlqoyma və açılış mərasimlərində şəxsən iştirak etmişdir.

Bu müddət ərzində ölkənin, həmçinin regionların inkişafında böyük rolu olan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin inşası, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin yaradılması kimi möhtəşəm layihələr başa çatdırılmış, Bakı-Tbilisi-Qars dəmir yolunun inşasına başlanmış və beləliklə, Azərbaycan regionun mühüm iqtisadi güc mərkəzinə çevrilmişdir. Proqram qəbul edildikdən sonra regional inkişaf iqtisadi siyasətin əsas hədəfinə çevrilmiş, dövlət orqanlarında regionlara diqqət və dövlət büdcəsindən maliyyələşdirilən proqramlarda regionların xüsusi çəkisi ildən-ilə artmışdır.

Dövlət investisiya xərclərində regionlardakı layihələrin həyata keçirilməsinə ayrılan vəsaitin məbləği 2004-cü illə müqayisədə 2008-ci ildə 6 dəfə artaraq 3,9 milyard manat təşkil etmişdir. Bu isə ümumi investisiyaların 83 faizidir. Ümumilikdə, son beş il ərzində regionlara 6,8 milyard manat həcmində dövlət investisiyaları qoyulmuşdur. Kənd təsərrüfatı məhsulları istehsalçılarına yanacaq, mühərrik yağları, buğda, toxum və gübrəyə görə subsidiyaların verilməsi, texnika, gübrə və toxum təchizatının yaxşılaşdırılması üçün dövlət büdcəsindən vəsaitin ayrılması və vergi güzəştlərinin tətbiqi nəticəsində son beş ildə

məhsul istehsalının nominal dəyəri 2,4 dəfə artmışdır. Nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi məqsədi ilə beş ildə regionlarda 1000 kilometrdən çox magistral yollar çəkilmiş və ya əsaslı təmir edilmiş, 600 kilometr respublika əhəmiyyətli və 2700 kilometr yerli əhəmiyyətli yollarda təmir işləri aparılmış, 69 yeni körpü tikilmiş, 34 körpü təmir edilmişdir.

Son beş ildə Naxçıvan, Gəncə, Lənkəran və Zaqatala şəhərlərində müasir standartlara uyğun yeni hava limanları tikilmişdir, Lənkəranda yeni dəniz limanının tikintisi davam etdirilir. Elektrik enerjisi ilə təminatın yaxşılaşdırılması üçün 7-si regionlarda olmaqla, 9 müxtəlif tipli elektrik stansiyasının tikintisi başa çatdırılmışdır. Şirvan şəhərində, Dəvəçi, Quba və Füzuli rayonlarında stansiyaların tikintisi davam etdirilir. Naxçıvan Muxtar Respublikası uzun fasilədən sonra, Lerik və Yardımlı rayonları, Füzuli rayonunun Horadiz şəhəri ilk dəfə təbii qazla təmin edilmişdir. Ümumilikdə, son beş ildə regionlarda 1600 kilometrədək yeni qaz xətləri çəkilərək, ölkədə qazlaşdırmanın səviyyəsi 85 faizə çatdırılmışdır. Regionlarda rabitə infrastrukturunun, su və kanalizasiya sistemlərinin, istilik təchizatının yaxşılaşdırılması məqsədi ilə 632 avtomat telefon stansiyası, 610 yeni poçt binası, 75 qazanxana tikilib istifadəyə verilmiş, 72 qazanxana əsaslı təmir olunmuş, 720 kilometr yeni su, 210 kilometr kanalizasiya xətləri çəkilmiş, 23 su anbarı tikilmiş, 214 artezian quyusu qazılmışdır.

Dövlət Proqramının qəbulundan sonra bütün bölgələrdə yeni müəssisələr yaradılmış, quruculuq və abadlıq işləri uğurla davam etdirilmişdir. Bu gün burada təşkil olunmuş sərgi bunu əyani şəkildə bir daha göstərir. Belə ki, son beş ildə bütün regionları əhatə etməklə, 27 min 500 yeni müəssisə və 766 mindən çox yeni iş yeri açılmışdır. Bu müəssisələrin 40 faizi, iş yerlərinin isə 80 faizi regionların payına düşür.

Ötən beş il ərzində dövlət əsaslı vəsait qoyuluşu, Heydər Əliyev Fondunun dəstəyi və digər mənbələr hesabına 1300-ü regionlarda olmaqla, 1600 məktəb binası inşa edilmişdir.



Heydər Əliyev Fondunun təhsil, səhiyyə, mədəniyyət, idman və digər sahələrin inkişafına göstərdiyi dəstək proqramın icrasına önəmli töhfəsini vermişdir. Təkcə "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində ən müasir avadanlıqla, informasiya texnologiyaları ilə təmin olunmuş 238 məktəb inşa edilmiş və ya yenidən qurulmuşdur.

Regionlarda səhiyyə xidmətinin keyfiyyətinin yüksəldilməsi və idmanın inkişafı məqsədi ilə son beş ildə 16 yeni xəstəxana, 42 ambulatoriya-poliklinika, 42 özəl tibb müəssisəsi, 8 diaqnostika mərkəzi, 19 feldşer məntəqəsi, 18 olimpiya-idman kompleksi tikilib istifadəyə verilmişdir. 15 olimpiya-idman kompleksinin və 9 diaqnostika mərkəzinin tikintisi davam etdirilir.

Son beş ildə əlillər və şəhid ailələri üçün 33 yaşayış binası və əlillər üçün 7 bərpa mərkəzi tikilib istifadəyə verilmişdir. Qaçqın və məcburi köçkünlərə dövlət qayğısı daim diqqət mərkəzində olmuş, bu məqsədlə Dövlət Neft fondundan 464 milyon manatdan çox vəsait xərclənməklə 54 yeni qəsəbə salınmış, 15 mindən çox ev tikilmişdir. 2007-ci ilin dekabr ayında sonuncu çadır şəhərciyi, ümumiyyətlə isə 12 çadır şəhərciyi ləğv edilmişdir.

Ölkə iqtisadiyyatında sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradılmış, onlara ayrılan vəsait ilbəil artmışdır... Dövlət Proqramının uğurlu icrası ilə yanaşı makro iqtisadi sabitliyin qorunması, dinamik inkişafın davam etdirilməsi cənab İlham Əliyevin həyata keçirdiyi mükəmməl sosial-iqtisadi siyasət nəticəsində Azərbaycanda son beş ildə daxili məhsul 2,6 dəfə artmış və bu göstəricilərə görə Azərbaycan dünyada lider ölkə olmuşdur.

Beş il ərzində sənaye istehsalı 3,7 dəfə, investisiyalar 2,4 dəfə, strateji valyuta ehtiyatları 9,8 dəfə, ümumi daxili məhsulda qeyri-neft sektorunun payı 1,7 dəfə, bu sahəyə yönəldilən investisiyalar 6,2 dəfə, qeyri-neft məhsullarının ixracı 2,2 dəfə, orta aylıq əmək haqqı 2,7 dəfə artmış, yoxsulluğun səviyyəsi 2003-cü ildəki 49 faizdən 13,2 faizə enmişdir.

Bütün bu göstəricilər respublika prezidenti cənab İlham Əliyevin və onun rəhbərlik etdiyi hökumətin müvəffəqiyyətidir.

Gənc nəslin iqtisadi, siyasi, mədəni quruculuq sahəsinin inkişaf dinamikasını bilməli, müstəqilliyimizin əhəmiyyətini dərk etməlidirlər.

Ulu öndər Heydər Əliyevin sözləriylə deyək ki, görülən hər bir iş müstəqilliyimizə xidmət etməlidir.

### 5.7. Azərbaycanın iqtisadi rayonları intibah dövründə

Abşeron iqtisadi rayonunda sənaye və aqrar-sənaye kompleksi əsas iqtisadi potensialı təşkil edir. Ötən on beş ildə iqtisadi rayonda ümumi məhsul istehsalının həcmi 2 milyon 855 min manatdan çox olmuş, 1565 yeni müəssisə yaradılmışdır. Bu müddətdə 49 min 386 yeni iş yeri yaradılmış, 16 yeni məktəb binası, 11 səhiyyə ocağı istifadəyə verilmişdir.

Dağlıq Şirvan iqtisadi rayonunda kənd təsərrüfatı, xalq sənətkarlığı, sənaye və turizm əsas yer tutur. Bu sahələrin hər birinin inkişafına xüsusi diqqət yetirilmişdir. Ümumi məhsul istehsalının 1 milyon 140 min manatlıqdan çox olduğu iqtisadi rayonda 350 yeni istehsal müəssisəsi yaradılmış, 21 min 332 yeni iş yeri açılmışdır.

Şəki-Zaqatala iqtisadi rayonunda əsas diqqət ixrac qabiliyyətli məhsulların istehsalına yönəlmişdir. Bu rayonda əsas sahələr kənd təsərrüfatı, yüngül və yeyinti sənayesi, turizmdir. Ötən beş ildə ümumi məhsul istehsalının həcmi 2 milyon 520 min manatdan çox olmuş, 879 yeni müəssisə istifadəyə verilmiş, 40 min 509 yeni iş yeri yaradılmışdır.

Quba-Xaçmaz iqtisadi rayonu da ölkənin sosial-iqtisadi inkişafına layiqli töhfə vermişdir. Bu iqtisadi rayonda yeni istehsal sahələri yaradılmış, iş yerləri açılmış, iqtisadi inkişaf sürətlənmişdir. İqtisadi rayon üzrə 2 milyon 787 min manatlıqdan çox məhsul istehsal olunmuş, 43 min 736 yeni iş yeri açılmış, 644 yeni müəssisə yaradılmışdır.

Gəncə-Qazax iqtisadi rayonu üzrə əsas iqtisadi göstəricilər kənd təsərrüfatı, xalq sənətkarlığı, sənaye, turizm və digər sahələrlə bağlıdır. İqtisadi rayon üzrə ümumi məhsul istehsalının həcmi 5 milyon 49 min manatdan çox olmuş, 1458 yeni müəssisə yaradılmış, 96 min 977 yeni iş yeri açılmışdır.



Lənkəran iqtisadi rayonunda əsas istehsal sahələrini aqrar-sənaye kompleksi, turizm təşkil etmişdir. İqtisadi rayon üzrə 2 milyon 458 min manatlıqdan çox məhsul istehsal olunmuş, 1082 müəssisə açılmış, 71 min 644 yeni iş yeri yaradılmışdır.

Naxçıvan Muxtar Respublikasında region sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində mühüm işlər görülmüş, sənaye, kənd təsərrüfatı, xalq sənətkarlığı və digər sahələrdə yüksək nəticələr əldə edilmişdir. Ötən dövrdə ümumi məhsul istehsalının həcmi 3 milyon 345 min manatdan çox olmuş, 1236 yeni müəssisə yaradılmış, 37 min 73 yeni iş yeri açılmışdır.

Yuxarı Qarabağ iqtisadi rayonunda ümumi məhsul istehsalında kənd təsərrüfatı, sənaye və turizm sektorları üstünlük təşkil etmiş, 8 milyon 340 min manatlıqdan çox məhsul istehsal olunmuşdur. Rayonda 555 yeni müəssisə, 17 min 241 yeni iş yeri yaradılmışdır.

Aran iqtisadi rayonu da Dövlət Proqramının həyata keçirilməsində uğurlar qazanmışdır. Bu iqtisadi rayona daxil olan bölgələrdə iqtisadiyyatın əsası sahələrini kənd təsərrüfatı, sənaye, o cümlədən neft-qaz, tikinti materialları istehsalı təşkil etmişdir. Bu rayonda ümumi məhsul istehsalının həcmi 8 milyon 878 min manat olmuş, 2982 yeni müəssisə yaradılmış, 169 min 628 yeni iş yeri açılmışdır.

Müəllim, tərbiyəçi müstəqillik dövründə görülən işlər barədə bu səpkili məlumatları – neft və energetika, tikinti və tikinti materialları, yüngül sənaye, qida, turizm, səhiyyə, kənd təsərrüfatı, elektrotexnika, kompüter texnikası, rabitə, məişət avadanlığı, şərabçılıq sektorlarında yeni yaradılmış müəssisələrin məhsulları barədə ətraflı məlumat verilməli və bu məhsulların həm daxili bazara çıxarılması, həm də ixrac edilməsi göstərilməklə, dövlət başçısının və müstəqilliyin uğurları saymalıdır.

## 5.8. Müstəqil dövlətin tarazlaşdırılmış siyasətinin nəticələri

Ölkəmizdə aparılan düşünülmüş tarazlaşdırılmış siyasət uğurla həyata keçirilir. Respublikanın prezidenti cənab İlham Əliyev bu sahədə çox böyük rolu vardır. Müəllimlər İlham Əliyevin bu sahədəki siyasi fəaliyyətinin gənc nəslə çatdırmalı, prezident seçkilərində uğurla səs qazanmasını digər sahələrdə olduğu kimi bu baxımdan da qiymətləndirməlidir.

Azərbaycanın xarici siyasətinin əsasını balanslaşdırılmış siyasət, ölkəmizin hərtərəfli və dinamik inkişafını təmin edən, müstəqilliyimizin beynəlxalq dayaqlarını daha da möhkəmləndirməyə istiqamətlənmiş qlobal layihələrin həyata keçirilməsi, beynəlxalq təşkilatlarla və dünyanın aparıcı dövlətləri ilə əlaqələrin daha da genişləndirilməsi, iqtisadi, siyasi sahədə aparılan cəsarətli islahatlar təşkil edir. Bu düşünülmüş və məqsədyönlü siyasətin nəticəsidir ki, ölkəmiz bu gün müstəqil siyasət aparır, xalqımız öz taleyinin sahibidir. Prezident İlham Əliyev bir daha bəyan edib ki, bizim dövlət quruculuğu sahəsindəki fəaliyyətimiz möhkəm tarixi, mənəvi əsaslar üzərində müasir dövlət qurmağa, dövlətçiliyi, müstəqilliyi möhkəmləndirməyə, əbədi, dönməz etməyə və beləliklə, Azərbaycanın hərtərəfli inkişafına nail olmağa yönəldilib: "Bu işlərdə bizim böyük uğurlarımız var. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Azərbaycan tam şəkildə müstəqil ölkədir, öz müstəqilliyini qoruyub saxlaya, daha da möhkəmləndirə bilmişdir. Bu gün Azərbaycan istər xarici siyasətdə, istərsə də daxili işlərdə müstəqil siyasət aparan ölkədir".

Hazırda Azərbaycan bütün ölkələrlə qarşılıqlı hörmət və bir-birinin işlərinə qarışmamaq prinsipləri əsasında, dünyada qəbul olunmuş və demokratik prinsipləri əks etdirən əsaslar üzərində müstəqil siyasət aparır. Ümummilli liderimiz Heydər Əliyevin işləyib hazırladığı və dövlətimizin başçısı İlham Əliyev tərəfindən uğurla həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının əsas hədəfi Azərbaycanı zəngin və qüdrətli bir dövlətə çevirməkdir. Bu gün böyük qürur his-silə demək olar ki,



cənab İlham Əliyevin 2003-cü il prezident seçkilərində verdiyi "Biz müstəqil Azərbaycanı son on ildə yaradılmış möhkəm təməl üzərində zəngin və qüdrətli dövlətə çevirəcəyik" fikri artıq həyatda öz real təsdiqini tapmışdır. Azərbaycanın müstəqil xarici siyasət aparmasını da onun zəngin və qüdrətli dövlətə çevrilməsi şərtləndirir.

Bu gün Azərbaycan iqtisadi cəhətdən özünü tam şəkildə təmin edən, dünya siyasətinin formalaşmasında mühüm söz sahibi olan, beynəlxalq enerji təhlükəsizliyinə layiqli töhfələr verən, bölgədə lider dövlətə çevrilən, iqtisadi inkişaf tempinə görə dünyada birinci yeri tutan, dini tolerantlığa görə nümunə göstərilən bir ölkə kimi böyük hörmətə və nüfuza malikdir.

Prezident Cənab İlham Əliyev: Azərbaycanın iqtisadi, siyasi, sosial mədəni inkişafını nəzərə alaraq göstərmişdir:

**"Azərbaycan tam şəkildə müstəqil ölkədir, öz müstəqilliyini qoruyub saxlaya, daha da möhkəmləndirə bilmişdir".**

Təbii ki, ölkəmizin müstəqil siyasət yeritməsini şərtləndirən bu uğurlar gərgin fəaliyyət və düşünülmüş siyasət nəticəsində əldə olunmuşdur.

Tarixən ikili standartlarla yaşayan çağdaş dünyamızda Azərbaycanın müstəqil siyasət yeritməsi, öz müstəqilliyini qoruyub saxlaması və daha da möhkəmləndirməsi dövlətimizin xarici siyasətinin çox böyük uğuru kimi dəyərləndirilməlidir. Qeyd edək ki, ikili standartlar beynəlxalq təşkilatların Ermənistanla müqayisədə Azərbaycana göstərdikləri münasibətdə daha qabarıq şəkildə görünür.

Özünün xarici siyasətində bu faktoru da heç bir zaman unutmayan dövlətimizin başçısı Azərbaycanın önəmli ölkəyə çevrilməsi istiqamətində çox mühüm işlər görmüş, uğurlar qazanmışdır. Prezident İlham Əliyevin son beş ildə yürütdüyü uğurlu xarici siyasət nəticəsində ölkəmizin çox önəmli və əvəzolunmaz beynəlxalq nəqliyyat dəhlizinə çevrilməsi Azərbaycanın beynəlxalq mövqelərini daha da möhkəmləndirib. Dövlətimizin başçısı İlham Əliyevin vurğuladığı kimi, "Biz çox geniş nəqliyyat imkanlarına malikik. Bu, həm coğrafi vəziyyətdən irəli gəlir və

eyni zamanda, bizim siyasətimizin nəticəsidir ki, Azərbaycanı çox önəmli və əvəzolunmaz beynəlxalq nəqliyyat dəhlizinə çevirmişik".

Buna görə də Avropa ilə Asiya arasında təbii körpü rolunu oynayan Azərbaycanın iştirakı olmadan heç bir qlobal layihənin reallaşdırılması sadəcə olaraq mümkün deyil. Qədim "İpək Yolu"nun Azərbaycandan keçməsi, bununla yanaşı Xəzər dənizi hövzəsi ölkələrinin və Orta Asiya dövlətlərinin karbohidrogen ehtiyatlarının Avropaya çatdırılması üçün Azərbaycanın mövcud kəmərlərə malik olması dediklərimizi bir daha təsdiqləyir. Xüsusilə son zamanlar qızğın müzakirələrə səbəb olan Nabukko və Bakı-Tbilisi-Qars dəmir yolu layihələrinin reallaşması ölkəmizin dünyadakı nüfuzunu artırmaqla yanaşı, müstəqilliyimizin beynəlxalq dayaqlarını daha da möhkəmləndirəcək, ölkəmizə əlavə siyasi və iqtisadi dividendlər gətirəcəkdir. İkincisi, bu gün Azərbaycan həm istehsalçı, həm də tranzit ölkə kimi Avropanın enerji təhlükəsizliyi sahəsində mühüm rol oynayır. Üçüncüsü, ölkəmiz bu gün bölgədə sabitliyin və sülhün qarantı rolunu oynamaqla yanaşı, həm də etibarlı tərəfdaş imici qazanıb. Bunu strateji müttəfiqimiz olan Gürcüstanın timsalında daha aydın şəkildə görmək mümkündür. Belə ki, Gürcüstanın çətin dövründə Azərbaycan bu ölkəyə elektrik enerjisi və təbii qazı verərək kömək əlini uzatmaqla öz müttəfiqlik borcunu şərəflə yerinə yetirdi.

Bu gün Azərbaycanın karbohidrogen ehtiyatlarını müxtəlif istiqamətlərdə dünya bazarına çıxara biləcək 7 boru kəməri vardır. Bu isə ölkəmizi mümkün olan təhlükələrdən və siyasi təzyiqlərdən qoruyur. Dövlətimizin başçısı İlham Əliyev bu vacib məsələyə də toxunub: "Əvvəlki illərdə məqsədlərimizdən biri şaxələndirmə olub və bu baxımdan Azərbaycan özünü çox rahat hiss edir. Neft və qaz kəmərlərimiz karbohidrogen ehtiyatlarımızı müxtəlif istiqamətlərdə nəql etməyə imkan verir. Beləliklə, biz bir marşrutdan asılı deyilik". (15)

Ölkəmizin 18 milyarddan çox valyuta ehtiyatına malik olması, enerji və ərzaq təhlükəsizliyini təmin etməsi, əhalinin mad-



di rifah halının gündən-günə yaxşılaşması, yeni iş yerlərinin yaradılması, sahibkarlığın inkişafı, 2009-cu ildə də sürətli iqtisadi inkişaf tempini saxlaması, daxili və xarici siyasətdə qazanılan uğurlar göstərir ki, müstəqilliyimiz dönməz və əbədidir. Çünki Azərbaycanın müstəqil siyasət aparması və söz sahibi olması üçün güclü iqtisadiyyatı, strateji cəhətdən üstün mövqeyi, qüdrətli ordusu və ən əsası isə ümummilli liderimiz Heydər Əliyev tərəfindən işlənilib hazırlanmış müstəqillik və inkişaf strategiyasını böyük yaradıcılıqla həyata keçirən möhtərəm Prezidentimiz İlham Əliyev kimi lideri vardır. (101). Müəllim bunu gənclərə çatdırmalı, dövlət rəhbərinin nümunəsində vətənpərvərlik tərbiyəsini aşılamalıdır.

# VI FƏSİL

# MÜSTƏQİLLİYİN BƏRPASININ ÇAĞDAŞ DÖVRÜNÜN İQTİSADİ VƏ SOSİAL İNKİŞAFI

## 6.1. Müstəqillik dövrünün sürətli və iqtisadi inkişafı

Müstəqilliyin inkişafı onun iqtisadi və sosial inkişafını bariz şəkildə görürük. Dövlət Statistika Komitəsinin məlumatı (93) əsasında çağdaş dövrün iqtisadi və sosial inkişafını görmək olar. Burda əks olunmuş faktlar gənc nəsil üçün müstəqilliyi böyük əhəmiyyətə malik olduğuna inandırıcı cavabdır. Müəllim-tədris prosesində və sinifdən və məktəbdən kənar tədbirlər prosesində gənc nəslə çatdırmaqla onlarda vətənpərvərlik tərbiyə hissinin aşılanması sahəsində yaxşı vasitədir. Burada dövlət siyasəti, demokratizmin – humanizmin, əməyə və əmək adamlarına göstərilən qayğılı münasibət və ümumilikdə xalqın firavanlığı öz əksin geniş tapır.

Onu da göstəririk ki, müstəqillik dövrünün sosial-iqtisadi nailiyyətləri 2007-2008-ci illərdə daha da artmışdır. Ölkənin iqtisadi və sosial həyatında son illər müşahidə olunan sürətli inkişaf 2009-cu ildə də davam edərək, istehsal və xidmət sahələrinin daha yüksək səviyyəyə qalxmasını təmin etmişdir. Son beş ilin makroiqtisadi göstəriciləri ölkə-mizin nəinki Müstəqil Dövlətlər Birliyinin üzv dövlətləri arasında, habelə Avropa ölkələri sırasında daha dinamik inkişaf etdiyini göstərir. Dəqiq və məqsədyönlü surətdə aparın iqtisadi və sosial siyasət nəticəsində məhsul istehsalı sahələrində məhsul buraxılışı artmış, xidmət sahələrinin fəaliyyəti genişlənmiş, əhalinin həyat səviyyəsini səciyyələndirən gəlirlər və əmək haqqı yüksəlmişdir.



Əldə olunmuş uğurları əyani nümayiş etdirən makroiqtisadi göstəricilər ölkəmizin inkişaf sürətinə görə öncüllər sırasında olduğunu göstərir.

**Ümumi daxili məhsul.** Ölkə iqtisadiyyatında aparılan uğurlu islahatlar iqtisadiyyatın sürətli inkişafına zəmin yaratmış, iqtisadiyyatın bütün sahələrində artım əldə edilmişdir. Artım məhsul və xidmətlərin buraxılışının yüksəlməsi ilə yanaşı, bilavasitə istehsal xərclərinin azaldılması və yaranan əlavə dəyərin xüsusi çəkisinin artması ilə də bağlıdır. Ölkənin inkişafını xarakterizə edən əsas makro göstərici – ümumi daxili məhsul istehsalı son beş ildə 2.6 dəfə, 2008-ci ildə isə 10.8 faiz və ya müqayisəli qiymətlərlə 3.7 milyard manat artaraq 38.0 milyard manata çatmışdır. 2003-cü ildə iqtisadiyyatın bütün sahələri üzrə mal və xidmətlər buraxılışında əlavə dəyərin xüsusi çəkisi 55.9 faiz təşkil edirdisə, son illər ərzində onun xüsusi çəkisinin 13 fa-iz bəndi artaraq 68.9 faizə çatması iqtisadiyyatın səmərəliliyinin yüksəldiyini göstərir.

Ümumi daxili məhsulun 57.4 faizi sənaye sahələrində, 5.8 faizi kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatında, 7.6 faizi tikinti kompleksində, 6.0 faizi ticarət və pullu xidmət sahələrində, 5.1 faizi nəqliyyatda, 1.9 faizi rabitədə, 9.1 faizi digər xidmətlər və sosial sahələrdə yaradılmış, 7.1 faizi isə məhsula və idxala xalis vergilərin payına düşmüşdür.

Ölkədə iqtisadi islahatların həyata keçirilməsi özəl sektorun ildən-ilə inkişafında və onun ölkə iqtisadiyyatında mühüm yer tutmasında həlledici rol oynamışdır. 2008-ci ildə qeyri-dövlət müəssisə və təşkilatlan tərəfindən istehsal edilmiş xalis məhsulun ÜDM-də payı 2003-cü ildəki 73.3 faizdən 85.0 faizədək artmışdır. Qeyri-dövlət sektorunun payı sənayenin əlavə dəyərində 91.1 faizi, kənd təsərrüfatında 99.8 faizə, ticarətdə 99.3 faizə, tikintidə 66.9 faizə, nəqliyyatda isə 77.7 faizə çatmışdır. Neft sektorunda ümumi daxili məhsul istehsalı 7.0 faiz, qeyri-neft sektorunda isə 15.7 faiz artıb.

Adambaşına 4439.9 manatlıq (5403.9 ABŞ dollar), yaxud 2007-ci ildəkindən 9.5 faiz çox əlavə dəyər istehsal olunmuşdur.

## 6.2. Sənaye

**Sənaye.** Ölkə iqtisadiyyatının davamlı inkişafında sənayenin rolu getdikcə artır və bu sahə dinamik inkişaf edir. Son illər müşahidə olunan artım 2008-ci ildə də davam etmiş, ümumilikdə, ölkə sənayesində 6.0 faizlik artıma nail olunmuş, son beş ildə isə sənayenin real həcmi 2.5 dəfə artmışdır. 1994-cü ilin 20 sentyabrında neft və qaz hasilatı sənayesində birgə fəaliyyətlə bağlı dünyanın inkişaf etmiş ölkələrini təmsil edən iri şirkətlərlə bağlanan müqavilələr neft və qaz sənayesinin sürətlə inkişaf etməsinə təkan vermiş, neft və qazın hasilatı rekord səviyyəyə çatmış, sənayenin digər sahələrində də irəliləyişlər əldə edilmişdir.

2008-ci ildə sənayedə 28.1 milyard manatlıq sənaye məhsulu istehsal edilmiş, onun 21.5 milyard manatı və ya 76.5 faizi mədənçıxarma, 5.3 milyard manatı və ya 18.8 faizi emal, 1.3 milyard manatı və ya 4.7 faizi elektrik enerjisi, qaz və su-yun istehsalı və bölüşdürülməsi bölmələrində yaradılmışdır.

Ötən il ərzində əvvəlki illə müqayisədə neft hasilatı 4.6 faiz, qaz hasilatı 50.4 faiz, digər faydalı qazıntıların hasilatı isə 23.3 faiz artmışdır. Hasil olunmuş əmtəəlik xam neftin həcmi 44.5 milyon ton, qazın hasilatı isə 16.3 milyard kubmetr təşkil etmişdir.

"Əsrin müqaviləsi" çərçivəsində reallaşan neft strategiyasının məntiqi nəticəsi olaraq bu sahənin müəssisələri daha yüksək nəticələr əldə etmiş - Azərbaycan tarixində neft və qazın hasilatı rekord səviyyəyə çatmış, "Mərkəzi Azəri" ya-tağından neft və "Şahdəniz" yatağından qaz hasil olunmuş, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri, Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz qaz kəməri istismara verilmiş və ölkəmiz qaz ixracatçısına çevrilmişdir. Son beş il ərzində ölkədə qaz kondensatı da daxil edilməklə 157.2 milyon ton xam neft, səmt qazı daxil edilməklə 43.9 milyard kubmetr əmtəəlik təbii qaz hasil edilmiş, 5.2 milyon ton avtomobil benzini, 10.6 milyon ton dizel yanacağı, 3.7 milyon ton ağ neft istehsal olunmuşdur. 2008-ci ilin aprel ayında Günəşli yatağı istifadəyə verilmiş və 2009-cu ilin



əvvəlinə kimi bu yataqdan 2.4 milyon ton neft, 654.7 milyon kubmetr təbii qaz hasil edilmişdir.

2007-ci illə müqayisədə rezin və plastik kütlə məmulatlarının istehsalı sahəsində 10.0 faiz, kimya sənayesində 26.3 faiz, maşın və avadanlıqların istehsalında 6.6 faiz, metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalında 22.3 faiz, neftin emalında isə 8.5 faiz səviyyəsində artım müşahidə olunmuşdur.

2008-ci ildə istehsalın 93.8 faizi malların, 6.2 faizi isə sənaye xarakterli xidmətlərin payına düşmüş, sənaye məhsulunun 18.8 faizi dövlət müəssisələrində, 81.2 faizi isə özəl bölmədə istehsal edilərək müvafiq olaraq 5.1 və 6.2 faiz çoxalmışdır.

Sənayenin qeyri-neft bölməsində də irəliləyişlər əldə edilmiş, bu sahədə sənaye məhsulu istehsalı hər il orta hesabla 6.7 faiz artmışdır. Son illər Bakıda və regionlarda yüksək keyfiyyətli müxtəlif gön-dəri məmulatları istehsal edən müəssisələr, Şamaxıda müasir standartlara cavab verən, müxtəlif ölçülü televizorlar istehsal edən "StarLtd" zavodu, İmişlidə şəkər istehsal edən "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, regionlarda elektrik enerjisi istehsal edən modul tipli elektrik stansiyaları istismara verilmişdir. Görülmüş işlər nəticəsində ölkədə şəkər istehsalına və ixracına başlanılmış, yeni tikilmiş modul tipli elektrik stansiyalarının hesabına enerji təminatı yüksəlmiş, minik avtomobilləri, "Belarus" tipli traktor və "Maz" tipli ağır tonnajlı yük avtomobili, yeni növ kompüterlər, plazma tipli televizorlar və s. istehsal olunmuş, yod istehsalı bərpa edilmiş, yeni sənaye müəssisələri yaradılmış və məhsul növlərinin çeşidi xeyli artmışdır. Beş ildə ölkədə 112.4 milyard kVt-saat elektrik enerjisi, 258.2 min ton etilen, 162.8 min ton propilen, 7.9 milyon ton sement, 1.3 milyon kubmetr kərpic, 1.5 milyon ton alüminium oksidi, 28.1 min ədəd kompüter, 2.0 min ədəd çap qurğusu, 791.1 min ton şəkər, 2.0 min ədəd minik avtomobili və s. məhsullar istehsal edilmişdir.

Bütün bunlar dövlət müstəqilliyinin, dövlətin Prezidentin apardığı siyasətin və vətənə məhəbbətin nəticələridir.

### 6.3. Mədənçıxarma

**Mədənçıxarma** sənayesinin ölkə iqtisadiyyatında, o cümlədən sənayedə rolu artmaqdadır. 2008-ci ildə mədənçıxarma sənayesində istehsalın həcmi əvvəlki ilin səviyyəsindən 5.3 faiz yüksək olmuş və bu sahədə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) tərəfindən qaz kondensatı daxil olmaqla 35.9 milyon ton neft və səmt qazı daxil olmaqla 9.1 milyard kubmetr əmtəəlik təbii qaz hasil edilərək əvvəlki ilə nisbətən müvafiq olaraq 6.1 faiz və 67.2 faiz artmışdır.

Son beş ildə mədənçıxarma bölməsin-də məhsul istehsalı 2.8 dəfə, o cümlədən neft hasilatı 2.9 dəfə, qaz hasilatı 3.2 dəfə artmışdır.

**Sənayenin elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi böl-məsində** əvvəlki illə müqayisədə istehsalın həcmi əsasən bu sahədə göstərilmiş xidmətlərin hesabına 8.0 faiz artmış, ölkənin elektrik stansiyalarında 20.2 mil-yard kVt-saat elektrik enerjisi istehsal olunmuşdur.

Elektrik enerjisi istehsalı 2.0 faiz azalmış, istehsalın 10.6 faizi su elektrik stansiyalarının, 89.4 faizi isə istilik elektrik stansiyalarının payına düşmüşdür. Son iki ildə elektrik enerjisi istehsalının azalması iqtisadiyyatın və əhalinin təbii qazla, istilik enerjisi ilə təminatının yaxşılaşdırılması, elektrik enerjisindən isitmə məqsədləri üçün istifadə hallarının azalması və bu səbəbdən elektrik enerjisinə olan tələbatın azalması ilə bağlı olmuşdur.

İstehsal olunmuş məhsulların çeşidliliyinə, onların əhatə dairəsinin genişliyinə görə mühüm əhəmiyyətə malik **emal sənayesində** həcmi 6.6 faiz artmış və işlərin 52.2 faizi bilavasitə qeyri-dövlət sahibkarlıq subyektləri və ev təsərrüfatları tərəfindən həyata keçirilmişdir. **Qida məhsullarının istehsalı sahəsində** məhsulun həcmi 2007-ci ilin səviyyəsində qalmış, bununla yanaşı, sahənin əsas məhsullarından – ətin, üzlü süd məhsullarının, kolbasa məmulatlarının, qənnadı məmulatlarının, cem və marmeladların, duru bitki yağlarının, meyvə və tərəvəz şirələri,



pivənin, üzüm şərabının və digər məhsulların istehsalı artmışdır. İstehsalın demək olar ki, hamısı qeyri-dövlət müəssisələrinin və ev təsərrüfatlarının payına düşür.

Emal sənayesinin əsas sahələrindən olan **neft məhsullarının istehsalı sahəsində** istehsalın həcmi əvvəlki ilin müvafiq dövrünün səviyyəsindən 8.5 faiz çox olmuşdur. Artım əsas etibarilə avtomobil benzininin, dizel yanacağının və neft bitumunun istehsalının artması hesabına baş vermişdir.

### 6.4. Kimya sənayesi

**Kimya sənayesi** müəssisələrinin istehsalı əvvəlki illə müqayisədə 26.3 faiz, **rezin və plastmas məmulatlar istehsal** edən müəssisələrdə istehsalın həcmi 10.0 faiz artmışdır. Əsas məhsul növlərindən – kaustik soda buraxılışı 29.9 faiz, azot 76.2 faiz, xlorid turşusu 69.6 faiz, propilen 33.3 faiz, polietilen 38.1 faiz, lak-boya məmulatları 42.7 faiz artmışdır.

Əsasən tikinti materiallarının istehsalı ilə məşğul olan **digər qeyri-metal mineral maddələr istehsalı** müəssisələrində məhsul istehsalının həcmi əvvəlki ilin səviyyəsindən 9.6 faiz az olmuşdur. Hazırda tikinti materiallarının 93.8 faizi özəl bölmədə istehsal olunur.

2008-ci ildə **metallurgiya və hazır metal məmulatların istehsalı** müəssisələrində istehsalın həcmi əvvəlki ilin səviyyəsindən 22.3 faiz çox olmuşdur. Sənayenin bu sahəsində qeyri-dövlət bölməsinin payı 49.4 faizə bərabərdir. Əsas məhsul növlərinin istehsalı – çuqun tökmə 40.2 faiz, ilkin alüminium 57.0 faiz, polad borular 9.7 faiz, qeyri-cins polad-dan dəstələr şəklində katankalar (armatur) 9.9 faiz və s. artmışdır.

2008-ci ildə **maşın və avadanlıqların istehsalı** müəssisələrində istehsalın həcmi əvvəlki ilin səviyyəsindən 6.6 faiz, nəqliyyat vasitələri və avadanlıqlarının istehsalı 23.7 faiz çox, elektrik avadanlığı, optik və elektron avadanlıqlarının istehsalı 31.7 faiz az olmuşdur. İl ərzində 9.2 min ədəd məişət

soyuducuları, 7.9 min ədəd plazma tipli televizor, 135 ədəd minik avtomobili, 0.8 min ədəd kompüter, 49 ədəd çap qurğusu istehsal olunmuşdur.

**Tikinti.** 2008-ci ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 9081.4 milyon manat məbləğində və ya əvvəlki ilin müvafiq dövrünün səviyyə-sindən 34.3 faiz çox investisiya yönəldilmişdir. Beş il ərzində əsas kapitala 33.5 milyard manat investisiya yönəldilmiş və 2008-ci ildə istifadə edilmiş investisiyanın həcmi 2003-cü ilin səviyyəsini 3.0 dəfə üstələmiş, adambaşına düşən investisiyanın həcmi 2003-cü illə müqayisədə 605.8 manat çox olmuşdur. Dövlət mülkiyyətinə məxsus müəssisə və təşkilatlar əsas kapitala 5677.4 milyon manat və ya ümumi investisiyanın 62.5 faizi, qeyri-dövlət müəssisələri 3404.0 milyon manat və ya 37.5 faizi qədər sərmayə qoymuşdur. Tikinti-quraşdırma işlərində istifadə edilmiş investisiyanın həcmi əvvəlki illə müqayisədə 56.7 faiz artaraq 5633.7 milyon manat olmuşdur. İstehsal təyinatlı obyektlərin inşasında 6527.0 milyon manat, qeyri-istehsal təyinatlı obyektlərin tikintisində 2554.4 milyon manatlıq investisiyasından istifadə edilmişdir.

Ölkənin maliyyə imkanlarının artması tikinti sektoruna daha çox yerli vəsaitin yönəldilməsinə imkan vermiş, daxili investisiyanın həcmi xarici investisiyaları üstələmişdir. Əgər 2003-cü ildə daxili investisiya ümumi investisiyanın 24.8 faizi səviyyəsində olmuşdusa, 2008-ci ildə bu göstərici 75.5 faizə bərabər olmuş və əvvəlki ilin səviyyəsini 67.2 faiz üstələmişdir. Əsas kapitala yönəldilmiş daxili investisiyanın 79.6 faizi dövlət mülkiyyətinə məxsus müəssisə və təşkilatların, 20.4 faizi qeyri-dövlət mülkiyyətinə məxsus müəssisələrin payına düşür.

2008-ci il ərzində əsas kapitala yönəldilmiş bütün investisiyanın 44.3 faizi sənaye sahələrinin inkişafına, 3.7 faizi kənd təsərrüfatına, 11.0 faizi ticarət və xidmətə, 22.5 faizi nəqliyyata, 1.8 faizi rabitəyə, 7.3 faizi mənzil tikintisinə, 2.8 faizi səhiyyəyə, 3.1 faizi təhsilə, 13.5 faizi digər sahələrə sərf edilmişdir.



2008-ci ildə at kapitala yönəldilmiş ümumi investisiyanın 6276.4 milyon manatı (69.1 faizi qeyri-neft bölməsinin, 2805.0 milyon manatı (0.9 faizi) neft bölməsinin inkişafında istifadə edilmişdir. Əvvəlki illə müqayisədə qeyri-neft bölməsinə yönəldilmiş investisiyanın həcmi 81.1 faiz yüksək olmuşdur.

Məhz bunun nəticəsidir ki, beş il ərzində 1700-dən çox yen istehsal təyinatlı tikili və obyektlərin istifadəyə verilməsi təmin edilmişdir. Təkcə 2008-ci il-də Bakı şəhərində illik gücü 7 min ton olan pambıq emalı fabriki, Səngəçal Elektrik Stansiyası, şüşə məmulatları istehsalı zavodu və "Nəsimi" metro stansiyası, Şamaxı şəhərində məişət soyuducuları istehsalı, Bərdə rayonunda gündə 500 ton asfalt-beton, Qazax rayonunda ildə 300 min ton bentonit gili istehsalı, Sabirabad rayonunda sutkada 400 ton sement istehsalı, Kürdəmir rayonunda konserv, Qəbələ, Lənkəran və Biləsuvar rayonlarında süd emalı, Saatlı rayonunda ildə 200 min ton yaşıl biyan emal edən və Balakən rayonunda yem istehsalı zavodları, Ağstafa rayonunda tikiş fabriki, Şəki rayonunda ildə 750 ton kolbasa məmulatı və ildə 120 ton pendir istehsal edən sexlər və s. istifadəyə verilmişdir.

İnşaat işləri istehsal təyinatlı obyektlərin tikilməsi ilə məhdudlaşmamış və sosial obyektlərin inşasına da diqqət yetirilmiş, bütün maliyyə mənbələri hesabına ümumi sahəsi 1556.9 min kvadratmetr olan yeni yaşayış evləri, 66209 şagird yerlik ümumtəhsil məktəbləri, 257 çarpayılıq xəstəxana. növbədə 793 nəfəri qəbul edən ambulatoriya-poliklinika müəssisəsi, 4935 yerlik məktəbəqədər uşaq müəssisəsi, 1220 yerlik klub, Babək rayonunda "Duzdağ" fizioterapiya və Naxçıvan şəhərində əyləncə idman, Lənkəran rayonunda uşaq sağlamlıq və "Qafqaz" turist istirahət mərkəzləri, Gəncə şəhərində, Qazax, Qəbələ və Zaqatala rayonlarında müalicə diaqnostika mərkəzləri, Bakı şəhərində Mərkəzi Gömrük Hospitalı, Muğam teatrı, Qəbələdə "Qafqaz" turizm istirahət və "Yengicə İstisu" sağlamlıq və istirahət kompleksləri, Balakən rayonunda avtovağzal binası, Ağdam, Salyan, Kürdəmir, Oğuz, Sabirabad, Biləsuvar və Qu-sar rayonlarında olimpiya idman kompleksləri, Zaqatala və Lənkəran rayonların-

ton məhsul götürülmüşdür. 2007-ci ilə nisbətən şəkər çuğundurunun istehsalı 21.2 faiz və ya 31.8 min ton artmışdır.

Kartof istehsalı sahəsində son illər yüksək nəticələr əldə edilmiş və 2008-ci ildə onun istehsalı 2007-ci ilə nisbətən 3.8 faiz artaraq 1077.0 min tona çatmışdır.

Bitkiçilikdə tərəvəzçilik mühüm yer boşaldılmış gəmilərin sayı 4,8 faiz, yük tutur və ilbəil onun istehsalı artmaqdadır. 2008-ci ildə 1228.3 min ton tərəvəz məhsulları istehsal edilərək tərəvəzçilik tarixində ən yüksək nəticə əldə edilmişdir.

2008-ci ildə əksər növ meyvələrin artması hesabına rekord miqdarda -711.5 min ton meyvə və giləmeyvə istehsal edilmiş, üzüm istehsalı 115.2 min tona çatmışdır. 2007-ci illə müqayisədə meyvə istehsalı 5.0 faiz, üzüm istehsalı 11.4 faiz artmışdır. Yaşıl çay yarpağı istehsalı isə 33.2 faiz azalaraq 323 ton olmuşdur.

Bitkiçilikdə aqrotexniki tədbirlərin keçirilməsi sayəsində görülən işlərin keyfiyyətinin yüksəldilməsi, xüsusilə mineral gübrələrin tətbiqinin genişləndirilməsi məhsuldarlığın artırılmasına öz müsbət təsirini göstərmişdir. Belə ki, 2008-ci ildə taxılın istehsalında əldə edilən artımın 9.4 faizi, o cümlədən payızlıq və yazlıq buğdanın 9.0 faizi, uyğun olaraq dən üçün günəbaxanın, kartofun, meyvənin, üzümün təxminən yarısı və şəkər çuğundurunun 86 faizi məhsuldarlığının yüksəldilməsi hesabına əldə edilmişdir.

Heyvandarlıq kənd təsərrüfatının mühüm sahələrindən biridir. 2009-cu il yanvarın 1-i vəziyyətinə ölkədə 2549.5 min baş iri buynuzlu mal-qara, 8203.4 min baş qoyun və keçi mövcud olmuşdur. 2008-ci il yanvarın 1-nə nisbətən iri buynuzlu mal-qaranın sayı 1.5 faiz, qoyun və keçilərin sayı isə 1.2 faiz artmışdır.

2008-ci ildə diri çəkidə ət istehsalı 302.8 min ton və ya əvvəlki ilin səviyyəsindən 2.9 faiz çox, 1381.6 min ton süd (3.0 faiz çox), 1008.7 milyon ədəd yumurta(15.8 faiz çox) və 14.8 min ton yun (3.8 faiz çox) istehsal edilmişdir.



### 6.6.1. Nəqliyyat

**Nəqliyyat.** Ölkənin nəqliyyat sektorunda bir sıra transmilli layihələrin reallaşması, Bakı-Tbilisi-Ceyhan neft ixrac boru kəmərinin və Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri xəttinin fəaliyyəti ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya olunmasına ciddi təkan vermişdir. Bununla yanaşı, nəqliyyat infrastrukturuna böyük həcmdə investisiyaların yönəldilməsi, nəqliyyatın hərəkət heyətinin yeniləşməsi, yeni avtomobil yollarının çəkilişi, yenidən qurulması və s. nəqliyyat sektoruna öz müsbət təsirini göstərmişdir.

2008-ci il ərzində nəqliyyat sektorunda yük daşınması 2007-ci illə müqayisədə 9,2 faiz, yük dövriyyəsi isə 13,6 faiz artmış, son beş ildə bu göstəricilərin artımı müvafiq olaraq 1,7 və 4,0 dəfə təşkil etmişdir.

Nəqliyyat vasitələri ilə daşınmış 183,0 milyon ton yükün 48,1 faizi avtomobil, 30,4 faizi boru kəməri, 15,0 faizi dəmir yolu, 6,5 faizi dəniz nəqliyyatı vasitəsilə həyata keçirilmişdir.

2008-ci ildə ümumilikdə nəqliyyat xidmətlərinin dəyər ifadəsində həcmi əvvəlki ilə nisbətən 13,3 faiz artmışdır.

Özəl bölmənin nəqliyyat vasitələri ilə yük daşınması 11,6 faiz artmış, bu böl-mənin yük daşınmasında payı 69,4 faiz təşkil etmişdir.

2008-ci ilin yekunları üzrə nəqliyyat sektorunda sərnişin nəqliyyatı vasitələri ilə 1,2 milyard nəfər və ya əvvəlki illə müqayisədə 8,2 faiz çox sərnişin daşınmışdır. Bu sahədəki fəaliyyətin 83,2 fa-izi qeyri-dövlət bölməsinin payına düşmüş, sərnişinlərin 83,2 faizi avtomobil, 16,1 faizi metro nəqliyyatı ilə daşınmışdır.

### 6.6.2. Dəmiryol nəqliyyatı

**Dəmir yolu nəqliyyatı** ilə 27,4 milyon ton və ya 2007-ci illə müqayisədə 3,1 fa-iz az yük daşınmışdır. Demir yolunda orta hesabla sutka ərzində yüklənmiş vaqonların sayı 5,0 faiz azal-

da hava limanı, ölkənin müxtəlif bölgələrində 317.4 kilometr uzunluğunda fiber-optik magistral kabel xətti və 126.4 min nömrəlik avtomat telefon stansiyaları və digər obyektlər istifadəyə verilmişdir.

2008-ci ildə təbiətin mühafizəsi obyektlərinin inşasına 97.6 milyon manat məbləğində investisiya yönəldilmiş və onun 78.3 milyon manatı su mənbələrinin mühafizəsinə və istifadəsinə, 18.4 milyon manatı torpaqların mühafizəsi və səmərəli istifadəsinə, 0.9 milyon manatı atmosferin mühafizəsinə sərf edilmişdir.

2008-ci ildə xarici mənbələrdən əsas kapitala yönəldilmiş xarici investisiyanın həcmi 2224.7 milyon manat təşkil edərək əvvəlki ilin müvafiq dövründəkindən 16.3 faiz az olmuşdur.

Xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən il ərzində əsas kapitala yönəldilmiş xarici investisiyanın 2061.9 milyon manatı (92.7 faizi) Böyük Britaniya, ABŞ, Yaponiya, Norveç, Türkiyə, Koreya Respublikası, Çexiya və Almaniya investorlarına məxsusdur.

## 6.5. Kənd təsərrüfatı

**Kənd təsərrüfatı.** Ölkənin aqrar böl-məsi 2008-ci ili uğurla başa vurmuşdur. Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi, "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli 1907 nömrəli sərəncamına uyğun olaraq kənd təsərrüfatı məhsulları istehsalçılarının məhsul istehsalı üçün istifadə etdikləri yanacağın, motor yağlarının və mineral gübrələrin dəyərinin orta hesabla 50 faizinin dövlət tərəfindən ödənilməsi, eləcə də buğda istehsalçılarının maddi marağının artırılması və buğda istehsalının stimullaşdırılması məqsədi ilə dövlət büdcəsinin vəsaiti hesabına əkilən hər hektar üçün 40 manat yardımın verilməsi, məhsuldarlığa təsir göstərən reproduksiyalı toxum materialının satışma görə hər kq-a 30-40 faiz əlavə



maliyyə vəsaitinin ayrılması, habelə həftənin altıncı və bazar günləri kənd təsərrüfatı məhsullarının satışı üzrə yarmarkaların təşkil edilməsi yetişdirilən məhsulun itkisiz yığılmasına müsbət təsir etmiş və 2008-ci ildə 2007-ci ilə nisbətən əksər kənd təsərrüfatı məhsullarının istehsalında artım əldə edilmişdir.

Bütün bunlar 2008-ci ildə kənd təsərrüfatının ümumi məhsulunun 2007-ci ildəkinə nisbətən 6.1 faiz, o cümlədən bit-kiçilik məhsullarının 7.2 faiz, heyvandarlıq məhsullarının 4.1 faiz artmasını təmin etmiş, son beş ildə isə kənd təsərrüfatının ümumi məhsulu 25.1 faiz artmışdır.

2008-ci ildə qarğıdalı da daxil olmaqla 904.7 min hektar sahədən ilkin çəkidə rekord səviyyədə – 2498.3 min ton taxıl məhsulu toplanmış, hektarın orta məhsuldarlığı 2007-ci ilə nisbətən 0.5 sentner artaraq 27.6 sentnerə yüksəlmişdir.

Dənli və dənli paxlalıların tərkibində payızlıq və yazlıq buğda əsas yer tutur. Belə ki, 2008-ci ildə istehsal olunmuş taxıl məhsulunun 67.1 faizini və ya 1677.5 min tonunu buğda təşkil etmişdir.

Qarğıdalı dəninin istehsalı da ilbəil artmaqdadır. Ötən il istehsal olunmuş taxılın 6.5 faizi və ya 162.0 min tonu onun payına düşür. Qeyd etmək lazımdır ki, əsasən payızlıqların hesabına dənli və dənli paxlalıların əkin sahəsinin 2007-ci ilə nisbətən 22.3 faiz və ya 165.2 min hektar artması ümumi istehsala müsbət təsir etmişdir.

Bitkiçiliyin mühüm sahəsi olan pambıqçılığın inkişaf etdirilməsi üçün əlverişli şəraitin yaradılması sahənin müəyyən dövrdə canlanmasına təsir etsə də, 2006-cı ildən başlayaraq bəzi səbəblərə görə yenidən geriliyə yol verilmiş və 2008-ci ildə xam pambığın istehsalı 2007-ci illə müqayisədə 44.7 faiz azalaraq 55.4 min ton olmuşdur. Eyni vəziyyət tütünçülük sahəsində də özünü göstərmişdir. 2008-ci ildə 2.5 min ton məhsul istehsal edilmiş, bu isə 2007-ci illə müqayisədə 14.7 faiz az olmuşdur.

2008-ci ildə ölkədə 6.6 min hektar sahədə emal üçün şəkər çuğundurunun əkini aparılmış və həmin sahələrdən 181.5 min

mış, boşaldılmış yük vaqonlarının sayı isə 8,5 faiz artmışdır. Vaqonların orta sutkalıq yüklənməsi demir yolunun Şimal istiqaməti üzrə 8,8 faiz azalma ilə, Qərb istiqaməti üzrə 5,7 faiz, Cənub istiqaməti üzrə isə 9,8 faiz çoxalma ilə müşahidə olunmuşdur. Dəmir yolunda yük dövriyyəsi əvvəlki illə müqayisədə 3,6 faiz azalmışdır.

### 6.6. 3. Dəniz nəqliyyatında

**Dəniz nəqliyyatında** daşınmış yüklərin həcmi 17,0 faiz artmış və 11,9 milyon ton təşkil etmişdir. Yüklərin 71,0 faizini neft yükləri, 29,0 faizini isə quru yüklər təşkil etmiş və bütün daşımalar xarici əlaqə üzrə həyata keçirilmişdir. Bu nəqliyyat növündə yük dövriyyəsi 1,5 faiz artmış və 6,1 milyard ton-km təşkil etmişdir. Ötən ildə isə donanmaya yükgötürmə qabiliyyəti 34,8 min ton olan daha iki Ro-Ro tipli quru yük daşıyan gəmi və iki maye yük daşıyan gəmi alınmış və gəmilərin sayı 79-a çatdırılmışdır. İl ərzində **Bakı Beynəlxalq Dəniz Ticarət Limanında** 5,4 milyon ton və ya demək olar ki, əvvəlki illə müqayisədə eyni səviyyədə yükləmə-boşaltma işləri yerinə yetirilmişdir. İşlənmiş yüklərin 84,7 faizini təşkil edən beynəlxalq tranzit yüklərin həcmi 2,1 faiz, idxal yüklərinin həcmi 19,5 faiz azalmış, ixrac yüklərinin həcmi isə 28,5 faiz artmışdır. 2009-cu ilin əvvəlinə limanda göndərilmək üçün 35,0 min ton idxal yüklərin qalığı olmuş-dur. İl ərzində tam registr tutumu 2,9 mil-yon ton olan 539 gəmi limana daxil olmuş, onların 435-i boşaldılmış, 104-ü isə k yüklənmişdir. Əvvəlki illə müqayisədə yüklənmiş gəmilərin sayı isə 2,1 dəfə artmışdır.

### 6.6. 4. Avtomobil nəqliyyatı

Nəqliyyatda daha böyük xüsusi çəkiyə malik olmaqla ən sabit sürətlə inkişaf edən sahə **avtomobil nəqliyyatıdır**. İqtisadiyyatın əsas sahələrində, o cümlədən sənaye, tikinti və kənd təsərrüfatındakı iqtisadi inkişaf ölkə daxilində avtomobil



nəqliyyatına olan tələbatı daha da artırmış, avtonəqliyyat vasitələrinin sayı xeyli çoxalmışdır. 2008-ci ildə avtomobil nəqliyyatı ilə fiziki şəxslərin – fərdi sahibkarların fəaliyyəti də nəzərə alın-maqla 88,0 milyon ton yük, 1,0 milyard sərnişin daşınmış və 2007-ci illə müqayisədə müvafiq olaraq 7,8 və 7,2 faiz artmışdır. Sərnişinlərin 96,7 faizi avtobus, 3,3 faizi isə minik taksilərinin xidmətlərindən istifadə etmişlər. Avtomobil nəqliyyatı ilə yük və sərnişin dövriyyəsində artım 8,9 faiz səviyyəsində olmuşdur.

2008-ci ildə nəqliyyat vasitələrinin sayı 2007-ci ilə nisbətən 86.7 min ədəd artaraq 860.1 min ədədə çatmışdır. Nəticədə əhalinin hər 1000 nəfərinə düşən avtomobillərin sayı son 5 ildə 1,7 dəfə artaraq 99 ədəd olmuşdur. Avtomobillərin beşdə dörd hissəsini minik avtomobilləri, 13,1 faizini yük avtomobilləri, 3,4 faizini avtobuslar, qalan hissəsini isə xüsusi təyinatlı və digər avtomobillər təşkil etmişdir.

### 6.6. 5. Metro nəqliyyatı

**Metro nəqliyyatının** xidmətlərindən istifadə edən sərnişinlərin sayı artmaqdadır. Ötən ildə metro nəqliyyatı ilə 200,4 milyon və ya 14,1 faiz çox sərnişin daşınmışdır. Metropolitenin hərəkət heyəti genişləndirilmiş, il ərzində istismar üçün 36 ədəd sərnişin vaqonu alınmış, "Nəsimi" stansiyası istismara verilmişdir.

### 6.6. 6. Hava nəqliyyatı

**3.7.3. Hava nəqliyyatı** ilə il ərzində 1,4 milyon sərnişin daşınmış və sərnişinlərin 92,7 faizi dövlət bölməsinə, 7,3 faizi isə özəl müəssisələrə məxsus hava gəmiləri ilə daşınmışdır. Nəticədə dövlət bölməsində sərnişindaşıma 9,7 faiz azalmış, qeyri-dövlət bölməsində isə 9,4 faiz çoxalmışdır. İl ərzində hava nəqliyyatı ilə 42,9 min ton yük daşınmış, onun 86,5 faizi qeyri-dövlət bölməsinin payına düşmüşdür.

### 6.6. 7. Boru nəqliyyatı

Yük daşımasının artımında əsas rol oynamış **magistral neft kəmərləri** ilə 44,4 milyon ton neft nəql edilmişdir. Nəqletmənin dörddə üç hissəsi ölkənin əsas nəqliyyat infrastrukturlarından olan BTC neft ixrac kəməri ilə həyata keçirilmiş və ötən il ərzində bu kəmər vasitəsilə Bakıdan 32,8 milyon ton və ya 15,3 fa-iz çox neft ötürülmüşdür. İlk dəfə olaraq Qazaxıstan neftinin BTC kəməri ilə nəqlinə başlanılmış və 2008-ci ilin son üç ayında bu kəmərlə 285,1 min ton Qazaxıstan nefti ötürülmüşdür. Ümu-milikdə, ölkənin magistral neft kəmərləri şəbəkəsi ilə nəql edil-miş neftin həcmi əvvəlki illə müqayisədə 11,0 faiz artmışdır.

Ötən il **magistral qaz kəmərləri** ilə 11,3 milyon ton və ya əvvəlki illə müqayisədə 52,7 faiz çox qaz nəql edilmişdir. Nəql edilmiş qazın 29,0 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilmiş, kəmərlə 4,7 milyard kubmetr qaz ötürülmüşdür. Magistral qaz kəmərləri üzrə yük dövriyyəsinin həcmi isə 2,6 dəfə artmışdır.

### 6.7. Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi

2008-ci ilin yanvar-noyabr aylarında **Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi** üzrə Azərbaycan ərazisində 43,8 mil-yon ton və ya ötən ilin yanvar-noyabr ayları ilə müqayisədə 2,7 faiz çox yük, 175,4 milyon nəfər və ya 6,9 faiz çox sərnişin daşınmış-dır. Dəhliz üzrə yük daşınmasında dəmir yolu nəqliyyatı 54,7 fa-iz, avtomobil nəqliyyatı 31,3 faiz, dəniz nəqliyyatı 14,0 faiz paya malik olmuş, dəhlizdə bu nəqliyyat növləri ilə daşınmış yüklər ölkənin nəqliyyat sektorunda daşınmış bütün yüklərin 26,5 faizi-ni təşkil etmişdir.

Dəhliz üzərində həyata keçirilmiş daşımalardan 239,9 mil-yon manat və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 12,5 faiz çox gəlir əldə edilmiş və artım dəmir yolu nəqliyyatında 11,1 fa-



iz, dəniz nəqliyyatında 15,4 faiz, avtomobil nəqliyyatında 14,4 faiz səviyyəsində müşahidə olunmuşdur.

### 6.7. 1. Rabitə

**Rabitə.** Ölkənin rabitə sektoru stabil inkişaf edən sahələr-dən biridir. 2008-ci ildə telekommunikasiya və poçt müəssisələri tərəfindən təsərrüfat subyektlərinə və əhaliyə faktiki qiymətlərlə 925,7 milyon manatlıq və ya əvvəlki illə müqayisədə 28,2 faiz çox rabitə xidməti göstərilmiş, beş il ərzində isə 3.0 milyard manatlıq gəlir əldə olunmuş və 3.8 dəfə artmışdır. Əldə olunmuş gəlirin dörddə üç hissəsi özəl sektorun payına düşmüş və bu sektorda gəlirin həcmi 4.5 dəfə artmışdır.

Göstərilən xidmətlərdən əldə olunmuş gəlirlərin 71,8 faizi mobil telefon rabitəsindən yaranmış və 2007-ci illə müqayisədə bu xidmətlərin həcmi 30,1 faiz çoxalmışdır.

Mobil telefon abunəçilərinin sayı bir il ərzində 1,4 milyon, beş ildə 4.9 milyon artmış və 2009-cu ilin əvvəlinə abunəçilərdə 5.9 milyon nömrə olmuşdur. Hazırda ölkə əhalisinin hər 100 nəfərinə düşən mobil nömrələrin sayı 68 ədəd təşkil edir.

Rabitə xidmətlərinin həcminin artımı ölkənin bütün regi-onlarında müşahidə olunmuş, Abşeron iqtisadi rayonunda 15.5 faiz, Quba-Xaçmaz iqtisadi rayonunda 16,4 faiz, Dağlıq Şirvan iqtisadi rayonunda 29,8 faiz, Şəki-Zaqatala iqtisadi rayonunda 17,8 faiz, Aran iqtisadi rayonunda 15,8 faiz, Lənkəran iqtisadi rayonunda 15,4 faiz, Gəncə-Qazax iqtisadi rayonunda 13,2 faiz artım olmuşdur.

### 6.7. 2. İnformasiya və kommunikasiya texnologiyaları

2008-ci ilin yanvar-noyabr aylarında İKT sektorunda fəa-liyyət göstərmiş müəssisələr tərəfindən istehsal olunmuş məhsul və göstərilmiş xidmətlərin həcmi faktiki qiymətlərlə 975,7 mil-yon manat olmuş və 28,4 faiz artmışdır. Artım ötürücü cihazla-rın istehsalında 2,1 dəfə, nəzarət-ölçü cihazlarının istehsalında

2,0 dəfə, texnoloji proseslərin tənzimlənməsi və nəzarət cihazlarının quraşdırılmasında 43,0 faiz, kompüter periferiya avadanlıqlarının topdan satışı və proqram təminatında 9,8 dəfə, məlumat bazaları ilə əlaqədar fəaliyyətdə 19,2 dəfə, ofis avadanlıqlarının istehsalında 66,7 faiz, hesablama texnikasının və ofis maşınlarının təmiri və onlara texniki xidmət göstərilməsində 7,4 dəfə, elektrik rabitəsində 28,7 faiz, hesablama texnikası və qurğu vasitələri üzrə məsləhətlərdə 3,2 dəfə, elektron və radioelementlərin istehsalında 3,1 dəfə olmuşdur.

## 6.8. Ticarət və pullu xidmət

**Ticarət və pullu xidmət.** 2008-ci ildə istehlak bazarı sabit və dinamik inkişaf etməkdə davam etmiş, ölkə əhalisinə 14.3 milyard manatlıq və ya 2007-ci illə müqayisədə 18.8 faiz çox geniş çeşidli istehlak malları satılmış və pullu xidmətlər göstərilmişdir. Artımın 63.7 faizi ticarət fəaliyyətinin, 36.3 faizi əhaliyə göstərilən pullu xidmətlərin hesabına təmin edilmişdir. 2003-cü illə müqayisədə əmtəə dövriyyəsi 1.9 dəfə, əhaliyə göstərilən pullu xidmətlərin həcmi 3.6 dəfə artmışdır.

Son beş ildə adambaşına düşən əmtəə dövriyyəsinin həcminə dair göstəricidə də ciddi artım müşahidə olunmuşdur. Belə ki, 2003-cü ilə nisbətən 2008-ci ildə adambaşına düşən əmtəə dövriyyəsinin həcmi 908.0 manat artaraq 1285.4 manata bərabər olmuşdur.

Əhalinin gəlirlərinin artması ilə əlaqə-dar onların alıcılıq qabiliyyətinin yüksəl-məsi pərakəndə əmtəə dövriyyəsinin və əhaliyə göstərilən pullu xidmətlərin kifayət qədər yüksək artım sürətinin saxlanılmasını təmin etmişdir. 2008-ci il ərzində hər ay orta hesabla ticarət və xidmət şəbəkələrindən hər bir ölkə sakini 140.5 manatlıq və ya əvvəlki ildəkindən 41.5 manat çox müxtəlif istehlak malları almış və pullu xidmətlərdən istifadə etmişdir.

İstehlak bazarında özəl sektorun ticarət və xidmət fəaliyyəti daha da genişlənmiş və istehlakçıların alıcılıq tələbatının



ödənilməsində aparıcı yer tutmuşdur. Özəl müəssisələr tərəfindən 13.3 milyard manatlıq istehlak malları satılmış və pullu xidmətlər göstərilmiş, pərakəndə əmtəə dövriyyəsinin və əhaliyə göstərilən pullu xidmətlərin real artımının 89.5 faizi bu müəssisələrin fəaliyyəti hesabına təmin edilmişdir.

2008-ci ildə pərakəndə ticarət və iaşə şəbəkələrində əhaliyə 10.9 milyard manatlıq və ya 2007-ci ildəkindən 16.1 faiz çox istehlak malları satılmış və iaşə xidmətləri göstərilmişdir.

Əhalinin həyat səviyyəsinin yüksəlməsi əmtəə bazarının strukturunun formalaşmasına öz müsbət təsirini göstərmiş, ticarət müəssisələrində satış qiymətlərinin nisbətən daha baha olmasına baxmayaraq, bazar və yarmarkalar ilə müqayisədə bu müəssisələrdə əmtəə satışı nəzərəçarpacaq dərəcədə yüksəlmişdir. Hüquqi şəxs statuslu və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fərdi sahibkarların ticarət "müəssisələrində pərakəndə əmtəə dövriyyəsinin real həcmi 2007-ci ilə nisbətən 24.0 faiz artdığı halda, bazar və yarmarkalar üzrə bu artım 7.2 faiz təşkil etmişdir.

Pərakəndə əmtəə dövriyyəsinin ümumi artımının 78,9 faizi ticarət müəssisələrinin, 21,1 faizi isə yarmarka və bazarların ticarət fəaliyyəti sayəsində yaranmışdır.

2008-ci ildə ticarət şəbəkəsindən hər bir ölkə sakini orta hesabla ayda 107.1 manatlıq və ya 2007-ci illə müqayisədə 31.5 manat çox müxtəlif istehlak malları almışdır. Artım ticarət müəssisələrində 20.5 manat, bazar və yarmarkalarda 11.0 manat təşkil etmişdir.

Pərakəndə əmtəə dövriyyəsinin artımının 99.5 faizi özəl müəssisələrin fəaliyyəti sayəsində təmin edilmiş və əhaliyə 10.8 milyard manatlıq və ya 16.2 faiz çox istehlak malları satılmışdır.

Əhaliyə 290.6 milyon manatlıq və ya 2007-ci ildəkindən 34.9 faiz, 2003-cü illə isə müqayisədə 4.2 dəfə çox iaşə xidmətləri göstərilmiş, artımın 96.6 fa-izi özəl müəssisələrin hesabına formalaşmışdır. Özəl iaşə müəssisələri üzrə dövriyyənin real həcmi 35.9 faiz artaraq 275.0 milyon manat olmuşdur.

2008-ci il ərzində əhaliyə 3.4 milyard manatlıq və ya 29,7 faiz çox pullu xidmət göstərilmişdir. Artımın 63,9 fa-izini özəl sektorun müəssisələri təmin etmişdir. Bu sektorun müəssisələri tərəfindən əhaliyə göstərilən pullu xidmətlərin həcmi 2007-ci ilin səviyyəsini 24,9 faiz üstələyərək 2491,9 milyon manata çatmışdır.

## 6.9. Xarici ticarət

Xarici ticarət. 2008-ci ildə Azərbaycanda fəaliyyət göstərən hüquqi və fiziki şəxslər dünyanın 140 dövləti ilə ticarət əlaqələri qurmuşdur. Bu dövrdə xarici ticarət dövriyyəsinin həcmi 54.9 milyard ABŞ dolları o cümlədən ixrac 47.7 milyard, idxal 7.2 milyard dollar təşkil etmiş, 40.5 milyard dollarlıq müsbət saldo yaranmışdır. 2007-ci illə müqayisədə xarici ticarət dövriyyəsinin ümumi həcmi 4.7 dəfə, o cümlədən idxal 25.4 faiz, ixrac 7.9 dəfə artmışdır.

Dövriyyənin 52.8 faizi, o cümlədən idxalın 28.4 faizi, ixracın 56.5 faizi Avropa Birliyi ölkələrinin hesabına formalaşmışdır. Bu ölkələrlə ticarət dövriyyəsinin həcmi 2007-ci ilin göstəricisindən 8.7 dəfə, o cümlədən idxal 21.4 faiz, ixrac 16.1 dəfə çox olmuşdur.

Demokratiya və iqtisadi inkişaf uğrunda təşkilata (GUAM) üzv olan ölkələrlə ticarət dövriyyəsinin həcmi 1288.1 milyon dollar, o cümlədən idxal 624.9 milyon dollar, ixrac 663.2 milyon dollar təşkil etmiş, 2007-ci ilə nisbətən müvafiq olaraq 41.3 faiz, 16.1 faiz və 1.8 dəfə artmışdır.

İdxal-ixrac əməliyyatlarının 35.3 fa-izi İtaliya, 11.4 faizi Amerika Birləşmiş Ştatları, 6.7 faizi İsrail, 4.6 faizi Hindistan, 4.5 faizi Fransa, 3.5 faizi Rusiya, 2.8 faizi İspaniya, 2.6 faizi Niderland, 2.6 faizi Türkiyə, 2.6 faizi İndoneziya, 2.4 faizi Birləşmiş Kralııq, 1.8 faizi Çin, 19.2 faizi isə digər ölkələrlə həyata keçirilmişdir.

Mal mübadiləsinin 43.8 faizi, o cümlədən idxalın 79.1 faizi, ixracın 38.6 faizi sərbəst dönərli valyuta sövdələşmələri yolu ilə



həyata keçirilmiş, bu əməliyyatların həcmi 2007-ci ilə nisbətən 2.6 dəfə artmışdır.

Ticarət əməliyyatlarının 51.9 faizi, o cümlədən ixracın 59.7 faizi müəssisə və obyektlərin tikintisi haqqında saziş-öhdəlik hesabına malların keçirilməsi yolu ilə aparılmışdır.

İdxal əməliyyatlarının 18.8 faizi Rusiya, 11.3 faizi Türkiyə, 8.4 faizi Almaniya, 7.9 faizi Ukrayna, 6.7 faizi Çin, 5.4 faizi Birləşmiş Krallıq, 3.7 faizi Amerika Birləşmiş Ştatları, 3.4 faizi Finlandiya, 3.4 faizi Yaponiya, 2.8 fa-izi Qazaxıstan, 2.6 faizi İtaliya, 2.3 faizi Koreya Respublikası, 1.9 faizi Fransa, 1.5 faizi Hindistan, qalan 19.9 faizi isə digər ölkələrlə aparılmışdır.

Ölkəmizə gətirilən məhsulların 30.8 faizini maşın və mexanizmlər, elektrotexnika avadanlığı, 17.0 faizini quru, hava və su nəqliyyatı vasitələri, 15.7 faizini ərzaq malları, 10.6 faizini az qiymətli metallar və onlardan hazırlanmış məmulatlar, 6.1 faizini kimya sənayesi məhsulları, 4.7 faizini mineral məhsullar, 3.4 faizini plastik kütlə, kauçuk, rezin və onlardan hazırlanmış məmulatlar, qalan 11.7 faizini digər mallar təşkil etmişdir. 2007-ci illə müqayisədə plastik kütlə, kauçuk, rezin və onlardan hazırlanmış məmulatların idxalı 34.7 faiz, ərzaq malları 23.9 faiz, kimya sənayesi məhsulları 30.2 faiz, maşın və mexanizmlər, elektrotexnika avadanlığı 27.9 faiz, quru, hava və su nəqliyyatı vasitələri 37.7 faiz, az qiymətli metallar və onlardan hazırlanmış məmulatlar 8.1 faiz artmış, ayaqqabı, baş geyimləri idxalı 28.3 faiz azalmışdır.

Ayrı-ayrı malların göstəricilərinə nəzər saldıqda, 2008-ci ildə düyünün idxalı 2007-ci illə müqayisədə 1.7 dəfə, bitki piyləri və yağları 15.7 faiz, sement klinkerləri və sement 39.1 faiz, alüminium filizi və konsentratları 19.5 faiz, rezin şinlər 8.8 faiz, uzununa doğranmış meşə materialları 1.3 faiz, polad prokatı 29.8 faiz, avtobus 2.3 dəfə, minik avtomobillərinin idxalı 25.4 faiz artmış, buğdanın həcmi 7.2 faiz, quş əti 10.3 faiz, kərə yağı 39.4 faiz, çay 13.5 faiz, şəkər 17.5 faiz, meyvə və tərəvəz şirələri 58.7 faiz, siqaret 2.3 faiz, araq 42.3 faiz, tütün 23.5 faiz, metal borular idxalı isə 10.6 faiz azalmışdır.

İxrac əməliyyatlarının 40.2 faizi İtaliya, 12.6 faizi Amerika Birləşmiş Ştatları, 7.6 faizi İsrail, 5.1 faizi Hindistan, 4.9 faizi Fransa, 3.1 faizi İspaniya, 3.0 faizi İndoneziya, 2.8 faizi Niderland, 2.0 faizi Çili, 1.9 faizi Birləşmiş Krallıq, 1.5 faizi Koreya Respublikası, 1.3 faizi Türkiyə, 14.0 faizi isə digər ölkələrlə həyata keçirilmişdir.

Xarici ölkələrə göndərilən malların içərisində mineral məhsullar üstünlük təşkil etmiş, eyni zamanda ərzaq məhsulları, az qiymətli metallar və onlardan hazırlanmış məmulatlar, quru, hava və su nəqliyyatı vasitələri, plastik kütlə, kauçuk, rezin və onlardan hazırlanmış məmulatlar, kimya sənayesi məhsulları və s. ixrac olunmuşdur. 2007-ci illə müqayisədə mineral məhsulların, kimya sənayesi məhsullarının, plastik kütlə, kauçuk, rezin və onlardan hazırlanmış məmulatlar 1.7 dəfə, az qiymətli metallar və onlardan hazırlanmış məmulatların, ərzaq mallarının ixracı artmış, toxuculuq materialları və məmulatlarının, maşın və mexanizmlərin, elektrotexnika avadanlığın ixracı faiz azalmışdır.

Azərbaycandan ixrac olunan məhsullardan təzə tərəvəz 1.5 dəfə, tərə meyvə 42.4 faiz, bitki piyləri və yağlan 12.4 faiz, meyvə və tərəvəz konservləri 15.9 faiz, xam neft 12.4 dəfə, dizel yanacağı 13.4 faiz, mühərrik benzini 11.9 faiz, təbii qaz 2.4 dəfə, polietilen 2.1 dəfə, emal olunmamış alüminium 45.7 faiz çoxalmış, metal borular 10.6 faiz, çay 12.3 faiz, tütün 41.9 faiz, mazut yanacağı 42.3 faiz, ağ neft 34.4 faiz azalmışdır.

### 6.10. Təsərrüfat subyektlərinin xarakteristikası

**Təsərrüfat subyektlərinin xarakteristikası.** Sahibkarlığın inkişafına diqqətin və dövlət köməyinin daha da artması nəticəsində bazar iqtisadiyyatının əsasım təşkil edən xüsusi mülkiyyət bir qədər də inkişaf etmiş, yeni müəssisə və təşkilatlar yaranmışdır. Son beş il ərzində ölkədə 27572 hüquqi şəxs statuslu yeni müəssisə qeydiyyatdan keçmiş və 2003-cü illə müqayisədə onların sayı 40.9 faiz artmış, bir il ərzində isə ölkədə 6867 və ya



2007-ci illə müqayisədə 8.8 faiz artaraq hüquqi şəxs statuslu müəssisələrin sayı 2008-ci ildə 86117-yə çatmışdır.

2008-ci ildə yeni yaradılmış müəssisələrin 1516-sı ticarət, 1363-ü tikinti, 428-i kənd təsərrüfatı və balıqçılıq, 469-u sənaye, 209-u nəqliyyat və rabitə, 2882-si isə xidmət sahələrində fəaliyyətə başlamışlar.

Bu dövrdə 440 müəssisə və təşkilat fəaliyyətini dayandırmış, qanunvericiliyə uyğun şəkildə dövlət qeydiyyatı orqanları tərəfindən ləğv edilmişdir.

Yeni yaradılmış müəssisələrin 6052-ni xüsusi, 214-nü dövlət, 452-ni üçün gəlirlərin 23.7 faizi ayrılmışdır. xarici müəssisə, onların filial və ya nümayəndəlikləri, 145-ni müştərək və 4-ü bələdiyyə və onların müəssisələri təşkil etmişdir.

Vergilər Nazirliyinin məlumatlarına əsasən, beş il ərzində 182 mindən çox, 2008-ci ildə isə 36.5 minə yaxın vətəndaş hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs kimi vergi orqanlarında qeydiyyatdan keçmişdir. Həmin şəxslərin 37.4 faizi Bakıda, 15.5 faizi Aran, 10.7 faizi Gəncə-Qazax, 9.2 faizi Abşeron, 7.8 faizi Lənkəran, 6.3 faizi Şəki-Zaqatala, 4.8 faizi Quba-Xaçmaz, 4.4 faizi Naxçıvan, qalanları isə ölkənin digər iqtisadi rayonlarında fəaliyyətə başlamışlar.

Azad sahibkarlığın və ölkə iqtisadiyyatının stabil və balanslaşdırılmış şəkildə inkişafının sürətləndirilməsi, yeni iş yerlərinin açılması üçün milli sahibkarlığın hərtərəfli dəstəklənməsi üzrə həyata keçirilən tədbirlər nəticəsində ölkədə xüsusi müəssisələrin sayı artmış və registrdə qeydə alınmış statistik vahidlərin 77.4 faizini təşkil etmişdir.

Ölkənin vergi orqanlarının məlumatına görə, 2009-cu il yanvarın 1-i vəziyyətinə vergi orqanlarında qeydiyyatdan keçmiş, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sayı 275 mini keçmiş, onların 43.3% ticarət, 20.8 % nəqliyyat və 9.6% kənd təsərrüfatı sahələrində fəaliyyət göstərmişdir.

2008-ci ildə ölkədə 122.9 min yeni, o cümlədən 89.6 min daimi iş yeri açılmışdır. Ümumilikdə isə, 2003-cü il oktyabrın 1-dən 2008-ci ilin sonunadək 766.3 min, o cümlədən 547.6 min

daimi iş yerləri yaradılmış, onların da əksəriyyəti regionların payına düşür.

## 6.11. Özəlləşdirilmə, istehlak qiymətləri və xidmət tarifləri

**Özəlləşdirilmə**. Ölkədə torpaq islahatının həyata keçirilməsi, torpağın xüsusi mülkiyyətə verilməsi nəticəsində, 2009-cu il yanvarın 1-i vəziyyətinə statistik vahidlərin Dövlət registrinə daxil edilmiş ailələrin sayı 850 mini keçmişdir.

Özəlləşdirmə başlanandan 2009-cu ilin əvvəlinədək ümumi sahəsi 22.8 milyon kvadratmetr olan 417.1 min mənzil və ya nəzərdə tutulan bütün mənzillərin 68.8 faizi özəlləşdirilmişdir. 2008-ci ildə ölkə əhalisi tərəfindən ümumi sahəsi 865.2 min kvadratmetr olan 13.0 min mənzil özəlləşdirilmişdir. Mənzillərin 7.5 mini və ya 57.8 fa-izi Bakı şəhərinin sakinləri tərəfindən özəlləşdirilmişdir.

İstehlak mallarının qiymətləri və xidmət tarifləri dekabr ayında noyabrla müqayisədə 0.4 faiz, o cümlədən ərzaq məhsulları 1.0 faiz ucuzlaşmış, xidmət tarifləri 0.5 faiz bahalaşmış, qeyri-ərzaq mallarının qiymətləri əvvəlki səviyyədə qalmışdır. 2008-ci ildə 2007-ci ilə nisbətən istehlak mallarının qiymətləri və xidmət tarifləri 20.8 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 28.6 faiz, qeyri-ərzaq mallarının qiymətləri 11.5 faiz, xidmət tarifləri 11.4 faiz bahalaşmışdır.

## 6.12. Əhalinin gəlirləri, əmək haqqı və sosial təminat

**Əhalinin gəlirləri** .2008-ci ildə əhalisinin həyat səviyyəsini səciyyələndirən göstəricilərdən biri olan əhalinin gəlirləri əvvəlki illə müqayisədə 37.8 faiz artaraq 20.1 milyard manata, adambaşına düşən məbləği isə 36.2 faiz artaraq 2343.2 manata çatmışdır. Gəlirlərin 66.1 faizi son istehlaka, 10.2 faizi vergilər, sosial sığorta və könüllü üzvlük haqlarının ödənilməsinə, 23.7 faizi isə



əmanətlərin və kapitalın artırılmasına sərf olunmuşdur. Yola saldığımız il ərzində əhalinin gəlirlərinin artım sürəti istehlak qiymətlərinin bahalaşmasının 17.0 faiz bəndi üstələmiş və real olaraq 14.1 faiz artmışdır.

Bir il ərzində xərclərin strukturunda son istehlaka, əmanətlərin və kapitalın artırılmasına sərf olunmuş xərclərin-xüsusi çəkisi müvafiq olaraq, 1.7 və 1.0 faiz bəndi artmış, vergilər, sosial sığorta və könüllü üzvlük haqlarının ödənil-məsinə sərf olunmuş xərclərin xüsusi çəkisi isə 2.7 faiz bəndi azalmışdır.

Son beş il ərzində əhalinin gəlirləri 3.5 dəfə artmış, 2003-cü ildə ölkə əhalisinin hər nəfərinə ayda orta hesabla 58.9 manat (və ya 60.0 ABŞ dolları) məbləğində gəlir düşmüşdüsə 2008-ci ildə həmin göstərici 195.3 manata (237.7 ABŞ dollarına) çatmışdır.

Ölkə əhalisinin həyat səviyyəsinin artmasını əhali tərəfindən gəlirlərin istifadə edilməsinin strukturundan da aydın görmək olar. 2003-cü ildə gəlirlərinin 16.5 faizi əhali tərəfindən kapital və əmanətlərin artırılmasına yönəldilirdisə, artıq 2008-ci ildə bu məqsədlər üçün gəlirlərin 23.7 faizi ayrılmışdır.

Əmək haqqı. Ölkənin iqtisadi və sosial sahələrində muzdla işləyənlərin orta aylıq əmək haqqı 2007-ci illə müqayisədə 24.2 faiz, 2003-cü ilə nisbətən isə 3.5 dəfə artaraq 268.0 manata çatmış və inflyasiya səviyyəsini 1.7 dəfə üstələmişdir. Sənaye müəssisələrin-də işləyənlərin orta aylıq əmək haqqı 428.9 manat, tikinti kompleksində – 406.7 manat, nəqliyyatda – 311.5 manat, rabitədə – 377.2 manat olmuşdur.

Son beş ildə minimum əmək haqqı dəfədən çox – 2003-cü ildəki 9 manatdan 2008-ci ildə 75 manatadək artırılmış və bununla əlaqədar "Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında" qərara uyğun olaraq büdcə təşkilatlarında çalışanların əmək haqlan da artırılmışdır. 2004-2008-ci illər ərzində səhiyyədə, sərhəd xidmətində, gömrükdə, hərbi qulluqda, feldyeger xidmətində, təhsil müəssisələrində, dəniz səviyyəsindən 1200 metrdən yüksəklikdə yerləşən müəssisə, idarə və təşkilatlarda, hüquq müəssisələrində

və həmçinin dövlət qulluğunda çalışan işçilərin maaşları artırılmışdır.

**Sosial təminat.** Ölkə vətəndaşlarının sosial təminatının qabaqcıl beynəlxalq təcrübə əsasında yenidən qurulması dövlət tərəfindən həyata keçirilən sosial-iqtisadi siyasətin strateji istiqamətlərindən biridir.

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 30 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı" pensiya təminatının daha da yaxşılaşdırılmasına yönəldilmiş və sığorta-pensiya sistemində həyata keçirilən islahatların növbəti mərhələsini müəyyənləşdirir.

İlkin məlumatlara əsasən, 2009-cu ilin əvvəlinə ölkədə 1270 min nəfər pensiyaçı olmuş və təyin olunmuş aylıq pensiyaların orta məbləği ötən il 96 manat təşkil edərək orta əmək haqqının 36 faizinə bərabər olmuşdur.

2006-cı ildən aztəminatlı ailələr üçün ünvanlı dövlət sosial yardım sistemi yaradılmış və cari ilin əvvəlinə 750, min nəfər ünvanlı dövlət sosial yardımı almış, bir nəfərə düşən yardımın məbləği 22 manat olmuşdur. Bundan başqa, əmək pensiyası almaq hüququna malik olmayan 285,2 min nəfərə 9,7 milyon manat məbləğində sosial müavinət verilmişdir.

## 6.13. Dövlət büdcəsi, kreditlər və əmanətlər

**Dövlət büdcəsi.** 2008-ci ilin yanvar-noyabr aylarında dövlət büdcəsinə daxil olmuş 9.4 milyard manat vəsaitin 55.9 faizi (5.2 milyard manatı) Vergilər Nazirliyi, 10.9 faizi (1.0 milyard manatı) Dövlət Gömrük Komitəsi tərəfindən təmin edilmiş, qalan 33.2 faizi isə digər gəlir mənbələri hesabına formalaşdırılmışdır.

Büdcənin gəlir hissəsi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 68.7 faiz və ya 3.8 milyard manat artmışdır.

Bu dövrdə vergi daxil olmalarının bütün növləri üzrə artım



müşahidə edilmiş və vergilərlə bağlı gəlirlər əvvəlki ilin eyni dövründəkindən 26.7 faiz çox olmuşdur.

Gəlirlərin 2.7 milyard manatı (29.0 faizi) hüquqi şəxslərin mənfəət (gəlir) vergisindən, 1.7 milyard manatı və ya 18.4 faizi əlavə dəyər vergisindən, 561.1 milyon manatı (6.0 faizi) fiziki şəxslərin gəlir vergisindən, 374.1 milyon manatı (4.0 faizi) aksız vergisindən, 415.8 milyon manatı (4.4 faizi) isə xarici iqtisadi fəaliyyətlə bağlı vergilərdən daxil olmuşdur.

Ötən il ərzində büdcədən 8.3 milyard manat və ya 2007-ci ilin eyni dövrü ilə müqayisədə 71.0 faiz çox vəsait xərclənmiş, büdcənin icrasında yaranmış 1106.5 milyon manatlıq profisit ümumi daxili məhsulun 3.2 faizini təşkil etmişdir.

Büdcə xərclərinin 4.0 milyard manatı (48.3 faizi) iqtisadiyyata investisiya qoyuluşuna, 745.7 milyon manatı (9.0 faizi) əhalinin sosial müdafiəsi və sosial təminatına, 794.3 milyon manatı (9.6 faizi) təhsilin, 274.6 milyon manatı (3.3 faizi) isə səhiyyə xidmətlərinin maliyyələşdirilməsinə sərf edilmişdir.

Xərclərin 23.8 faizini (2.0 milyard manatmı) əhaliyə əmək haqqı, pensiya və müavinət ödəmələr təşkil etmişdir.

**Kreditlər və əmanətlər.** 2009-cu il yanvar ayının 1-i vəziyyətinə ölkə ərazisində fəaliyyət göstərən bank-kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə verilmiş kreditlərin həcmi 7.2 milyard manat təşkil edərək əvvəlki ilin eyni dövrü ilə müqayisədə 53.0 faiz və ya 2.5 milyard manat artmışdır. Kredit qoyuluşunun 42.3 faizi dövlət, 55.3 faizi özəl banklar, 2.4 faizi isə qeyri-bank kredit təşkilatlar tərəfindən həyata keçirilmiş, verilmiş kreditlərin 67.9 faizini uzunmüddətli kreditlər təşkil etmişdir. Ödənilmə vaxtı keçmiş kreditlərin məbləği 159.8 milyon manat olmuşdur ki, bu da ümumi kreditləşmənin 2.1 faizini təşkil edir.

2009-cu il yanvarın 1-nə olan məlumatlara görə əhalinin banklardakı əmanətləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 29.6 faiz artaraq 1903.7 milyon manat təşkil etmişdir.

Əmanətlərin 1035.6 milyon manatı (54.4 faizi) milli, 868.1 milyon manatı (45.6 faizi) isə xarici valyuta şəklində qoyulmuş və əvvəlki ildəkinə nisbətən müvafiq olaraq 53.1 və 9.6 faiz art-

mışdır. Həmin vəsaitlərin 73.3 faizi (1395.8 milyon manatı) özəl banklara qoyulmuşdur.

## 6.14. Səhiyyə, ətraf mühit

**Səhiyyə.** Səhiyyə məsi və əhalinin sağalması üçün dövlət tərəfindən nəzərdə tutulan tədbirlər ötən ildə də uğurla həyata keçirilmişdir. Müasir tipli avadanlıqlarla təchiz olunmuş yeni xəstəxanalar, diaqnostika mərkəzləri, ambulatoriya-poliklinika müəssisələri tikilib istifadəyə verilmiş tibb müəssisələrində əsaslı təmir işləri aparılmış, köhnə avadanlıqlar yeniləri ilə əvəz olunmuşdur. Eyni zamanda, 2008-ci ilin fevral ayının 1-dən Səhiyyə Nazirliyinin strukturuna daxil olan və dövlət büdcəsindən maliyyələşən müalicə-profilaktika müəssisələrində əhaliyə pulsuz tibbi xidmətlər göstərilir.

İlkin məlumatlara görə, 2009-cu ilin əvvəlinə ölkədə 756 xəstəxana, 1712 ambulatoriya-poliklinika müəssisəsi, 906 qadın məsləhətxanası, uşaq poliklinika və ambulatoriyaları fəaliyyət göstərir və onlarda 33 min həkim və 63,2 min orta tibb işçisi çalışır. Bu gün əhalinin hər 10 min nəfərinə 39 həkim və 74 orta tibb işçisi düşür.

Son illər ərzində səhiyyənin prioritet sahələri üzrə qəbul olunmuş 9 Dövlət Proqramının həyata keçirilməsi ötən il də davam etdirilmişdir. Bu proqramlara uyğun olaraq şəkərli diabet, xroniki böyrək çatışmazlığı, irsi qan və yoluxucu xəstəliklərdən əziyyət çəkən xəstələr dövlət hesabına pulsuz müalicə alır və dərmanlarla təchiz olunur. Həyata keçirilən tədbirlər nəticəsində ayrı-ayrı yoluxucu xəstəliklərin sayı azalmış, difteriya və məxmərək kimi xəstəliklər ləğv edilmişdir.

Əvvəlki illərdə olduğu kimi, keçən ildə də qeydə alınmış xəstəliklər arasında tənəffüs orqanlarının, yoluxucu və parazitar, sinir sistemi və hissiyyat orqanlarının, qan dövranı sisteminin və həzm orqanlarının xəstəlikləri üstünlük təşkil etmişdir. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin məlumatlarına əsasən,



2008-ci ildə ölkədə göyöskürək ilə xəstələnənlərin sayı – 58 faiz, epidemik parotit ilə – 52 faiz, süzənək ilə – 38 faiz, ilk dəfə diaqnozlaşdırılmış malyariya ilə – 34 faiz azalmışdır. Ötən ildə 392 immun çatışmazlıq virusunun törətdiyi xəstəlik halı qeydə alınmışdır.

**Ətraf mühit.** Ətraf mühitin, o cümlədən atmosfer havasının, su ehtiyatlarının, torpağın, bitki və heyvanlar aləminin qorunması daim dövlətin diqqət mərkəzində olmuş, bir çox dövlət proqramları və milli strategiyalar qəbul edilmişdir. Çirklənmiş torpaqların təmizlənməsi, yeni meşə massivlərinin yaradılması, əhalinin içməli su ilə təmin olunması sahəsində bir sıra əhəmiyyətli işlər görülmüşdür.

Bioloji müxtəlifliyin qorunub saxlanması məqsədilə xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişaf etdirilməsi, yeni milli parkların, dövlət təbiət qoruqlarının yaradılması, mövcud qoruq ərazilərinin genişləndirilməsi kimi tədbirlər həyata keçirilir. Son beş ildə Bakı və Abşeron yarımadasının palçıq vulkanları qrupu, Eldar şamı, Korçay, Şahbuz dövlət qoruqları, eləcə də Abşeron, Ağgöl, Altıağac, Hirkan, Göygöl, Ordubad, Şahdağ və Şir-van milli parkları yaradılmışdır.

2009-cu ilin əvvəlinə Azərbaycanda ümumi sahəsi 177,4 min hektar olan 12 dövlət qoruğu və ümumi sahəsi 246,4 min hektar olan 9 milli park mövcud olmuşdur. Dövlət qoruqlarının və milli parkların saxlanmasına sərf edilmiş və-sait 2003-cü illə müqayisədə 5 dəfə artaraq 1,3 milyon manat təşkil etmişdir.

2008-ci ildə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin monitorinq xidmətləri tərəfindən 1551 müəssisədə müayinə aparılmış və nəticədə torpağın çirkləndirilməsi üzrə tətbiq olunmuş hər iki müəssisədən birində, su hövzələrinin çirkləndirilməsi üzrə hər üç müəssisədən birində və eləcə də atmosfer havasının çirkləndirilməsi üzrə müayinə edilmiş hər on müəssisədən birində atılan tullantıların icazə verilən həddən artıq olması qeydə alınmışdır.

Ötən il təbiəti mühafizə qanunvericiliyini pozduğuna görə 865 nəfər vəzifəli şəxs və vətəndaş inzibati məsuliyyətə cəlb edilmiş və onlardan tutulan cərimələrin məbləği 1,6 milyon manat

təşkil etmişdir. Bundan başqa, 1200 müəssisəyə qarşı iddia qaldırılmış və bu iddialara əsasən 240,1 min manat həcmində cərimə tutulmuşdur.

2009-cu ilin əvvəlinə ölkənin müəssisələrində 1,7 milyon ton təhlükəli tullantı olmuş və onların 1,2 milyon tonu metallurgiya emalında əmələ gələn IV dərəcəli şlaklardır.

## 6.15. Təhsil, elm, mədəniyyət

**Təhsil.** Ölkədə təhsil sektorunun inkişafına dair qəbul edilmiş 14 Dövlət Proqramının uğurla həyata keçirilməsi davam etdirilmişdir.

Təhsil sistemində aparılan islahatlar nəticəsində əhalinin təhsil səviyyəsi artır və bu gün 15 və yuxarı yaşda olan əhalinin hər 1000 nəfərindən 766-sı ali və tam orta təhsilə malikdir. 2008-ci ildə 15 və yuxarı yaşda olan əhalinin savadlılıq səviyyəsi 99,5 faizə çatmışdır.

Məktəblər müasir kompüter və di-gər İKT avadanlıqları ilə təmin olunmuş, 14 mindən yuxarı müəllim İKT üzrə treninqdən keçmişdir. Yeni nəsil dərsliklər hazırlanmış və şagirdlərə pulsuz paylanmışdır. Bu işlərin həyata keçirilməsində Heydər Əliyev Fondunun rolu əvəzsizdir.

2009-cu ilin əvvəlinə ölkədə fəaliyyət göstərən 1653 dövlət və 5 qeyri-dövlət məktəbəqədər təhsil müəssisəsində 104 min uşaq və ya müvafiq yaşda olan uşaqların 16,3 faizi tərbiyə alır. Məktəbəqədər təhsil müəssisələrinin 96 faizi Təhsil Nazirliyinin sisteminə daxildir və onların 22 faizi Bakı şəhərində yerləşir.

Cari tədris ilinin əvvəlinə ölkənin 4514 dövlət və 17 qeyri-dövlət gündüz ümumtəhsil məktəbində 1,4 milyon şagird təhsil almışdır. Bundan əlavə, sağ-lamlıq imkanları məhdud olan 6448 uşağın təhsil aldığı 19 xüsusi məktəb və ya ümumtəhsil məktəblərində xüsusi siniflər fəaliyyət göstərmişdir.

Dövlət orta ümumtəhsil məktəblərinin ümumi sayında lisey və gimnaziyalar şəbəkəsinin inkişafı davam edir. 2008/2009-



cu tədris ilinin əvvəlinə şagirdlərinin sayı 40 min nəfərdən artıq olan 68, yaxud əvvəlki ildəkindən müvafiq olaraq 16 faiz və 25 faiz çox dövlət liseyi və gimnaziyası fəaliyyət göstərmişdir. Dövlət məktəblərinin ümumi sayında məcburi köçkün uşaqlar üçün 656 gündüz ümumtəhsil məktəbi fəaliyyət göstərir və burada 83 min nəfər şagird təhsil alır.

2008-ci ildə 106 min nəfər gündüz ümumtəhsil məktəblərini bitirərək ümumi orta təhsil haqqında attestat almışdır.

2008-ci ildə 106 min nəfər gündüz ümumtəhsil məktəblərini bitirərək ümumi orta təhsil haqqında attestat almışdır.

Ölkədə orta və ali peşə məktəbləri dövlət və qeyri-dövlət təhsil müəssisələrinin geniş şəbəkəsi ilə təmsil olunur. Bu gün Azərbaycanda 52 min tələbənin orta peşə təhsili aldığı 57 dövlət və 3 qeyri-dövlət orta ixtisas məktəbi və tələbələrinin sayı 136 min nəfər olan 34 dövlət və 14 qeyri-dövlət ali məktəb fəaliyyət göstərir.

2008-ci ildə ölkənin ali məktəbləri-nə 28,7 min və ya əvvəlki ildəkindən 2,9 min nəfər, yaxud 11 faiz çox tələbə qəbul olunmuşdur.

Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının məlumatlarına görə, 2008-ci ildə müsabiqədə 100 yerə orta hesabla 414 ərizə daxil olmuşdur. Müsabiqəyə görə, 1 yerə təxminən 5 nəfər düşən tibb, kimya, biologiya və idman ixtisaslarına maraq xeyli artmış, ənənəvi olaraq müsabiqənin yüksək olması riyaziyyat, fizika, mühəndislik, memarlıq və dizayn ixtisaslan üzrə də qeydə alınmışdır, həmçinin humanitar, beynəlxalq münasibətlər, psixologiya, pedaqogika, incəsənət və musiqi ixtisaslarına 1 yerə orta hesabla 4 nəfər, iqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisaslarına isə 1 yerə orta hesabla 3 nəfər düşmüşdür.

Hazırda dövlət ali məktəblərinin gündüz şöbələrində oxuyan tələbələrin 41 faizi təqaüd alır. Tələbələrin aldığı təqaüdün minimal məbləği bakalavr pilləsi üzrə 35 manat, magistratura pilləsi üzrə isə 40 manat təşkil edir. Son 5 ildə orta ixtisas təhsil müəssisələrində təqaüdün məbləği 8 dəfə, ali məktəblərdə isə ba-

kalavr və magistrlərin təqaüdü müvafiq olaraq 11 və 12 dəfə artırılmışdır.

Ölkənin ali məktəblərində Azərbaycan vətəndaşları ilə yanaşı, 40 ölkəni təmsil edən 6316 xarici vətəndaş da oxuyur. Əcnəbi tələbələrin sırasında Türkiyə, İran, Rusiya, Çin Xalq Respublikası, Türkmənistan və İraq vətəndaşları üstünlük təşkil edir.

Əvvəlki illə müqayisədə 2008/2009-cu tədris ilinin əvvəlinə xarici ölkələrdə dövlət xətti ilə təhsil alan tələbələrin sayı 33 faiz artaraq, 1665 nəfər təşkil etmişdir. Qeyd etmək lazımdır ki, xaricdə təhsil alan gənclərin 42 faizi Azərbaycanın regionlarındandır. Tələbələrin əsas hissəsi Türkiyə və Rusiyada təhsil alırlar.

**Elm.** Dövlət siyasətinin prioritet istiqamətlərindən biri də elmin inkişafı, elmi-texniki potensialın qorunub saxlanılması, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılmasından ibarətdir. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 10 aprel tarixli" Azərbaycan elmində islahatlar aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında" Sərəncamında elmi kadr potensialının artırılması elmin inkişafının əsas şərtlərindən biri kimi qeyd olunmuşdur.

Elmə çəkilən xərclərin quruluşunda fundamental tədqiqatlara çəkilən xərclərin payı artmış və əgər beş il əvvəl belə tədqiqatlara 25,1 faiz, xərclənmişdisə, ötən il 28,2 faiz sərf olunmuşdur. Azərbaycanda elm sektorunun inkişaf strategiyası, ölkəmizin qədim tarixi, təbii sərvətləri, geosiyasi mövqeyi, elm, mədəniyyət və s. sahələrindəki nailiyyətlər haqqında məlumatlan özündə əks etdirən Azərbaycan Milli Ensiklopediyasının "Azərbaycan" xüsusi cildi hazırlanmışdır.

Cari ilin əvvəlinə Azərbaycanda müxtəlif elmi-texniki xidmətlərə malik 146 elmi təşkilat və müəssisə, o cümlədən 92 elmi-tədqiqat təşkilatı, 35 ali məktəb, 13 elm və elmi xidmət sahəsinin sair təşkilatlan və 6 konstruktor təşkilatı fəaliyyət göstərir. Bu elm ocaqlarında elmi tədqiqat və işləmələrlə 18 min mütəxəssis məşğul olur və onların 62 faizindən çoxu tədqiqatçılardır. Mütəxəssislərin hər beş nəfərindən birinin elmlər doktoru və elmlər namizədi alimlik dərəcəsi vardır.



Ölkədə fəaliyyət göstərən 96 aspirantura və 24 doktorantura müəssisəsinin elmi kadr potensialının artırılmasında böyük rolu var və onlarda 2009-cu ilin əvvəlinə 1681 aspirant və 83 doktorant təhsil səviyyəsini artırmışdır. Aspirantların 56 faizi və doktorantların 64 faizi elmi müəssisələrdə və müvafiq olaraq 44 faizi və 36 faizi ali məktəblərdə təhsil almışdır. Elmi kadrların hazırlanması ilə məşğul olan 1179 nəfər elmi rəhbərin 49-u akademik, 81-i müxbir üzv, 689-u professor, 360-ı isə dosentdir.

**Mədəniyyət.** Azərbaycan Respublikasının mədəni həyatında da son illər böyük canlanma müşahidə olunur, mədəniyyət ocaqları təmir və bərpa olunur, yeniləri inşa edilir. Heydər Əliyev adına Saray, Azərbaycan Tarix muzeyi, Azərbaycan Dövlət Filarmoniyası, Yaşıl Teatr, Kukla Teatrı əsaslı təmir olunmuş və Beynəlxalq Muğam Mərkəzi tikilib əhalinin istifadəsinə verilmişdir. Son beş ildə dövlət büdcəsindən mədəniyyət və incəsənətə ayrılan vəsait 6 dəfədən çox artaraq, 2008-ci ildə 68,8 milyon manata çatmışdır.

Bu gün Azərbaycanda 37 milyon ki-tab fondu olan 4033 kütləvi kitabxana, 2760 klub müəssisəsi, 192 muzey, 31 peşəkar teatr, 4 filarmoniya, 6 musiqi kollektivi və 2 konsert zalı əhaliyə xidmət göstərir. Kütləvi kitabxanalarda il ərzində ümumi, o cümlədən latın qrafikasında olan kitab fondu xeyli artmışdır.

2008-ci ildə muzeylərə gələnlərin sayı 1,4 milyon nəfər, teatrlara gələnlərin sayı isə 0,5 milyon nəfər olmuşdur. Teatrlarda repertuar müntəzəm olaraq təzələnir və tamaşalar Azərbaycan dili ilə yanaşı, rus və ləzgi dillərində də göstərilir.

Ölkədə tarix və mədəniyyət abidələrinin qorunub saxlanması və mühafizəsi vacib məsələlərdən biridir. Bu gün Azərbaycanda dövlət əhəmiyyətli qoruqların sayı 27-yə çatmışdır. Təkcə son zaman 4 qoruq – "Yanardağ" Dövlət tarix-mədəniyyət və təbiət qoruğu, "Atəşgah məbədi" Dövlət tarix-memarlıq qoruğu, "Xınalıq" Dövlət tarix-memarlıq və etnoqrafiya qoruğu və "Keşikçidağ" qoruğu – Dövlət tarix-mədəniyyət qoruğu statusu almışdır.

## 6.16. İdman

**İdman.** Ölkə iqtisadiyyatında baş verən sürətli inkişaf prosesi bütün sosial həyatı, o cümlədən idman və bədən tərbiyəsini də əhatə edir və bu sahədə qazanılan nailiyyətlər ilbəil artır. İdmançılarımız ötən il ərzində müxtəlif beynəlxalq yarışlarda ümumilikdə 550, o cümlədən 205 qızıl, 141 gümüş, 204 bürünc medal qazanmış və ilin ən böyük uğuru isə Çində keçirilmiş Yay Olimpiadasında əldə edilmişdir. Pekin Olimpiya Oyunlarında idmançılarımız 7 medal, Paralimpiya Oyunlarında isə 10 medal qazanmışlar. İdmanda əldə olunan bütün nailiyyətlər məhz dövlətin bu sahəyə olan dəstəyi nəticəsində baş verir.

İdman və bədən tərbiyəsinin maddi-texniki bazası da daimi olaraq möhkəmlənir. Ölkənin müxtəlif bölgələrində idman qurğuları tikilib istifadəyə verilir, mövcud idman qurğuları, stadionlar və digər idman meydançaları təmir edilir, günün tələblərinə uyğun yenidən qurulur.

İlkin məlumatlara əsasən, cari ilin əvvəlinə ölkədə idman qurğularının sayı 9340, idmanla məşğul olanların sayı isə 545 min nəfərə çatmışdır. İdman seksiyalarında məşğul olanların sayı da müntəzəm olaraq artır. Əhali arasında daha çox futbol, voleybol, şahmat, yüngül atletika və basketbol kimi idman növlərinə maraq göstərilir.

## 6.17. Əhali

**Əhali.** Müstəqillik dövründə bu əhali artımının əsasən əhalinin rifah halının artması və dövlətin sosial-iqtisadi, səhiyyə, təhsil, mədəni yüksəlişinin nəticəsində olmuşdur. 2009-cu ilin əvvəlinə Azərbaycan Respublikası əhalisinin sayı 8730 min nəfərə çatmış (2010-cu ilin aprelinə kimi 9200 min nəfərdir) və ötən il ərzində 100 min nəfər və yaxud 1,2 faiz artmışdır. 2008-ci ildə əhalinin sayının artması son təbii artımla yanaşı, miqrasiya artımının hesabına baş vermişdir. Əhalinin 51,7 faizi şəhər, 48,3 faizi isə kənd yerlərində yaşayır, orta yaş 32 yaşdır.



Ölkə əhalisinin 49 faizini kişilər, 51 fa-izini qadınlar təşkil edir və bu gün hər 1000 nəfər kişiyə 1027 nəfər qadın düşür.

Əhalinin həyat səviyyəsinin yüksəlməsi və əhalinin sağlamlığına dövlət tərəfindən göstərilən qayğı nəticəsində ölkədə doğulanların sayı və gözlənilən ömür uzunluğu ilbəil artır, ölənlərin sayı isə azalır. Ötən il ölkədə 152,1 min körpə doğulmuş və son beş il ərzində əhalinin hər 1000 nəfərinə hesabı ilə doğulanların sayı 16,1-dən 17,8-ə qədər artmış, 52,5 min ölüm halı qeydə alınmışdır və 2007-ci illə müqayisədə əhalinin hər 1000 nəfərinə hesabı ilə ölənlərin sayı 6,3-dən 6,1-ə qədər azalmışdır. Ölümün əsas səbəbləri qan dövranı sisteminin xəstəliklərindən, yenitörəmələrdən, tənəffüs və mədə orqanlarının xəstəliklərindən ibarətdir. Bu gün gözlənilən ömür uzunluğu 72,4 yaş, o cümlədən kişilər üçün 69,7 yaş, qadınlar üçün isə 75,1 yaş təşkil etmişdir.

2008-ci ildə ölkədə 79,9 min nikah və 7,9 min boşanma halları qeydə alınmışdır ki, bu da 2007-ci illə müqayisədə əhalinin hər 1000 nəfərinə hesabı ilə nikah və boşanmaların sayının bir qədər azalması deməkdir. Birinci nikaha daxil olanların orta yaş həddi kişilər arasında 28, qadınlar arasında isə 24 yaş təşkil etmişdir.

2008-ci ildə Daxili İşlər Nazirliyinin pasport xidmətləri tərəfindən Azərbaycana daimi yaşamaq üçün 3,5 min nəfər gələn və ölkədən 2,6 min nəfər gedən qeydə alınmışdır. Gələnlərin 57,8 faizi Rusiya Federasiyasından, gedənlərin isə 81,6 faizi həmin ölkəyə daimi yaşayış yerini dəyişmək məqsədilə köçmüşlər.

# VII FƏSİL

# AZƏRBAYCAN DÖVLƏT MÜSTƏQİLLİYİNİN İNKİŞAFINA DAİR GÖRÜLMÜŞ MÜVƏFFƏQİYYƏTLƏRƏ BİR BAXIŞ

## 7.1. Azərbaycan təhlükəsizlik orqanlarının fəaliyyəti vətənpərvərlik nümunəsidir

Dövlətin atribatlarından önəmlisindən biridir. Bu orqan xalqın döyünən ürəyi, görən gözü, eşidənqulağıdır. Təhlükəsizlik orqanında fəaliyyət hər kişinin işi deyildir. Bu orqan dövlətin idarəçilik, təhlükəsizlik və istiqamətvericilik sahəsində çox, çox, ən çox iş görür. Bu sahənin gənc nəslə öyrədilməsi çətin olmaqla şərəfli işdir.

Azərbaycanda Dövlət Təhlükəsizlik orqanı 1919-cu ildə martın 28-də Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaranmışdır. Hərbi Nazirliyin Baş Qərargahı nəzdində kəşfiyyat və əks-kəşfiyyat bölməsinin yaradılması ilə təməli qoyulmuşdur.

Qəribədir bu orqan da ayrı-ayrı dövlət qurumlarında fəaliyyət göstərmiş, büdrəsə də yıxılmamış, Azərbaycana tam xidmət göstərmişdir. Böyük şəxsiyyətlərimiz bu orqanda təmkinlə xidmət göstərmişlər. Bəlkə də bunun nəticəsidir bu orqan sarsılmamış, dəyişən dövlət quruluşundan asılı olmayaraq işlərini anlamlı qurmuşlar.

Bu qurumun fəaliyyətində Azərbaycanın ümummilli lideri, cənab Heydər Əliyevin rolu, əməyi böyükdür.

1956-65-ci illərdə cənab Heydər Əliyev Dövlət Təhlükəsizliyi Komitəsində əvvəlcə, əks-kəşfiyyatçı, 1967-ci ildən isə Komitəyə rəhbərlik (sədrlik) etmişdir. Bu dövrdə Dövlət Təhlükəsizlik orqanında yeni mərhələ başlamışdır. Burada çalışan milli kadrların sayı qısa müddətdə 20 faizdən 60-80 faizədək artmış, DTK-



da kök salmış, xalqımız milli varlığına, layiqli vətən övladlarına qənim kəsilmiş erməni millətçilərinin XX əsrin əvvəlindən başlanmış bədnam fəaliyyətlərinə son qoyuldu.

Müəllim Heydər Əliyev irsinin öyrədilməsində bu məqamı önə çəkməklə göstərə bilərik ki, bu məsələ – milli kadrların irəli çəkilməsi super Sovet dövründə edilmişdir. Cənab Heydər Əliyev Azərbaycanda müstəqil dövlətin möhkəmlənməsində və yaşamasında, demokratik dövlət quruculuğu uğrunda apardığı çətin və gərgin vaxtlarda da vaxtilə onun bu sistemdə yaratdığı məktəbin milli ruhlu yetirmələrinin yardımından, fədakarlığından istifadə edilmişdir.

Dövlətimizin ərazi bütövlüyünün mühafizəsi uğrunda döyüşlərdə nazirliyin əməkdaşları da iştirak etmişlər. Onlardan 6 nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

Son vaxtlar beynəlxalq terror təşkilatları əlaqəsi sübuta yetirmiş ginayətkar dəstələrin zərərsizləşdirilmiş, bir sıra terror – təxribat cəhdini qarşısı alınmışdır. Bu qəbildən olan işlər həmişə diqqət mərkəzindədir. (Xalq qəz., 16 mart 2006).

## 7.2. Gömrük işi vətənpərvərlik tərbiyəsinin rəhnidir

Azərbaycan müstəqil dövlətinin 1991-ci ildə bərpası uzun illər dövlətçilik ənənəsindən uzaq düşən, dövlət idarə fəaliyyət sahələrini canlandırdı. Respublikamızda yeni və zəruri dövlət fəaliyyət növləri yarandı. Onlardan biri də Azərbaycan Dövlət Gömrük Komitəsi oldu.

Azərbaycanda gömrük işi gəncdir, yeni-yeni qaydaya düşür. Respublikamızın siyasi və tarixi coğrafi ərazidə olmasını nəzərə alsaq, bu sahə həm də çətin sahədir. Burada rəhbərlikdən tutmuş sıravi işçiyə kimi hamı ayıq-sayıq olmalıdır. Həm də elə etmək lazımdır ki, demokratiklik özünü göstərsin və respublikanın imicinə ziyan dəyməsin.

Artıq bu sahə üzrə respublikamızda müsbət nailiyyətlər vardır. Bu nailiyyətləri sadalamaq, onların üzərində dayanmaqla

müəllim həm dərs zamanı, həm də sinifdənxaric tədbirlərin icrası zamanı Azərbaycanın gömrük işindən, dövlətin bu sahəyə göstərdiyi qayğıdan, gömrük xidmətinin icrası zamanı dövlət büdcəsinə gələn mənfəətdən və ən başlıcası gömrük işçilərinin göstərdikləri xidmətdə (məsuliyyətli, təhlükəli, həm də insanın başını gicəldən gözlənilməz hədiyyə və ya rüşvətin verilməsi cəhdi və s.) göstərdikləri şücaət, mən deyərdim qəhrəmanlıqları - vətənpərvərlikləri önə çəkilməlidir. O da göstərilməlidir ki, bu sahə dövlət tərəfindən həmişə diqqət mərkəzində saxlanılır. Çox sayda gömrük əməkdaşlarına rütbələr, fəxri adlar, mükafatlar və s. verilir. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 28 yanvar 2005-ci il tarixli sərəncamlarına əsasən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşlarından üç nəfər ali xüsusi rütbə "Gömrük xidməti general-leytenantı", üç nəfər "Gömrük xidməti general-mayor" rütbəsinə layiq bilinmiş, üç nəfər "Vətənə xidmətə görə" ordenin üçüncü dərəcəsinə, 29 nəfər isə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltifə layiq bilinmişlər. Təbii ki, bu sahə üzrə dövlətin həmişə diqqət və qayğısı olacaqdır. Çünki bura da cəbhəni xatırladır. Hər zaman bu işdə gözlənilməyən hadisələr baş verə bilər.

Müəllim gənclərə (şagird və tələbəyə) həqiqətlə dolu bu cür bilgilərin verməsilə bir neçə məsələyə aydınlıq gətirmiş olur. Əvvələ gömrük işi nədir? Onun respublikamız üçün əhəmiyyəti nədir? Gömrük işinin çətinlikləri nədədir? Gömrük işində çalışan şəxslərin vətəndaşlıq borcları nədən ibarətdir? Dövlətin bu sahəyə diqqəti və qayğısı nədən ibarətdir? və s.

Əslində respublikamızdakı gömrük işi dövlət əhəmiyyətli bir məsələdir. Bu məsələnin şagird və tələbələrə tədris, təlim və tərbiyə edilməsi də dövlət əhəmiyyətli bir işdir. Burada vətənpərvərlik və qürur hissi vardır. Gənc nəslə bu sahənin öyrədilməsi həm də onlarda bu peşəyə marağın yaranmasına da səbəb ola bilər.

Respublika gömrük işçilərinin peşə bayramının 5-ci ildönümündə ulu öndər cənab Heydər Əliyev gömrük işçiləri qarşısında çıxışında demişdir:



"... Həqiqətən, gömrük xidməti Azərbaycan iqtisadi müstəqilliyinin qorunub saxlanması üçün çox mühüm əhəmiyyət kəsb edir. Azərbaycan sərbəst iqtisadiyyat yolu ilə gedir. Azərbaycan dünya iqtisadiyyatı ilə gündən-günə sıx inteqrasiya olmağa cəhdlər göstərir və bu sahədə artıq bizim nailiyyətlərimiz var. Azərbaycanda qəbul olunmuş qanunlar, fərman və sərəncamlar əsasında, onların nəticəsində idxal-ixrac, xarici ticarət sərbəstləşdirilib. Azərbaycan xarici investisiyaların artmasını biz bütün vasitələrlə həvəsləndiririk və bunun üçün geniş şərait yaradırıq.

Azərbaycan iqtisadiyyatının xarici ticarət vasitəsilə dünya iqtisadiyyatı ilə daha sıx bağlanması üçün lazımı tədbirlər həyata keçiririk. Bu tədbirlərin həyata keçirilməsində gömrük xidmətinin xüsusi rolu var. Azərbaycanda sərbəst iqtisadiyyatın inkişaf etməsi üçün son illər görülən tədbirlər artıq nəticəsini verir. Sahibkarlıq, təşəbbüskarlıq və hər bir sahibkarın iqtisadi fəaliyyət göstərməsi üçün bütün ölkələrə əlaqə saxlanmasına şərait yaratmaq - bunlar hamısı Azərbaycanın bugünkü iqtisadi həyatının mənzərəsidir. Bu iqtisadi mənzərənin yaranması və inkişaf etməsi üçün şübhəsiz ki, bizim başda dövlət orqanları ilə yanaşı gömrük xidməti də çox iş görür və çox iş görməkdədir" ... "Azərbaycanın həm iqtisadi, həm də siyasi cəhətdən dövlət müstəqilliyinin təmin etmək, qorumaq, inkişaf etdirmək üçün gömrük xidməti çox əhəmiyyətli, çox lazımlı təşkilatdır".... "Gömrük işçisi gərək bilikli olsun, öz peşəsini yaxşı mənimsəmiş adam olsun, mənəviyyatca təmiz olsun, öz işinə sadiq olsun, müstəqil Azərbaycanın iqtisadiyyatının möhkəmləndirilməsində sadiq olsun"... "Dünya təcrübəsini mənimsəmək, inkişaf etmiş ölkələrin gömrük xidmətləri ilə sıx əlaqə qurmaq onların təcrübəsindən istifadə etmək və gömrük peşəsini Azərbaycanda köklü surətdə yaratmaq və inkişaf etdirmək - qarşısında duran ən böyük vəzifələrdən biridir".... "Azərbaycanın gömrük işçiləri, Dövlət Gömrük Komitəsi Azərbaycan dövlətçiliyinin, müstəqil Azərbaycan dövlətinin inkişaf etməsinə öz xidmətlərini bundan sonra da göstərəcəkdir"...."Həqiqətən, gömrük xidməti Azərbay-

canın iqtisadi müstəqilliyinin qorunub saxlanması üçün mühüm əhəmiyyət kəsb edir"... («Gömrük» qəz. 25 yanvar 2005)

Azərbaycanın ümummilli lideri cənab Heydər Əliyevin dövlətçiliyin möhkəmlənməsində böyük rol oynayan gömrük xidməti sahəsi üzrə verdiyi dahiyana tövsiyələrini Azərbaycan Dövlət Gömrük Komitəsi dövlətin köməyilə uğurla həyata keçirir.

Azərbaycanın gömrük komitəsi dövlət büdcəsinə hər il yüksək dərəcə gəlir gətirir. Məs. 1994-cü ildə 17,4 milyard manat, on il sonra 2004-cü ildə isə 1 milyon 303,3 milyard manat (1992-ci ilin pulu ilə) rüsum ödənilmişdir. Bu da 2003-cü illə müqayisədə 242,1 milyard manat, yəni 22,8% çoxdur. Bu artım hər il özünü göstərir. 2009-cu ildə isə 01 milyard 112,72 milyon manat rüsum dövlət büdcəsinə köçürülmüşdür. Bu da 2008-ci illə müqayisədə 2,35 milyon manat çoxdur. («Azərbaycan» qəzeti, 31.01.2010)

Tələbə gənclər bilməlidirlər ki, ölkəyə malların gəlməsi (idxal) və ölkədən getməsi (ixrac) üzrə vahid qayda olmalıdır. Bununla bağlı Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi sisteminin tətbiqi Qaydaları" müəyyən düzəlişlərlə beynəlxalq təcrübə nəzərə alınmaqla gömrük komitəsi tərəfindən "Azərbaycan Respublikasının gömrük ərazisinə daxil edilən və bu ərazidən çıxarılan malların gömrük dəyərinin müəyyən edilməsi və gömrük orqanları tərəfindən nəzarət prosesinin həyata keçirilməsi Qaydaları" layihəsi hazırlanmışdır. Əməkdaşların təlimatlandırılması məqsədilə tez-tez metodiki köməkliklər göstərilir.

Gömrük işçiləri hüquq pozğunluğuna qarşı daim mübarizə aparırlar. Məs. 2004-cü ildə 2584 hüquq pozğunluğu aşkar edilmişdir. Onlardan 155-i cinayət xarakterli olmuşdur.

Qaçaqmalçılığa qarşı mübarizə aparılır. Son bir ildə qaçaqmalçılıqdan 3 milyard 314,2 milyon manatlıq mal müsadirə edilmişdir (köhnə pulla). Bunların içərisində külçə, zinyət şeyləri, briliant dəstləri, palladum, neft-neft məhsulları, balıq, kürü, spirtli içki, siqaret və s. göstərmək olar.



Dünyanı dəhşətə gətirən narkotik mallardır. Gənclərə bu ağ ölüm barədə geniş məlumat verməklə yanaşı narkotik məhsulların yayılmasında gömrük işçilərinin vətəndaşlıq borcunu, vəzifə borcunu deməklə, həm də bu sahədə dövlət proqramının "Narkotik vasitələrin, psixotron maddələrin və prekurların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram"ı vardır və bu proqramın icrası həmişə diqqət mərkəzindədir və bu proqramın yerinə yetirilməsinə böyük diqqətin olduğu bildirilməlidir.

Gömrük işçilərinin səyi nəticəsində ölkəmizdən tranzit kimi istifadə etmək istəyənlər ifşa edilirlər. 2004-cü ildə 80-dan çox fakt aşkar edilmiş çoxlu miqdarda narkotik maddələr-tiryək, marixuana, həşiş, heroin, çətənə və s. alınaraq yandırılmışdır. Bu sahə gömrük, sərhəd işçilərinin həmişə diqqət mərkəzindədir.artıq gömrük orqanlarında avtomatlaşdırılmış sistem həyata keçirilir ki, bu da həm işi tezləşdirir, həm də yaxşı keyfiyyətli yoxlamaya şərait yaradır.

Artıq Azərbaycan gömrük işi beynəlxalq nüfuz qazanmışdır. Bütün bunlar gənc nəslə məlumat xarakterli olsa da, onlarda qürur hissi yaranır. Bu ən yaxşı vətənpərvərlik tərbiyəsi nümunəsidir. Müstəqilliyin təntənəsidir.

Nəticə kimi göstərək ki, gömrük işi ali, orta ixtisas və ümumtəhsil məktəblərində oxuyan tələbə və şagirdlərə ilkin bilik kimi məlumat verilməli bu məqsədlə kurslar, dərnəklər və s. təşkil edilməlidir. Bu məqsədlə müəllimlərdə metodiki təlimat almalıdırlar. Yaxşı olardı ki, ali və orta ixtisas məktəblərində tədris planlarına, təkmilləşmə institutlarında kurs planlarına gömrük işinə dair mövzular daxil edilsin, saat ayrılsın.

### 7.3. Hərbi vətənpərvərlik tərbiyəsi və milli ordu

Mövcud ədəbiyyata istinadən deyə bilərik ki, hərbi vətənpərvərlik tərbiyəsi tərbiyənin tərkib hissəsi olmaqla uşaqlarda və gənclərdə müstəqilliyimizin qorunması, müdafiəsi üçün əxlaqi-

siyasi, psixoloji, fiziki hərbi peşə keyfiyyətlərini formalaşdırmaq deməkdir.

Sosializm dövründə sovet vətəni, inqilabi və döyüş ənənələri tərbiyə edilmişdir. Sual olunur: -Sovetdən əvvəl bizim və digər ölkələrin vətəndaşlarının vətəni yox idimi? Eyni zamanda, göstərdilər ki, guya Azərbaycanda öz xalqını azad, xoşbəxt görmək istəyən, doğma torpağını məhəbbətlə sevən, onun qeyrətini çəkən şəxsiyyətlər olmamışdır ki, uşaqlara onlar nümunə göstərilsin.

Lakin Azərbaycanda hələ XX əsrdən əvvəlki illərdə, AXC-nin yarandığı illərdə, Sovet dövründə və sonrakı illərdə, müstəqilliyimizin bərpasından sonra çox gözəl, iftixar etdiyimiz vətənpərvər, igid, cəsur şəxsiyyətlərimiz yetişmişdir. Bizim borcumuz bu böyük şəxsiyyətləri uşaqlara yaxşı tanıtmaq, tarixi şəxsiyyətlərə qarşı məhəbbət hissi yaratmaqdır. Prof. Əkrəm Cəfərin sözləri ilə desək... «Keçmişə məhəbbət gələcəyə xidmətdir».

Azərbaycan Respublikasının Dövlət himninə çevrilmiş Əhməd Cavadın şerində ümumiləşmə aprılmışdır.

Bir nümunəyə diqqət edək:

Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Uşaqların hərbi vətənpərvərlik tərbiyəsi Azərbaycan tarixini, tarixi şəxsiyyətləri, qəhrəmanları öyrənməyi tələb edir. Bunun üçün çox faktlar vardır.

Azərbaycan torpaqları hələ qədim dövrlərdən başlayaraq yaxın və uzaq qonşuların diqqətini özünə cəlb etmişdir. Buna görə tez-tez bu məmləkətə yadellilər – romalılar, İran əhəmənilə-ri, İran sasaniləri, ərəblər, səlcuqlar, slavyanlar, monqollar, ermənilər basqınlar etmişlər. Vətən torpaqlarının qorunması ilə əlaqədar tarixi qəhrəmanlar yetişmişdir. Hələ Tomris, Atropat, Amozankalar (Qadın döyüşçü) feodalizm dövründə, Məzdək,



Cavanşir, Babək, Məziəddin, Sac Divdad, Mərzuban, Şəddad, Rəvvadi, Toğrul, Şəmsəddin, Eldəniz, Cahan Pəhləvan, Qızıl Arslan, Qara Yusif, Uzun Həsən, Şah İsmayıl Xətai, Nadir şah; Xanlıqlar dövründə Hacı Çələbi, Fətəli xan, Şah Qajar, Ziyad xan, Hüseynqulu xan, Pənah xan, Cavad xan və s. göstərmək olar. Azərbaycan dövlətlərinin hər birində ordu quruculuğuna ciddi diqqət yetirilmiş, nəticədə Azərbaycan tarixində bir hərb məktəbi yaranmış, vətənsevər, torpaqsevər nəsillər dövlətin dayağı olmuşlar. Onlar mübarizə yolu ilə ədalətli cəmiyyətin qurulması ideyasını vermiş, dövlətçilik, diplomatiya ənənələri yaratmışlar.

Bu işdə Azərbaycan klassiklərinin – N.Gəncəvi, N.Tusi, Əfzələddin Xaqani, M.Füzuli, İ.Nəsimi, M.F.Axundov, H.Zərdabi, C.Məmmədquluzadə, A.Bakıxanov, M.Ə.Sabir, H.Cavid, həm də çağdaş ədiblər böyük xidmət göstərmişlər. Prof. Yaqub Mahmudovun sözləri ilə desək tarixi şəxsiyyətləri, ziyalı təbəqələri, həm yaradırlar, həm də mənsub olduqları xalqın mənəvi varlığını tarixin fırtınalarından, qasırğalarından keçirib sonrakı nəsillərə yadigar qoyub gedirlər... Beləcə xalqın bağrından qopub pərvazlanan ziyalı dönüb öz xalqını yaşadan qüdrətli bir varlığa çevrilir. Ziyalı xalqın nur çırağıdır. Gənc nəslin vətənpərvərlik tərbiyəsində bu, gözəl nümunədir[1].

XIX əsrin əvvəllərində Azərbaycanın İranla Rusiya arasında iki yerə bölüşdürülməsi (1813, 1828) ilə vətənin müdafiəsinin yeni dövrü başlamışdır.

Çar hökumətinin çökməsi ilə əlaqədar 1918-ci ilin may ayında Qafqazda üç müstəqil dövlət meydana gəldi. Bunlardan biri də 28 mayda yaranmış Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) oldu.

Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycanın tarixi şəxsiyyətlərinin ictimai fəallığı nəticəsində yarandı. Bu şəxsiyyətlər içərisində M.Ə.Rəsulzadə, F.X.Xoyski, Nəsib bəy, Həsən bəy, Şəfi bəyin xüsusi xidmətlərini qeyd etmək lazımdır. Bu dövlət

[1] Bax: «Azərbaycan» qəzeti, 31 dekabr, 2000-ci il.

müsəlman aləmində ilk demokratik dövlət idi. Lakin hər bir dövlətdə olduğu kimi bu dövlətin də hərbi hissəsi, ordusu olmalı idi. Ona görə 26 iyun 1918-ci ildə «Azərbaycan Milli Ordusu» yaradıldı. İlk Müdafiə Naziri Xosrov bəy Sultanov, sonra isə general Səməd bəy Mehmandarov oldu. Azərbaycan generalları Əliağa Şıxlinski, İbrahimağa Usubov, Nərimanbəyov, Cəmşid Naxçıvanski, Bakıxanovlar, Ağalarovlar, Talışxanovlar və digərləri Azərbaycana böyük xidmət göstərdilər.

Yeri gəlmişkən göstərək ki, Çar hökuməti Azərbaycan müsəlmanlarını, xüsusilə zəhmətkeş balalarını hərbi xidmətə çağırmırdılar. Ancaq 1915-ci ilin 15 iyun tarixindən 18 yaşdan 43 yaşa qədər olan kişi cinsini əsgər çağırmışlar. Onlar da arxa cəbhəyə işləməyə göndərilirdi. Buna baxmayaraq xalqın vətənpərvər oğlanları fərdi qaydada sağlamlıq məqsədi ilə qılınc oynadır, at çapır, güləşlə məşğul olurdular. Əksəriyyəti də xalq folkloru tərkibində keçirilirdi. Bu mərasim əslində qədim tarixə malikdir. VII əsrdə Dədə Qorqud boylarında da ox atmaq, qılınc vurmaq və s. özünü göstərmişdir.

AXC 1918-ci ilin may ayının 28-də Azərbaycanın ziyalı övladlarının ictimai fəallığı nəticəsində Tiflis şəhərində elan edildi. 18 gündən sonra Gəncəyə köçən AXC hökuməti demokratik dövlət quruculuğunu genişləndirməyə başladı. Qarşıda tarixə salınmaz vəzifələrdən başlıcası Ordu məsələsi oldu (Bildiyimiz kimi bu hökumət ordusuz təşkil edilmişdi). Hökumət 19-33 yaşlıların orduya səfərbər edilməsi haqqında sərəncam verdi.

Mövcud ədəbiyyata istinad edərək göstərmək olar ki, Çar hökuməti Azərbaycanlıları əsgərliyə aparmadığına görə müstəqil ordu yaratmaq işi çətinliklərlə qarşılaşdı. Azərbaycanın Milli Ordusu vaxtikən 1914-cü ildə Qafqaz müsəlmanlarından yaradılan «Qafqaz diviziyası»nın əsasında yaradılmışdır. Bu diviziya üç briqada və iki suvari alayından ibarət idi. 1-ci alaya Kabardin və Dağıstan, 2-ci alaya Tatar (Azərbaycan) və Çeçenlər daxil idi. 3-cü alaya İnquş və Çərkəzlər daxil idi. Onlar qorxu bilməyən döyüşdüklərinə görə bə'zən də yaxşı mənada onlara «Dikaya diviziya» deyirdilər.



Milli Ordu ilk dəfə təhsilli zabitlər sərgədəsi general Nuru paşa tərəfindən Gəncədə təşkil edilən hərbi məktəbdə hazırlanmaqla başlandı. Bu məktəbə daxil olanlar olduqca vətənpərvər və millətpərvər gənclər idilər.

Hərbi nazir general Səmədbəy Mehmandarov Gəncədə ilk Azərbaycan alayını təşkil etdi (ADR hərbi nazirliyi 6 noyabr 1918-ci ildə yaradılıb).

Ağdamda «pulemyotçu», «sercant hazırlayan» və «istehkam bölüyü məktəbi» açıldı.

Hökumətin aşağıdakı diviziyaları, ordusu və hərbi sursatı vardı. 1-ci piyada diviziyası (Gəncə, Cavanşir, Zaqatala alayı suvari alayı), 2-ci diviziya (Quba, Bakı, Şamaxı, Göyçay piyada alayı), 3-cü diviziya (Lənkəran, Tatar, Qarabağ, Şəki alayları) yarandı. AXC-nin 600 zabiti (yarısı Azərbaycanlı idi), iki zirehli qatarı, 3 zirehli avtomobili, 8 dəniz təyyarəsi, iki gəmisi (Qars və Ərdəhan) var idi.

AXC hökuməti 1-ci növbədə 15 sentyabr 1918-ci ildə Bakıdakı daşnaq-menşevik hökuməti olan Sentrokaspi diktaturasını ləğv etdi. Bu təmizləmədə Azərbaycanlılarla yanaşı qardaş türk əsgərləri də var idi. Təssüflə qeyd edək ki, onlardan 1000 nəfəri qəhrəmanjasına şəhid oldu. Həmişə onların bu qəhrəmanlığı Azərbaycan xalqının qəlbində yaşayırdı. Bu hadisələrdən uzun illər keçməsinə baxmayaraq, ancaq Azərbaycanda ikinci dəfə müstəqilliyin qurulmasından sonra Bakının ən görkəmli guşəsində Türk əsgərlərinə 2000-ci ilin aprelin 9-da xatirə abidəsi ucaldıldı.

Azərbaycanın milli ordusu Azərbaycan hökumətinə tabe olmayan daxili düşmənlərə – 1919-cu il may ayında yaranan Lənkəran-Muğan Sovet hökumətinə qarşı, 1920-ci ilin martın 22-də Dağlıq Qarabağda baş qaldıran erməni qiyamına qarşı mübarizə apardı.

Hökumət erməni qiyamına qarşı 1920-ci ilin aprelin 2-dən 12-nə kimi (30 minlik orduyla) şiddətli döyüşlər apardı. Azərbaycan ordusu yarandığı (26 iyun 1918-ci ildən) gündən çətinliklərlə üzləşsə də nizami bir ordu yaradıla bildi. Bu orduda 40 min

Azərbaycanlı gəncləri var idi. Azərbaycan dövlət atributlarından biri olan Milli ordumuzun yaranmasının 80 illiyi münasibətilə xüsusi əhəmiyyətini və respublikamızda ordu qurujuluğuna verilən diqqət və qayğını nəzərə alaraq milli lider cənab H.Əliyev 22 iyun 1998-ci ildə sərəncam imzalamışdır. Bu sərəncama əsasən hər il 26 iyun Azərbaycan ordusunun yaranması günü kimi qeyd edilir.

Bolşevik partiyasının hakimiyyətə gəlməsilə keçmiş Çar hökumətinin yerində Sovet dövləti yaradıldı. Onun təsirilə, xüsusilə onun XI «Qırmızı» ordunun köməyi ilə Azərbaycan Xalq Cümhuriyyəti 27 aprel 1920-ci ildə tarixə çevrildi. Onun yerində Rusiyadan yarımasılı Azərbaycan Sovet Respublikası yaradıldı. 1922-ci ilin dekabrın 30-dan (SSRİ-nin təşkilindən) 1991-ci ilin 18 oktyabrına qədər Sovet Rusiyasının tərkibində yaşayan Azərbaycan acılı-şirinli bir tarixi yol keçdi. Elm, mədəniyyət, təhsil inkişaf etsə də milli müstəqillik olmadı, represiyalar, deportasiyalar baş verdi. Bu az imiş kimi 1941-1945-ci illərdə alman faşizmi dünyada kommunist təhlükəsini ləğv etməyə çalışdı, əslində faşistlər dünyaya ağalıq etmək iddiası ilə keçmiş SSRİ-yə müharibə e'lan etdi. Azərbaycan da bu dövlətin tərkibində olduğu üçün müharibəyə cəlb edildi. 650 minə yaxın həmvətənlərimiz müharibəyə yollandı. Azərbaycanlı igidləri qəhrəmanlıq nümunələri göstərdilər, 70 mindən çox adam orden-medal, 126 nəfər isə Sovet İttifaqı Qəhrəmanı adına layiq bilindi.

Onlardan Həzi Aslanovu, Mehdi Hüseynzadəni, İsrafil Məmmədovu, Qafur Məmmədovu, Ziya Bünyadovu, Abbas Quliyevi və b. göstərə bilərik.

Acı da olsa deyək ki, 300 min Azərbaycanlı bu müharibənin qurbanı olmuşdur.

Müstəqilliyimizin ikinci dəfə bərpası zamanı «Qarabağ» problemi deyilən oyuncaq bir problemlə üzləşdik. Bununla bağlı Azərbaycanın vətənpərvər övladları vətənin müdafiəsinə qalxdılar, könüllü dəstələr, batalyonlar yaratdılar. Yüzlərlə vətən övladı qəhrəmanlıq nümunəsi göstərdi. Bu ölümlər (20 minə yaxın vətən şəhidi vardır) nə gəncləri, nə də milləti qorxutmadı, daha da mətinləşdirdi.



Azərbaycan Respublikasının prezidenti Azərbaycanlı hərbiçilərin həyat fəaliyyətini əks etdirən «Azərbaycan Respublikasının xatirə kitabı»nın hazırlanmasına dair sərəncam vermişdir. Bu kitabda Azərbaycanlıların Böyük Vətən müharibəsi, Çexoslovakiyada, Əfqanıstanda, Bakıda 20 yanvarda, Qarabağ uğrunda vuruşan döyüşçülərin fəaliyyətləri işıqlandırılır. Hazırda kitabın V cildi çapdan çıxmışdır (100 cild nəzərdə tutulub). Müstəqillik uğrunda canlarını qurban verənlərə Bakıda və respublikanın kənd, qəsəbə və rayon mərkəzlərində xatirə abidəsi ucaldılmışdır.

Azərbaycanda 1991-ci ildə müstəqillik bərpasından sonra ordu quruculuğuna başlanmışdır. İlk əvvəllər bir sıra obyektiv və subyektiv səbəblərdən ordunun təşkilində qüsurlar baş versə də, cənab Heydər Əliyev 1993-cü ildə respublikaya rəhbərlikdən sonra ordu quruculuğunda dönüş oldu. Hərbi məktəblər açıldı. Orduda nizam-intizam tədricən sahmana düşdü. Fəxrlə deyə bilərik ki, vətənimizin layiqli nizami ordusu vardır. Hərbi sənaye sahələri yaradılmışdır. Hazırda da hərbi sahə dövlətin diqqətindədir.

### 7.3.1. Dövlət sərhəd xidməti

**Dövlət Sərhədlərinin Mühafizə Komitəsi** Azərbaycan Respublikasının sərhədlərinin qorunmasında baş idarə hesab edilir və Azərbaycan Respublikasının hərbi nazirliyi daxilində fəaliyyət göstərir.

Dövlət sərhədinin ümumi uzunluğu 3472 km-dir.

Azərbaycan respublikası Rusiya Federativ respublikası (391 km), İran İslam respublikası (765 km), Türkiyə Demokratik respublikası (13 km), Gürcüstan respublikası (471 km) və Ermənistan respublikası ilə (1007 km), əsasən quru sahələrdə sər-

həddir və Şərqdə Xəzər dənizi suları ilə əhatə olunaraq Rusiya, Türkmənistan, Qazaxıstan və İran respublikaları ilə sərhəddir.

Dövləti şərtləndirən sahələrdən biri onun sərhədləridir. Sərhədlər müqəddəsdir. Onun qorunması çox böyük məsuliyyət tələb edir. Bu sahə ağır sahədir, qorxulu sahədir, lakin şərəfli sahədir.

Azərbaycan özünün müstəqilliyini bərpa etdikdən sonra dövlət quruculuğu sahələrindən biri respublikanın sərhədlərinin müəyyənləşdirilməsi olmuşdur.

Mənbələrə əsaslanaraq göstərək ki, Azərbaycan Xalq Cümhuriyyətinin 18 avqust 1919-cu il tarixdə, "Azərbaycan respublikasının gömrük baxımından sərhəd mühafizəsinin təsis edilməsi haqqında" Qanun qəbul etmişdir. Bu da müstəqil dövlət strukturu kimi yaradılmışdır.

Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan respublikası (III respublika) dövləti, şəxsən ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan respublikasında Sərhəd Mühafizəsinin təşkilinə başlandı. 1994-cü il 6 yanvar tarixdə Sərhəd Qoşunları haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edildi.

2000-ci il 16 avqust tarixli fərmana əsasən Azərbaycan Sərhədçilər gününün qeyd edilməsi (Xalq Cümhuriyyətinin varisi kimi) 18 avqust müəyyən edilmişdir.

Ulu öndər Heydər Əliyev, respublika prezidenti cənab İlham Əliyev bu sahəni (prioritet) əsas kimi götürmüş, bu sahənin inkişafına, texniki avadanlığına, təmin edilməsinə, sərhəd postlarının qurulmasına və s. böyük köməklik göstərmiş və göstərilir. İndi Naxçıvanda, Şəkidə, Zaqatalada, Qubada, Qusarda, Astarada, Yardımlıda, Lerikdə, Biləsuvarda, Ağstavada, Qazaxda, Tovuzda və s. sərhəd postları fəaliyyət göstərir

Sərhəd hərbi qulluqçulara fəxri adlar, mükafat və yaşayış evləri verilir. Daha ətraflı bax "Respublika" qəzeti, 18.08.2009).

Müəllim gənc nəslə dövlət səərhəddinin müqəddəsliyini, onun qorunmasının əhəmiyyətini geniş şəkildə izah etməli, bu sahə tez-tez yada salınmalı, məktəbdənkənar və sinifdənxaric



tədbirlərdə bu sahəyə xüsusi fikir verilməli, uşaq və gənclərin bu sahə üzrə inşa yazılar yazılmasına nail olunmalıdır. Vətən sərhəddən başlanır. Bu, vətənpərvərlik tərbiyəsi nümunəsidir.

## 7.4. Müstəqil dövlətin vergi sistemi

Ulu öndər Heydər Əliyevin 1995-ci ildə başladığı iqtisadi islahatlar qısa zaman kəsiyində xalq təsərrüfatının bütün sahələrində köklü dəyişikliklərə gətirib çıxardı. Bu da öz növbəsində iri miqyaslı islahatlara yönələn iqtisadi siyasətin ayrılmaz tərkib hissəsi olan vergi siyasətində də köklü dəyişikliklərin aparılmasını, vergi sisteminin müasir standartlar əsasında formalaşdırılmasını bir zərurət kimi ortaya qoymuşdu.

Ümummilli liderin vergi sistemində apardığı islahatların mühüm isti-qamətlərindən biri, demək olar ki, ən əsası qanunvericilik bazasının qurulması olmuşdur. Vergitutma sahəsi uzun müddət müxtəlif dövrlərdə qəbul edilmiş qanunlar və normativ hüquqi aktlar ilə tənzimlənmişdir. Lakin həmin dövrdə ölkənin iqtisadi inkişaf perspektivləri və işgüzarlığın fəal şəkildə artması qanunvericilik bazasının təkmilləşdirilməsini zərurətə çevirmişdi.

Vergitutma sahəsində mükəmməl qanunvericilik bazasının yaradılması istiqamətində əsaslı işlər 1998-ci ildən başlanmışdı. Ümummilli liderin şəxsi nəzarəti altında iki illik gərgin səylərin nəticəsi olaraq 2001-ci il yanvarın 1 -dən ölkədə vahid vergi qanunvericiliyi - Vergi Məcəlləsi qüvvəyə mindi. Bu sənədin sahibkarlığın inkişafı və ölkədə investisiya mühitinin daha da yaxşılaşdırılmasındakı rolu əvəzedilməzdir. Təkcə onu qeyd etmək lazımdır ki, bu sənədlə tətbiq olunan 13 vergi növü əvəzinə 8 vergi növü və buna alternativ olaraq sadələşdirilmiş sistem üzrə vergitutma təsbit olunmuşdur. Bundan başqa, əksər vergi növləri üzrə dərəcələr aşağı salınmış, aksizə cəlb olunan malların siyahısı vergi qanunvericiliyində aparılan minmuma endirilmişdir.

Vergi Məcəlləsinin qəbulu ölkənin həyatında tarixi bir hadisə olaraq, vergi sisteminin təkmilləşdiril-məsi və onun beynəl-

xalq standartlara uyğunlaşdırılması sahəsində atılmış ən mühüm addım oldu və bu ölkədə investisiya və vergi mühitinin əhəmiyyətli şəkildə yaxşılaşmasına gətirib çıxardı.

Vergi Məcəlləsinin qəbulu vergi sahəsində islahatların genişləndirilməsi üçün də təkan rolunu oynadı. Vergi siyasətinin təkcə büdcə gəlirlərini təmin etməyi nəzərdə tutan fiskal məqsədlərə deyil, həm də ölkədə iqtisadi inkişafı sürətləndirmək, optimal vergitutma mexanizmi ilə əlverişli investisiya mühiti yaratmaq, sahibkarlığın inkişafını stimullaşdırmaq kimi məqsədlərə xidmət etməsi üçün vergi orqanları qarşısında mühüm vəzifələr qoyuldu.

Ötən müddət ərzində vergi qanunvericiliyinin təkmilləşdirilməsi sahəsində mühüm tədbirlər həyata keçirilmişdir. Məcəlləyə əlavə və dəyişikliklər edilmiş, ölkədə vergi yükünün aşağı salınması siyasəti davam etdirirmiş, vergilərin sayı və dərəcələri azaldılmış, vergi güzəştləri optimal hədlərədək endirilmiş, eyni zamanda, iqtisadiyyatın ayrı-ayrı sahələrinin (kənd təsərrüfatı, bank sektoru, maliyyə lizinqi) inkişafını təmin etmək məqsədilə güzəştlər sistemindən səmərəli şəkildə istifadə edilmişdir.

Vergi qanunvericiliyində aparılan fundamental dəyişikliklər vergi xidmətinin inzibatı strukturunda da adekvat islahatların həyata keçirilməsini zəruri etmişdir. Bu baxımdan həmin dövrdə vergi orqanlarının inzibati – təşkilati strukturunun yenidən qurulması qarşıda duran əsas məsələlərdən olmuşdur.

Həmin dövrdə Baş Dövlət Vergi Müfəttişliyində ayrı-ayrı vergi növləri üzrə müxtəlif idarələr fəaliyyət göstərirdi. Bu idarələr konkret bir vergi növü üzrə həm qanunvericili-Dövlət Vergi Müfəttişliyinin bazasında dövlət vergi siyasətinin həya-ta keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edəcək və bu sahədə dövlət nəzarətini həyata keçirəcək mərkəzi icra hakimiyyəti orqanının – Azərbaycan Respublikası Vergilər Nazirliyinin yaradılması barədə qərar qəbul etdi. Vergilər Nazirliyinin yaradılması, onun həm səlahiyyətlərinin, həm də ölkə iqtisadiyyatının inkişafında



rolunun müəyyənləşdirilməsi ümummilli lider Heydər Əliyevin bu sahəyə göstərdiyi böyük diqqətin bariz nümunəsi idi.

Azərbaycanda dövlətçilik ənənələrini formalaşdırmaqla, inkişaf üçün güclü iqtisadi baza və yaxşı zəmin yaratmaqla, tənəzzül etmiş milli iqtisadiyyatı inkişaf reyslərinə çıxartmaqla müstəqil Azərbaycan dövlətini ilk quruculuq illərini, eyni zamanda müasir vergi xidmətinin memarı kimi yaddaşlarda əbədi qalacaqdır.

## 7.5. Müstəqillik şəraitində idmana dövlətin qayğı siyasəti

Azərbaycanın dövlət müstəqilliyinin bərpasının ilk illərində özünü bütün sahələrdə qabarıq göstərən ideoloji-siyasi, iqtisadi böhran səbəbindən idman siyasəti də tamamilə diqqətdən kənara qalmışdı. Heydər Əliyevi 1993-cü ildə müstəqil Azərbaycan dövlətinə rəhbərliyi dövründə digər sahələrlə yanaşı müstəqil Azərbaycanın həm də bir idman ölkəni kimi beynəlxalq aləmdə tanınması və olimpiya hərəkatına qoşulması geniş vüsət aldı. İdmanın üzləşdiyi problemlərin aradan qaldırılması, idmançıların maddi rifahının yüksəldilməsi, onlara gələcək qələbələr üçün stimul verilməsi, habelə ölkədə yeni idman komplekslərinin yaradılması istiqamətində gələcək prioritetlər müəyyənləşdirildi. 1993-cü ilin noyabrında ulu öndər dünya və Avropa miqyaslı yarışlarda yüksək nəticələr göstərmiş Azərbaycan idmançılarını qəbul etdi. Bu görüşdə Heydər Əliyev qeyd etdi ki, idmançılar dövlətin xüsusi qayğısı ilə əhatə olunmalıdırlar. Bu qayğı həm də ölkəmizdə idmanın inkişafına, istedadlı idmançıların potensial imkanlarının açılmasına xidmət etməlidir. İdmanın inkişafı üçün geniş imkanlar yaradılacağını bildirən Heydər Əliyev bu sahənin həm də milli məfkurə, mədəni irs və düşüncə sistemi, ən əsası, oturuşmuş tarixi ənənələr əsasında inkişafını dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirmişdi.

Heydər Əliyevin Azərbaycanın idman siyasətinin həyata keçirilməsi sahəsindəki xidmətləri əvəzsizdir. Ulu öndər idmançıların cəmiyyət həyatındakı rolunun artması, özlərinə layiqli yer tutmaları üçün əlindən gələni əsirgəməmişdir. Dövlətin idman siyasətinin həyata keçirilməsi üçün 1994-cü ildə Heydər Əliyevin fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Bu mənada, 1994-cü ili respublikanın idman həyatın-da dönüş ili adlandırmaq olar. 1995-ci il martın 5-də Heydər Əliyev yeni bir fərman imzaladı. Həmin fərmana əsasən, Azərbaycan Respublikası əhalisi arasında sağlam həyat tərzinin təbliğ edilməsi və bədən tərbiyəsinin maddi-texniki bazasının inkişaf etdirilməsi, bu sahədə ümumxalq yardımının təşkil olunması məqsədilə gənclərin idmana marağını artırmaq və Azərbaycan idmanının beynəlxalq miqyasa çıxmasına real zəmin yaratmaq üçün Azərbaycan Prezidenti yanında fond yaradıldı.

Heydər Əliyev Azərbaycanda idmanın kütləviliyi-nə nail olmaq, bədən tərbiyəsi və idmanı geniş coğrafi məkanda inkişaf və təbliğ etdirmək, yüksək nailiyyətlər qazanmaq və dünya şöhrətli idmançılar hazırlamaq üçün bu sahədə birbaşa məşğul olan qurumlar qarşısında konkret vəzifələr qoymuşdu. İdmanın inkişafı üçün həyata keçirilməli əsas tədbirlər sırasına mövcud idman bazalarının, stadionların, meydança və zalların qorunması, bərpası və təyinatı üzrə istifadəsinin təmin edilməsi, yeni idman bazalarının, meydançalarının, stadion və zalların tikilməsi, zəruri avadanlıqlarla təchizatı, idman klublarının açılması, mütəxəssislərinin yetişdirilməsi, ölkə birinciliklərinin və digər yarışların keçirilməsi, idmançılarımızın beynəlxalq yarışlarda iştirakının təmin edilməsi, yüksək nəticələri olan idmançılara diqqət və qayğı göstərilməsi, Azərbaycanda beynəlxalq yarışların keçirilməsi, uşaq və yeniyetmələrin daha geniş miqyasda idmana cəlb olunması daxil edilmişdi. Çox qısa zamanda həyata keçirilən mühüm tədbirlərin nəticəsi olaraq idmançılarımız tədricən möhtəşəm qələbələrə imza atdılar, üçrəngli bayrağımız beynəlxalq arenalarda dalğalanmağa başladı. Heydər Əliyev idmanın, bədən tərbiyəsinin inkişafını hər bir sivilizasiyalı xalqın ali ideallarının təcəssümü olmaqla yanaşı, həm də dövlətin beynəlxalq nüfuz və mövqelərinin təntənəsi kimi qiymətləndirirdi. Ulu öndər idmanın dövlətimizin dünyada tanınmasında, imicinin möhkəmlənməsində müstəsna rolunu önə çəkərək deyirdi: ***"İdman, bədən tərbiyəsi xalqın sağlamlığı ilə bağlı olan mühüm sosial sahədir. Azərbaycan bayrağı dünyada, demək olar ki, iki dəfə qaldırılır. Bu, bir Azərbaycanın dövlət başçısı hər hansı ölkəyə gələrkən və bir də idmançılarımız beynəlxalq yarışlarda çempion adını qazanarkən baş verir. Azərbaycan himni səslənir, dövlət bayrağı qaldırılır".***



Ulu öndər Heydər Əliyevin idman sahəsində həyata keçirdiyi siyasət 1997-ci ildən mühüm mərhələyə qədəm qoydu. Rəhbərlik etdiyi bütün sahələrdə uğurlara imza atan cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi (31.07.1997) Azərbaycan idmanının həyatında mühüm və əlamətdar hadisə ki-mi tarixə yazıldı. Bu tarixi seçim ümummilli lider Heydər Əliyevin respublikada idmanın inkişafı ilə bağlı ideyalarının daha sürətlə gerçəkliyə çevrilməsini təmin etdi, idman sahəsində həyata keçirilən dövlət siyasətinin yeni şəraitdə gerçəkləşməsinə böyük imkanlar açdı. Cənab İlham Əliyevin idman və bədən tərbiyəsinin tərəqqisi, Azərbaycanın dünya idman ailəsinin bərabərhüquqlu üzvünə çevrilməsi üçün atdığı addımlar ölkənin bütün idman ictimaiyyəti tərəfindən razılıqla qarşılandı. Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər qısa zaman kəsiyində öz bəhrəsini verməyə başladı. İdmançılara dövlət qayğısı ilə yanaşı, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlərə start verildi. 2000-ci ildən etibarən Azərbaycanın müxtəlif bölgələrində müasir tipli olimpiya idman kompleksləri tikilib istifadəyə verilməyə başladı.

Azərbaycan xalqının fiziki-mənəvi sağlamlığına çalışan cənab İlham Əliyev Prezident seçildikdən sonra da idman və bədən tərbiyəsinin inkişafı sahəsində kompleks tədbirlərin həyata keçirilməsini diqqətdə saxlamış, daim respublikamızın idman imicinin yüksəlməsinə çalışmışdır. İdmana dövlət qayğısı daha da artmış, ölkəmizin iqtisadi inkişafına, artan maliyyə imkanlarına

uyğun olaraq onun maddi-texniki bazasının möhkəmləndirilməsi yolunda ciddi işlərə başlanılmışdır. Dövlət başçısı Azərbaycanın bütün rayonlarında idmanla məşğul olmaq üçün müasir tələblərə cavab verən infrastrukturun formalaşdırılmasını mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Bütün bunlar isə gənc nəslin sağlam ruhda tərbiyəsinə, respublikamızda idmanın kütləviləşməsinə xidmət edir.

Bir vaxtlar maddi çətinliklər üzündən respublikamızı tərk etmiş çoxlu sayda idmançı gənc geri qayıdaraq respublikamızın idman şərəfini uca tutur, üçrəngli bayrağımızı göylərə qaldırır. Ölkəmizdə beynəlxalq səviyyəli yarışlar təşkil olunur, idmançılarımız hər il müxtəlif idman növləri üzrə keçirilən Avropa və dünya çempionatlarında uğurlu nəticələr göstərirlər. Dövlət başçısı İlham Əliyevin bu yarışları izləməsi, idmançılarımıza mənəvi və maddi dəstək verməsi, onları ruhlandırması da vacib məqam kimi vurğulanmalıdır.

Azərbaycan idman ictimaiyyəti tərəfindən ciddi tərəfdaş, idmançılarımız isə əsas rəqib kimi qəbul olunurlar. Azərbaycanın qısa müddətdə idman sahəsində əldə etdiyi nailiyyətlər beynəlxalq idman təşkilatlarının diqqətindən yayınmamış, məhz onların istəyi ilə son illərdə ölkəmizdə saysız-hesabsız mötəbər beynəlxalq turnirlər, dünya və Avropa çempionatları keçirilmişdir.

Ölkəmizdə idmanın inkişafına olan qayğı tək olimpiya idman növlərini deyil, qeyri-olimpiya idman növlərini də əhatə edir. Aidiyyəti dövlət orqanları bu cür idman növləri ilə məşğul olan idmançılarımızın beynəlxalq yarışlarda iştirakını daim maliyyələşdirir, onları gələcək qələbələrə ruhlandırmaq üçün müxtəlif stimullaşdırıcı tədbirlər görürlər. Bunun nəticəsidir ki, Azərbaycan idmançıları ağırlıqqaldırmanın yalnız peşəkarların məşğul olduğu pauerliftinq növü, peşəkar boks, kikboksinq, qaydasız döyüş və digər idman növlərində ən yüksək nailiyyətlərə imza atırlar. Prezident İlham Əliyev bu barədə deyib: ***"Azərbaycanda idmanın həm olimpiya, həm də qeyri-olimpiya növləri bərabər hüquqa malikdir. Heç bir ayrı-seçkilik yoxdur və bu siyasət Azərbaycanda uzun illərdir aparılır. İstər olimpiya idman növü ilə, istərsə də qeyri-olimpiya idman növü ilə məşğul olan idmançılara biz həmişə eyni gözlə baxırıq. Bu, belə də olmalıdır. Çünki hər bir idmançı beynəlxalq yarışlarda Azərbaycanın idman şöhrətini ucaldır".***



İdman sahəsində qazanılan nailiyyətlər həm də dövlətin ümumi inkişaf səviyyəsini, iqtisadi potensialını müəyyənləşdirən vacib meyarlardan biri kimi təbliğatı siyasi məzmun kəsb edir. Bu baxımdan Azərbaycanın dinamik inkişafı idmanda qazanılan uğurlarla bir paralellik təşkil edir. Həm qazanılan medallar, həm idman komplekslərinin tikintisi, həm də Azərbaycanın beynəlxalq miqyasda idman ölkəsi kimi imicinin möhkəmlənməsi bir vəhdət təşkil edərək idman sahəsindəki uğurlarımızın əsasını təşkil edir. İdman ictimaiyyəti əmindir ki, Prezident İlham Əliyevin ölkəmizin inkişafına xidmət edən siyasi xətti idmanımızın daha da inkişafına böyük töhfələr verir.

Cənab prezident İlham Əliyev idmana və idmana rəhbərlik edən şəxslər barədə demişdir: «Gərək idmana rəhbərlik edən şəxs, idmanla məşğul olan şəxs ilk növbədə Vətənini sevsin. Əgər o sevgi, məhəbbət varsa hər bir sahədə, o cümlədən idmanda da uğurlar qazanılacaq».

İdmançılarımızın hər dəfə beynəlxalq arenalarda qazandıqları qalibiyyətlər, bayrağımızı ucaltmaları dövlətimizə şərəf gətirən amillərdir.

Müəllim aşağıdakı faktları göstərməklə idmana qayğını və nailiyyətləri gənclərə çatdırmaqla vətənpərvərlik hissini aşılamış olur.

Azərbaycan Milli Olimpiya Komitəsinin rəhbəri 12 ildir ki, əsl Vətən sevgisi ilə öz olimpiyaçılar komandasını, bütün idman hərəkatımızı qələbədən-zirvəyə aparır. Bu müddət ərzində neçə-neçə çempionumuzun adları ölkənin tarixinə qızıl hərflərlə yazılmış və onlar öz böyük nailiyyətləri ilə Vətənin sərvətinə çevrilmişlər.

On iki il zaman etibarilə o qədər də uzun müddət deyildir. Lakin bu illər ərzində Azərbaycan idmanı o qədər xoş günlər yaşamış, o qədər tarixi hadisələrin şahidi olmuşdur ki, onların ha-

mısını yox, yalnız bir qismini sadalamaq istəsək belə, yaddaşımız, bəlkə də, gücsüz görünər. Çünki idmanın ürəkdən sevildiyi və ona məhəbbətin böyük uğurlara, müxtəlif mükafatlara hamar bir yol açdığı ölkədə bütün dünyanın diqqətini cəlb edən ciddi dəyişikliklər baş verir.

Bu gün heç Kim üçün sirr deyil ki, möhtərəm Prezidentimizin böyük qayğısı sayəsində Azərbaycan Ümumdünya olimpiyaçılar ailəsində layiqli yer tutur, respublikamızın idman həyatı, beynəlxalq startlarda qələbə və medallarımız hər yerdə yüksək qiymətləndirilir, ölkəmiz qüdrətli bir idman dövləti kimi çoxlarına nümunə göstərilir. Təsadüfi deyil ki, 2008-ci ilin finişində keçirilmiş Milli Olimpiya Komitəsinin V hesabat-seçki Baş Məclisində cənab İlham Əliyev yekdilliklə daha səkkiz il müddətinə MOK prezidenti seçilmişdir. Bu isə o deməkdir ki, Azərbaycanın olimpiyaçılar komandası ən azı daha iki yay Olimpiya oyunlarında mübarizəyə başlamazdan əvvəl indiki liderindən xeyir-dua alacaqdır.

Məhz Milli Olimpiya Komitəsi rəhbərinin idmanımızın şöhrətini yüksəklərə qaldırmaq üçün yorulmaz fəaliyyəti və həyata keçirdiyi mühüm tədbirlər nəticəsində bu gün respublikamız dünyanın sayılıb-seçilən idman ölkələrindən birinə çevrilmişdir. İndii hamı yaxşı bilir ki, Azərbaycanda idmana daimi dövlət qayğısı təkcə beynəlxalq meydanda qələbə və medallar qazanılması məqsədinə xidmət etmir, başlıca məqsəd insanların öz asudə vaxtlarını səmərəli keçirmələri, kütləvi idman tədbirlərində fəal iştirak etmələri, sağlamlıqlarını möhkəmləndirmələri üçün onlara zəruri şərait yaradılmasıdır. Bu vacib şərt isə istər peşəkar idmançılarda, istərsə də adi idman həvəskarlarında xoş əhval-ruhiyyə yaradır, onların məşğələlərə marağını ikiqat artırır.

2009-cu ilin iyunun 30-da respublika Daxili İşlər Nazirliyi İdman Cəmiyyətinin yeni binasının açılışı mərasimində Azərbaycan Prezidenti İlham Əliyev bununla əlaqədar öz çıxışında belə demişdir: «Azərbaycan idmanının çox böyük potensialı, çox böyük gücü var. Həm kütləvi qaydada idmanla məşğul olmaq üçün şərait yaradılır, həm Azərbaycan xalqı peşəkar, görkəmli idmançılar yetişdirir, həm də bizim idmançılar dünya, Avropa çempionatlarında, Olimpiya oyunlarında qabaqcıl yerlərdədirlər. Azərbaycanda idmanın belə geniş vüsət alması çox mühüm bir hadisədir. Gənc nəslin yetişdirilməsi, vətənpərvərlik ruhunda tərbiyə olunması, ümumiyyətlə, ölkənin idman şöhrətinin yüksəkliklərə qaldırılması üçün Azərbaycan dövləti hər şeyi edir...».



Burada fərəhlə qeyd etmək olar ki, son doqquz-on ildə ölkədə çoxsaylı idman qurğuları inşa edilmiş və onlar öz imkanlarına görə müasir tələblərə, beynəlxalq standartlara tam cavab verir. Bu barədə danışarkən təbii ki, ilk növbədə olipiya idman komplekslərindən söhbət açmaq lazımdır. Azərbaycanda artıq 19 belə kompleks gənclərin ixtiyarına verilmişdir. Orta hesabla hər il ölkədə iki olimpiya idman kompleksi öz qapılarını idman həvəskarlarının üzünə taybatay açmışdır. Özü də bu komplekslər təkcə paytaxt Bakıda, Gəncə və Naxçıvan kimi böyük şəhərlərdə deyil, digər yerlərdə, hətta cəbhə bölgəsi – Ağdam rayonunun Quzanlı qəsəbəsində də inşa olunmuşdur. Ötən futbol mövsümündə «Qarabağ» bir neçə oyunda rəqiblərini məhz bu stadionda qəbul etmişdir. Hələlik sonuncu, sayca 19-cu olan Şəmkir Olimpiya İdman Kompleksi isə bu yaxınlarda, 28 May-Respublika günü ərəfəsində istifadəyə verilmiş və təbii ki, bütün Şəmkir əhalisinin ürəyindən olmuşdur.

İdman qurğularının inşasına mühüm əhəmiyyət verən Azərbaycan dövləti və Milli Olimpiya Komitəsi bu işi ciddi nəzarətdə saxlayır. Yaxın vaxtlarda ölkəmiz yeni olipiya komplekslərinin açılışı mərasimlərinin də şahidi olacaqdır. Hər bir yeni kompleks isə həmin bölgədə yaşayan gənclərə gözəl töhfədir, onların sağlamlığının möhkəmləndirilməsi, idman ustalığının artırılmasında çox mühüm şərtdir. Yaraşıqlı, rahat komplekslərdə təcrübəli mütəxəssislərin rəhbərliyi altında keçirilən məşqlər öz müsbət nəticələrini çox gözlətmir.

Cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan idmançılarının son üç yay Olimpiya oyunlarında qazandıqları üstüstə 15 medal da təmsilçilərimizin dünya idmançılarının ali məc-

lisinə hazırlığı üçün yaradılan ideal şəraitin bəhrəsidir. Sidney Olimpiyadası-2000-dən sərbəst güləş ustası Namiq Abdullayevlə stend atıcısı Zemfira Meftahəddinovanın gətirdikləri qızıl mükafatlar, boksçu Vüqar Ələkbərovun bürünc medalı, bundan dörd il sonra Afina Olimpiya oyunlarında yunan-Roma üsulu ilə güləşdə öz çəkisində tayı-bərabəri olmayan Fərid Mansurovun qızıl, Zemfira Meftahəddinova ilə yanaşı güllə atıcısı İradə Aşurovanın, eləcə də boksçular Ağası Məmmədovla Fuad Aslanovun bürünc medalları, Pekin-2008-də isə cüdoçu Elnur Məmmədlinin qazandığı qızıl, «klassiklər» Rövşən Bayramovla Vitali Rəhimovun gümüş, tatami ustası Mövlud Mirəliyevin, boksçu Şahin İmranovun, sərbəst üsulla güləşən Xetaq Qazyumovun və qadın güləşçi Mariya Stadnikin bürünc medalları bu gün Azərbaycanın xəzinəsində ən qiymətli sərvətlər kimi layiqli yer tutur.

Əgər bir il əvvəl ÇXR paytaxtında böyük hünər göstərən paralimpiyaçılarımızın da 10 medal qazandıqlarını xatırlasaq, ölkəmizdə fiziki cəhətdən qüsurlu olan idmançıların da məşqlərdə iştirakı və yarışlara hazırlığı üçün hər cür şərait yaradıldığı bir daha aydın olar. Pekində startlar ərəfəsində Sumqayıtda istifadəyə verilən və təntənəli açılışı mərasimində dövlət başçımız, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin yüksək qiymətləndirdiyi Paralimpiya Kompleksi müasir tələblər səviyyəsindədir.

Bu isə onu təsdiq edir ki, paralimpiyaçı çempionlarımız cüdoçu İlham Zəkiyev, yadro itələyən Oluxan Musayev və onlar kimi Pekindən Xəzər sahillərinə medallarla qayıtmış digər həmvətənlərimiz belə böyük uğurları məhz onlara göstərilən gündəlik qayğı və zəruri məşq şəraiti sayəsində qazanmışlar.

Ən xırda məsələlərin belə nəzərə alındığı yüksək səviyyəli şərait hər il Azərbaycanda onlarla mötəbər beynəlxalq yarışın keçirilməsində həlledici rol oynayır. Təkcə onu deyək ki, Avropa Gimnastika İttifaqı kimi çox nüfuzlu bir təşkilatın son üç ildə iki dəfə bədii gimnastika üzrə qitə çempionatının Bakıda təşkilinə qərar verməsi çox şeyə sübutdur. 2009-cu ilin iyulun 20-də paytaxtımızda təşkil olunan və idmanımızın bugünkü səviyyəyə



çatmasında böyük xidmətləri olmuş ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilən sərbəst güləş, yunan-Roma və qadın güləşi üzrə «Qızıl Qran-pri» turnir idə bu ilin çox mühüm və unudulmaz hadisəsi idi. Dünyanın 32 ölkəsindən böyük məmnuniyyətlə Azərbaycana gələn 300-dən çox iştirakçı ulu öndərə dərin ehtiramını bir-birindən maraqlı və gərgin görüşlərlə ifadə etdi. Yarış başa çatdıqdan sonra isə qonaqlar öz ölkələrinə Heydər Əliyevin vətəni haqqında zəngin təəssüratla qayıtdılar.

Həqiqətən, idmanımızın nüfuzunun yüksəlməsi, respublikamızda mötəbər yarışların bir-birini əvəz etməsi xaricdə Azərbaycana marağı durmadan artırır. İndi xarici ölkələrin nümayəndələri Bakıya səfər etmək imkanı qazandıqda paytaxtımızla yaxından tanış olmaq fürsətini də qaçırmırlar. Bu zaman aldıqları xoş təəssürat barədə söylədikləri rəylər isə hər bir azərbaycanlının ürəyindən olur. Məsələn, Bakı İdman Sarayında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilən «Qızıl Qran-pri» turnirinin gedişini izləmiş Beynəlxalq Güləş Assosiasiyaları Federasiyasının (FİLA) prezidenti Rafael Martinetti mətbuat konfransında Azərbaycan Güləş Federasiyasının fəaliyyətini yüksək qiymətləndirib «onun qısa müddətdə beynəlxalq aləmdə böyük uğurlar qazanmış yeganə idman təşkilatı olduğunu» deyərkən Bakıya hər gəlişində Azərbaycan paytaxtının simasında müsbət dəyişikliklərin şahidi olduğunu da vurğulayaraq bildirmişdir ki, zənnimcə, bir neçə ildən sonra Bakı dünyanın ən gözəl şəhərlərindən biri olacaqdır.

Bu fikir bir daha təsdiq edir ki, müstəqil Azərbaycan Respublikası dövlət başçımız, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin rəhbərliyi ilə təkcə idmanda yox, həyatın bütün sahələrində əsl tərəqqi yolundadır.

Gündən-günə çiçəklənən və möhkəmlənən, bunun da nəticəsində beynəlxalq aləmdə nüfuzu daha da artan müstəqil Azərbaycan Respublikasının qüdrətli bir idman dövlətinə çevrildiyi hər yerdə etiraf olunur. Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Jak Roqqun respublikamıza son səfərlərindən birində dediyi kimi, Azərbaycan Prezidenti İlham Əliyev ölkədə idmanın

inkişafına böyük diqqət yetirir və bu sahədə qazanılmış uğurlar müasir standartlara cavab verir.

Dünyada hökm sürən maliyyə böhranına baxmayaraq, Azərbaycanda idman qurğularının inşasının sürətlə davam etdirilməsi dövlətimizin imkanlarının və bu sahəyə gündəlik qayğırılməsi dövlətimizin imkanlarının və bu sahəyə gündəlik qayğısının parlaq təzahürüdür. Bu ilin may ayında respublikamızın qonağı olmuş Avropa Ədalətli Oyunlar Hərəkatının prezidenti Karlos Qonsalves Prezident İlham Əliyev ilə görüşü zamanı Azərbaycan Milli Olimpiya Komitəsinin yarandığı vaxtdan bəri keçdiyi inkişaf yolundan və qazandığı uğurlardan, cənab İlham Əliyevin bu sahədə xidmətlərindən xəbərdar olduqlarını bildirmiş, sonra isə demişdir: Zati-aliləri, idman fəaliyyətimizdə və gündəlik həyatımızda Olimpiya tərbiyəsinin, ədalətli oyunlar dəyərlərinin və prinsiplərinin vacibliyinə yönələn bütün təşəbbüslərə verdiyimiz hərtərəfli dəstəyi də bilirik. Buna görə də Olimpiya Ədalətli Oyunlar Hərəkatının İcraçı Komitəsi Sizin təşkilatın tarixində ilk dəfə olaraq Avropa Ədalətli Oyunlar Hərəkatının «Şərəf» nişanı ilə təltif edilməyinizə dair qərar qəbul etmişdir. Bu, ümumi məqsədlərimizə nail olmaq üçün verdiyimiz böyük töhfələrə görə bizim Sizə dərin minnətdarlığımızın ifadəsidir.

Burada xatırlatmaq yerinə düşər ki, dövlətimizin və idmanımızın lideri cənab İlham Əliyev hələ beş il əvvəl-2004-cü ilin fevralında olimpiya hərəkatında görkəmli xidmətlərinə görə Beynəlxalq Olimpiya Komitəsinin ali mükafatı – Olimpiya Ordeninə də layiq görülmüşdür.

... Sanki dünən böyük həyəcanla üzləşdiyimiz Pekin Olimpiadasından artıq bir il keçir. Londonda təşkil olunacaq XXX Yay Olimpiya Oyunlarına isə cəmi üç il qalır. Azərbaycan idmançılarının 2012-ci ildə İngiltərə paytaxtında yubiley Olimpiadasında iştirakı cənab İlham Əliyevin ölkə olimpiya hərəkatına rəhbərliyinin 15-ci ilinə təsadüf edəcəkdir. Olipiadaçılarımız öz liderlərinin rəhbərliyi altında yarışdıqları üç Olipiadadan – Sidney, Afina və Pekindən yuxarıda qeyd etdiyimiz kimi, üst-üstə 15 medal – 4 qızıl, 2 gümüş və 9 bürünc medalla qayıtmışlar. Bu



mükafatların hamısı Azərbaycan xalqına hədsiz sevinc bəxş etmişdir. London ştatlarından sonra isə olimpiya qənimətlərimizin sayı, şübhəsiz, daha da çoxalaca, Kim bilir, bəlkə də ikiqat artacaqdır. Bu, cənab İlham Əliyevin Azərbaycan Milli Olimpiya Komitəsinə rəhbərliyinin 15-ci ilinə ən qiymətli töhfə olacaqdır (97). Gənclərimiz böyük idmana hazırlanmalı, dövlət qaydasından yararlanmalıdırlar. İdman vətənpərvərlik nümunəsi, mərdlik nümunəsi, cəsarət nümunəsidir.

## 7.6. Heydər Əliyev fondunun fəaliyyəti humanizm və vətənpərvərlik nümunəsidir

Azərbaycanın, türk dünyasının ümummilli lideri Heydər Əliyev fondunun çox böyük humanist məqsədi vardır. Onlardan bəzilərini göstərmək istəyirik.

– Azərbaycan xalqının, Heydər Əliyevin irsinin öyrənilməsinə, Azərbaycanın tərəqqisi və Azərbaycan xalqının rifahı naminə onları istifadə olunmasına xidmət edən geniş miqyaslı proqramların həyata keçirilməsinə dəstək verilməsini, ... Azərbaycan həqiqətlərini beynəlxalq miqyasda tanıdılması, ... təhsil-mədəniyyət və idman mərkəzlərinin inkişaf etdirilməsi, ... elmi tədqiqatların aparılmasına yardım edilməsi... uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət edilməsi; xüsusi istedadlı şagirdlərə, tələbələrə, alimlərə təqaüd verilməsi, ... tibb cihazlarının inkişaf etdirilməsi gələcək nəsillərin sağlamlığı üçün ekoloji təhlükəliyə kömək edilməsi və digər işlərin görülməsi nəzərdə tutulmuşdur. Fondun çox əhəmiyyətli məqsəd aydınlığı vardır. Heydər Əliyev fondu 10 may 2004-cü ildən fəaliyyətə başlamışdır.

Heydər Əliyev Fondu 2004-cü ildə ulu öndərin siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq niyyətindən irəli gələrək yaradıldı.

Fondun təntənəli açılışı 2004-cü il mayın 10-da, xalqımızın ümummilli lideri Heydər Əliyevin doğum günündə oldu. Açılış mərasimində çıxış edən Prezident «İlham Əliyev deyib: ***"Fond Heydər Əliyevin siyasi irsini öyrənəcək, onu təhlil, tədqiq və təbliğ edəcəkdir. Fondun qarşısında böyük vəzifələr durur. Fond ictimai təşkilatdır. Ümid edirəm ki, Azərbaycanın ictimai həyatında Fondun rolu böyük olacaqdır.***

Heydər Əliyev Fondu Azərbaycanda analoqu olmayan yeni qurum olduğunu sübut etmişdir. Milli Məclisin deputatı, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi mədəni-ictimai tədbirlər dövlətimizin inkişafına, müstəqilliyimizin möhkəmləndirilməsinə, Azərbaycanın dünya birliyində öz layiqli yerini tutmasında böyük əhəmiyyəti vardır.

Heydər Əliyev Fondunun gördüyü işlər, həyata keçirdiyi layihələr sanballı və genişəhatəlidir.

Heydər Əliyev Fondu Qarabağ həqiqətlərini, Xocalı soyqırımını dünyaya çatdırmış, ermənilərin vəhşiliklərini, öldürülən və əsir düşən azərbaycanlıların şəkillərini çoxaldaraq xarici dövlət səfirliyinə göndərmiş, xəstə, kimsəsiz uşaqlara himayəsinə durmuşdur. Məktəb binaları (2007/2008-ci illərdə 200 məktəb tikdirmişdir), səhiyyə ocaqları, diaqnostika mərkəzləri tikdirmiş, tarixi binaları – məscid, kilsə, mədəniyyət mərkəzlərini əsaslı təmir elətdirmiş, Azərbaycanın tarixi əhəmiyyətli muğam festivalını keçirmiş, muğam evi tikdirmiş, Qala kəndində tarixi muzeylər yaratmışdır. Beynəlxalq imici yüksəltmiş, xarici ölkələrdə məktəb tikdirmiş, mədəniyyət ocağı təmir etdirmişdir. Fondun xeyirxahlıq, milli-mənəvi dəyərləri sonsuzdur.

Heydər Əliyev Fondu xeyirxah işlərdə fəallıq göstərən səhiyyə, mədəniyyət, təhsil və başqa sahələrdə fəal çalışqan mütəxəssislərə "Qızı! Çinar" beynəlxalq mükafatı təhçiz edilmişdir.

Heydər Əliyev Fondu ümumilikdə ölkənin müstəqilliyinin möhkəmlənməsinə dəyərli fayda verir.



Heydər Əliyev Fondunun **loqosu** səkkizguşəli ulduzun içərisində Heydər Əliyev inisiallarının "H.Ə" əmələ gətirdiyi səkkizguşəli ulduzdan ibarətdir. Səkkiz-guşəli ulduz şumerdən gəlmədir. Zərdüştlükdə onun fəlsəfəsi açılır: səma, yer, su, hava, bitki, heyvanat, insanat, ad. Bu həm də sadədən aliyə doğru inkişafı göstərir. İnisialları əhatə edən səkkizguşəli ulduz Azərbaycan xalqının öz dahi oğlu Heydər Əliyevin ideyaları ətrafında birləş-məsini göstərir. Loqoda iki rəng qəbul edilmişdir: **göy** və **qızılı.** Göy rəng səmanı, demokratiyanı, düzlüyü, təmizliyi, günahsızlığı, dincliyi, etibarlılığı, səmimiliyi, əminliyi, milliliyi göstərir. Qızılı rəng isə günəş, sülh, inkişaf, işıqlı gələcək simvoludur. Hər iki rəng ümummilli mer Heydər Əliyevin istək və arzularını, ideyalarını əks etdirir

Heydər Əliyev Fondunun ulu öndərin adına layiq olaraq geniş spektri əhatə edən hər kəsdə fərəh və qürur hissləri doğuran kəhkəşan fəaliyyətinin əsasında təbii ki, onun prezidenti, YUNESKO və İSESKO-nu xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın əzmkarlığı, təşəbbüskarlığı həyata keçirilən proqram və layihələrə və ümumən Fondun fəaliyyətinə yaradıcı münasibəti dayanır. Mehriban xanım Əliyevanın özünün də bəyan etdiyi kimi, Fondun çoxşaxəli fəaliyyətinin bir əsas məqsədi var insanlara təmənnasız yaxşılıq! Bunu Mehriban xanım Əliyevanın özünəməxsus səmimiyyətlə dediyi sözlər də təsdiq edir: ***"Mən arzu edirəm ki, dünyada saf və xeyirxah əməllər daha çox olsun, dərd-qüssə azacıq da olsa, əskilsin".***

Məhz nəcib əməllərinə görə Mehriban xanım Əliyeva ötən 5 ildə bir sıra beynəlxalq mükafatlara, adlara layiq görülüb. Hələ 2004-cü ilin avqustunda Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə görə YUNESKO-nu! xoşməramlı səfiri adına layiq *görülüb. Hələ 2004-cü ilin avqustunda Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində YUNESKO*-nun xoşməramlı səfiri adına layiq görülən Mehriban xanım Əliyeva 2005-ci il iyun ayında ictimai, mesenatlıq və xeyriyyəçilik fəaliyyətinə, Rusiya və

Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsindəki töhfələrinə görə Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeni ilə təltif edilmişdir. Sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyac duyan uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşmasına, təhsilə, həmçinin islam aləmində görülən işlərə böyük dəstəyinə görə isə Mehriban xanım Əliyeva 2006-cı ilin noyabrında İSESKO-nun xoşməramlı səfiri adını aldı. Ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edən Mehriban xanım Əliyeva 2004-cü ildən Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvüdür. 2004-cü il dekabrın 28-də Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv seçilən Mehriban xanım Əliyeva həm də 2005-ci ildə Milli Məclisə keçirilən seçkilərdə 14 saylı Əzizbəyov ikinci seçki dairəsindən deputat seçildi.

Mehriban Əliyeva 2005-ci il-də Azərbaycanda keçirilən sosioloji sorğuya əsasən "İlin qadını" adına, Ümumdünya Səhiyyə Təşkilatı İcraiyyə Komitəsinin 2007-ci il yanvarın 29-da Cenevrədə keçirilən 120-ci sessiyasının yekdil qərarı ilə ana, uşaq və ailə sağlamlığının qorunması və möhkəmlənməsi işində xüsusi xidmətlərinə görə bu beynəlxalq təşkilatın mükafatına, həmçinin genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsində əldə etdiyi yüksək nailiyyətlərinə görə 2007-ci ilin mayında Rusiyada "Qızıl ürək" beynəlxalq mükafatına layiq görüldü. Yetim və kimsəsiz uşaqlara, müharibə və təbii fəlakətlərdən zərər çəkmiş insanlara yardım göstərilməsi sahəsində İslam Konfransı Təşkilatı ilə yüksək səviyyədə əməkdaşlığa görə isə 2008-ci ilin iyununda Mehriban xanım Əliyeva "İKT-nin humanitar məsələlər üzrə xüsusi elçisi" diplomuna layiq görülmüş, 2009-cu ilin mayında Mehriban xanım Əliyeva Heydər Əliyev medalı və mükafatına layiq bilinmişdir (96). Bütün bu müvəffəqiyyətlər Azərbaycanda dövlət müstəqilliyinin, demokratiyanın, qadın azadlığının nəticəsidir. Müəllim bu fəaliyyəti vətənpərvərlik nümunəsi kimi öyrətməlidir.



## 7.7. Azərbaycan yol mədəniyyətinin inkişafı və Bakı Beynəlxalq avtovağzalı

### 7.7. 1. H.Əliyev adına Beynəlxalq hava limanı, Bakı-Quba-Rusiya avtomobil yolu dövlət qayğısının nəticəsi kimi

Yol müqəddəs bir sahədir. Yol kəndləri, qəsəbələri, şəhərləri bir-birinə bağlayır. Tarixən yol böyük əhəmiyyət kəsb etmişdir. Bu yollar mədəniyyət gətirir. Məsələn, tarixi ipək yolu buna parlaq misaldır.

Müstəqil Azərbaycan dövlətinin inkişafında yol böyük əhəmiyyət daşıyır. Bu əhəmiyyəti nəzərə alaraq son illər Azərbaycan dövləti, xüsusən də cənab İlham Əliyevin yaxından köməyi və sərəncamı ilə yol çəkilişi və yenidən qurulması diqqətə layiqdir. Azərbaycan tarixində bir çox ucqarlarda avtomobil yolu olmayan yerlərə, xüsusən də Quba rayonundakı Xınalıq kəndinə avtomobil yolu çəkilməsi böyük işdir. Yardımlı, Lerik və digər rayon yolları, Bakı-Quba- Rusiya, Bakı-Qazax-Tbilisi, Bakı-Astara-İran və s. avtomobil yollarının əsaslı təmiri və dünya standartlarına layiq yollar çəkilmişdir və çəkilir.

Eyni zamanda Bakı şəhərində yolların yenidən qurulması, Bakı Hava Limanına yeni avtomagistral yolun çəkilişi, Bakı şəhərində yeni-yeni körpü və tunel keçidləri bu qəbildəndir.

Ümumilikdə Azərbaycan yollarının inkişafı müstəqilliyin nəticəsi, ölkənin mədəni yüksəlişi deməkdir. Bu vacib və əhəmiyyətli məsələnin tələbə gənclərə öyrədilməsi əhəmiyyətə malik işdir.

2008-ci ilin may ayının 9-da Zığ dairəsi – Heydər Əliyev adına Beynəlxalq hava limanı, avtomobil yolu Azərbaycanda betonörtüklü ilk yolun açılışı olmuşdur.

Azərbaycan prezidenti İ.Əliyev yolun açılışında iştirak etdi.

2007-ci ilin noyabrın 10-da başlanan yolun tikilişini "Akkord" şirkətlər qrupu aparmışdır.

Son texnologiya əsasında Avropa standartlarına uyğun 17 kilometrlik yol 6 hərəkət zolağından ibarətdir. Yolun eni 27.5 metrdir.

Zığ dairəsindən Azadlıq meydanına (Hökumət evinin yanı) 12 kilometrlik yol yenidən qurulmuşdur.

Yolun tikintisində 4 milyon kub metr torpaq işləri görülmüş, 500 marka betondan 26-30 sm qalınlığında örtük salınmışdır. Monomt-beton işlərinin ümumi həcmi 250 min kubmetrdir.

Yol kəsimi işlərində 4 keçid, 2 körpü inşa edilmişdir. Yol kənarları 625 işıq dirəkləri, 8640 metr istinad divarları, 40 km təhlükəsizlik səddi çəkilmişdir. 200 hektar sahə yaşıllaşdırılmışdır.

Yolun inşasında 5 mindən çox işçi (o cümlədən 100 nəfər Almanyalı) mütəxəssislər işləmişdir. Ərazidən 3 stasionar və 1 mobil beton zavodu fəaliyyət göstərmişdir. Ümumən 171 milyon manat vəsaitin sərf olduğu yolun istismar müddti 30 ildən çoxdur. (100)

### 7.7. 2. Bakı-Quba-Rusiya dövlət sərhədi avtomobil yolunun 11-ci kilometrində -Xırdalan dairəsində tunel tipli yolötürücünün açılışı

Prezident İlham Əliyev açılış mərasimində iştirak etmişdir.

Bakı-Quba-Rusiya dövlət sərhədi avtomobil yolunun yenidən qurulmasına ötən ilin mayında başlanmışdır. Nəqliyyat Nazirliyinin sifarişi ilə görülən inşaat işlərini "Akkord" şirkətlər qrupu həyata keçirir. Avropa Yenidənqurma və İnkişaf Bankının maliyyə dəstəyi ilə reallaşdırılan bu layihə çərçivəsində yolun 16-134-cü kilo-metrinə beton örtük döşənməlidir.

Beynəlxalq əhəmiyyətli bu yolda yük maşınlarının hərəkətinin intensivliyi nəzərə alınmaqla qalın beton örtüyün döşənməsi yolun davamlılığını artırır. Magistral boyu 21 körpü və yolötürücü, 10 qovşaq, 15 mal-qara keçidi, 112 boru keçidi, 5 xidmət məntəqəsi olacaqdır. Yenidənqurma işləri üç növbədə aparılır.

Bakı-Sumqayıt yolu bütünlüklə tamamlanaraq istifadəyə verilmişdir. Yolun bu hissəsinin açılış mərasimində respublika Prezidenti İlham Əliyev iştirak etmişdir.



Nəqliyyat naziri Ziya Məmmədov Xırdalan dairəsində tikilmiş yolötürücü barədə məlumat verərək bildirdi ki, yanaşma yollarla birlikdə onun uzunluğu 700 metr, eni 20 metr, tunelin hündürlüyü 5 metrdir. 4 hərəkət zolaqlı tunelin uzunluğu 50 metr, istinad divarlarının uzunluğu 440 metrdir. Yeni yolötürücü şimal istiqamətində nəqliyyat vasitələrinin maneəsiz hərəkətini təmin edəcəkdir.

Yolötürücüdə üzərində "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə inşa olunmuşdur. İyul 2008 - fevral 2009" sözləri yazılmış lövhə vurulmuşdur.

Dövlətimizin başçısı yol-ötürücünün açılışını bildirən rəmzi qırmızı lenti kəsdi, bu münasibətlə yol inşa-atçılarını təbrik etdi.

Hazırda Bakı-Quba-Rusiya Federasiyası yolunun tam istifadəyə verilməsi üçün intensiv iş gedir.

Dövlətimizin başçısı əvvəlcə yolötürücünün tikintisini əks etdirən fotoşəkillərə və sxemə baxdı.

Nəqliyyat naziri Ziya Məmmədov məlumat verdi ki, yolötürücünün tikintisinə nazirliyin sifarişi ilə "Akkord" şirkətlər qrupu ötən ilin iyulunda başlamışdı. Tikintidə ən son texnologiya tətbiq edilmiş, daha çox yerli xammala üstünlük verilmişdir.

Yolötürücü Xırdalan şəhərindən Sumqayıt və Bakı istiqamətinə gedən avtomobillərin əsas magistralla müxtəlif səviyyəli kəsişməsini təmin edir. Üçaşınmlı yolötürücünün hündürlüyü 5 metr, eni 18 metr, yanaşma yollarla birlikdə uzunluğu 1500 metrdir. 6 hərəkət zolaqlı yolötürücünün aşırım hissəsi yığma dəmir-beton tirlərdən ibarətdir. Bu tirlər "Akkord"un Zığ beton məmulatları zavodunda istehsal olunmuşdur.

Yolötürücünün kənarında paslanmayan materialdan məhəccərlər qoyulmuşdur. Bu, hərəkətin təhlükəsizliyini təmin etməklə yanaşı, yola əlavə yaraşıq verir. Ərazidə abadlıq işləri aparılmış, yaşıllıq salınmış, çoxlu ağac və gül kolları əkilmişdir.

Prezident İlham Əliyev yolötürücünün açılışını bildirən rəmzi lenti kəsdi, inşaatçıları təbrik etdi, onların işini yüksək qiymətləndirdi.

## 7.7. 3. Şəhərləri-kəndləri birləşdirən yolların son dayanacağı Avtovaqzal hesab edilir

Azərbaycan müstəqillik şəraitində inkişaf etmiş, iqtisadi imkanları, daxili və xarici (beynəlxalq) əlaqələri genişlənmişdir. Bu baxımdan Bakıda avtovaqzala ehtiyac olmuşdur.

Bakida beynəlxalq avtovağzal kompleksi istifadəyə verilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.

Bakı-Sumqayıt yolunun kənarında tikilmiş avtovağzalın yerləşdiyi əraziyə gələn dövlətimizin başçısını burada nəqliyyatçılar və inşaatçılar hərarətli alqışlarla qarşıladılar.

Prezident İlham Əliyev müasir standartlara cavab verən kompleksin rəmzi açılışını bildirən lenti kəsdi, inzibati binada bu nəqliyyat obyektinin tikintisindən, indiki vəziyyətindən bəhs edən filmə baxdı.

İnzibati binanın foyesində ümummilli lider Heydər Əliyevin büstü qoyulmuş, ulu öndərin xarici ölkələrə səfərlərindən, Prezident İlham Əliyevin ölkəmizin yol infrastrukturunun, nəqliyyat sektorunun inkişafına göstərdiyi diqqət və qayğıdan, nəqliyyat obyektlərinin açılışlarında iştirakından bəhs edən fotoşəkillərdən ibarət guşələr yaradılmışdır.

Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, 2004-cü ilin mayında təməli qoyulmuş kompleksin sifarişçisi Nəqliyyat Nazirliyi, baş podratçı isə "Bakı XXI əsr" şirkətidir. Dünyada avtovağzallar sistemində ən böyüklərindən biri olan bu kompleks yerli və beynəlxalq marşrutlarda sərnişin daşınmasını təmin etmək üçün nəzərdə tutulmuşdur. Kompleksin təməli qoyularkən 360 min kubmetr torpaq işləri görülmüş, yaxınlıqdakı yamacın möhkəmləndirilməsi üçün çoxsaylı dirəklər vurulmuşdur. Tikintidə ümumilikdə 110 min kubmetrdən çox dəmir-betondan istifadə olunmuş, inşaat prosesinə 100-dən çox texnika, 600 işçi cəlb edilmişdi. Fəhlələrin böyük əksəriyyəti, mütəxəssislərin isə hamısı yerli vətəndaşlardır.



Kompleksin şüşə-metal konstruksiya sistemində 1600 ton metal və 24 min kvadratmetr şüşə lövhələrdən istifadə edilmişdir. Daxili bəzək işlərinə 70 min kvadratmetrdən çox üzlük mərmər, 55 min kvadratmetr alüminium üzlük material sərf olunmuşdur. Kompleksdə istifadə olunan materiallar və quraşdırılan avadanlıq Almaniya, İtaliya, Yaponiya, Koreya Respublikası, İsveçrə, Fransa, Ukrayna, Türkiyə, İran, Çin, Rusiya, Birləşmiş Ərəb Əmirlikləri, Hindistan və digər ölkələrə məxsus şirkətlərin istehsalıdır.

21,4 hektar sahəni əhatə edən kompleksdə gün ərzində 18-20 min sərnişinə xidmət etmək, 800-950 avtobusu qəbul edib yola salmaq mümkündür. Kompleksə 700 yerlik avtomobil dayanacağı, dörd mərtəbənin hər birində yerləşən ticarət mərkəzi, minik platforması, habelə sərnişin avtobuslarının dayanması üçün meydançalar, ana və uşaq otağı, poçt, teleqraf, bank, rəsmi şəxslər üçün xüsusi xidmət otağı, gözləmə salonları, kafe və yeməkxanalar, saxlama kameraları, oyun zalı, tibb məntəqəsi, beşmərtəbəli 93 yerlik dördulduzlu mehmanxana daxildir. Bu obyekt istifadəyə veriləndən sonra burada 4 mindən çox vətəndaş işlə təmin olunacaqdır. Kompleksdə 14 eskalator, 10 ədəd lift, müasir havalandırma, videomüşahidə, siqnalizasiya, işıqlandırma sistemləri quraşdırılmışdır. Bütün bu sistemlər kompyuterlə bir məntəqədən idarə olunur.

Avtovağzal kompleksinə daxil olan texniki servis mərkəzi və yanacaqdoldurma stansiyası 24 saat xidmət göstərəcəkdir. Asma şüşə tavan, eləcə də şüşə keçid, şüşə örtüklü zallar və digər konstruksiyalar respublikamızda ilk dəfə burada tətbiq olunmuşdur. Qış mövsümündə platformaya çıxan körpülərin buz bağlamasının qarşısını almaq üçün qızdırıcı sistem yaradılmışdır. 35 kilovoltluq yardımçı stansiya, 5 ədəd transformator kompleksi elektrik enerjisi ilə fasiləsiz təchiz edəcəkdir.

Prezident İlham Əliyev avtobusların elektron formada tərtib olunan hərəkət cədvəli, şəhərlərarası və beynəlxalq sərnişin avtobuslarına biletlərin satış qiyməti cədvəli ilə tanış oldu, əməliyyat za-

lına baxdı. Burada avtovağzalın ilk sərnişin bileti dövlətimizin başçısına təqdim edildi.

Azərbaycan Prezidenti kompleksin eyvanından ətrafda aparılan abadlıq işlərini seyr etdi, ana və uşaq, həkim-müayinə otaqlarına baxdı, "Komfort-Inn oteli ilə tanış oldu.

Dövlətimizin başçısına saxlama kameralarından istifadə qaydaları barədə də məlumat verildi. Bildirildi ki, burada sərnişinlər yüklərini 7 gün saxlaya bilər və qaydalar barədə onlara növbətçilər vaxtaşırı təlimatlar verəcəklər.

Prezident İlham Əliyev 800 dükandan ibarət ticarət mərkəzi, 500 yerlik yeməkxana ilə də tanış oldu, ərzaq mağazasındakı malların keyfiyyəti və qiyməti ilə maraqlandı, yeraltı avtomobil dayanacağına baxdı.

Tikinti işlərinin keyfiyyətlə görüldüyünü, müasir standartlara cavab verdiyini bildirən dövlətimizin başçısı nəqliyyatçıları təbrik etdi, Azərbaycanda vətəndaşların rahatlığının təminatı məqsədi ilə bütün yol infrastrukturunun müasirləşdirildiyini və yeni obyektlərin istifadəyə verildiyini bildirdi.

Prezident İlham Əliyevə xatirə olaraq Bakı beynəlxalq avtovağzal kompleksinin maketi təqdim olundu.

## 7.8. Tarix və mədəniyyət abidələrinə qayğı dövlətin diqqəti kimi

Müstəqil dövlətin yaranması digər sahələrə işıq salması ilə yanaşı ölkəmizin tarixi, mədəni, arxeoloji abidələrinin qorunmasına, bərpasına və təbliğinə də diqqət artırılmışdır.

Azərbaycan tarix və mədəniyyət abidələri sadə əmək adamlarının yaratdığı sənət əsərləri olmaqla vətənə məhəbbətin nəticəsidir. Burada sevinc də var, kədər də, gözəllik də var, böyüklük də. Tarix və mədəniyyət abidələri azərbaycanlıların elmi dünyagörüşünün çox gözəl inkişaf etməsinin bariz nümunəsidir və eyni zamanda bu abidələr Azərbaycan tarixinin qədimliyini sübut edir, sərhədlərimizin müəyyən edilməsində böyük rol oynayır.



Azərbaycanın tarix və mədəniyyət abidələri dünya mədəni irsinin ayrılmaz tərkib hissəsidir. Azərbaycanda dörd mindən artıq abidə qeydə alınmışdır ki, onlardan 122-si dünya əhəmiyyətli abidədir. Bakı, Qız qalası, Şirvanşahlar sarayı, Şəki xan sarayı, Qobustan muzeyi, Atəşgah abidələri isə YUNESKO-nun «Qızıl kitabı»na düşmüşdür.

Azərbaycan tarix və mədəniyyət abidələrinə diqqət və qayğı Azərbaycan Konstitusiyasında öz əksini tapmışdır.

Müstəqillik şəraitində Azərbaycan tarix və mədəniyyət abidələrinə xüsusi diqqət yetirilir. Yeni-yeni abidələr öyrənilir, arxeoloji qazıntılar genişləndirilir, tarixi abidələrin əsaslı təmiri həyata keçirilir və yeniləri yaradılır.

Azərbaycanın Naxçıvan diyarında, Bakı, Gəncə, Şəki, Şəmkir, Lənkəran, Bərdə, Qəbələ, Beyləqan, Goranboy, Yevlax, Xaçmaz, Quba, Kürdəmir, İsmayıllı, Zaqatala, Balakənd, Cəlilabad, Masallı, Yardımlı, Lerik, Füzulinin bir hissəsində və digər şəhər və rayonlarda respublika rəhbərliyinin yaxından qayğısı sahəsində əməli işlər görülür.

Bakı şəhərində Şah İsmayıl Xətainin, Heydər Əliyevin, akademik Zərifə Əliyevanın, Xocalı faciəsini əks etdirən «Ana abidə»lərini, 20 Yanvar şəhidlərini əks etdirən şəhidlər kompleksi və onların xatirəsinə ucalan abidə, Bibiheybət məscid kompleksi, Əjdər məscidi, Nardarandakı dörd minarəli məscid, türk əsgəri abidəsi, 20-dən artıq yeni körpü tikililəri və ondan artıq tunel keçidi, Metropolitenin yeni-yeni stansiyaları, onlarca məktəb binaları, klassik üsulda tikilmiş Ali Məhkəmənin binası, Oğuz-Qəbələ-Bakı su kəməri, onlarca tikilmiş əzəmətli şadlıq (Kral, Cıdır, Neolit, Xaarı bülbül, Ay işığı və s.) binaları, yüzlərlə hündürmərtəbəli yaşayış binaları və s.

Naxçıvan şəhərində Hüseyn Cavid məqbərəsi tikilmiş, «Nuh» məqbərəsi, «Əsafi-Kəf» məqbərəsi əsaslı təmir edilmiş, Heydər Əliyev abidəsi, Təyyarə limanı, Duz Sağlamlıq mərkəzi, iki minarəli məscid binası, Sədərək Su qovşağı, Müalicə Diaq-

nostikası. Tarix-diyarşünaslıq muzeyi, onlarca məktəb binaları, Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi və bu bölmənin Tarix - Arxeologiya - Etnoqrafiya İnstitutu üçün yaradılan şərait və s.

Bərdə şəhərində Heydər Əliyev muzeyi, Tarix-Diyarşünaslıq muzeyi, YAP rayon təşkilatı üçün bina, 600 yerlik musiqi məktəbi, Müalicə-Diaqnostika mərkəzi, Yeni ticarət mərkəzi, 24 mənzilli və Qarabağ əlilləri və şəhid ailələri üçün 36 mənzilli yaşayış evləri, Rəsm Qaleriyası, Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsi binası, «Mətin», «Xan çinar», «Kral» istirahət mərkəzləri və s.

Bu qəbildən olan yeni tarixi-mədəni abidələrin tikintisi respublikamızda yüksələn xətt üzrə artır. müəllim gənc nəslin vətənpərvərlik tərbiyəsində bu sahənin də ətraflı təhlilini verməli, müasir tikililərin əhəmiyyətini, müstəqillikdən aldığı qida kimi göstərməlidir.

Respublikamızın tarixi abidələri sırasında şimal-şərqində yerləşən Dəvəçi rayonunun tarixi abidələri barədə deyə bilərik. Dövlət qayğısı kimi, 2010-cu ilin aprelindən bu qədim yaşayış yeri öz tarixi adı ilə – Şabran adı ilə adlandırıldı. Şabran ən qədim yaşayış məskənlərindəndir. Ərazidəki tarixi mədəniyyət abidələri, arxeoloji qazıntılar zamanı üzə çıxan maddi-mədəniyyət nümunələri, bölgədəki yer-yurd adları, eləcə də bir çox yazılı mənbələr də bunu sübut edir. Yaşı neçə-neçə əsrləri adlamış tikililər, istehkamlar, tarixi-etnoqrafik baxımdan maraqlı sənət nümunələri ululuq, qədimlik rəmzinə çevrilib. Bizim eranın ilk əsrlərindən bəri qədim karvan yolları bu yerlərdən keçmişdir.

Ulu öndər, ümumilli liderimiz Heydər Əliyevin 1983-cü ilin yayında Şabrana səfəri bu bölgənin yaddaşında ən şərəfli, ən unudulmaz bir tarixə çevrilib. Ulu öndər Şabranda olarkən yurdumuzun ən nadir tarixi abidələrindən olan Çıraqqala ilə tanış olmuş, orta əsrlər Azərbaycanımızın ən məşhur və qədim şəhərlərindən birində, prof. Rəşid Göyüşovun rəhbərliyi ilə Şabranda gedən arxeloji qazıntı işləri ilə maraqlanmışdır.

Ümummilli liderimiz Heydər Əliyev demişdir: «İkinci minilliyin tarixi əyani surətdə göstərir ki, Azərbaycan xalqı dünya mədəniyyətində öz dəsti-xətti ilə seçilən xalqlardandır. Keçən iki min il ərzində bəşər sivilizasiyasının ayrılmaz hissəsi kimi azərbaycanlılar dünya mədəniyyəti xəzinəsinə sanballı töhfələr vermişlər. Bizim əcdadlarımız ibtidai insanın mədəniyyət sahəsində əldə etdiyi bütün nailiyyətlərindən faydalanaraq özünəməxsus zəngin mədəni-mənəvi irs yaratmışlar. Bunu istər Azərbaycan ərazisində arxeoloji qazıntılar nəticəsində tapılmış abidələr, istərsə də bu günümüzə qədər gəlib çatmış şifahi xalq ədəbiyyatı və yazılı ədəbi irsimizi sübut edir».



Xalqın həyatındakı tarixi hadisələrlə, cəmiyyətin və dövlətin inkişafı ilə əlaqədar olan duyğular, xatirə yerləri və əşyalar, tarixi elmi, bədii və digər mədəni əhəmiyyəti olan maddi və mənəvi yaradıcılıq əsərləri tarix və mədəniyyət abidələri sayılır. Hazırda rayonda 2 muzey, 2 qoruq, 18 daşınmaz tarix və mədəniyyət abidəsi mövcuddur. Son illər rayonun Qələgah kəndində Əfəndilərin evi, Sura, Qazbabalı, Dağbilici, Sarvan, Düzbilici, Mollakamallı kəndində «Yeddi göl», Aygünlü, Gəndab kəndlərində uzun ömürlü Xan çinarları, Sarvan dəmir yol vağzalı, bir neçə qəbiristanlıq, 20 pir, ziyarətgah və digər abidələr qeydə alınıb. Ulu öndər, ümumilli lider Heydər Əliyevin Dəvəçi şəhərindəki möhtəşəm heykəli və büstü də Dəvəçinin nadir abidələrdəndir.

Əfəndilər mənən saflaşıb Allaha qovuşmaq yolunu seçmiş nəsildir. Bu baxımdan onlarda humanizm, xeyirxahlıq, vətənpərvərlik, elmilik böyük qiymətləndirilir. Əbdülvahab əfəndi, İbrahim əfəndi, Həmdulla Əfəndi, Qafar Əfəndi, Ziəddin Əfəndi və digərlərini göstərmək istərdik.

Rayonun ərazisindəki Çıraqqala tarix və mədəniyyət abidəsi, Şabran tarix və mədəniyyət qoruğu təkcə Azərbaycanımızın deyil, dünyanın nadir abidələrindən hesab olunur. Tarixi mənbələrə görə, ilk orta əsrlərdə Qafqaz Albaniyası ərazisində şimalda köçəri tayfaların hücumlarına qarşı möhkəm müdafiə divarları ucaldırdılar. III-V əsrlərdə salınmış Gilgilçay səddi də bu məqsədlə çəkilib.

Çıraqqala da bu müdafiə istehkamına daxildir. Ərazinin ən

hündür yerində tikilmiş bu qala qədim Şirvanın uzaq yerlərini görməyə imkan verməklə yanaşı, həm də münasib müdafiə imkanlarına malikdir. Memarlıq baxımından da Çıraqqala nadir sənət incisidir. Çıraqqala mərkəzi qala da daxil olmaqla 17 bürcdən ibarətdir. Düzbucaqlı formada olan bu müdafiə istehkamı yerli daşlardan və bişmiş kərpicdən tikilmişdir. Çıraqqala müşahidə və işarə məqsədi ilə inşa edilib. Buradan Dəmirqapı Dərbənddən Beşbarmaq səddinəcən dəniz sahili boyu, təxminən 100 kilometrə qədər bir ərazini nəzarətdə saxlamışlar.

Şabran rayonu ərazisindəki Şabran şəhəri cənub-şərqi Avropa ilə Asiyanı birləşdirən böyük karvan yolunun üstündə yerləşib. Arxeoloqlar şəhərin IV əsrdə, özündən əvvəlki möhtəşəm yaşayış yeri zəminində meydana gəldiyini söyləyirlər. Ulu öndərimiz Heydər Əliyev Şabran şəhəri haqqında demişdir: «Şabran bizim 1300 illik şəhər tariximizi yaşadır. Bura baxdıqca biz həmin dövrün istehsal mədəniyyətini öyrənirik». Məşhur Norveç dəniz səyyahı və alimi Tur Heyerdal isə 1981-ci ildə Şabranla tanışlıqdan sonra onu «orta əsr Şərqinin nadir abidəsi» adlandırmışdır. «Çıraqqala» Tarixi Abidələr Kompleksinin bərpası və qorunması haqqında 23 iyun 2003-cü il və «Şabran» Şəhəri Tarix və Mədəniyyət Abidələri Qoruğunun elan edilməsi haqqında 27 sentyabr 2003-cü il tarixli sərəncamları ümummilli liderimizin Azərbaycanın tarixi abidələrinə, maddi-mədəniyyət nümunələrinə diqqət və qayğısı, Vətənimizin və xalqımızın sabahına, tarixi gələcəyinə sonsuz inamının təzahürü idi.

Həmin tarixi sərəncamlarda adı çəkilən abidələrin mühafizəsi işinin gücləndirilməsi, ərazilərin müəyyənləşdirilməsi, ərazidə qanunsuz tikintilərin və qazıntıların qarşısının alınması, gələcək nəsillər üçün qorunub saxlanması öz əksini tapıb. Sərəncamlardan irəli gələn tələb və müddəaları yerinə yetirmək məqsədi ilə Milli EA, Torpaq və Xəritəçəkmə Komitəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssisləri ərazi sərhədlərinin müəyyənləşdirilməsi sahəsində işlər aparıblar.

Sevindirici haldır ki, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasına xüsusi önəm verən dövlət başçısı cənab İlham Əliyev tərəfindən bu siyasət bu gün də uğurla davam etdirilir. Tariximizin açılmayan qatları tədqiq olunur, tarixi abidələrin qorunmasına kifayət qədər vəsait ayrılır.



Çıraqqalanın zirvəsinə işıq xətti çəkilmiş, projektor qoyulmuş, Şabran qoruğunun ətrafında xeyli bərpa işləri aparılmışdır. Rayon icra hakimiyyətinin dəstəyi ilə Tarix-Diyarşünaslıq Muzeyində əsaslı təmir işləri görülmüşdür. (101)

Respublika prezidenti Cənab İlham Əliyevin 19 avqust 2009-cu il tarixdə verdiyi sərəncama əsasən tarix və mədəniyyət abidələrinə diqqət artmışdır.

Bu, böyük vətənpərvərlik işidir. Tarixi irsimizə, şəxsiyyətlərimizə hörmətdir. Gələcək üçün uğurlu addımdır.

Müəlllim gənc nəslə, böyük mənəviyyətə malik olan tarix-mədəniyyət abidələrinin öyrədilməsini həmişə diqqətdə saxlamalıdır.

### 7.9. Dünya azərbaycanlılarla iş

Vətəni sevmək, onun qədrini bilmək, ona ürək yandırmaq hər bir vətən övladının borcudur. Bu hisslər xaricdə yaşayan Azərbaycanlılar üçün də əzizdir. Qəribçiliyin nə olduğunu bilirik. Biz yaxşı bilirik ki, xaricdə yaşayan vətən övladları vətən eşqi ilə alışıb yanırlar.

Azərbaycanlılar tarixən kökə, torpağa bağlıdır. Lakin bu və digər səbəbdən (obyektiv və subyektiv səbəbdən) Azərbaycandan bir çox həmvətənlərimiz dünyanın bir çox ölkəsinə getmiş, orada məskunlaşmışlar. Azərbaycan ərazisi Rus-İran müharibəsi nəticəsində iki yerə parçalandığından 1828-ci ildən sonra böyük bir hissəsi İran dövlətinin əlində qaldı. Bu səbəbdən də bu hissədə türk əhalisi çoxluq təşkil edir. Azərbaycanın şimal hissəsi Rusiya dövlətinin əlində qalsa da, bu hissə 1918/20-ci illərdə müstəqil, 1920/1991-ci illərdə yarımmüstəqil, 1991-ci ildən sonra müstəqil dövlətini qurmuşdur. 1991-ci ildən sonra

Azərbaycan Respublikası öz həmvətənləri ilə daha çox maraqlanmış, əlaqə saxlamağa başlanmışdır.

Doğrudur, Azərbaycanın bir qrup vətənpərvər şəxsləri xaricdə yaşayan Azərbaycanlılarla əlaqə yaratmaq məqsədilə 28 dekabr 1987-ci ildə «Vətən» Cəmiyyəti təşkil etmişlər. «Vətən» Cəmiyyəti vətəndən uzaqda – xaricdə yaşayan həmvətənlərimizlə xeyli müsbət əlaqələr qura bilmişdir.

1988-ci ildə Azərbaycanda azadlıq hərəkatı buna təkan vermişdir. Xaricdə yaşayan və illər uzunu həsrətində qaldığımız bacı-qardaşlarımız arasında da milli oyanış, milli özünüdərk hissləri yaratmışdır. Azərbaycanın səsinə səs vermiş, erməni millətçilərinin, sovet rus ordusunun Azərbaycana qarşı ədalətsiz hücumlarını pisləmişlər.

Azərbaycanda müstəqil dövlətin yaranmasından qürur duymuş xaricdə yaşayan həmvətənlərimiz daha da fəallaşmışlar.

Azərbaycanın ümummilli lideri cənab Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında Ali Məclisin sədri olduğu dövrdə xaricdə yaşayan Azərbaycanlıların Diaspor quruculuğuna böyük önəm vermişdir. Cənab Heydər Əliyevin rəhbərliyi ilə xaricdə yaşayan azərbaycanlılarla dövlət səviyyəsində sistemli iş aparılması məqsədilə 1991-ci ildə Naxçıvan Ali Məclisi 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi gününün təhsisi barədə qərar qəbul etmiş və bu tarixi günün bütün ölkə ərazisində bayram kimi qeyd edilməsi ilə bağlı Azərbaycan Respublikasının Milli Məclisi qarşısında vəsadət qaldırılmışdır. Bu uzaqgörən siyasətin çox böyük əhəmiyyəti həmişə özünü göstərməkdədir.

Azərbaycan Respublikası, şəxsən milli liderimiz cənab Heydər Əliyev xaricdə yaşayan Azərbaycanlılarla maraqlanmış, xarici səfərləri zamanı onlarla görüşlər keçirmişdir.

Cənab Heydər Əliyev müstəqilliyimizin bərpasının 10 illik yubileyi ərəfəsində 23 may 2001-ci ildə «Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi haqqında» sərəncam vermişdir. Sərəncamda deyilir:

«Azərbaycanlılar minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq dünya sivilizasiyasına böyük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, Azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşdür. İş tapmaq, təhsil almaq məqsədilə doğma yurdu tərk edərək başqa ölkələrdə qərar tutub yaşayan azərbaycanlılar da vardır.

Beləliklə, azərbaycanlılar tarixi Azərbaycan torpaqlarından bütün dünyaya yayılmışlar. Hazırda onlar dünyanın bir çox ölkələrində yaşayırlar...»

Cənab Heydər Əliyev Dünya Azərbaycanlılarının I qurultayında məzmunlu çıxışını bu sözlərlə bitirmişdir: «Mən həmişə fəxr etmişəm. Bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam». Bu dahilik özünü azərbaycanlı sayan hər kəs üçün nümunədir. Onların vətən eşqi ilə yaşamasına, fəaliyyət göstərməsinə gətirib çıxarmaya bilməz. Budur vətənpərvərlik.

Vəli Həbiboğlunun «Heydər Əliyev və Azərbaycan diasporu», V.Arzumanlı, A.Hüseynovun «Azərbaycan ünvanı», «XXI əsr» (01.03.1999) və «Azərbaycan müəllimi» (8-14 noyabr 1991) qəzetlərinə istinadən göstəririk ki, Dünya Azərbaycanlılarının sayı 50 milyondan artıqdır.

1987-1990-cı illərdə, xüsusilə ermənilərin Azərbaycan torpaqlarına iddiaları, 1988-89-cu ildə Qərbi azərbaycanlıların öz ata-baba torpaqlarından, evlərindən zorla, silah gücünə qovulması, 1990-jı ildə keçmiş SSRİ Ordusunun Bakıda dinc əhaliyə qarşı qırğın törətməsi və Ermənistan ordu birləşmələri tərəfindən 1991-1993-cü illərdə Azərbaycanın öz içərisindən – Dağlıq Qarabağdan və ona yaxın rayonlardan Azərbaycanlıların silah gücünə çıxarılması, Xocalı faciəsi, xaricdə olan həmvətənlərimiz çox qeyzləndilər, həqiqi mə'nada vətənpərvərlik yanğısı ilə öz səslərini qaldırdılar. Xarici dövlətlərdə Azərbaycanın həqiqətlərini nümayiş etdirirdilər, qəzet, radio və s. vasitələrlə dünya ictimaiyyətinə çatdırdılar. Azərbaycan diasporunu yaratdılar. Mənəvi köməklə yanaşı, iqtisadi köməkliklər göstərdilər və hazırda da köçkün və qaçqınlara belə yardımı göstərirlər.

Onlardan nümunələr çoxdur. Biz ikisini göstərmək istərdik: 1990-cı ilin «Qara» yanvarından çox təsirlənən, xalqının, millətinin günahsız yerə ölümünü acı göz yaşları ilə qarşılayan Türkiyə Cümhuriyyəti (Ərzurum şəhəri) din xadimi Fətulla Gülən Xoca Azərbaycanlıların haqq işini- azadlıq, müstəqillik işini dəstəkləməklə bu yolda şəhid bacı-qardaşlarımızı yad etmək məqsədilə məsciddə əzəmətli, vətəndaş, millət yanğısı ilə hüznlü və emosional, adamın qəlbini göynədən çıxış etdi. O, göz yaşları ilə müqqəddəs varlığa üz tutaraq dedi: «Ya Həzrət, sənin yanına günahsız qırılan Azərbaycanlıların göz yaşlarını gətirmişəm, bu göz yaşları üstünə bir damcı qan da töküb gətirmişəm». Budur, türk oğlunun ürək yanğısı, vətənpərvərliyi, həmrəyliyi. Bu elə bir vaxtda edilmişdir ki, Azərbaycan televiziyası dünyaya geniş yayım verə bilmirdi. Lakin Türkiyənin dövlət televiziyası bu hüznlü, mənalı nitqi dünyanın bir çox dövlətlərinə yayımlamışdı. Bütün həmyerlilərimiz və vəziyyətdən xəbərsiz digər şəxslər, demokratik dövlətlər bundan xəbər tutmuşlar.

Əziz Fətulla Gülən xəstə olmasına baxmayaraq azərbaycanlılara o ağır günlərdə dəstək olmaqla böyük mənəvi köməklik göstərdi. Emosional çıxış çox təsirli oldu. Bu, türk xalqının, türk oğlunun böyüklüyü, həmrəyliyi idi.

Əslən Cənubi Azərbaycandan olan, hazırda Almaniyada yaşayan həkim Ağabəy xaricdə Azərbaycanı layiqincə təmsil etməklə Azərbaycana bir neçə dəfə milyon manatlarla dəyərli olan dərman və tibb ləvazimatı gətirərək vətənin müdafiəsi zamanı yaralanan xəstələrə çatdırmışdır. Bu azmış kimi özü də qolunu çırmalayıb xəstələrin bəzilərinin cərrahiyyə əməliyyatlarını başa vurmuşdur. Əziz həmvətənlimiz Ağabəyin damarlarından Azərbaycan qanı axır. O, Azərbaycanın, xalqının aşiqidir. Ağabəy Azərbaycani çox böyük həvəslə, təmkinlə, kişi vüqarı ilə deyir ki, «Mən Azərbaycandan çıxsam da Azərbaycan mənim içimdədir». Hara getsəm, harada yaşasam da Azərbaycanla yaşayıram. Ürəyim Azərbaycanla döyünür.

Əslən təbrizli, hazırda Fransada yaşayan prof. Qulam Hüseyn ağa da bu fikirdədir ki, sən vətəndən çıxarsan, vətən səndən



çıxmır. Bu sözləri ana haqqında da deyirik. Sən anadan çıxırsan, ana səndən çıxmır və həm də ana balanı yaddan çıxarmır, onu içində yaşadır. Təsadüfi deyilmir ki, ana vətən, vətən övladı. Bax bu iki məfhum bizə, vətənsevərlərə (lap hələ vətənə biganə olanlara da) doğmadır. Böyük Şəhriyarın nəsiyyətində deyilir. «Bir-birinizdən ayrılmayın amandır»...

Peyğəmbərimiz nəsiyyətində deyilir: «Vətəni sevmək imandır».

1917-ci ildə keçmiş Çar Rusiyası dövlətinin çökməsi, yeni dövlət quruluşunun-sovet dövlət quruluşunun yaranması ilə bağlı bir sıra köklü dəyişikliklər baş verdi. Azərbaycan da bu imperiyanın içində olduğu üçün bir çox vətənsevər, mərd, mübariz ərənlərimiz daxildəki güclü təhlükəni, təqibləri görərək vətəni müvəqqəti tərk etmişlər. Nə yazıq ki, onların çoxu geri dönə bilmədi (ömür vəfa etmədi) və Azərbaycanın müstəqilliyi arzusunun gerçəkləşməsini görmədilər. Əhməd Ağaoğlu, Əhməd Cəfəroğlu, Məmməd Əmin Rəsulzadə, Almas İldırım, Ceyhun Hacıbəyli, Hüseyn Qara (Baykara), Mirzə Bala Məmmədzadə, Əbdülvahab Yurdsevər və yüzlərlə Azərbaycanlı Vətən torpağından uzaqda yaşayıb yaratmışlar. Ancaq bir an da Azərbaycansız yaşamamışlar, Azərbaycanı ürəklərində gəzdirmişlər. «Ürəklərində dövr edən qürbət duyğusu, qəriblik ağrısı şerlərinə, əsərlərinə süzülmüşdür» («Azərbaycan istiqlal mübarizəsi tarixi» tərcüməçisi Elşən Əmüləhsənli, B. A.1992. səh 3.).

M.Ə.Rəsulzadə vəfat edən anda «Can Azərbaycan, can Azərbaycan» demiş və gözlərini əbədi yummuşdur.

Almas İldırım «Vətən» şe'rində nisgilini, vətənə məhəbbətini belə bildirmişdir:

... Hanı məni gül qoynunda doğuran,
Xəmirimi göz yaşıyla yoğuran,
Beşiyimdə «Layla balam» çağıran?
Azərbaycan, mənim bəxtsiz anam oy...
Neçə ildir həsrətinlə yanam oy...

Bu qəbildən olan nümunələr çox göstərmək olar. Gənc nəslin vətənə məhəbbətini, onun qədrinin bilinməsini bu və digər vasitələrlə aşılamaq müsbət təsir vasitələridir.

Təsadüfi deyildir ki, müstəqilliyimizin yenidən bərpasının 10 illiyi günlərində Azərbaycan respublikasının prezidenti cənab Heydər Əliyevin təşəbbüsü və xeyir-duası ilə Bakıda dünya azərbaycanlılarının I qurultayı çağırıldı. Qurultaya dünyanın 37 ölkəsində yaşayan (dünyanın 70 ölkəsində vardır) azərbaycanlılardan 400 nəfər nümayəndə gəlmişdi. Eyni zamanda 100 nəfər də fəxri qonaq də'vət edilmişdi. Qurultay 2001-ci il noyabrın 9-10-da keçirildi

Gələn qonaqlar çox ürək yanğısı ilə çıxış etdilər. Vətəni sevdiklərini bir daha bəyan etdilər. Qurultaya gəlmək bu vətənə xidmətin bariz nümunəsi idi.

Azərbaycanın ümummilli lideri cənab Heydər Əliyevin verdiyi sərəncam, Bakıda keçirilən «Dünya azərbaycanlılarının I qurultayı», ümummilli liderimizin xarici ölkələrə dövlət səfərlərində xaricdə yaşayan azərbaycanlılarla görüşü Azərbaycanlıların birliyini genişləndirmişdir.

Azərbaycan dövlətinin «Xaricdəki həmvətənlərə münasibətdə Azərbaycan Respublikasının dövlət siyasəti haqqında» (2002) qanun «Xaricdə yaşayanlarla iş üzrə Dövlət Komitəsi»nin (2002), «Dünya Azərbaycanlılarının Beynəlxalq Həmrəyliyi» Cəmiyyəti və s. böyük əhəmiyyətə malikdir.

Bütün bunlar dünyanın bir çox ölkələrində Azərbaycan cəmiyyətlərinin, diaspor, konqress və s. yaranmasını sürətləndirmişdir.

Artıq xaricdə yaşayan həmvətənlərimiz özlərinin 300-dən artıq birliklərini yaratmışdır.

2001-ci ildən keçən 5 il ərzində Dünya azərbaycanlıları daha da mütəşəkkül olmuş, Azərbaycan hökumətinin yaxından qayğısı özünü göstərməkdədir. Bunun baris nümunəsini biz Dünya azərbaycanlıların II qurultayının təşkilində gördük.

2006-cı ilin martın 16-da Dünya azərbaycanlıların II qurultayı keçirildi. Dünyaya səpələnmiş 42 milyon 800 min soydaşımızdan (Azərbaycanda 8 milyon 200 min, cəmi 50 milyon) seçilmiş 1231 nəfərdən 1218 nəfər nümayəndə, 388 nəfər qonaq qurultayın işində iştirak etdi. Onlar dünyanın 49 ölkəsindən gəlmiş nümayəndələr idi. Bu qurultayda keçən qurultaya görə iki dəfədən çox nümayəndə gəlmişdi. Çox fəallıq şəraitdə qurultay öz işini başa çatdırdı.



Azərbaycan Respublikasının prezidenti, cənab İlham Əliyev Dünya azərbaycanlıların II qurultayında məzmunlu nitq söylədi, Dünya azərbaycanlıların birliyini qiymətləndirdi, bunu dövlət atributlarının biri kimi xarakteristika etdi, Dünya azərbaycanlıların qurultayını çox böyük tarixi hadisə adlandırdı.

Cənab İlham Əliyev göstərdi... «Dünya azərbaycanlıların qurultayı çox böyük tarixi hadisədir...

... Dünyada yaşayan soydaşlarımız təşkilatlanır, yaşadıqları ölkələrin həyatında daha da fəal rol oynayırlar. Əlbəttə ki, bu, həm onların mövqelərini möhkəmləndirir, eyni zamanda müstəqil Azərbaycan Respublikasının mövqeyini gücləndirir, əhəmiyyətini artırır. Biz çox şadıq ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar o ölkələrin həyatında, iqtisadiyyatında çox mühüm rol oynayırlar və demək olar ki, artıq çox möhkəm mövqelərə malikdirlər. Eyni zamanda, hesab edirəm ki, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında daha çox mühüm rol oynamalıdırlar. Çünki buna bütün imkanları var. Müstəqil Azərbaycan Respublikası bütün ölkələrlə çox işgüzar, səmərələri münasibətlər qurmaqdadır. Belə olan halda, əlbəttə ki, xaricdə yaşayan azərbaycanlılar da bunu öz gündəlik həyatlarında hiss edirlər...

... Eyni zamanda, xaricdə yaşayan azərbaycanlılar bizim üçün də dayaqdır. Çünki Azərbaycan gənc müstəqil dövlətdir...

Heydər Əliyev siyasəti Azərbaycanda hər bir sahədə davam etdirilir...» («Xalq qəzeti» 17 mart 2006-cı il).

Qurultayda Dünya Azərbaycanlılarının həmrəyliyi sahəsində fəaliyyətlərinə görə respublika prezidenti cənab İlham Əliyevin 2006-cı il 13 mart tarixli sərəncamı ilə «Şöhrət» ordeni ilə təqdim edilmiş şəxslərin adları oxundu. Natiq Bağırov (Belarusiya), Oktay Əfəndiyev (Ukrayna), Məmmədbağır Əliyev

(Ümumrusiya), Tomris Azəri (ABŞ), Yusif Aktantaş (Türkiyə). Eyni zamanda 28 nəfər «Tərəqqi»medalı ilə təltif edilmiş şəxsləri göstərildi.

Ayrı-ayrı ölkədən gəlmiş nümayəndələrdən Cavad Derəxti (Dünya Azərbaycanlıları Konqresinin sədri), Şaban Dişliyə (Türkiyə), Xastan Sarıqulov (Qırğızıstan), Tomris Azəri (ABŞ), Abdulla Əmr Haşimi (İsveçrə) və s. dərin məzmunlu nitq söylədilər.

Qurultayda bütün Dünya Azərbaycanlılara müraciət (birlik haqqında) Qarabağ münaqişəsi barədə dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə, dövlət və hökumət başçılarına, BMT-nin Təhsil Elm və Mədəniyyət Məsələləri Təşkilatına (YUNECKO), Azərbaycan və Türk diaspor təşkilatlarına müraciətləri qəbul olundu.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev yektilliklə Dünya azərbaycanlılarının Əlaqədləndirmə Şurasının sədri seçildi və s. («Xalq qəzeti» 17 mart 2006-cı il).

Birliklər birinci növbədə onların özləri, sonra isə vətənləri üçün əhəmiyyətlidir. Xaricdə Azərbaycanın siyasi-iqtisadi, mədəni həyatnı tanıtmaqda, ölkələr arasında mədəni əlaqələrin yaradılmasında, yeri gələndə isə siyasi həmrəylik göstərmələri çox böyük əhəmiyyət daşıyır.

Qeyd: «Diaspora» yunan sözü olub, mənası səpələnmək, bir xalqın, etnik birliyin xeyli hissəsinin yaşadığı ölkədən gedib xaricdə yaşaması deməkdir. Bu proses zorla köçürmə, genosid təhlükəsi, siyasi proses, sosial problemlər və müxtəlif səbəblərdən başqa ölkəyə miqrasiyaetmə nəticəsində də yaranır.

«Lobbiçilik» - mənası dövlət orqanlarına və qanunlarına təsir etmək deməkdir. Bu isə bizim Azərbaycanlıların mənəviyyatına xas deyildir. Olsa-olsa, xahiş və ya müraciət ola bilər.

Ən qiymətlisi odur ki, həmvətənlərimiz Azərbaycana xaricdən ediləcək və edilən mənfi təsirləri neytrallaşdırmaqda böyük rol oynayır. Ərazimizi işğal edən millətçi ermənilərin əsassız torpaq iddialarını ifşa edirlər. Yeri gəldikdə ayrı-ayrı dövlətlərdə səfirlik qarşısında Azərbaycanın ərazi bütövlüyünü müdafiə



edirlər, ermənilərin işğal etdikləri Azərbaycan torpaqlarının azad edilməsi üçün vətəndaşı olduqları ölkə rəhbərlərinə, səfirliklərə müraciət edirlər və s.

Xaricdə yaşayıb Azərbaycan üçün xidmət göstərən diasporlardan Ukraynada, Rusiya Federasiyasının Sankt-Peterburqda, Ulyanovda, Moskvada, Novosibirskdə, ABŞ-da, Fransada, Almaniyada, İngiltərədə, İsveçrədə, Gürcüstanda, Qazaxıstanda və başqa ölkələrdə Azərbaycan diasporu daha çox fəaliyyət göstərirlər. Bu vətənpərvərlik hissindən biz də qürur duyuruq. Gənc nəslə bunların öyrədilməsi müəllimin vətəndaşlıq borcudur.

Ayrı-ayrı vaxtlarda keçirilmiş SSRİ-nin bir çox şəhər və qəsəbələrə getmiş azərbaycanlıların olmasıdır. Bununla bağlı Azərbaycanın XX əsrin 20-90-cı illərinə dair tarixinin tədrisində bir sıra materiallar vardır. Digər bir tərəfdən də köməkçi material kimi azərbaycanlıların keçmiş SSRİ-nin vilayət, şəhər, qəsəbələrində iqtisadiyyatın inkişafına xidmət üçün getmiş şəxslərinin fəaliyyətinin öyrənilib öyrədilməsi əhəmiyyət kəsb edir. Xüsusən də müstəqil Azərbaycan Respublikasının xaricdə etibarlı vətəndaşlarının olmasıdır. Rusiyada, Ukraynada, Qazaxıstanda və digər dövlətlər birliyinin ayrı-ayrı şəhərlərində, vilayətlərində təşkil edilmiş müasir Azərbaycan diasporlarının prof. Musa Qasımovun sözü ilə desək nüvəsini təşkil edir. Keçmiş SSRİ-də Azərbayjanlılarının istehsalata cəlb olunmuş adamları cəlb edir. "Ümumi evimiz" olan SSRİ-nin bir çox sahələrində – tikintidə, şəhər, qəsəbə salınmasında, neft çıxarılmasında, elmi tədqiqat institutlarında işləmələri və oxumaları böyük əhəmiyyətə malikdir. Bu bir neçə məsələlərin köməyinə, hәllinə səbəb olmuşdur.

1) Ümumxalq tikintilərində azərbaycanlıların iştirakının zəruriliyi.
2) Müəyyən mənada əmək haqqının qazanılması.
3) Öz intellektinin artırılması.
4) Fəal işi nəticəsində yüksək adların alınması (qazanılması), özünü və respublikasının adının yüksəldilməsi.

5) Xaricdə – ittifaqın bir çox vilayət, şəhər və qəsəbələrində daimi yaşayış yerləri əldə etmələri.

6) Bunun nəticəsində azərbaycanlıların cəmiyyətinin, diasporunun yaradılması və s.

Azərbaycanlılardan 40 milyondan çoxu xaricdə yaşayırlar. Onlardan 2 milyonu Rusiyada yaşayır. Azərbaycanlılar Rusiyada özlərinin cəmiyyətini yaratmışlar. Bu cəmiyyət özlərinin birliyinin yaranmasına nail olmuşlar. Rusiyada təşkil edilmiş cəmiyyətləri göstəririk.

Moskva şəhəri:

"Dayaq cəmiyyəti"; "Ocaq" cəmiyyəti";

"Araz" cəmiyyəti; Azərbaycan həmvətənlər regional cəmiyyəti –

"Sooteçestvennik": Beynəlxalq Azərbaycan Vətəndaşlıq Assambleyası;

Sankt-Peterburq şəhəri: "Dayaq cəmiyyəti"; "Azəri" cəmiyyəti

Ulyanovsk şəhəri: "Odlar yurdu" cəmiyyəti;

Yaroslavl şəhəri: "Alov" cəmiyyəti

Yekaterinburq şəhəri: "Təbriz" cəmiyyəti;

Perm şəhəri: "Yol" cəmiyyəti

Kazan şəhəri: "Azərbaycan icması"

Tolyatti şəhəri: "Azərbaycan icması" cəmiyyəti;

Ukrayna Respublikasında

Kiyev şəhəri: Ümumukrayna Azərbaycan mədəniyyəti mərkəzi;

Xarkov şəhəri: Ümumukrayna Azərbaycan mədəniyyəti mərkəzi;

Krım şəhəri : "Nizami" cəmiyyəti

Belarus cəmiyyəti: "Qobustan cəmiyyəti;

Özbəkistan Respublikası

Daşkənd şəhəri: "Oğuz" cəmiyyəti

Penza şəhəri. "Azərbaycan ijması" cəmiyyəti;

Saranski şəhəri: "Yurddaş" cəmiyyəti, "Qardaşlıq" cəmiyyəti



Pribaltika, Tallin şəhəri: "Ocaq" cəmiyyəti;

Vilnüs şəhəri: "Azəri" cəmiyyəti

Riqa şəhəri: "Azəri" cəmiyyəti

Rusiyada yaşayan azərbaycanlılar aşağıdakı kimi yerləşmişlər:

– Moskvada 300-400 min, Sankt-Peterburqda 60-80 min, Krasnoyarskda 40-50 min, Kazanda 30 min Ulyanovskda 20 min, Vladiqafqazda 30 min nəfərin məskunlaşdığı güman edilir. Eyni zamanda Ukraynada 500 min, Belarusiyada 7 min, Mordoviyada 56 min, Latviyada 4 min, Estoniyada 3 min, Litvada 2 min azərbaycanlı yaşayır.

Bütün bunlar Azərbaycan tarixinin, diyarşünaslığının tədrisi üçün mühüm vasitədir. Tələbələrə mühazirə, seminar və əlavə məşğələlərdə bu faktlardan istifadə edilәndə yaxşı səmərə əldə edilə bilər.

Harada yaşamasından aslı olmayaraq hər kəs vətənini, xalqını sevməli, mümkün qədər uzağa düşməməli, bir olmalıdırlar.

Belə çıxmasın ki, biz Azərbaycanlıların xaricə köçməsini, oradan vətənə kömək etməsini təbliğat edirik. Biz xalqını, vətəni sevməyi, çətin gündə xalqına köməyi və xalqını yad ölkədə ləyaqətlə təmsil etməyi nəzərdə tuturuq.

Xaricə getməyinin və orada qalıb işləyib yaşamasının bir sıra səbəbləri vardır ki, bunun müəyyən hissəsini Azərbaycan tarixi fənnindən məktəblilər öyrənirlər.

1. Ölkədə siyasi quruluşun dəyişməsi və müharibə ilə əlaqədar baş vermiş yerdəyişmələr.

2. Təhsilini artırmaq və inkişaf etmiş elmi-texniki müəssisədə ona olan ehtiyac.

3. İqtisadi vəziyyəti yaxşılaşdırmaq məqsədi.

4. Öz vətənində sevilməyən, xalqa arxa çevirmənin nəticəsi kimi və s.

Biz şərti adlandırdığımız 4-cü yerdəyişmə ilə bağlı adamlardan əslində nə vətəndə, nə də vətəndən uzaqda yaxşı şey gözləmirik. Təki vətənimizin adına ləkə gətirməsinlər.

1988/93- cü illərdə Qarabağ problemi ilə əlaqədar xalqımız çox imtahanlar qarşısında qaldı. Xalq ayağa qalxdı, vətənini müdafiə etdi, müstəqilliyinə qovuşdu. Lakin acı da olsa göstərək ki, bəzi naqis, qorxaq həmvətənlərimiz xarici ölkələrə qaçdılar. Vətənin müdafiəsində iştirak etmədilər. Şərəfli yaşamağı, qəhrəman kimi ölməyi üstün tutmadı, vətən şəhidi olmadılar. Onsuz da biz bütünlüklə qırılmadıq ki, Nazim Hikmətin sözləri ilə desək oğullar qan verdilər vətəni yaşatmaq üçün. Qaçanlar haqqında Hüseyn Cavidin «Dəli Knyaz» əsərindən misal gətirmək yerinə düşərdi:

«Ölüm var ki, həyat qədər dəyərli,
Həyat var ki, ölümdən də zəhərli »...

Biz bütün həmvətənlərimizə dəyərli, vətənpərvərliklə yoğrulmuş qiymətli ömür, cansağlığı arzulayırıq. Gözəl fəaliyyətlərini alqışlayırıq. Gənc nəslə onların vətənpərvərlik hislərini öyrədir, onlarla qürur duyuruq.

## 7.10. Dövlət özəlləşməsinin sürətli artımı

Azərbaycanın çox zəngin və şərəfli tarixi var. Bu tarix öz yaddaşında xalqın taleyini müəyyənləşdirmiş nadir şəxsiyyətləri əbədi yaşadır. Heydər Əliyev onların ən görkəmlisi, ən qüdrətlisidir. Heydər Əliyev dühası müasir Azərbaycan dövlətinin qurulması və inkişafında, xalqının bir millət kimi yetkinləşməsində müstəsna əhəmiyyət kəsb etdiyindən tariximizin çox parlaq şəxsiyyətlərindən birinə çevrilmişdir.

Ölkəmizin son 40 ildə əldə etdiyi tarixi uğurlar məhz Heydər Əliyevin titanik fəaliyyətinin nəticəsidir. Azərbaycan 1969-cu ildən sonra məhz ulu öndərin qətiyyətli yorulmaz fəaliyyəti nəticəsində iqtisadi yüksəliş yoluna çıxdı. Respublikamız qısa müddət ərzində tikinti və quruculuq meydanına çevrildi. Fabrik və zavodlar tikildi, yeni yollar, körpülər salındı. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi o illərdə həyata keçirilən tikinti işlərinin həcmi saysız-



hesabsız idi. Həmin dövrdə Azərbaycanda aparılan tikinti işləri onun tapşırığı və nəzarəti altında həyata keçirilirdi.

Heydər Əliyev Azərbaycanda fəaliyyət göstərən bütün sahibkarlar və iş adamlarının himayədarı idi. 2002-ci ilin aprel və may aylarında məhz iş adamları ilə görüşdən sonra ölkəmizdə sahibkar imici formalaşmağa başladı. Dövlət başçısının imzaladığı fərman və sərəncamlar bu sahədə olan lüzumsuz yoxlamaların qarşısı demək olar ki, alındı. Həmin tarixi görüşdən sonra sahibkarlığın inkişafı üçün yaşıl işıq yandırıldı və geniş meydan verildi. Bu gün isə bu ənənə Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir. Özəl sektoru iqtisadiyyatımızın lokomotivi hesab edən ölkə başçısı Azərbaycanı dinamik inkişafda olan ölkələr sırasına çıxarıb.

Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkədə həyata keçirilən iqtisadi islahatların tərkib hissəsi olan özəlləşdirmə əvvəlki illərə nisbətən 2006-cı ildə daha sürətlə aparılmışdır. Belə ki, əgər 2003-cü ildə 1677, 2004-cü ildə 1954, 2005-ci ildə 2463 kiçik müəssisə və obyekt özəlləşdirilmişdirsə, 2006-cı ildə onların sayı 3063, ümumi dəyəri isə 14,9 milyon manat təşkil etmişdir. Ümumiyyətlə, ölkədə özəlləşdirmə başlayandan 2007-ci il yanvarın 1-dək ümumi (qeyd: VI fəsildə son illərin məlumatı verilmişdir) dəyəri 155,9 milyon manat olan 46181 kiçik müəssisə və obyekt, o cümlədən 890 sənaye, 123 kənd təsərrüfatı, 505 tikinti, 3701 ticarət, 1053 iaşə, 10034 məişət xidməti müəssisələri, həmçinin 648 yanacaqdoldurma məntəqəsi, 19584 nəqliyyat müəssisəsi və nəqliyyat vasitəsi, 180 kommunal təsərrüfatı və 9308 digər obyekt və avadanlıqlar özəlləşdirilmişdir. Keçən il kiçik özəlləşdirmə Naxçıvan MR (60 müəssisə və obyekt), Bakı (2228), Gəncə (147), Mingəçevir (90), Sumqayıt (57), Əli Bayramlı (31) şəhərlə-rində, Şəki (42), İsmayıllı (35), Ağdaş (25), Abşeron (23), Zaqatala (21), Xaçmaz (19), Quba (19) və Şəmkir (17) rayonlarında daha fəal aparılmışdır.

Bununla yanaşı, nizamnamə kapitalının həcmi 8,8 milyon manat olan 22 dövlət müəssisəsi 2006-cı ildə səhmdar cəmiyyətinə çevrilmişdir. Bu proses Naxçıvan MR (10 müəssisə), Bakı (4),

Gəncə (3), Sumqayıt (1), Əli Bayramlı (1) şəhərlərini və hər birində 1 müəssisə olmaqla Xaçmaz, Bərdə və İmişli rayonlarını əhatə etmişdir. Ümumiyyətlə, 2007-ci ilin əvvəlinə 1094 milyon manatlıq nizamnamə kapitalına malik 1569 dövlət müəssisəsi, o cümlədən 371 iri və orta sənaye müəssisəsi səhmdar cəmiyyətinə çevrilmişdir. Habelə ötən il səhmlərinin ümumi dəyəri 50,7 milyon manat olan 200 SC-nin səhmləri auksiona çıxarılmış və satılmış səhmlərin dəyəri 8788 min manat təşkil etmişdir. 2154 min manatlıq səhmlər qapalı abunə ilə çeklə əmək kollektivlərinə və çek hərraclarında, 6635 min manat dəyərində olan səhmlər pul auksionlarında satılmış, 29,7 min manatlıq səhmlər isə dövlət mülkiyyətində qalmışdır. 2006-cı il ərzində 397 dövlət müəssisəsinin yerləşdiyi torpaq sahələrinin özəlləşdirilməsindən 5,4 milyon manat vəsait əldə edilmişdir. Ölkə sakinləri tərəfin-dən ümumi sahəsi 728,2 min kv.metr olan 11,4 min mənzil özəlləşdirilmişdir. özəlləşdirmə başlanan dövrdən cari ilin əvvəlinəcənsə 389,5 min mənzil özəlləşdirilmişdir ki, bu da özəlləşdirilməsi mümkün olan mənzillərin 64,1 faizini təşkil edir.

Məlum olduğu kimi, bu günlərdə Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması və dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi baxımından çox böyük əhəmiyyət kəsb edən Prezident fərmanı imzalanıb. "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında 2007-ci il aprel fərmanı özəl sektorda bürokratik əngəllərin aradan qaldırılmasını, ölkədə biznes iqliminin daha da təkmilləşdirilməsini, sahibkarlıq fəaliyyətində maneələrin qarşısının alınması məqsədi daşıyır. Fərmana əsasən Nazirlər Kabinetinə bir ay ərzində ədliyyə, iqtisadi inkişaf, vergilər, əmək və əhalinin sosial müdafiəsi nazirlikləri, Dövlət Sosial Müdafiə Fondu və Dövlət Statistika Komitəsi ilə birlikdə "Bir pəncərə" prinsipi üzrə sahibkarlıq fəaliyyətinin subyektləri üçün vahid kodun qəbul edilməsi haqqında təkliflər hazırlamaq tapşırılıb. Bəs, "Bir pəncərə" sistemi nədir və necə tətbiq olunacaq?

Azərbaycan iqtisadiyyatının dinamik inkişafı və regionda lider dövlətə çevrilməsi danılmaz faktdır. Hazırda "Bir pəncərə" sistemindən, demək olar ki, bütün inkişaf etmiş ölkələrdə geniş istifadə edilir. Bu müsbət təcrübənin əhəmiyyətini nəzərə alan dövlətimizin başçısı sahibkarlığın inkişafı ilə bağlı daha yeni bir fərman imzalamışdır. Danılmaz bir gerçəklikdir ki, ölkəmizdə sahibkarlıq fəaliyyətinin davamlı inkişafı dövlətin iqtisadi siyasətinin mühüm tərkib hissələrindən biridir. Bu istiqamətdə dövlət tərəfindən ardıcıl olaraq sahibkarlığa dövlət dəstəyi mexanizminin formalaşdırılması sahəsində qanunvericilik bazasının zənginləşdirilməsi və qanunsuz müdaxilələrin və süni maneələrin aradan qaldırılması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Məhz bunun sayəsində ölkəmizdə sahibkarlar təbəqəsi formalaşmış, iqtisadiyyatın inkişafında özəl sektorun rolu əhəmiyyətli dərəcədə artmışdır. Biznes mühitində bəzi mövcud problemlərin aradan qaldırılması üçün imzalanmış bu fərman, eyni zamanda, çoxpilləli biznesə başlamaq proseduralarının, mürəkkəb icazələr sisteminin sadələşdirilməsini də nəzərdə tutur.



"Bir pəncərə" sistemi elektron hökumətin əsas elementi sayılır. Bu zaman məlumatların bir mərkəzdə cəmləşdirilməsi və eləcə də bütün inzibati qeydiyyatların, vergi qeydiyyatı da daxil olmaqla, tamamilə sinxronlaşdırılması həyata keçiriləcəkdir. İş adamlarının mərkəzi sistem ilə avtomatik və davamlı əlaqəsi yaranır. Bu isə lisenziyaların mərkəzləşdirilmiş qaydada və elektron şəkildə təqdim edilməsi deməkdir. Bu zaman, təbii ki, qeydiyyat üçün proseduraların sayı azalır və biznes subyektləri elektron qeydiyyat sistemindən faydalanır, vaxt itkisinin qarşısı alınır. Azərbaycanda qeyri-neft sektorunun prioritet hesab edildiyini nəzərə aldıqda bu sahədə irəliləyişlərin əldə edilməsinin vacibliyi aydın görünür. Fərman bütövlükdə biznes mühitinin sadələşdirilməsini və eləcə də bürokratik əngəllərin azaldılmasını nəzərdə tutduğundan sənəd sahibkarlar tərəfindən alqışlanır. Fərmanda nəzərdə tutulan tədbirlərin icrasının ölkədə biznes mühitinin yaxşılaşdırılmasına xidmət edəcəyi proqnozlaşdırılır. Hər halda "Bir pəncərə" sistemi lisenziyalaşdırma qaydalarını və prosedurlarını xeyli sadələşdirəcək.

Şübhəsiz ki, indiyədək sahibkarlığın inkişafına mane olan bürokratik əngəllərin aradan qaldırılması ilə bağlı dəfələrlə mühüm

addımlar atılıb. Lakin burada problem ondadır ki, bir sıra hökumət qurumları hələ də elektron sənədləşdirmənin aparılmasına hazır deyil. Söhbət onun texniki tərəfindən getmir. Lakin Azərbaycan iqtisadiyyatının bugünkü dinamik inkişafı və onun inkişaf etmiş dövlətlərə sürətli inteqrasiyası "Bir pəncərə" sisteminin ölkəmizdə uğurlu tətbiqini qarşıya bir zərurət kimi qoyur. Çünki beynəlxalq dövlətlər bu sistemə çoxdan keçid alıb və ölkəmizin də "Bir pəncərə"yə keçməsi çox vacibdir.

Ölkədə sahibkarlığın inkişafına yönələn bürokratik əngəllərin aradan qaldırılması üçün inzibati metodlarla yanaşı elektron hökumətə ünvanlanan fəaliyyətin həyata keçirilməsi dünya təcrübəsinin də qəbul etdiyi demokratik bir yoldur və Azərbaycan da inkişafında demokratik prinsiplərə sadiq bir dövlətdir. Ümummilli liderimizin başladığı işlər Prezident İlham Əliyev tərəfindən nəinki uğurla davam etdirilir, hətta beynəlxalq normalara uyğunlaşdırılaraq inkişaf etdirilir. Bunu müstəqilliyin nəticəsi kimi görürük.

Müəllim demokratiyanın, müstəqilliyin nəticəsi olaraq yaranmış şəraitlə bağlı ölkədə sahibkarlığın yaranmasını və bu sahəyə dövlət rəhbərliyinin, dövlətin münasibətini gənclərə öyrədilməsini günün tələbi kimi qarşılamalıdır.

Gündəlik həyatla bağlı olaraq gənclərin müəyyən qədər sahibkarlıq haqqında məlumatları vardır. Ancaq rəsmi materiallar, sahibkarların ölkəyə verdiyi faydalı rəqəmlərin dili ilən bilməli, əhəmiyyəti başa düşməlidirlər. Onu da göstərək ki, Azərbaycan Respublikasında sahibkarlıqla bağlı bir neçə il haqqında olan gəlirlər barədə faktlar, rəqəmlərlə tanış olurlar. Lakin həyat davam edir. İllər üstünə illər gəlir. Sahibkarlıq inkişaf edir. Ölkəyə gəlir gətirilir...

Bütün bunlar maddi maraqdan irəli gəlsə də, əsasən vətənpərvərlik öz sözünü deyir.



## 7.11. Azərbaycanın müstəqil siyasəti – Bakı-Tibilisi-Qars dəmiryol xətti

Ötən həftə Cənubi Qafqazın iqtisadi münasibətlər sistemində yeni mərhələnin başlanğıcı kimi tarixə düşən mühüm bir hadisə baş verdi. Tbilisidə regional və beynəlxalq əhəmiyyətinə görə enerji layihələrindən heç də geri qalmayan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilişinə dair 2007-ci ilin fevralında Azərbaycan, Türkiyə və Gürcüstan arasında saziş imzalandı. Bu sahədə əsasən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilməsi nəzərdə tutuldu.

Əlbəttə, BTQ-nin çəkilişinə dair sənədin imzalanması reallıqda Azərbaycan vətəndaşları üçün o qədər də qeyri-adi görünməyə bilər. Çünki una qədər məhz Azərbaycan hakimiyyətinin siyasi iradə və qətiyyət nümayiş etdirməsinin nəticəsi olaraq Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri istifadəyə verilib. Bu yaxınlarda isə Bakı-Tbilisi-Ərzurum qaz kəməri işə düşəcək. Sirr deyil ki, neft-qaz layihələrinin reallaşması iqtisadi səmərəsindən, Azərbaycan, Türkiyə və Gürcüstana gətirdiyi iqtisadi dividenddən əlavə, Cənubi Qafqaz regionunda sülhün və təhlükəsizliyin möhkəmlənməsinə böyük töhfələr verməsi baxımından müstəsna əhəmiyyət kəsb edir. Digər tərəfdən, regional əhəmiyyətindən çox-çox kənara çıxaraq beynəlxalq əhəmiyyət kəsb edən bu kəmərlər tarixən geostrateji bir məkan kimi seçilən Cənubi Qafqazın Ermənistan istisna olmaq şərti ilə strateji rolunu daha da artırıb. Təbii ki, BTQ dəmir yolu xətti regional əməkdaşlığı möhkəmləndirməklə, ona yeni töhfələr verməklə yanaşı, bölgənin strateji yükünün də artmasına əhəmiyyətli dərəcədə təsir edəcək. Elə buna görə də BTC və BTƏ kimi möhtəşəmliyinə görə zirvələrdə dayanan layihələrin reallaşması ilə müqayisədə BTQ-nin çəkisi heç də az deyil. Ən azından xarici dəstək görməyən və yalnız daxili maliyyə imkanları hesabına ərsəyə gətiriləcək BTQ Azərbaycanın getdikcə artan beynəlxalq imicinin və iqtisadi qüdrətinin real nəticəsi kimi tarixə yazılacaq.

Layihə çərçivəsində 98 km yeni dəmir yolu xətti (68 km Tür-

kiyə, 30 km Gürcüstan ərazisindən keçməklə) çəkiləcək. Bundan əlavə, qatarların Gürcüstandakı mövcud dəmir yollarından sonra Avropa dəmir yollarında hərəkət edə bilməsi üçün Axalkalakidə keçid məntəqəsinin tikilməsi nəzərdə tutulur. Gürcüstan ərazisində tikinti işlərinin 2007-ci ilin ikinci rübündə başlanması, layihənin isə yaxın üç il ərzində başa çatdırılması nəzərdə tutulur. Layihə 422 milyon dollar həcmində dəyərləndirilir. Azərbaycan Gürcüstana illik 1 faizlə 25 il müddətinə 200 milyon dollar güzəştli kredit ayıracaq. Kredit dəmir yolunun istismarı nəticəsində əldə edilməsi nəzərdə tutulan vəsaitlərin hesabına ödəniləcək. Türkiyə tərəfi öz üzərinə dəmir yolunun layihələşdirilməsi üzrə işlərin maliyyələşdirilməsi öhdəliyini götürür. Dəmir yolu vasitəsilə ilk illərdə 5 milyon ton yük, sonrakı illərdə 15 milyon ton yük daşımaq mümkün olacaq. BTQ gələcəkdə Bosfor boğazından tunel vasitəsilə Avropaya qədər uzanacaqdır.

Əvvəlcə layihənin iqtisadi tərəfi barədə. BTQ dəmir yolu xətti istismara verildikdən sonra Azərbaycanın və Gürcüstanın dəmir yolu xətləri Avropanın dəmir yolu xətlərinə qoşulmaq imkanı əldə edəcəklər. Layihənin reallaşması ümumi baxımdan coğrafi vəziyyətə də yenilik gətirəcəkdir. "Dəmir ipək yolu" adlandırılan BTQ Cənubi Qafqaz regionunun iqtisadi inkişafına, burada sülhün və sabitliyin möhkəmlənməsinə xidmət etməklə yanaşı, tarixi ipək yolunun mühüm bir his-səsi kimi Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafında böyük rol oynayacaq. Tbilisidə sənədlərin imzalanma mərasimində Azərbaycan Prezidenti ilham Əliyev BTQ-nin əhəmiyyətini belə qiymətləndirib: **"Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum layihələri kimi, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin də həyata keçirilməsi regiona sabitlik və əməkdaşlıq gətirəcəkdir. Regionun problemlərinin həlli üçün önəmli rol oynayacaq, bizi birləşdirəcək, qitələri birləşdirəcəkdir. Gələcəkdə bu yoldan müxtəlif ölkələr, tərəflər istifadə edə bilər. Biz isə bundan, əlbəttə ki, həm siyasi, həm iqtisadi, həm də regional müstəvidə böyük fayda götürəcəyik".** BTQ yük və sərnişinlərin birbaşa olaraq Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Avropa



və Asiyaya çıxarılması ilə yanaşı, ixrac mallarının Azərbaycan ərazisindən tranzitinin artmasına, Xəzər hövzəsi regionunun Avropa ilə bilavasitə nəqliyyat əlaqələrinin qurulmasına, Avropaya inteqrasiya proseslərinin sürətlənməsinə, region dövlətlərinin müstəqilliyi və suverenliyinin möhkəmlənməsinə xidmət edəcək, onların iqtisadi əlaqələrinin səmərəliliyini artıracaq. Məlum olduğu kimi, Çin və Qazaxıstan uzun müddətdir bu layihəyə maraqlarını gizlətmirlər. Hazırda sürətli inkişaf yolunda olan bu dövlətlər üçün Avropaya BTQ dəmir yolu vasitəsilə çıxışın əldə edilməsi həyati əhəmiyyət kəsb edir. BTQ dəmir yolu xəttinin, xüsusən Gürcüstan üçün əhəmiyyəti ölçüyəgəlməzdir. Çünki hazırda Rusiya ilə münasibətləri soyuq olan Gürcüstan üçün layihə iqtisadi baxımdan əla perspektivlər vəd edir. Digər tərəfdən, ərazisindən strateji dəmir yolu keçən Gürcüstan həm də tranzit ölkə kimi yerini möhkəmləndirir. Tbilisidə keçirilən imzalanma mərasimində layihənin region və ölkəsi üçün əhəmiyyətindən danışan Gürcüstan Prezidenti Mixail Saakaşvili Azərbaycanın layiqli strateji tərəfdaş olduğunu xüsusi qeyd edib: **"...Ötən il Gürcüstan elektrik enerjisindən və qazdan məhrum olmuşdu, Azərbaycan bizim köməyimizə gəldi, qışın nə qədər soyuq olmasına baxmayaraq, Azərbaycan bizə öz yardım əlini uzatdı, Gürcüstanı enerji ilə təmin etdi. Biz bunu heç vaxt yaddan çıxarmayacağıq. Bu, bizim ölkələrimiz arasında dostluğun bir nümunəsidir. Gürcüstan bunu heç vaxt yaddan çıxarmayacaq .**

Azərbaycan üçün isə BTQ dəmir yolu xətti daşınacaq yüklərdən daha çox siyasi yükünə görə mühüm əhəmiyyət kəsb edir. Çünki BTQ dəmir yolu xətti layihəsinin reallaşması ilə işğalçı Ermənistanın blokada dairəsi daha da daralacaq. Gələcəkdə isə hətta Qarsdan Naxçıvana qədər dəmir yolu xətti çəkilə bilər. Layihədən kənarda qalan Ermənistanı da, təbii ki, onun iqtisadi səmərəsi ilə yanaşı, verəcəyi siyasi dividend də narahat edir. Ermənistan əvvəllər neft-qaz layihələrində olduğu kimi, BTQ layihəsinin də baş tut-maması üçün dəridən-qabıqdan çıxdı. Amma hər dəfə Ermənistanı layihələrdən kənarda qoyan Azərbaycan bu dəfə də istədiyini etdi.

BTQ layihəsinə qarşı çıxan Ermənistanın istədiyi Qars-Gümrü dəmir yolunun açılması idi. Halbuki BTQ ilə Qars-Gümrü dəmir yolları heç cür müqayisə edilə bilməz. Birincisi, transkontinental səciyyə daşıyır, ikincisi isə, yerli əhəmiyyətə malikdir. Düzdür, layihənin baş tutmaması üçün əlindən gələni edən ABŞ-dakı erməni lobbisi layihəni maliyyələşdirməyi qadağan edən qərarın qəbuluna nail ola bilmişdi. Amma bu o demək deyildi ki, ABŞ bu layihənin əleyhinədir. Xatırladaq ki, müsahibələrinin birində ABŞ dövlət katibinin müşaviri, ATƏT-in Minsk qrupunun həmsədri Mətyu Brayzə ABŞ-ın BTQ dəmir yolu xəttinə maliyyə dəstəyi verməsə də, ona qarşı çıxmadığını da dilə gətirmişdi.

"BTQ dəmir yolu Ermənistanın tam blokadasına səbəb ola bilər. Bununla belə, Qars-Gümrü dəmir yolunun işə düşməsi üçün hər şeyi etmək lazımdır, əks təqdirdə, Ermənistan nəqliyyat blokadasında qalacaq". Belə bir həyəcanlı bəyanatla isə Amerika Erməni Assambleyasının regional direktoru Apri Vardanyan çıxış edib. Amma BTQ dəmir yolu xəttinin qatarı artıq yola düşüb. Ermənilərə isə, sadəcə, bu qatarın arxasınca baxmaq qalır. işğalçılıq siyasətinin nəticəsi olaraq iqtisadi məngənədə sıxılan Ermənistan Cənubi Qafqaza yeni ab-hava gətirəcək, bölgənin iqtisadi tərəqqisində əhəmiyyətli rol oynayacaq növbəti layihədən də kənarda qaldı.

Müəllim burada gənclərə müstəqilliyin xarici aləmə təsirini, dövlətin müstəqil siyasət yeritdiyini bu nümunədə aydın göstərməli, onları dövlətçilik ruhunda tərbiyə etməlidir.

### 7.12. Yeni idarəetmə iş müstəqilliyinin nəticəsi kimi

Müstəqil Azərbaycanda ilk dəfə olaraq demokratik ölkələrin zəngin təcrübəsinə əsaslanan bir dövlət idarəçilik. sistemi yaradıb, formalaşdırmaq zəruri və həm də son dərəcə çətin işdir. Heydər Əliyev dühası, onun parlaq və aydın zəkası, zəngin bilik və təcrübəsi bu çətin işin öhdəsindən müvəffəqiyyətlə gəlməyə imkan verir.



Ulu öndər Heydər Əliyev dövlətçiliyimizin möhkəmləndirilməsi sahəsində digər sahələrdə olduğu kimi, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaranması haqqında 3 yanvar 1999-cu il tarixli sərənçamı dövlətçi-liyimizin möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsinə böyük qayğının təzahürüdür. Dövlət idarəçiliyi mexanizminin təkmilləşdirilməsi tədbirləri sistemində dövlət idarəetmə sahəsi üçün mütəxəssislər hazırlanması işinin müasir tələblərə uyğun qurulması, onların peşəkarlıq səviyyəsinin artırılması, dövlət idarəçiliyi sahəsində elmi tədqiqatlar aparılmasının təşkili və həmin sahənin analitik informasiya təminatının möhkəmləndirilməsi kimi kompleks tədbirləri həyata keçir-mək məqsədilə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyasının yaradılması dövlətimizin möhkəmlənməsi və elmi əsaslarla idarə olunması baxımından yeni mərhələnin başlanğıcı kimi fövqəladə əhəmiyyətə malikdir.

Azərbaycan Dövlət müstəqilliyinin bərpasının ilk illərində Akademiyanın yaradılması sözsüz ki, dövlətin kadr siyasətinin əsas istiqamətlərini, kadrların formalaşdırılmasının stratekiya və taktikasını müəyyənləşdirən kadr siyasətinin ümumi konsepsiyasının işlənib hazırlanması zərurətindən irəli gəlmişdir. Yeni dövlət quruculuğu, yeni dövlət idarəçiliyi sisteminin yaradılmasını tələb edir. Bazar iqtisadiyyatı şəraitində köhnə metodlar artıq işləyə bilmir, yeni metodlar isə hələlik işlənib hazırlanmamışdır. Dövlət məmurlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsi, hazırlanması, ixtisasının artırılması, əməli vərdişləri və dövlət xidməti məsələlərini həll edə bilmək qabiliyyətinin inkişaf etdirilməsi və s. məsələlərin həlli dövlət xidmətinin həyata keçirilməsi sahəsində beynəlxalq təcrübənin, yerli şəraitin tələblərini nəzərə almaq yolu ilə təşkil olunmalıdır. Bu məsələlərin həllində Akademiya əvəzsiz rol oynaya bilərdi. Ölkəmizin mədəniyyətinin formalaşması və inkişafı prosesinə artıq Akademiyanın böyük təsiri olmuşdur.

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyasının yaradılması haqqında Prezident fərmanından və Dövlət İdarəçiliyi Akademiyasının nizamnaməsindən irəli gələn və-

zifələrin həyata keçirilməsi üçün görüləsi təxirəsa-lınmaz işlər arasında mərkəzi, yerli idarəçilik sahəsində kadr ehtiyatının hazırlanması sisteminin qurulması zəruri idi. ABŞ, Fransa, Rusiya, Türkiyə kimi böyük dövlətlərdə uzun illər bu işin gniş milli şəbəkəsi yaranmışdır. Azərbayçan isə öz ərazisi, insan ehtiyatları və idarəçilik sahəsində kadr ehtiyaclarına müvafiq olaraq yerli şəraitə uyğun optimal həcmi nəzərdə tutur. Bu, artıq öz həllini tapmışdır. Dövlətin bu sahəyə qayğısı böyükdür. Akademiyada aşağıdakı ixtisaslar fəaliyyət göstərir:

1. Menecment;
2. Dövlət və bələdiyyə idarəetməsi;
3. İnzibati idarəetmə;
4. Politologiya;
5. Hüquqşünaslıq;
6. Beynəlxalq münasibətlər.

Bu sahə Azərbaycan tarix – diyarşünaslığında önəm daşıyan sahədir. Gənclərin bu əhəmiyyətli sahəni bilməsi əsasdır.

## 7.13. Fövqəladə nazirliyin obyektlərinin istifadəsi

Mayın 9-da ümummilli lider Heydər Əliyevin anadan olmasının 84-cü ildönümü ərəfəsində Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğından Mühafizə Xidməti Yasamal rayon dövlət yanğın mühafizə hissəsi 29 nömrəli yanğından mühafizə bölməsinin yeni binasının açılış mərasimi keçirilmişdir.

Mərasimdə iştirak edən fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov yanğınların söndürülməsi zamanı istifadə olunan ləvazimata, Almaniya və Fransadan yeni alınmış "Man" və "İVEKO" markalı yanğınsöndürmə avtomobillərinə baxmış, inzibati binadakı iş şəraiti ilə tanış olmuş, tövsiyələrini vermişdir.

Həmin gün "İzotop" xüsusi kombinatının radioaktiv tullantıların toplanması, daşınması, emalı, saxlanması və basdırılması mərkəzinin də açılış mərasimi olmuşdur.



Kombinatın direktoru Vüqar Hüseynov bildirmişdir ki, 1994-cü ildə ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Nazirlər Kabinetinin müvafiq qərarı əsasında "İzotop" xüsusi kombinatının yenidən qurulması işləri başlanmış və bu gün həmin proses yekunlaşmışdır. Bu iş dövlətimizin, Avropa İttifaqının və Amerika Birləşmiş Ştatlarının maliyyə dəstəyi ilə həyata keçirilmişdir. Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planının tərkib hissəsi kimi FHN-nin "İzotop" xüsusi kombinatında ölkədə əhalinin və ətraf mühitin radiasiya təhlükəsizliyinin təmin olunmasına xidmət edən yeni poliqon istifadəyə verilib. Bu mərkəz son 50 ildə Avropada inşa olunmuş ən müasir obyektlərdən biridir.

FHN-nin xüsusi kambinatında bu mərkəz ölkə ərazisində radioaktiv maddə və tullantıların analizinin aparılmasına imkan verəcəkdir. Radioaktiv tullantıların emalı bloku müxtəlif formada olan radioaktiv tullantıları emal və izolyasiya etməyə şərait yaratmaqla yanaşı, onların uzun müddətli saxlanmasını təmin edəcəkdir.

Mərkəzin yenidən qurulmasında, maliyyələşdirilməsində, layihələndirilib tikilməsində, müasir avadanlıqla təmin olunmasında əməyi olmuş Avropa İttifaqına, ABŞ-ın Enerji Departamentinə, Azərbaycan hökumətinə, Ərazilərin Bərpası və Yenidən Qurulması Agentliyinə minnətdarlığını bildirmişdir. Mərkəzin nəzdində 4 milyon 300 min dollar dəyərində radioloji laboratoriya, radioaktiv tullantıların emalı blokunun və yüksəkaktivli maddələrin saxlanması blokunun tikildiyini vurğulayan Kəmaləddin Heydərov qeyd etmişdir ki, bu laboratoriyalarda müxtəlif tədqiqatlar aparmaq imkanı mövcuddur. Gələcəkdə mərkəzin imkanları daha da genişləndiriləcəkdir.

1962-ci ildə primitiv bir layihə üzrə inşa olunmuş, heç bir kommunikasiya xətləri olmayan, ancaq radioaktiv tullantıları saxlamaq üçün bir yeraltı anbardan və 9 işçidən ibarət olmuş bu məntəqə indi ən müasir texniki avadanlıq, cihaz və qurğularla təchiz edilmiş, radioaktiv mənbələrin və tullantıların uzunmüddətli saxlanması,

daşınması, emalı, radioloji monitorinq, radiokimyəvi analiz və digər əməliyyatları aparmaq iqtidarında olan elmi-təcrübi profilli bir obyektə çevrilmişdir. Radioaktiv tullantıların emalı blokunda müxtəlif fiziki və kimyəvi tullantıların emal edilməsi mümkün olacaqdır.

Sonra iştirakçılar mərkəzdəki laboratoriya blokuna baxmış, iş şəraiti ilə tanış olmuşlar.

Əhəmiyyət daşıyan bu müəssisənin açılışında dövlət nümayəndələrindən Azərbaycan Prezidentinin müdafiə məsələləri üzrə köməkçisi general-leytenant Vahid Əliyev, Baş nazirin müavini Abid Şərifov, səhiyyə naziri Oqtay Şirəliyev, ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov, Avropa İttifaqının və digər qurumların nümayəndələri iştirak etmişlər.

Azərbaycan tarix-diyarşünaslığına daxil olan bu sahə gənclərin diqqətində olmalıdır.

### 7.14. Bakı teleqülləsi kompleksinin əsaslı bərpası

Azərbaycan xalqının siyasi, iqtisadi, mədəni inkişafında Azərbaycan televiziya və radiosunun çox böyük əhəmiyyəti vardır.

Bunu nəzərə alan dövlət başçısı ölkədə bütün digər sahələrə olduğu kimi mətbuatın bu sahəsini diqqət mərkəzində saxlayır, onun əyani şəkildə görüntülərinin keyfiyyətli həlli üçün müvəffəqiyyətli işlərin görülməsi istiqamətində rəhbər göstərişlər verir. Bu baxımdan Bakı teleqülləsinin əsaslı surətdə yenidən qurulması üçün 2008-ci il iyunun 10-da cənab Prezident İlham Əliyev «Azərbaycan Respublikasında televiziya yayımının genişləndirilməsi və efir məkanında informasiya təhlükəsizliyinin möhkəmləndirilməsinə dair əlavə tədbirlər haqqında» sərəncam imzalamışdır. Sərəncama əsasən prezidentin ehtiyat fondundan Azərbaycan Respublikası Rabitə və İnformasiya nazirliyinə 2,5 milyon manat məbləğində vəsait ayrılmışdır.

Qeyd edək ki, teleqüllənin tikintisinə 1979-cu ildə başlanmış və 1985-ci ildə tikinti əsasən başa çatmışdır. Lakin müəyyən



səbəblərdən kompleksdə tikinti işləri dayandırılmışdır. Ancaq müstəqillik dövründə ulu öndər Heydər Əliyevin iştirakı ilə 1996-cı ildə kompleksin rəsmi açılışı olmuşdur.

Respublika prezidentinin sərəncamından sonra qısa vaxt ərzində teleqüllə kompleksində əsaslı yenidənqurma işləri həyata keçirilmişdir. Kompleks ən qabaqcıl rabitə avadanlığı ilə təchiz olunmuşdur.

Teleqüllə nəhəng tikinti və tarixi abidədir. Azərbaycan tarix-diyarşünaslığının bir sahəsidir. Teleqüllənin hündürlüyü 310 metr, çəkisi 40 min tondur. Dəniz səviyyəsindən 136 metr (Bakı Qız qalası 28 metrdir) hündürlükdə yerləşir. Kompleksin beton hissəsi 200 metr, metal hissəsi isə 110 metrdir. Qüllənin üzərində milli ornamentli 4 şəbəkə yerləşir. Bunların hər biri bir qütbə istiqamətlənmişdir. Burada yeni televiziya verilişləri quraşdırılmışdır ki, bunlar da yayımın keyfiyyətini yüksək standartlar səviyyəsinə qaldırmışdır.

Bakı və Abşeron yarımadamında rəqəmsal televiziya yayımının inamlı qəbulu, respublika ərazisində DVB-T rəqəmsal televiziya yayım planı, respublikanın Radio monitorinq Şəbəkəsi və Kompisksin diqqət fəaliyyəti istiqamətləri öz həllini tapmışdır.

Teleötürücü qüllədə Yaponiyanın istehsalı olan və hər biri 12 nəfərlik iki «Hitashi» lifti quraşdırılmışdır. Qüllənin 28-ci mərtəbəsində yerdən 180 metr hündürlükdə televiziya və radio yayım avadanlığı, 1712 kilometr uzunluğa malik RRX şəbəkəsinin baş stansiyası, mobil operatorların SDH şəbəkələri yerləşdirilmişdir. 10-cu mərtəbədə isə televiziya və radioverici-yayım avadanlığı, peyk yayımı avadanlığı, audio-video kommunikasiya qurğuları, habelə dispeçer xidməti, radio-rele kommunikasiya yerləşdirilmişdir.

Qüllənin 27-ci mərtəbəsində, yerdən 175 metr yüksəklikdə döşəməli restoran yerləşir və eyni vaxtda 100 nəfərə xidmət göstərilə bilər. Ümumi sahəsi 330 kvadrat-metrdir. Onun yük götürmə qabiliyyəti 15 tondur. Zal 1 saat 10 dəqiqə müddətində bir dəfə dövrə vurur və ətraf aləmi seyr etmək olur.

Bu böyük tikintinin yenidən qurulması və işə düşməsinin respublika prezidenti 2009-cu ilin iyunun 20-də rəmzi lentini kəsdi və xeyir-dua verdi.

1956-cı ilin fevralın 14-də Azərbaycanda televizor fəaliyyətə başlamış və həftədə 2 və sonra 3 dəfə efirə çıxmışdır. Hazırda həftənin hər günü və gündə 24 saat Azərbaycan televiziyası, eləcə də özəl televizorlar efirə çıxır, dünyada, respublikada baş verən bütün ictimai-siyasi prosesləri, sosial-iqtisadi və mədəni yenilikləri, təbiətin insana bəxş etdiyi növbənöv sürprizləri, texnogen hadisələri, insanın maraq və müşahidə dairəsində olan hər şeyi dəyərli tamaşaçılara çatdırır.

Bunların keyfiyyətli həllində müasir texniki avadanlıqla təchiz olunmuş teleqüllənin böyük əhəmiyyəti vardır.

## 7.15. Dövlət müstəqilliyi dövründə dinə qayğılı münasibətin təzahürü

Azərbaycan dünyavi dövlətdir. Din dövlətdən ayrıdır. Ancaq dövlətin tərkibini təşkil edənlər xalqdır. Xalqın da müxtəlif dini təriqətləri vardır. Dövlətin apardığı siyasət nəticəsində respublikamızda bütün dinlərə, dini yerlərə, dini ainlərə hörmətlə yanaşılır. Xalqlar arasında dini tolerantlıq höküm sürür. Ulu öndər Heydər Əliyev göstərmişdir ki, hamımız Allah yolunda bir olağın. Bu birlik şüarıdır. Ölkəmizdə dini işlərə baxan idarəsi, Qafqaz müsəlmanların idarəsi, Xəzər hövzəsi Xristian idarəsi, Dağ yahudilər idarəsi, Pravoslav kilsə nümayəndəliyi və s. fəaliyyət göstərir.

Dövlətin qayğısı nəticəsində Bakının Əzizbəyov rayonunda Mir Mövsüm ağanın qəbirüstü abidəsi, Bakıda «Təzə pir», «Əjdər məscidi» (Göy məscid), Şıxov qəsəbəsində yerləşən «Bibi Heybət» məscidi, Şəkidəki qədim məbəd, Qəbələdəki qədim məbəd və b. əsaslı təmir edilmiş, Bakının Nardaran kəndində dörd minarəli məscid, Naxçıvanda, Beyləqanda, Cəlilabadda, Sumqayıt şəhərində, Mingəçevirdə, Yardımlıda və digər kənd və şəhərlərdə yeni məscidlər inşa edilmiş, Bakıda Təzə pirin nəzdində İslam Universiteti tikilərək istifadəyə verilmişdir.



Bunlar tariximizin yeni mənəvi-mədəniyyət mərkəzləri və abidələridir. Xalqımızın iftixar, mənəvi, inanc və qürur mənbəyidir. Bu müstəqilliyimizin mənəviyyatımız üçün yaratdığı imkandır. Müəllim gənc nəslin tərbiyəsində bu sahəyə fikir verməli, dinin mənəvi əhəmiyyətini göstərməli, insanların dinindən asılı olmayaraq bir olmağa silahlandırmalıdır. Unutmaq olmaz ki, hər-hansı dövlətdə münaqişənin yaradılmasında bəzən çox dini cərəyanlardan, ayrı-ayrı məssəblərin bir-birinə qarşı qoyulması vasitəsilə nail olurlar. Məsələn, 1905-ci ildə erməni-müsəlman, 2004-cü ildən İraqda şiy-sünn toqquşmasını göstərmək olar. Din, dinlərarası əlaqənin yaxşı olması dövlətə, cəmiyyətə, ayrı-ayrı şəxslərə xeyir verməkdən ibarətdir.

Dini tolerantlığın əsasını ulu öndər Heydər Əliyev qoymuşdur. Hazırda türk dünyasının gənc lideri cənab İlham Əliyev bu işi yüksək səviyyədə həyata keçirir.

Bakı şəhərində Təzəpir məscid kompleksinin əsaslı yenidənqurma və geniş tikinti işləri xalqımızın mənəviyyatına dövlətin, şəxsən respublika prezidenti cənab İlham Əliyevin böyük xidmətlərindən biridir.

Ulu öndər Heydər Əliyevin ideallarına sadiq qalan cənab İlham Əliyev maddi mədəniyyət abidələrimizin, müqəddəs ocaqlarımızın bərpası ilə bağlı verdiyi sərəncam, tapşırıqlar Təzəpir məscidinin də yenidən bərpasına yol açmışdır. Prezident İlham Əliyev 2005-ci ildə məscidin bərpası və ətraf ərazilərin yenidən qurulması işinə başlamışdır.

Məscid kompleksinə Bakı İslam Universitetinin binası, məscid binası və Qafqaz Müsəlmanları idarəsinin inzibati binası daxildir. Ümumi sahəsi 4100 kvadratmetrdir. 720 nəfərlik namaz otağı, 6 mərasim zalı, 250 nəfərin təhsil alması üçün 10 sinif otağı və çoxlu sayda iş otağı, 340 kvadratmetrlik kitabxanası (6000 kitab), 250 yerlik və 50 yerlik konfrans zalları və s. daxildir.

Kompleksin 2009-cu ilin iyulun 6-da prezident cənab İlham Əliyevin xeyir-duası ilə açılış oldu. Prezident İlham Əliyev

geniş nitq söylədi və göstərdi ki, «Dünyavi dövlət olan Azərbaycan öz milli və dini ənənələrinə, dəyərlərinə sadiqdir...».

Qafqaz müsəlmanları idarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə dindarların adından dövlətə, prezidentə və gələn qonaqlara öz təşəkkürünü bildirdi.

Bu qəbildən olan tədbirlər həmişə dövlətin diqqətindədir. Gənc nəsil öz mənəvi dəyərlərilə fəxr etməli, onu qorumalı, dövlət rəhbərliyindən nümunə götürməlidir. Mənəviyyatı güclü və ona sadiq olmaq vətəndaşın, hər birimizin güclü olması deməkdir. Müəllim bu amillərə diqqət yetirməlidir. Dini fanatizmdən gəncləri qorumalıdır.



## NƏTİCƏ

Azərbaycan xalqının demokratik yolla azadlıq əldə etməsi azərbaycanlıların, onun tarixi şəxsiyyətlərinin vətənpərvərlik fəaliyyətinin nəticəsidir.

Nəticə kimi göstərək ki, Azərbaycan dövlət müstəqilliyinin yaranması (1918) və müstəqilliyin bərpası (1991) xalqımıza, Azərbaycanımıza (Şimal hissəsində) uzun illər yaddan çıxmış, istismarlar nəticəsində unudulmuş dövlətçilik ənənəsi bərpa olundu. Dövlət müstəqil siyasət yeritdi. Dövlət ampinutları yarandı. Azərbaycan dili dövlət dili oldu. Şərqdə təkcə Azərbaycanda qadınlarla kişilər hüquq bərabərliyinə sahib oldular. Dünyavi təhsil yarandı. Dövlətin ərazisi - sərhədləri müəyyən edildi. Dövlət əkskəşfiyyat (1919) idarəsi, Milli ordu, milli pul, sonralar gömrük idarəsi, vergi sistemi, özəlləşmə, səhiyyə, təhsil, elm-mədəniyyət sahələri inkişaf etdirildi. Daxili işlər Nazirliyi və digər nazirliklər yarandı. Ölkəyə, sərhədlərə nəzarət gücləndirildi. Hərbdə vəziyyət yaxşılaşdı, respublikada sabitlik yarandı (1993-cü ildən sonra).

Ölkədə iqtisadi, siyasi və diplomatiya yüksəldi. Xarici ticarət əlaqələri genişləndirildi. Bir çox dövlətlər ölkəmizə investisiya qoydular. Əsrin (XX əsr) neft müqaviləsi bağlandı ki, bu da çox böyük siyasi-iqtisadi yüksəlişə səbəb oldu. Neftlə yanaşı qaz müqaviləsi də bağlandı. Qədim ipək yolu bərpa olunmağa başlandı, Tbilisidən keçməklə Bakı-Qars dəmiryolu inşa edildi.

Azərbaycan dövlətinin apardığı demokratik siyasət nəticəsində 100-dən çox dövlətlə diplomatik əlaqə quruldu. Azərbaycan BMT (Birləşmiş Millətlər Təşkilatı), İslam Konfransının, keçmiş respublikalarla əlaqə məqsədilə Dövlətlər Birliyinə (MDB), Avropa Şurasına, Qaradəniz iqtisadi birliyinə və s. üzv qəbul edildi. Demokratik siyasətin nəticəsində Azərbaycan respublikası 2007-ci ildən sonra dünyada güclü iqtisadiyyata malik olan dövlətə çevrilməyə başladı.

Azərbaycan müstəqil dövlətin yaranması və bərpası Qafqazda, o cümlədən müsəlman dünyasında ilk demokratik dövlətdir. Burada millətindən, cinsindən asılı olmayaraq bütün respublika əhalisi hüquq bərabərliyinə, seçib-seçilmək hüququna malikdir..

Ölkədə demokratik seçki sistemi yaradılmışdır. Milli Məclis deputatları demokratik qanunlar qəbul edir, respublikanın yüksəlişinə, möhkəmlənməsinə xidmət göstərirlər. Ölkədə bazar iqtisadiyyatı həyata keçirildi. Dövlət özəlləşməsi, dövlət islahatları, regionların iqtisadi inkişaf proqramı və s. qəbul edildi. Bu, Azərbaycanın iqtisadi, siyasi inkişafının yüksəldilməsinə səbəb oldu.

Müstəqil dövlətin idmanı yüksəldi. İdmançılarımız Azərbaycan dövləti bayrağı altında dünya yarışlarında, olimpiadalarda iştirak edirlər. Azərbaycan müstəqil dövlətin yaranması Azərbaycan üçün faydalı və əhəmiyyətli olmaqla yanaşı, beynəlxalq aləm üçün də əhəmiyyətli olmuşdur. Xüsusən də Əsrin Neft müqaviləsinin bağlanması və onun icrasının həyata keçməsindən sonra özünü daha aydın göstərmişdir. Artıq Azərbaycan Avropa və digər ölkələrin enerji ehtiyatlarının təmin edilməsinə töhfə verir. Bu həm iqtisadi, həm də siyasi baxımdan əhəmiyyətlidir.

Azərbaycan respublikasının möhkəmlənib inkişaf etməsində əgər müstəqilliyin rolu olmuşsa da, əsas yerdə isə Azərbaycanın ümummilli lideri ulu öndər Heydər Əlirza oğlu Əliyevin Titanik fəaliyyəti və respublika prezidenti cənab İlham Heydər oğlu Əliyevin böyük, uzaqgörən və tarazlaşdırılmış siyasət aparması olmuşdur.

Əsərdə müəyyən mənada Azərbaycan dövlət müstəqilliyi və onun yaratdığı bir-çox sahələr işıqlandırılmışdır. Bütün bunlar Azərbaycan Tarix-diyarşünaslığıdır.

Müəllim, tərbiyəçi və gənclər bundan köməkçi material kimi faydalanmaqla, gənc nəslin vətənpərvərlik tərbiyə hissinin aşılanmasına nail olmalıdır. Vətənpərvərlik hissi böyük məhfumdur. Onun tarixi qədimdir. Həm də müasirdir. Bu işdə öyrənib-öyrədənlərə və öyrənənlərə uğurlar diləyirəm.



Dövlət müstəqilliyinin öyrənilməsi və öyrədilməsi məqsədilə aşağıdakıları tövsiyə edirik:

– Azərbaycan dövlət müstəqilliyinin yaranmasını və yenidən bərpa edilməsi tarixini və əhəmiyyətini gənc nəslə dərindən öyrətmək;

– Müstəqil Azərbaycan dövlətinin siyasi, iqtisadi, mədəni həyatın yüksəlişinin əhəmiyyətini dəyərli faktlarla ətraflı təhlilini vermək;

– Müstəqilliyimizin inkişafına xidmət göstərməyə maksimum nail olmaq. Hər kəs öz sahəsi üzrə müsbət işlər görməli;

– Birinci respublikanın (AXC) süqutunun səbəblərini və nəticələrini göstərmək;

– İkinci respublika (Azərb.SSR) haqqında qısa da olsa məlumat vermək;

– Üçüncü respublikanın (ADR) bərpası tarixini, əhəmiyyətini başa salmaq;

– Şimali Azərbaycanda dövlət müstəqilliyinin möhkəmlənməsində ulu öndər Heydər Əliyevin Titanik fəaliyyətini – Dövlətçilik fəaliyyətini, dövlət atributlarının bərpasını, müstəqil dövlətin Konstitusiyasının yaranmasında rolunu, demokratik seçki sisteminin, neft strategiyasının, iqtisadiyyatın hüquqi əsaslarının yaradılmasını, dövlət diplomatiyasını və digər dövlət əhəmiyyətli sahələri öyrətmək;

– Bugünkü Azərbaycanın siyasi, iqtisadi, sosial-mədəni yüksəlişində Azərbaycan respublikasının prezidenti cənab İlham Əliyevin apardığı tarazlaşdırılmış siyasətin əhəmiyyətinin gənc nəslə başa salmaq;

– Şimali Azərbaycanda müstəqil demokratik dövlətin yaranmasının və bərpasının öyrədilməsində tarix diyarşünaslıq materiallarının əhəmiyyəti nəzərə alınmalı, öyrədilməsi önəm daşımalı bu iş ardıcıl həyata keçirilməli və s.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir, I-XIX kitablar. Bakı, Azərnəşr, 1994-2007.
2. Rəsulzadə M.Ə. Azəzbaycan Cumhuriyyəti. Bakı, 1990
3. Heydər Əliyevin neft strategiyası. I- II hissə. Bakı, Nurol, 2001, 475, 495 s.
4. Heydər Əliyev mədəni irsimizin keşiyində, I-II kitab. Bakı, Nurol, 2001, 440, 548 s.
5. Heydər Əliyevin xatirəsinə həsr edilmiş «Naxçıvan» kitabı. B.: Təhsil, 2007
6. Əliyev H.Ə. Azərbaycan beynəlxalq aləmdə. Bakı, 1999, 520 s.
7. Heydər Əliyev və Azərbaycan parlamenti. Bakı, Azərbaycan Respublikasının Milli Məclisinin nəşri. 2003, 542 s.
8. Əliyev H.Ə. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, Ozan, 1999, 496 s.
9. Əliyev H.Ə. Təhsil millətin gələcəyidir. Bakı, Təhsil, 2002, 580 s.
10. Əliyev H.Ə. Müstəqil Azərbaycanını gələcəyi gənclərdir. Bakı, Gənclik, 1996, 196 s.
11. Əliyev H.Ə. Azərbaycan xalqı XX əsrdə böyük təhsillənmə yolu keçmişdir. (Bakı şəh. 82 saylı məktəbdə 2000-ci ilin sentyabrın 1-də keçirilən toplantıda nitqi) Təhsil millətin gələcəyidir. Bakı, Təhsil, 2002, 580 s.
12. Əliyev H.Ə. Azərbaycan Respublikasının müstəqilliyinin onuncu il dönümü haqqında fərmanı. Bakı, 20 mart, 2001-ci il №448.
13. Əliyev İ.H. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) üzrə fərmanı. Bakı, 11 fevral 2004-cü il № 24.
14. Əliyev İ.H. Heydər Əliyevin cəsarətli neft strategiyasının həyata keçirilməsi Azərbaycanı dünyada ən dinamik inkişaf edən ölkəyə çevrilmişdir. (nitqi). "Xalq" qəz. 6 iyun 2007-ci il.
15. Əliyev İ.H. Ölkəmizin hərtərəfli inkişafına, zənginləşməsinə, insanların firavanlığına yönəlmiş siyasət növbəti illərdə də davam etdiriləcəkdir (Bakıda «Azərbaycan respublikası regionlarının sosial-iqtisadi inkişaf Dövlət Proqramının (2004-2008-ci illər) icrasına həsr olunmuş konfransdakı nitqi». «Azərbaycan» qəz., 24 fevral 2009-cu il)
16. Əliyev İ.H. GUAM-ın üzvü olan ölkə rəhbərlərinin Bakıda keçirilən zirvə görüşündə çıxışı. "Xalq" qəz. 21 iyun 2007-ci il.
17. Əliyev İ.H. Dünya azərbaycanlılarının II qurultayında nitqi. "Xalq" qəz. 17 mart 2006-cı il.
18. Əliyev İ.H. Xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət proqramı (2006-2010-cu illər). 2006-cı il 17 aprel tarixli sərəncamı.
19. Əliyev.İ.H. QİƏT Qara dəniz regionunda iqtisadi əməkdaşlığın genişlənməsində aparıcı rol oynayır (çıxışı). "Xalq" qəz. 26 iyun -2007-ci il.
20. Əliyev İ.H. Müstəqil dövlətin tarazlaşdırılmış siyasəti. «Respublika» qəz., 30 mart 2009-cu il
21. Azərbaycan iqtisadiyyatı. (dərslik). Bakı, 1998, 400 s. (Redaktor İ.H Alıyev, S.A. İbadov və X.Ş.Kərimov)
22. Azərbaycan Respublikasının təhsil sahəsində islahatlar proqramı. Bakı, 1999.
23. Göyçaylı Ş, Əliyev H, Allahverdiyev N. Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası (dərslik). Bakı, 2005, 95 s.
24. İqtisadi nəzəriyyə (dərslik). Bakı, 1999, 684 s. (redaktorlar T,S.Vəliyev, Ə.P.Babayev və M.X. Meybullayev).
25. İqtisadi biliklərin əsasları. Bakı,1998.
26. Səfərov S.İ. Müstəqillik və iqtisadiyyat. Bakı, 2001, 328 s.
27. Azərbaycan tarixi (Dərslik) (Y.Yusifov və Z.Bünyadovun redaktəsi ilə). Bakı, 1994, 680 s.
28. Azərbaycan tarixi (dərslik). (S.Əlyarlının redaktəsi ilə). Bakı, 1993, 699 s.
29. Azərbaycan tarixi (orta ixtisas və ümumtəhsil məktəbləri üçün dərsliklər, Y.Mahmudlunun, S.Qəndirovun, T.Vəliyevin, İ.Məmmədovun redaktəsi ilə). Bakı, 2000.
30. Siyasi tarix I – II cild ali məktəblər üçün (dərslik S. Qəndilovun redaktəsi ilə). Bakı, 2000.
31. Mehdiyev R. və b. Dünyanı heyran qoyan insan. Bakı, Azərnəşr, 2004, 376 s.
32. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2008, 84 s.
33. Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklər edilməsi haqqında referendum aktı. Bakı, 2009

34. Rəsulzadə M.Ə. Azəzbaycan Cumhuriyyəti. Bakı, 1990
35. Adıgözəlov Z, Mustafayev İ. Heydər Əliyev və müstəqil Azərbaycan Gəncləri. Bakı, 1998, 240 s.
36. Abbasov A. Əlizadə H. Pedaqogika . Bakı. 2000. 180 s.
37. Lev Qumilyov. Qədim Türklər. Bakı, Gənclik, 1993 , 536 s
38. Musayev M. Mirzəyev M. Türk dünyası. Bakı, Müəllim, 2004, 444 s.
39. İlham Əliyev bu gün və gələcəyin uğur faktoru. Buraxılışına məsul Ağamalıyev F. Bakı, 2001, 552 s.
40. Bünyadov Z.M. Azərbaycan Atabəylər dövləti. Bakı, Elm, 1994, 268 s.
41. Merhrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. B, 2007. 448 s.
42. Əhmədov H.M. Seçilmiş pedaqoji əsərlər. V cilddə. Bakı, ABU, 2001-22005.
43. Əlizadə Ə. Yeni pedaqoji təfəkkür. Bakı, `2001.
44. Vahabzadə B. "Gülüstan" poeması. Bakı, 1963
45. Vahabzadə B. "Şəhidlər" poeması. Bakı, 1990
46. Cənubi Azərbaycan tarixi məsələləri. 2-ci nəşr. Bakı, Elm, 1991, 196 s.
47. Cənubi Azərbaycan tarixinin oçerkləri. Bakı, 1985.
48. Cəbrayılov İ.H. Azərbaycanın dövlətçilik tarixi, onun tədrisi problemləri. Azərbaycan məktəbi jur. 2006. № 3. səh 48.
49. Cəbrayılov İ.H. Azərbaycan tarixi. Bakı: Mütərcim, 2009, 416 s.
50. Cəbrayılov İ.H., Paşayev T.S. Ali məktəbin bakalavr pilləsi üçün Azərbaycan tarixindən və yeni tarixdən proqramlar. Bakı, 2002, 154 s.
51. Qaralov Z.İ. Tərbiyə (üç kitab). Bakı, 2003.
52. Qüdrətov D.H. Türk xalqlarının tarixi. Bakı, 2000, 538.
53. Qasımlı İ., İldırım C. Heydər Əliyevin bioqrafiyası. Bakı, 1998. 160 s.
54. Quluyeva N. Azərbaycanda müasir kənd ailəsi və ailə məsələsi. Bakı, 2005, 346 s.
55. Qasımov M.C. Azərbaycan Respublikası dünya meridianında. Bakı, 1992 , 988 s.
56. Mahmudov. Y. M. Yeni Azərbaycanın qurucusu. (tarix və onun problemləri jur.) 1998, 283 s.
57. Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı, 1996, 289 s.



58. Mərdanov M.S. Quliyev Ə.O. Azərbaycan Respublikasının dövlət rəmzləri. Bakı, Caşıoğlu, 2003.
59. Mərdanov M.C., Şahbazlı F. Azərbaycanın təhsil siyasəti (1998 – 2004) I h. Bakı, 2005, 830 səh.
60. Mərdanov M.C. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı: Çaşıoğlu, 2009. 528 səh.
61. Kərimov Y.Ş. Seçilmiş əsərləri II və III cild. Bakı, 2007, 432, 408 s.
62. Həbibov V. Heydər Əliyev və Azərbaycan diasporu. Bakı, 1999.
63. Kərimov Y. Pedaqoji nəzəriyyə və təcrübənin qarşılıqlı əlaqəsi. Təhsil prob. İns. Elmi əsərləri. 2004. №1, səh 11-29.
64. Həsənov C. Azərbaycan Beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı, 1993.
65. Hüseynova İ. Müstəqilliyimizin təminatçısı. Bakı, Təhsil, 2003, 504 s.
66. UNİSEF və Azərbaycan Təhsil Nazirliyi. Fəal təlim və məktəb rəhbərliyi. Bakı I cild, 2001; II cild, 2002.
67. Fəal təlim metodlarına giri. Kursu. Bakı, 2000, 76 s.
68. Paşayev Ə. Rüstəmov F. Pedaqogika. Bakı, 2002.
69. Namik Kamal. Vətən şərqisi. Ankara, 1992
70. Paşayev T.S. Tarixin tədrisində yeni təlim metodlarından istifadə ( Təhsil, mədəniyyət, incəsənət jur.) 2004. №2, səh 25-28.
71. Paşayev T.S. Tarixin tədrisində şagirdlərin ictimai fəallığının formalaşdırılması. Bakı, ADPU, 1992, 54 s.
72. Paşayev T.S. Tarix – dünyaşünaslıq materialları əsasında gənc nəslin vətənpərvərlik tərbiyəsi. Bakı, 2005, 216 s.
73. Paşayev T.S. Azərbaycan tarix fənninin tədrisində şəxsiyyətin ictimai fəallığı. Bakı, 1996. 22 s.
74. Paşayev T.S. Tarix fənninin tədrisi metodikasının müasir problemləri. Bakı. ADPU, 2005, 74 s.
75. Paşayev T.S. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin siyasi fəaliyyətinin öyrədilməsi. Təhsil Prob. İnstitutunun elmi əsərləri. 2006, №1, səh 137-139.
76. Paşayev T.S. Azərbaycan Tarixi dərslərində Heydər Əliyev irsinin Gənc nəslə öyrədilməsi. Tarixin tədrisi: Tarixilik və müasirlik, Bakı, Nurlan, 2006, 280 s.
77. Piriyev V. Azərbaycanın tarixi coğrafiyası. Bakı, 2002.

78. Tusi N. Əxlaqi nasir. Bakı. 1990. 256 s.
79. Nəcəfli T. Tarixin tədrisində müasir üsullar. Bakı, 2000.
80. İnsan hüquqlarının tədrisi. Bakı, 2003.
81. Təhsil xəbərləri (Təhsil Nazirliyi) 2001 – 2007-ci illər.
82. Rüstəmxanlı S. Ömür kitabı. B., 1989
83. Sadıqov F. Diplomatiya və diplomatik xidmət. Bakı, ADN, 1993, 116 s.
84. Seçkilərdən seçkilərə. Dövlət Statistika Komitəsi. Bakı, 2003.
85. Oldris Ceyms. Diplomat. Bakı, 1981, 580 s.
86. Davistşino N.V, Rey D. İ və b. Demokratiya: dövlət və cəmiyyət (dərs vəsaiti). Bakı, Səda, 1999, 210 s.
87. Vəliyev Teymur – Bazar iqtisadiyyatı: mahiyyəti. Azərbaycan müəllimi. Qəz. 1-7 mart 2001.
88. Ələkbərov U, Muradov A. Davamlı insan inkişafının strateji istiqamətləri. Bakı, 2003.
89. Ələkbərov Urxan – Davamlı insan inkişafı. Ali məktəblər üçün proqram və kursun qısa məzmunu. Bakı, Təhsil, 2006.
90. Hüseynov S. Sosial—iqtisadi inkişaf və davamlı insan inkişafı. Respublika qəz., 6 iyun 2007.
91. İsayev N. Azərbaycan Demokratik Respublikasının sosial-mədəni siyasəti (1918-1920) . Bakı, 1993. 32 s.
92. Həsənov A. Ağayev Ə. "Pedaqogika" B. "Nasir" 2007. 496 s.
93. Quliyeva N.M. Paşayev T.S. Tarixi materiallar şagirdlərin vətənpərvərlik tərbiyəsinin vasitəsi kimi. Bakı, 2006.
94. Ölkənin iqtisadi və sosial inkişafı Dövlət Statistika Komitəsinin məlumatı. «Xalq» qəz., 13 fevral 2009-cu il
95. Davamlı inkişaf yolları. «Respublika» qəz. 30 mart 2009-cu il
96. Müasir vergi xidməti. «Xalq qəzeti», 10 may 2007
97. Heydər Əliyev fondu. «Azərbaycan» qəz., 10 may 2009, İdmana qayğı siyasəti. «Azərbaycan» qəz., 14.05.09 və «Xalq» qəz, 31 iyul 2009.
98. Özəlləşmənin sürətli artımı. «Azərbaycan» qəz., 14 fevral 2008
99. Sahibkarlığın inkişafı. «Respublika» qəz., 10 may 2007
100. Müstəqil Azərbaycan respublikası Heydər Əliyevin əsəridir. «Xalq qəzeti», 10 may 2007
101. Bakı-Tbilisi-Qars dəmir yolu. «Azərbaycan» qəz., 14.02.07



102. Yol mədəniyyəti və Bakı beynəlxalq avtovağzalı. «Xalq» qəz., 13 fevral 2009 və 24 fevral 2009, Tarixi abidələrin qorunması. «Respublika» qəz., 24.04.2009
103. «ELS» müstəqil araşdırmalar mərkəzi 2008-ci il prezident seçkiləri sosioloji təhlil müstəvisində. Bakı, 2009, 100 s.
104. İlham Əliyevin beş illik prezidentlik fəaliyyəti və Azərbaycanda vətəndaş cəmiyyəti. B., 2009, 183 s.
105. İradə Hüseynova. Heydər Əliyev və Qafqazda sülh prosesi. B., 2008
106. Cümhuriyyətin Gəncə liderləri. «Azərbaycan» qəz., 28 may 2008
107. Əliyev İ. Qanlı günlərimiz. B., 1993
108. Məmmədov X. Azərbaycan milli hərəkatı (1875-1918). Bakı, 1996,
109. Əliyev Ə (Elçibəy). Bu mənim həyatımdır. B., 1993
110. Nəzərli Ş. Azərbaycan generalları. B., 2003
111. Təhsil haqqında Qanun. B., 2009
112. Xocalı soyqırımının anım günü. «Azərbaycan» qəz., 26 fevral 2009
113. Hüseyn Baykar. Azərbaycan istiqlal mübarizəsi tarixi. B., Azərö Dövlət Nəşriy., 1992
114. İsmayılov İ. Azərbaycanın XX əsrdə dövlətçilik siyasəti məsələləri. B., 1995
115. İsmayılov İ. Azərbaycanda dövlətçilik fikri oçerkləri. B., 1996
116. «Qanlı yanvar». Bakı, 1991.

# MÜNDƏRİCAT

ÖN SÖZ ........ 3
GİRİŞ ........ 5

I FƏSİL
DİYARŞÜNASLIQ VƏ VƏTƏNPƏRVƏRLİK

1.1. Tarix-diyarşünaslıq işi və öyrənilməsi ........ 8
1.2. Diyarşünaslıq tarixinə bir baxış ........ 11
1.3. Vətənimizin Naxçıvan diyarı ........ 14

II FƏSİL
AZƏRBAYCAN DÖVLƏT MÜSTƏQİLLİYİNİN YARANMASI VƏ MÖHKƏMLƏNMƏSİ ÜÇÜN GÖRÜLƏN İŞLƏR VƏ BUNLARIN DİYARŞÜNASLIQDA NƏZƏRƏ ALINMASI

2.1. Müstəqilliyə gedən yol ........ 20
2.2. Azərbaycanın müstəqilliyinin bərpasına hazırlıq yolları ........ 35
2.3. Azərbaycan dövlət müstəqilliyinin bərpası və möhkəmlənməsində Heydər Əliyevin siyasi-iqtisadi strateji irsinin öyrədilməsi nümunəsində vətənpərvərlik tərbiyəsi ........ 39
2.4. Müstəqilliyin bərpası, dövlətin fəaliyyəti və qarşıya çıxan problemlər ........ 62
2.5. Müstəqillik mücahidləri bizim qürurumuz, and yerimizdir ........ 69

III FƏSİL
MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI VƏ DEMOKRATİK SEÇKİLƏR

3.1. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ........ 74
3.1.2. Azərbaycan Respublikasının Konstitusiyasında dəyişiklərin edilməsi qaydası ........ 75
3.1.3. Referendum Aktı layihəsinin mətninə dair ........ 76



3.2. Demokratik seçki dövlətin əsası kimi ........ 87
3.3. Ailənin sosial rifah halı və gəlirlərin sahəsi ........ 91
3.4. Daxili siyasət ........ 92
3.5. Xarici siyasət ........ 97
3.6. Söz və mətbuat azadlığı ........ 101
3.7. Dağlıq Qarabağ ........ 104
3.8. Neft strategiyası ........ 109
3.9. Parlament və prezident seçkiləri ........ 113
3.10. Seçkilərə ictimai nəzarətin təşkili ........ 116
3.1.1. Milli və dini tolerantlıq ........ 123

IV FƏSİL
AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN MƏNBƏYİ KİMİ

4.1 Azərbaycan Respublikasının dövlət bayrağı ........ 125
4.2. Azərbaycan Respublikasının dövlət gerbi ........ 130
4.3. Azərbaycan Respublikasının Dövlət Himni ........ 131
4.4. Diplomatiya və onun mahiyyəti ........ 132
4.5. Azərbaycanın müstəqillik dövrünün diplomatiyası ........ 142

V FƏSİL
DÖVLƏT MÜSTƏQİLLİK DÖVRÜNÜN İQTİSADİ İNKİŞAF YOLLARI

5.1. Müstəqillik dövrün ilk əvvəllərində Azərbaycanın iqtisadiyyatına bir baxış ........ 145
5.2. Demokratiya şəraitində iqtisadiyyatın yenidən qurulması ........ 150
5.3. İqtisadi inkişafın hüquq bazası ........ 156
5.4. Müstəqil Azərbaycan Respublikasının iqtisadi-sosial həyat və fəaliyyəti ........ 160
5.5. Azərbaycan iqtisadiyyatının inkişafında yeni intibah mərhələsi 168
5.6. Dövlət proqramının uğurlu həlli ........ 169
5.7. Azərbaycanın iqtisadi rayonları intibah dövründə ........ 178
5.8. Müstəqil dövlətin tarazlaşdırılmış siyasətinin nəticələri ........ 180

## VI FƏSİL
## MÜSTƏQİLLİYİN BƏRPASININ ÇAĞDAŞ DÖVRÜNÜN İQTİSADİ VƏ SOSİAL İNKİŞAFI


6.1. Müstəqillik dövrünün sürətli və iqtisadi inkişafı ........ 184
6.2. Sənaye ........ 186
6.3. Mədənçıxarma ........ 188
6.4. Kimya sənayesi ........ 189
6.5. Kənd təsərrüfatı ........ 192
6.6.1. Nəqliyyat ........ 195
6.6.2. Dəmiryol nəqliyyatı ........ 195
6.6.3. Dəniz nəqliyyatında ........ 196
6.6.4. Avtomobil nəqliyyatı ........ 196
6.6.5. Metro nəqliyyatı ........ 197
6.6.6. Hava nəqliyyatı ........ 197
6.6.7. Boru nəqliyyatı ........ 198
6.7. Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi ........ 198
6.7.1. Rabitə ........ 199
6.7.2. İnformasiya və kommunikasiya texnologiyaları ........ 199
6.8. Ticarət və pullu xidmət ........ 200
6.9. Xarici ticarət ........ 202
6.10. Təsərrüfat subyektlərinin xarakteristikası ........ 204
6.11. Özəlləşdirilmə, istehlak qiymətləri və xidmət tarifləri ........ 206
6.12. Əhalinin gəlirləri, əmək haqqı və sosial təminat ........ 206
6.13. Dövlət büdcəsi, kreditlər və əmanətlər ........ 208
6.14. Səhiyyə, ətraf mühit ........ 210
6.15. Təhsil, elm, mədəniyyət ........ 212
6.16. İdman ........ 216
6.17. Əhali ........ 216


## VII FƏSİL
## AZƏRBAYJAN DÖVLƏT MÜSTƏQİLLİYİNİN İNKİŞAFINA DAİR GÖRÜLMÜŞ MÜVƏFFƏQİYYƏTLƏRƏ BİR BAXIŞ


7.1. Azərbaycan təhlükəsizlik orqanlarının fəaliyyəti vətənpərvərlik nümunəsidir ........ 218
7.2. Gömrük işi vətənpərvərlik tərbiyəsinin rəhnidir ........ 219
7.3. Hərbi vətənpərvərlik tərbiyəsi və milli ordu ........ 223





7.3.1. Düvlət sərhəd xidməti ........ 229
7.4. Müstəqil dövlətin vergi sistemi ........ 231
7.5. Müstəqillik şəraitində idmana dövlətin qayğı siyasəti ........ 233
7.6. Heydər Əliyev fondunun fəaliyyəti humanizm və vətənpərvərlik nümunəsidir ........ 243
7.7. Azərbaycan yol mədəniyyətinin inkişafı və Bakı Beynəlxalq avtovağzalı ........ 247
7.7.1. H.Əliyev adına Beynəlxalq hava limanı, Bakı-Quba-Rusiya avtomobil yolu düvlət qayğısının nəticəsi kimi ........ 247
7.7.2. Bakı-Quba-Rusiya düvlət sərhədi avtomobil yolunun 11-ci kilometrində -Xırdalan dairəsində tunel tipli olütğrğcğnğn azılışı ... 248
7.7.3. Şəhərləri-kəndləri birləşdirən yolların son dayanacağı Avtovağzal hesab edilir ........ 250
7.8. Tarix və mədəniyyət abidələrinə qayğı dövlətin diqqəti kimi ........ 252
7.9. Dünya azərbaycanlılarla iş ........ 257
7.10. Dövlət özəlləşməsinin sürətli artımı ........ 268
7.11. Azərbaycanın müstəqil siyasəti - Bakı-Tibilisi-Qars dəmiryol xətti ........ 273
7.12. Yeni idarəetmə iş müstəqilliyinin nəticəsi kimi ........ 276
7.13. Fövqəladə nazirliyin obyektlərinin istifadəsi ........ 278
7.14. Bakı teleqülləsi kompleksinin əsaslı bərpası ........ 280
7.15. Dövlət müstəqilliyi dövründə dinə qayğılı münasibətin təzahürü 282

**NƏTİCƏ** ........ 285

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT** ........ 288

**Talıb Surxay oğlu Paşayev.**
**Diyarşünaslıq materialları gənc nəslin vətənpərvərlik tərbiyəsinin mühüm vasitəsi kimi.** - Bakı: Mütərcim, 2010, 300 səh.

Monoqrafiyada Azərbaycanın dövlət müstəqilliyinin yaranması, bərpası, dövlət atributlarının yaranması möhkəmlənməsi və demokratik seçki sistemi və s sahəsi üzrə görülən işlərdən bəhs edilir. Əsər metodik xarakter daşıyır və burada verilən materiallardan elmi işçi, magistrlər və digər mütəxəssislər də istifadə edə bilərlər.

**Талыб Сурхай оглу Пашаев**
**Материалы краеведения как основное средство в патриотическом воспитании молодого поколения.** – Баку: Мутарджим, 2010, 300 с.

В монографии речь идет о становлении государственности Азербайджана и его атрибутах, восстоновлении, укреплении государства и его делах, связанных с демократической выборной сферой. Данные здесь материалы носят методический характер. Могуть быть использованы научными работниками и другими специалистами.

**Talib Surxay ogly Pashayev**
**Materials on history of country as the main means of young generation in patriotic education.** – Baku: Mutarjim, 2010, 300 p.

Monograph has been prepared as an assistance for teachers and students of higher, special and secondary special schools. Monograph deals with the state of Azerbaijan and its attributes. Materials given in this article have methodical character. It may be used by scientific workers and other specialists.

Çapa imzalanıb: 27.04.10.
Format: 60x84 1/32. Qarnitur: Times.
Həcmi: 18,75 ç.v. Tiraj: 500. Sifariş № 51.
Qiymətı müqavilə ilə.

MÜTƏRCİM

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ

Az 1014, Bakı, Resul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru

Az 2010
1494



**Talıb Surxay oğlu Paşayev**

1976-cı ildən Azərbaycan Respublikası Təhsil Nazirliyi sistemində metodist, baş metodist və şöbə müdiri vəzifələrində çalışmışdır. 1981-ci ildən ADPU-da və digər ali məktəblərdə tarix fənnindən dərs deyir. İşlədiyi müddətdə Azərbaycan Respublikasının "Qabaqcıl maarif əlaçısı" döş nişanı və fəxri fərmanlarla təltif edilmişdir. 1988-ci ildə dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi adını almışdır. 2001-ci ildən Azərbaycan Respublikası Təhsil Nazirliyi Təhsil Problemləri İnstitutunda elmi işçi, böyük elmi işçi və aparıcı elmi işçi vəzifəsində çalışır. 2005-ci ildə dosent vəzifəsinə seçilmişdir.

T.S.Paşayev 70-dən çox elmi-metodik əsər və məqalə müəllifidir. O cümlədən 4 tədris vəsaiti, 3 monoqrafiya, 4 proqram, 23 elmi-metodik vəsait çap etdirmişdir.

T.S.Paşayevin pedaqoji kadrların və gənc alimlərin yetişdirilməsində də bir çox xidmətləri vardır.

Ailəlidir. Ali təhsil almış oğlu, qızı və bir nəvəsi vardır.

843